# AZƏRBAYCAN

**09’2022**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN**
**AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**

**Baş redaktor:** **İntiqam QASIMZADƏ**

**Baş redaktor müavini: Südabə AĞABALAYEVA**

**Məsul katib:** **Vüsal NURU**

**Şöbə müdirləri:** **Məmməd ORUC,**
**Qəşəm NƏCƏFZADƏ,**
**Mübariz CƏFƏRLİ**

**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya –*
498-78-10
493-28-32
493-2834
*Mühasibat –*
493-29-41

**Çapa imzalanıb:**
09.08.2022
**Sifariş 2123**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
12 çap vərəqi
16 şərti çap vərəqi

**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru
**www.azyb.az**

**Qiyməti**
**2 manat**

**Bakı şəhəri, “Azərbaycan” nəşriyyatının mətbəəsində ofset üsulu ilə çap olunur**

**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**
**Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

## BU SAYIMIZDA:

### P O E Z İ Y A

İSA HƏBİBBƏYLİ – Bədii yaradıcılıq–elmi idrakın donoru kimi .........3
Xəmsə – XXI əsr (intellektual poema) ....................................................6
RAFİQ YUSİFOĞLU – Şeirlər ..........................................................124
AY BƏNİZ ƏLİYAR – Şeirlər ............................................................147
MÜXƏMMƏD HAQVERDİ – Şeirlər ................................................154
MƏMMƏD TAHİR – Şeirlər ..............................................................171
HİKMƏT MƏLİKZADƏ– Şeirlər .......................................................176

### Y E N İ   T Ə R C Ü M Ə L Ə R

ROALD DAL – Missis Biksbi və
polkovnikin hədiyyə verdiyi kürk .............................109

### N Ə S R

VÜSAL NURU – İlğımda çimən atlar (roman) ....................................23
GÜNEL NATİQ – Boncuq (hekayə) ...................................................139

### 2 0 2 2 – Ş U Ş A   İ L İ

RAMİZ QUSARÇAYLI – Gün Şuşa günüdü, il Şuşa ili ....................103

### T Ə N Q İ D   V Ə   Ə D Ə B İ Y Y A T Ş Ü N A S L I Q

TƏYYAR SALAMOĞLU – Bir romanın izi ilə (I hissə).....................157
VAQİF YUSİFLİ – “Nizami ruhuna heykəldi Gəncə” ........................179

### Y U M O R   S Ə H İ F Ə S İ

OKTAY ŞAMİL – Gərək ayrı cib tikdirəsən .......................................189

K İ T A B   R Ə F İ .............................. 1 9 1

# BƏDİİ YARADICILIQ – ELMİ İDRAKIN DONORU KİMİ



***"AZƏRBAYCAN" JURNALI REDAKSİYASINA***

**Hörmətli İntiqam müəllim!**

Yarım əsrə yaxındır ki, ədəbiyyatşünaslıq sahəsində elmi fəaliyyətimi davam etdirməkdəyəm. Elmi fəaliyyətlə məşğul olmaq, müstəqil dövlətimizin elm və ədəbiyyat siyasətinin həyata keçirilməsi yollarında məsuliyyətlə çalışıb, üzərimə düşən vəzifəni yerinə yetirməyə çalışmaq ali məqsədimdir. Bununla belə, etiraf etməliyəm ki, dünyanın əksər ədəbiyyatçıları kimi, mənim də taleyimdə elmi axtarışlarla yanaşı, bədii sözün də özünəməxsus rolu olub. Necə deyərlər, məni ədəbiyyat haqqında elm sahəsində çalışmağa gətirən yollar əvvəlcə şeirdən başlanıb. Hələ tələbəlik illərindən həm bədii yaradıcılıqla və həm də elmi axtarışlarla məşğul olmuş, Tələbə elmi cəmiyyətinin sədri kimi fəaliyyət göstərmişəm. Tələbəlik illərində mətbuat səhifələrində və almanaxlarda çoxsaylı şeirlərimi çap etdirmiş, elmi konfranslarda məruzələrlə çıxışlar etmişəm.

Elmi axtarışlarla paralel olaraq şeir yazmağın rəqabətində nəhayət, elm qalib gəlib. Həmin çətin rəqabətdə elmin üstünlük qazanmasında Naxçıvan Dövlət Universitetinin tələbəsi ikən, 12 aprel 1971-ci il tarixdə Bakıdan, Elmlər Akademiyasından gəlib, tələbələrlə görüşdə dərin məzmunlu məruzə ilə çıxış edən akademik Məmməd Cəfər Cəfərovun ciddi təsirini qeyd etməyi özümə borc bilirəm. Məmməd Cəfər müəllimin zahirən heç də dəbdəbəli, cəlbedici olmayan, lakin analitik təhlillərdən ibarət intellektual çıxışı məndə elm sahəsinə qarşısıalınmaz bir maraq oyatdı. Beləliklə, Məmməd Cəfər müəllim kimi elm adamı olmaq həvəsim şeir yazmaq vərdişimə qalib gələ bildi. Bu qeyri-adi həvəs məni 1974-cü ildə Nizami Gəncəvi adına Ədəbiyyat

İnstitutunun aspiranturasına gətirdi. Tale mənə ustad ədəbiyyatşünas, akademik Məmməd Cəfər Cəfərovun rəhbərlik etdiyi «Ədəbiyyat nəzəriyyəsi» şöbəsində «XX əsrin əvvəlləri Azərbaycan romantik lirikasının sənətkarlıq xüsusiyyətləri» mövzusunda namizədlik dissertasiyası üzərində elmi axtarışlarla məşğul olmağı qismət etdi. İndi məndə az qala müstəqil bir institut səviyyəsində təəssürat yaradan «Ədəbiyyat nəzəriyyəsi» şöbəsində görkəmli xalq yazıçısı, tənqidçi Elçin, mütəfəkkir ədəbiyyatşünas Yaşar Qarayev, tanınmış nəzəriyyəçi alim Arif Hacıyev, elmdə gənclik illərinin qaynar dövrlərini yaşayan Şamil Salmanov, Akif Hüseynov, Arif Səfiyevlə... yaxından tanış olmağım, Məmməd Cəfər müəllimlə uzun müddət dostluq etmiş görkəmli ədəbiyyat tarixçisi Əziz Mirəhmədovun bu şöbə ilə əlaqədar gəliş-gedişi zamanı yaranan sıx ünsiyyət məni birdəfəlik ədəbiyyatşünaslıq aləminə bağladı. Dissertasiya mövzumun ədəbiyyat nəzəriyyəsi ilə yanaşı, həm də XX əsrin əvvəllərində yaranmış romantik poeziya ilə bağlı olması səbəbindən professor Kamran Məmmədovun rəhbərliyi ilə həmin dövrün ədəbiyyatını tədqiq edən alimlərin arxivlərdə yorulmadan, böyük həvəslə çalışmalarını müşahidə etməyim ədəbiyyatşünaslıq elminin romantikasını dərindən hiss etməyimdə mühüm rol oynadı. Bundan başqa, Naxçıvan Dövlət Universitetində bizə elmi və ədəbiyyatı sevdirmiş unudulmaz müəllimlərim professor Yavuz Axundlunun və dosent İzzət Maqsudovun məni şair kimi yox, elm adamı kimi görmək niyyətləri, ədəbiyyatşünaslıq istiqamətinə yönləndirmək səyləri də şeir yazmaqla ədəbiyyatşünaslıq üzrə elmi axtarışlarla məşğul olmaq arasındakı rəqabətdə elmi fəaliyyətin qələbəsini təmin edən mühüm faktorlardan biri olmuşdu...

Beləliklə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda «XX əsrin əvvəlləri Azərbaycan romantik lirikasının sənətkarlıq xüsusiyyətləri» mövzusunda namizədlik (1980) və «Cəlil Məmmədquluzadə: mühiti və müasirləri» mövzusunda doktorluq (1996) dissertasiyası müdafiə etməklə ədəbiyyatşünaslıq sahəsində qərarlaşdım. Sonrakı dövrlərdə də ədəbiyyatşünaslıq sahəsində fəaliyyətimi dərin həvəslə və yorulmadan, məsuliyyətlə davam etdirməkdəyəm. Bu, indi də belədir, sabah da həmin şəkildə olacaqdır.

Bütün bunlarla bərabər, demək olar ki, bütün dövrlərdə arxa planda bədii yaradıcılıqla da məşğul olmuşam. Bu, qətiyyən həm də şair olmaq niyyəti ilə bağlı deyildir. Əksinə, elmi əsərlərdə ifadə edilməsi çətin olan həyat və ədəbiyyat hadisələrinə yanaşmaları bədii-emosional və intellektual-obrazlı şəkildə şeirlə mənalandırmağa dərin bir ehtiyac duymuşam. Beləliklə, yalnız özüm üçün, necə deyərlər, sandıq ədəbiyyatı kimi çoxsaylı şeirlər yazmalı olmuşam. Şairlik iddiasından çox uzaq olan bu yaradıcılıq məşğuliyyəti ədəbiyyatşünaslıq sahəsindəki araşdırmalarda yazıçıların daxili dünyasını, bədii əsərlərin mahiyyətini daha aydın surətdə, dərindən görüb-

göstərməkdə böyük bələdçim olmuşdur. Zərurət duyduğum hallarda bədii yaradıcılığa müraciət etmək mənim üçün mənəvi dünyama böyük rahatlıq gətirən, həyat və ədəbiyyat haqqındakı fikirlərimi fərqli bir formatda ifadə etməyə meydan açan davamlı əlavə məşğuliyyətdir. Son onillikdə ardıcıl olaraq məşğul olduğum «Fizika və lirika» araşdırmaları da dünya ədəbi təcrübəsi və ölkə reallıqları əsasında ədəbi yaradıcılıqla elmi fəaliyyətin qarşılıqlı əlaqəsi və faydasını daha əsaslı şəkildə təsəvvür etməyimə şərait yaratmışdır.

Bədii yaradıcılıq sahəsindəki məşqlərimdən biri də «Nizami Gəncəvi İli» ilə əlaqədardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci ili «Nizami Gəncəvi İli» elan etməsi ölkəmizdə, o cümlədən Milli Elmlər Akademiyasında elm adamlarını dahi Azərbaycan şairinin həyatı və yaradıcılığını müstəqillik və azərbaycançılıq idealları işığında yenidən tədqiq etməyə istiqamətləndirmişdir. Milli Elmlər Akademiyasının Humanitar və İctimai Elmlər Bölməsinin əməkdaşları «Nizami Gəncəvi İli»ndə Nizamişünaslıq sahəsində rekord göstəriciyə nail olmuşlar. Alimlərimiz dünyanın 21 ölkəsində 14 dildə Nizami Gəncəvi haqqında kitablar və məqalələr çap etdirmişlər. Ölkəmizin müxtəlif nəşriyyatları Akademiya əməkdaşlarının 45 adda monoqrafik tədqiqatlarını çapdan buraxmışdır.

«Nizami Gəncəvi İli»ndə aparılan müzakirələr, keçirilmiş elmi konfranslar, meydana çıxan nəşrlər, dünya alimləri ilə baş tutan görüşlər elmi mühitimiz üçün son dərəcə əhəmiyyətli olmuşdur. Fikrimcə, Azərbaycan Nizamişünaslığının bir çox əhəmiyyətli elmi əsərləri məhz «Nizami Gəncəvi İli»ndə meydana çıxmışdır. AMEA-nın müxbir üzvü Nüşabə Araslının rəhbərlik etdiyi Ədəbiyyat İnstitutunun «Nizamişünaslıq» şöbəsinin bazasında hazırlanıb nəşr edilmiş «Nizami Gəncəvi. Həyatı və yaradıcılığı» adlı 986 səhifədən ibarət olan monoqrafiya fundamental elmi tədqiqat əsəridir.

Etiraf edirəm ki, «Nizami Gəncəvi İli»ndə Nizami kimi dahi şəxsiyyətə və qüdrətli sənətkara layiq olduğu, haqq etdiyi yüksək qiyməti verməkdə elmi idrakla yanaşı, bədii-obrazlı dəyərləndirmələrə də ehtiyac olduğunu dərindən hiss etdim. Düşündüm ki, intellektual bədii yanaşma, ümumiyyətlə, elm, o cümlədən də Nizamişünaslıq elmi istiqaməti üçün zəruri və faydalı donor funksiyasını yerinə yetirə bilər. Elmi idrakla bədii düşüncənin vəhdəti Nizami Gəncəvi kimi nəhəng sənətkarı daha geniş masştabda, poetik vüsətlə və dərin elmi mahiyyəti ilə birlikdə təqdim etməyə şərait yaradır. «Nizami Gəncəvi İli»ndə bu sahədə məşq kimi özüm üçün şeirlər yazarkən bunun reallıq olduğunu əyani şəkildə görə bildim. Beləliklə, fərqinə varmadan «Nizami Gəncəvi İli»ndə dahi sənətkar haqqında apardığım elmi axtarışlarla bərabər, bir silsilə şeirlər də meydana çıxdı. Bu günlərdə pərakəndə şəkildə meydana çıxmış həmin poetik məşqləri bir yerə

topladıqda, sistemli bir şeirlər silsiləsinin formalaşdığını gördüm. Elmi və bədii yanaşmaların sintezindən yoğrulmuş «Xəmsə – XXI əsr» adlandırdığımız şeirlər silsiləsi Nizami Gəncəvinin şəxsiyyətinə və sənətinə fərqli baxışı ifadə etməyə hesablanmışdır. Bu, bir elm adamının Nizami Gəncəvi haqqındakı baxışlarının bədii-obrazlı, qafiyələndirilmiş poetik ifadəsidir. Yaxud da buna akademizmin bədii-poetik ifadəsi kimi də baxmaq olar. Və ya bu, XXI əsrin mənzum xəmsəşünaslıq elmidir. Xeyli tərəddüddən sonra oxucular üçün də maraqlı olacağını düşünərək, böyük Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuş «Xəmsə – XXI əsr» şeirlər silsiləsindən ibarət olan poemanı bir qədər də üzərində çalışıb təkmilləşdirərək, «Azərbaycan» jurnalına təqdim etməyə risk etdim. Çox ümid edirəm ki, oxucularımız və ədəbi ictimaiyyət də təqdim olunan poetik nümunəni şairliyə meyil kimi yox, ədəbiyyatşünaslıq sahəsində uzun bir yol keçmiş elm adamının bir qədər fərqli şəkildə ifadə olunmuş baxışları və düşüncələri kimi qəbul edəcəkdir.

***İsa HƏBİBBƏYLİ***
***akademik***
*21 iyun 2022-ci il*

# XƏMSƏ – XXI ƏSR

***(İthaflar, iqtibas və poetik dəyərləndirmələr)***

**İntellektual poema**

**Nizami Gəncəviyə fəxriyyə**

Ədəbiyyatın yorulmaz Fərhadı,
Böyük sənətin Sindibadı,
Şərq şeirinin ulu öndəri,
Azərbaycan ədəbiyyatının
Makedoniyalı İskəndəri.
“Xəmsə” yaradan Şair,
Baxsan haradan – Şair!
Ədəbiyyatın
Yeddi möcüzəsindən biri,
Hər zaman yaşarı, diri,
Mənzum epik ədəbiyyatın ustadı,

Dünya ədəbiyyatına yazılmış adı.
“Xəmsə” xəzinəsinin Bəhram Guru,
Azərbaycan ədəbiyyatının milli qüruru.
Doğum yeri –
Azərbaycanın Gəncə şəhəri.
Vətəni: şeir-sənət səngəri.
Sirlər xəzinəsinin Sultan Səncəri!
Adı: İlyas Yusif oğlu Nizami Gəncəvi!
Ünvanı: Əbədi!

***16 fevral 2021-ci il,***
***Bakı***

## “Xəmsə”yə minacat

Dünya ədəbiyyatının
Birinci beşliyi,
Böyük sənətin qoşa şeşliyi.
Azərbaycan ədəbiyyatının
Sirlər xəzinəsi,
Müdriklik, hikmət və sənət dəfinəsi.
Xosrov və Şirinin sevərək yaşamaq həvəsi,
Sənət dünyasının söz yüklü dəvəsi.
“Leyli və Məcnun” –
Əsl məhəbbətin Azərbaycan hekayəsi,
Sədaqətin Məcnunvari ayəsi.
“Yeddi gözəl” –
Dünya ədəbiyyatının yeddinci möcüzəsi,
Xeyir və Şər abidəsi.
“İskəndərnamə” –
Çoxəsrlik ədalətli hökmdar layihəsi,
İdeal cəmiyyət nəğməsi.
“Xəmsə” –
Dünya ədəbiyyatının şedevrlərindən biri,
Böyük sənətin sirri.
“Xəmsə” –
Azərbaycan ədəbiyyatının
Dünyaya uzanan əli,

Əbədiyaşar sənət məşəli,
Nizami Gəncəvinin ölməzlik heykəli!

***17 yanvar 2021-ci il,***
***Bakı***

## "Sirlər xəzinəsi"nə qəsidə

Dərindən düşünəndə, ağılla baxan zaman,
Həyatın hər bir anı könlün dəfinəsidir.

Hikmətdir başdan-başa, əgər fərqində olsan,
İdrakın hər bir üzü ağlın səhifəsidir.

Nadanlar bu həyata gətirər acı, yaman,
Müdrik insanlar tamam sirlər xəzinəsidir.

"Xəmsə" ünvanı ilə şeirimizdə ad alan,
Nizami Gəncəvinin insanlıq nəğməsidir.

Dövranı deşib gələn, əsrlərdir ucalan
"Sirlər xəzinəsi" də Nizaminin səsidir.

Kərpickəsən kişilər oldu şeirdə qalan,
Şahnamələr dövrünün tam yeni nəfəsidir.

"Sirlər xəzinəsi" – sənətə qapı olan –
Nizami Gəncəvinin yola çıxmaq bəhsidir.

"Xəmsə" yaratmaq eşqi ürəyində çağlayan,
Yeni çağın da sözü, fikri və həvəsidir.

***10 dekabr 2021-ci il,***
***Bakı***

## Sirlər xəzinələri

XX əsrdə NATO,
XXI əsrdə Vatikan.

Süni yaradılmış yeraltı təkan.
Asiyada Çin səddi,
İnsan zəkasının son həddi.
Hindistanda Tacmahal.
Kəşmirdə şal.
Avropada Saqrada de Famil
Əsil intellekt yaradan amil.
Nuh peyğəmbərin gəmisi,
Əfqanıstanda xaş-xaş zəmisi.
“Sirlər xəzinəsi” –
Nizami Gəncəvinin mənzum hekayətlər sülaləsi,
Möhtəşəm sənət xülasəsi.
Ədəbiyyatın əbədiyyət anı,
“Xəmsə”nin proqramı.

***21 mart 2021-ci il,***
***Şüvəlan***

## Xosrov və Şirin balladası

Təkəbbürlü hökmdarın
İnsanlığa doğru dönüşü,
Taxt-tacdan
Sevgi məqamına enişi,
Sevgi yolunun yoxuşu-enişi,
Sevgi – qəlbin günəşi!
Şirin – cəzbin günəşi!
Hökmdarı dəyişən qadın,
Sevgi tarixinə yazıbdı adın.
Xosrov – sevgiyə taxtdan baxan,
Şirin – sevgidən taxta qalxan,
Xosrov – enə bilərək ucalan,
Şirin – harda olsa da
Sevgisinə sadiq qalan.
Fərhad – sevgi üçün dağlar çapan,
Eşq dağının zirvəsinə çatan,
Taxtdan ucada qərar tutan,
Lakin sevgi dəryasında batan

Ulduz!
Əqidə bir, yol düz.
Eşqi yolunda mücahid,
Bisütun ucalığında şəhid!
Eşq yolunun Bisütunu,
Sədaqətli olmağın sütunu.
Məhin Banu – xaraktercə çətin,
Hakimiyyətdə mətin.
Xosrov və Şirin – nümunəsi əbədiyyətin,
Daim kamilləşmə uğrunda yollarda.
"Xosrov və Şirin" –
Kamillik haqqında ballada.

***14 dekabr 2021-ci il,***
***Bakı***

## Elm haqqında bir neçə söz

### Eşqdən – elmə

***(Nizaminin "Xosrov və Şirin"***
***poemasındakı "Eşq haqqında bir neçə söz"***
***məsnəvisinə iqtibas)***

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin?
Nizami Gəncəvi

Elmdən başqa söz könlümə yaddır,
Ömrümün quşuna bilik qanaddır.
Elmdir mehrabı uca göylərin,
Elmsiz, ey dünya, nədir dəyərin?
Elmin qulu ol ki, doğru yol budur,
Ariflər yolunda, bil, elm uludur,
Bu dünya elmdir, öyrən, doyunca,
Elmdən başqa şey boş bir oyuncaq.
Elmsiz olsaydı xilqətin canı,
Dirilik sarmışdı böyük cahanı.
Elmsiz bir adam bir neydir – qırıq,

Yüz canı olsa da ölübdür artıq.
Elmsiz bu dünya soyuq məzardır,
Ancaq elm evində rahatlıq vardır.
Elmin yanğısından gözəl şey nə var?
Elmsiz nə gül gülər, nə bulud ağlar.
Elm hiylə bilməz, lazımdır yazaq,
Elm sevdasından buraxmaq uzaq.
Köpək kimi yemək, içmək nədir, nə?
Bir pislik olsa da, can ver elminə.
Elm düşsə daşın da qəlbinə əgər,
Gövhərdən özünə məşuq düzəldər.
Maqnit olmasaydı elmin əsiri
Çəkməzdi özünə dəmir zənciri.
Kəhrəbanın elmə düşməsə canı,
Cəzb edə bilməzdi quru samanı.
Dünyada gövhər var, daş var nə qədər –
Elmsiz nə saman, nə dəniz çəkər.
Bu saysız-hesabsız maddələr yenə,
Elmlə meyl edir mərkəzlərinə.
Od kiçik bir dəlik tapmasa, hökmən
Elmlə çıxar çölə yerin təkindən.
Baxma ki, bu ürək can sultanıdır,
Elmə könül ver ki, canlar canıdır.
Kainatda hər şey elmə bağlıdır,
Filosoflar onu eşq adlandırır.
İdrakı dinləsək, söyləyər o da:
Hər şey elm üstündə durur dünyada.
Göylər yaransaydı elmdən azad,
Düşün, olardımı yer üzü abad?
Elmsiz təndə can görmədiyimdən
Ürəyimi satıb elm almışam mən.
Elmlə dünyaya saldım dumanlar,
Eşqin sözlərini etmişəm xumar.
Elmdir bəzəyən yerdə hər yanı,
Doldurdum səsiylə elmin dünyanı.
Ondan uzaq gəzən hər cahil insan,
Elm ilə olacaq oxuyub-yazan.

Elm qaranlıqda işıqdır, işıq,
Dünyada hər şeyə elmlə çatmışıq.
Ey Nizami, elmdir bu matahımız,
Elmlə açılsın qoy sabahımız!

Həbibbəyli, elmdir dünyada işıq,
Qaranlıqdan yalnız elmlə çıxmışıq.
Elm ki, əbədi Prometeydir,
Aqillər üçün elm susmayan neydir.
Elm haqda danışmaq düşüb əlimə,
Yaşasın alimlər, eşq olsun elmə!

***29 iyun 2019-cu il,***
***Şüvəlan***

## Fərhad arxı

Arpaçay-Sədərək arasında arx,
Çayların sırasında arx!
Şərur düzündə Nizami adı,
Şirinin bu diyardakı Fərhadı.
Kiçik Qafqazın Bisütunu,
Fərhadın yardığı yer sütunu.
Böyük eşqin şərəfinə abidə,
Torpaq kimi, su qədər əqidə.
Arx – Fərhad, Su – Şirin,
Qucaqlayıblar bir-birin
Fərhadın ölməz sənəti,
Şirinin əbədi məhəbbəti.
Torpağa can verir Fərhad arxı,
Arxda dövran edir dünyanın çarxı.
Arxdan su,
Sudan da torpaq güc alır.
Hər gələn dövranla Fərhad ucalır.
Nizami sənəti təzə iz çalır.

***18 aprel 2021-ci il,***
***Naxçıvan-Biçənək***

## Leyli və Məcnuna elegiya

“Leyli və Məcnun” –
Məhəbbət haqqında poetik Qanun!
Leylinin vəfası,
Məcnunun cəzası,
Nakam eşqin elegiyası.
Leyli – bənövşə kimi,
Məcnun – eşqin hakimi.
Qürur dolu göz yaşları,
Heykələ dönmüş baş daşları.
Ölməzlikdir, qəti!
Sədaqətin əbədiyyəti,
Məhəbbətin əbədiyyəti.

***11 sentyabr 2021-ci il,***
***Bakı***

## Məcnunluq yolu

Dədə Qorqud – dünyada ün,
Xaqani – vətəndaş oğlun,
Babək – baxışları dolğun,
Koroğlu – saza cünun.
Mirzə Fətəli Axundzadə –
Təzə yol, yeni məzmun.
Səməd də xalqa Vurğun.
Füzuli özü Məcnun:
“Məcnun sürdü növbətin,
İndi mənəm rüsvayi-eşq,
Doğru derlər ki, hər zaman
Bir aşiqin dövranıdır”.
Nizami Leyli Məcnunu
Eşqin əslidir, inan.
Qalanları böhranıdır.
“Ənəlhəq” eşqilə yanan
İmadəddin Nəsimisə
“Sığmazam” – qiyamıdır!

Molla Pənah qaş-kaman
Və gözəllik heyranıdır.
Mirzə Ələkbər Sabirimiz
“Düzü-düz, əyrini-əyri” yazan,
“Çalxalandıqca, bulandıqca zaman”
Qarışıq bir dövrün turş ayranıdır.
Hüseyn Cavid –
Azərbaycan şeirinin Xəyyamıdır,
Ədəbiyyatda
Romantizm cərəyanıdır.
Mirzə Cəlil – “Molla Nəsrəddin” –
Azadlıq əyyamıdır.
Üzeyir bəy Hacıbəyli –
Fərqli bir “Leyli və Məcnun” seyranıdır.
Rəsul Rza – sərbəst şeirə
Azərbaycanın ehtiramıdır.
Bəxtiyar Vahabzadə –
Məcnun Füzuliyə
Yenidən qayıdış anıdır,
Səttar Bəhlulzadə –
Məcnun obrazının şamıdır.
Məcnunluq yoludur dünya –
Nizami Gəncəvinin bayramıdır!

***7 mart 2022-ci il,***
***Bakı***

## “Yeddi gözəl”ə oda

“Yeddi gözəl” –
Qövsi-qüzeh, –
Yeddi gözəllərin əzəli,
Ərəbistan gözəlinin qəzəli.
Slavyan qızı –
Yeddi gözəlin qızıl gülü,
“İxtilatı şirin, sözü məzəli”.
Hindistan banusunun şirin dili,
“Şəkər gülüşündən canlar təzəli”.

Xarəzm gözəli, vətəni Rum eli,
“Ellər yaraşığı, ölkə gözəli”.
Çin qızının xeyrə açılan əli.
Fitnə –
Azərbaycanda qadın müdrikliyinin heykəli.
Bəhram Gur –
Yeddi gözəlin yenilməz əri.
Əsl kişilik nümunələri.
Yeddi günbəz –
Rəsul Rzanın “Rəngləri”.
Nizami Gəncəvinin “Yeddi gözəl”i:
“Yeddi gözəl”lərin ən gözəli,
Yeddi gözəllik üvertürası,
Dünya ədəbiyyatının mirası.
Bəşəriyyətin bu günü, sabahı
Və sonrası...

***27 mart 2021-ci il,***
***Qalaaltı***

## “Yeddi gözəl”in hekayəti

Nizami “Bəhramnamə”sində
Əlvan gül, bəmbəyaz süddü gözəl,
Qövsi-qüzeh kimi bütdü gözəl.
Slavyan qızının qəddi gözəl,
Xarəzm gözəlinin rəddi gözəl,
Çin qızı misli yox, səddi – gözəl.
Hind qızı Firək: ay kimi həddi – gözəl,
İran qızı – yeri “tavus” kimi etdi gözəl,
“Şanslı qeysər qızı” ilə getdi gözəl.
Məğrub qızı – ideal bir həddə yetdi gözəl.
Ağıllı Fitnə ilə bitdi gözəl.
Demə ki, həyatda itdi gözəl,
Hər dəfə yeni gözəllik erası –
Nizami Gəncəvi: əbədi “Yeddi gözəl”.

***11 aprel 2021-ci il,***
***Bakı***

## Bəhram Gur Azərbaycanda

Əlində qılıncı,
Parçalayır əjdahanı,
Xilas edir cahanı,
Tanıdır Azərbaycanı...
Bakıda Bəhram Gurun heykəli, –
Nizami Gəncəvi ədalətinin
Memarlıqla ifadə olunan dili,
Şərə qalib gəlmək amili.
Yerin təkinə axıdılan zəhər seli,
Cəsarətin dəmir əli.
Arxasında ölkəsi, eli.
Azərbaycanda
"Nizami Gəncəvi İli"!

***29 dekabr 2021-ci il,***
***Yessentuki***

## "İskəndərnamə"yə mədhiyyə

Nizami Gəncəvinin
Ədalətli hökmdar haqqında
əbədiyyət fərmanı.
Əbədi həyat –
Dirilik suyu dərmanı.
"Şərəfnamə" – şəxsiyyətin miqyası,
Makedoniyalı İskəndərin cəng dünyası.
"İqbalnamə" – Aristotelin poetik fəlsəfəsi,
Müdrikliyin mənzum nəfəsi.
"İskəndərnamə" –
İnsanlığın ideal axtarışı,
Ağılla qılıncın yarışı.
Dünya işlərinin dəyirman pəri,
Makedoniyalı İskəndərin tarixi hünəri.
Azərbaycan hökmdarı Nüşabənin ağlı,
Nizami Gəncəvinin yaxşı padşah nağılı.
Müharibəyə ədəbiyyatda deyilmiş əlvida,

Ağıl, ədalət və elm haqqında
Möhtəşəm oda.

*15 iyun 2022-ci il,*
*Bakı*

## Nüşabənamə

Dövlətçiliyin
Qadın nümayəndəsi;
Azərbaycanın hökmdar bəndəsi.
Makedoniyalı İskəndərin
Tərəf-müqabili.
İskəndərlə dialoqun qalibi.

*11 dekabr 2021-ci il,*
*Bakı*

## "Xəmsə"dən-Xəmsələrə

Nizami Gəncəvi –
Böyük ədəbiyyatın şiri,
"Xəmsə" şeiri –
Dahiliyin sirri,
Əbədi diri.
Əbədiyyətin yeri!
Əmir Xosrov Dəhləvi –
Hindistanın "Xəmsə" evi.
Əbdürrəhman Cami –
"Xəmsə"yə böyük hami.
Əlişir Nəvai –
Türkcə "Xəmsə" yazan yoxdur
Ondan savayı.
Hüseyn Bayqara –
Siyasətdə böyük sənətin dəyəri,
Əlişir Nəvainin Atabəyləri.
Kişvərinin qurtaran işgəncələri.
Əlişir Nəvai –
Cağatay dilinin

“Xəmsə” layı.
Nizami Gəncəvini ustad sayan,
“Xənsə” dünyasında iz qoyan,
Fərqli bir ustad,
“Xəmsə”namələrdə yeni ad!
Elmdə Nəsirəddin Tusi,
Özbək ədəbiyyatının Nizami Gəncəvisi.
“Fərhad və Şirin” –
Nizami Gəncəvinin
Səməd Vurğun davamı.
“Yeddi gözəl” baleti –
İldırımlı yollarda çarpışan
Qara Qarayevin
Nizamiyə sonsuz ehtiramı.
“Xəmsə – XXI” əsr –
Nizami Gəncəvinin xatirəsinə
Yeni tarixi epoxanın
Yanar şamı.
Nizami Gəncəvi –
Əbədi işıq ili dünyanın!

***13 dekabr 2021-ci il,***
***Bakı***

## Baş “Xəmsə” və daş Xəmsə

“Sirlər xəzinəsi”nin sirri,
“Xosrov və Şirin”də eşqin yeri,
“Leyli və Məcnun”un yanıqlı şeiri,
“Yeddi gözəl”liyin cövhəri,
Nizami Gəncəvinin İskəndəri,
Baş “Xəmsə”!

Əcəmi Naxçıvaninin sənətdə naxışı,
Marağada şəbəkənin yenidən doğuşu,
Tacmahalda Əcəmi baxşışı,
Naxışın memarlıq dilində oxuşu,
Daş “Xəmsə”!

Mömінə Xatun məqbərəsi –
Əcəminin daş heykəli,
Böyük sənətin gəlhagəli,
Memarlığın şah əsəridir, – bəli.

Əcəmi Naxçıvani –
Şəbəkədən yaratmış daş Divanı,
Tişə ilə cızılmış
"Quran" kəlamı.
Əcəmi –
Kaşı naxışların
Əbədiyyət səsi,
Memarlıq sənətinin Nizamisi!
"Xəmsə" –
Nizami Gəncəvinin
Əbədi danışan dili.
Dünya ədəbiyyatının ləli.
Zirvədə dağ kəli,
Əbədiyyət məşəli.

*27 dekabr 2021-ci il,*
*Yessentuki*

## Nizami Gəncəvinin obrazları XXI əsrdə

Fitnə – Şərin tam tərsi,
Yaxud əlverişli biznes mütəxəssisi.
Şirin – Şəkər zavodu,
Keyfiyyət məsələsində dedi-qodu.
Nüşabə – Koka-Kola,
Yer kürəsi üzrə çıxıb yola.
İskəndər – Rusiyada raket,
Ədalətli hökmdara möhtəşəm maket.
Simnar – Baksel,
Rəqabətədavamlı Haqsel.
Xeyir – Aksioner Cəmiyyəti,
Ağsaqqallar şurası,

Nizami Gəncəvinin antişər aurası.
Sultan Səncər – Özəl şirkət adı,
Yeni reklamçılığın Sindibadı.
Kərpickəsən – Qırmızı kitaba düşmüş peşə,
Kərpic kimi bişmiş peşə,
Yenidən düşüb işə.
Fərhad: Naxçıvanda – Şərurda arx,
Düzlərə həyat gətirən çarx.
Batabatda mağara.
Keçmişə baxmaq istəsən,
Çıx dağlara.
Yeddi gözəl – Gözəllik yarışması,
Dünya gözəllərinin bir-birinə qarışması.
Leyli – Qız məktəbi,
Əsl məhəbbət simvolu – əbədi.
Məcnun – Salxım söyüd,
Məhəbbət haqqında əbədi öyüd.
Əfrasiyab: Daşkənd-Səmərqənd sürət qatarı
Nizami Gəncəvi və Əlişir Nəvai ideallarını
Gələcək əsrlərə aparır.
Nizami Gəncəvi – Bakıda metro stansiyası,
Gəncədə şəhər adı,
Bakıda ucalan heykəl,
Romaya daşınan daş əl.
Rusiyada tamaşasına gəl.
Dünyanı dolaşan "Xəmsə" heyəti,
Sənət dünyasının əbədiyyəti.

***21 mart 2022,***
***Bakı-Ankara reysi***

## Nizami Gəncəvi İli

Azərbaycanın möhtəşəm şeir-sənət hesabatı,
Dahiliyin danılmaz isbatı.
Nizami Gəncəvinin XXI əsrdəki həyatı.
Müstəqil dövlətçiliyin
Nizami Gəncəvini
Yenidən dünyaya tanıtmaq bəyanatı.

Ədalət və insanlıq ideallarını
Qüvvətləndirmək istedadı.
Azərbaycanda yeni Nizamilər yetirmək andı.

***22 dekabr 2021-ci il,***
***Bakı***

## Bakıda Nizami metrosu

Yeraltı dünyada
Mozaika ilə yaradılmış "Xəmsə",
Yerin təkində dönüb Şəmsə.
Təzə Leyli və Məcnunların görüş yeri,
Nizami Gəncəvi sənətinə
Yeraltı aləmdə dönüş yeri
"Xəmsə" ölməzliyinin fərqli bir qatı,
Nizami Gəncəvinin o biri həyatı.
Divarlardakı mozaik şəkillər
O vaxt kimi.
Perronlar, gediş-gəliş,
Danışan dillər, əllərdə güllər
Müasir həyat kimi.
Qatarlar qovuşdurur zamanları
Oyadır, yaşadır insanları.
Nağıllardakı ağ at kimi.
Vaqonlar, səfərlər –
İskəndərin
Yeraltı dünya səyahəti.
Sərnişinlər –
"Xəmsə" obrazları heyəti...
Bakıda Nizami metrosu –
Fərhadın Yeri də yarmaq cürəti,
Nizami Gəncəvinin
Yeraltı dünyanı da
Fəth etmək qüdrəti,
Nizami sözünün ildırım sürəti...

***5 yanvar 2022-ci il,***
***Bakı***

## Davam edir Nizami

Nizami Gəncəvidir
“Xəmsə”lərdən də uca.
Nizaminin ardınca
“Xəmsə”lər yaradanlar,
Tarixə iz salıb onlar.
Əmir Xosrov Dəhləvi –
Hindistanın “Xəmsə” evi.
Əbdürrəhman Cami –
“Xəmsə”yə böyük hami.
Əlişir Nəvai –
Türk dilində “Xəmsə” ehtişamı.
“Fərhad və Şirin” –
Səməd Vurğunun
Nizami Gəncəvi gülüstanı.
“Yeddi gözəl” baleti –
İldırımlı yollarda çarpışan
Qara Qarayevin
Nizamiyə sonsuz ehtiramı.
Bəhram şaha və Fitnəyə
Musiqi ehramı.
“Xəmsə – XXI əsr” –
Nizami Gəncəvi sənətinə
Müasir dövrün
İntellektual baxış ünvanı.
Nizami Gəncəvi –
Sönməz işıq seli dastanı.
Ölməz idealları yaşadır
Bu qüdrətli insanı.
Böyük gələcəyə doğru
Ədəbi yol gedir Nizami.
Hər yeni əsrlə,
Hər gələn nəsillə
Yenidən davam edir NİZAMİ!...

*23 dekabr 2021-ci il,*
*Bakı.*

*Vüsal NURU*

# İlğımda çimən atlar



♦ *Roman*

*Hər kəsin azadlığı*
*onun cəsarəti qədərdir*
***Müəllif***

Gəmi limana yan almışdı. Başlarında qara kaska, əyinlərində zirehli uniforma olan iri cüssəli əsgərlər sərnişinləri limana ötürürdülər. Deyəsən heç kimin ağlına gəlməmişdi ki, sahildə onları əsgərlər qarşılayacaq. Özü də belə əsgərlər; bunların boyuna, eninə baxanda, deyirsən yox ey, belə adamlar Yerdən çıxa bilməzlər, hansısa planetdən muzdlulardır. Əsgərlərin cınqırığı da çıxmırdı, yol müfəttişləri kimi işarələr verirdilər: "burdan düş", "burda dayan", "get"... Deyinirdilər ki, niyə onları seçib, Miroqrada dəvət edən Beynəlxalq Ağrı Mərkəzinin səliqəli geyimli, gülər üzlü personalı yox, bu qaramat əsgərləri qarşılayır?

Limandan şəhərə təxminən dörd metr enində asfalt dəhliz uzanırdı, onun da ortasına dəmir yolu kimi paralel sarı xətt çəkilmişdi. İşarələrə görə hamı bu sarı xəttin içində cərgələnirdi. On nəfərlik qrup hazır olanda başda duran əsgər qolunu dirsəkdən büküb, sarı əlcəkli əlini yuxarı qaldırır, sonra qarşıya endirib, getməyi işarə eləyirdi.

Elə adam vardı yükü balaca əl, ya çiyin çantasıydı, bəziləri də təkərli çamadan sürüyürdü. Çamadanlar toqquşanda, bir-birinin ayağına dəyəndə də başlayırdılar deyinməyə. Gərginliyin, yorğunluğun acığını bir-birlərindən çıxırdılar.

Xeyli aralıda beşmərtəbəli daş bina görünürdü. Binanın üstündə nəzarət qülləsi ucalmışdı. Qüllənin başında üzü dənizə baxan şüşəli eyvanı vardı. Günəşin şəfəqləri həmən şüşələrdə bərq vurur, əksi adamın gözünü deşirdi. Baxanda elə bilirsən projektordu; kimsə həmən eyvanda

oturub deyir: "Səni görürəm, ha-a!" Mayakdı, başqa nə olacaq?! Gəmi. Mayak.

Mayak ətrafın səssizliyinə boylanırdı. Səssizlik həm darıxdırıcı, həm də soyuq idi; düzdü, günəş təpəyə qalxmışdı, bir yandan da asfaltın istisi nəfəsi qurudurdu, di gəl, hər şey bomboz görünürdü. Uçuşan, quruldaşan ağappaq qağayılar da bu bozluğa rəng qata bilmirdilər. Əksinə, tirlərin, yerə basdırılmış iri maşın təkərlərinin, çürüyüb qalmış qayıq qabırğalarının üstündə oturub baxan qarğalar bozluğun çalarını bir az da artırırdı. Gözə dəyəcək maraqlı heç nə diqqəti çəkmirdi. Bir yandan da ölü balıqların, suiti leşlərinin qoxusunu dənizdən əsən ılıq yel sahilə yayırdı. Tamsınanda dənizin duzunu, havanın nəmliyni adam damağında hiss eləyirdi.

Cərgənin başında duran oğlan əlində boz rəngli oyuncaq ayı tutmuşdu: bir yaşında uşaq boyda olardı. Aradabir ayını yuxarı qaldırır, ətrafa onun gözüylə baxıb deyirdi:

– Buranı şəhərdən çox düşərgəyə oxşadıram.

– Bu da bizi əsir kimi aparır. – Oğlanın sağında addımlayan eynəkli, boz kostyumlu, gümüşü gur saçlarını səliqəylə arxaya daramış yaşlı kişi dedi. – Mən biləni, burda hamı elm adamıdı, ziyalıdı, xüsusi şərtlərlə seçiliblər, dəvət olunublar. Bəs, bizə qarşı bu necə münasibətdir? – Əsəbiləşmişdi. Görünür, səsini qarşıda gedən əsgərə eşitdirirdi. – Nədir, bu boyda yolu piyada getməliyik? Hanı buranın avtobusu, maşını? Mən bioloqam, professoram. İllərdi konfranslarda, səfərlərdə olmuşam, gəzmədiyim ölkə azdı. İlk dəfədir belə qarşılanma görürəm. Mən də bu andırı sürüyürəm. – Kişi qara rəngli, orta ölçülü çamadanı arxasınca əziyyətlə dartırdı. – Müqavilədə bu yazılmamışdı.

– Hərbi hissə gözümə dəymir. Maşın izi yoxdu. – Ayı yenə hamının başının üstündən boylandı. – Bütün işarələr piyadalar üçündür.

Professor cavan oğlanı altdan yuxarı tərs-tərs süzdü; səliqəli geyinmişdi, dodağının üstündə, çənəsində bir topa bığ-saqqal saxlamışdı. Saçı qısa kəsilmişdi. Yəqin, əlində bu boz ayı olmasaydı, onu ciddi adam hesab edərdi.

– Kukla teatrının aktyorusan, yoxsa sirkdən gəlmisən? – Görünür, professor dilini saxlayan adam deyildi. – Elə bilirdim ancaq həkimləri seçiblər.

– Neyrocərraham. – Ayını onun üzünə tutub tanış elədi. – Bu da asistentimdi, Alı. – Ayı professoru başıyla salamladı.

Professor dodağının altında "səfehxanadı bura" – deyib başını buladı.

Onsuz da əsəblər gərilmişdi. Kimsə ləngiyəndə, sarı xətdən çıxanda elə bil əsgərin sinirini tapdalayırdı, əsgər elə sərt davranırdı, deyirdin bu saat qırx beş ölçülü ayaqlarını bu çəlimsiz adamın ayaqlarının üstünə qoyacaq, başını gəlincik başı kimi dartıb qopardacaq. Hələ bir arxadan da itələyirdi, tələsdirirdi. Kişilər qadınların, uşaqların yanında pərt olurdular: "Toxunma mənə!". "İtələmə!". "Bu lap ağ oldu. Sənin buna ixtiyarın yoxdur". "Biz dincəlməliyik. Axı, uşaq var, susuzluqdan ağlayır...". "Arvadımı itələmə! Biz sənin üçün əsir deyilik..."

Öz aralarında pıçıldaşırdılar, deyirdilər bu qara zirehli uniformanın içində olan nə məxluqdursa, insan deyil; nə söz eşidir, nə də qanır.

Gəmidə olanda sarı üzlü təlimat kitabı paylanmışdı, oxumuşdular. Orda yazılmışdı: "Nizam-intizam qaydalarını qorumaq hər kəsin borcudur. İstənilən səbəbdən sarı xətdən çıxmaq qəti qadağandır..."

İlk on nəfərlik dəstə şəhərin keçid məntəqəsinə çatdı. Hasar çəkilməmişdi, ortalıqda yan-yana iki şüşə qapı şəffaf tunelə açılırdı. Qapıların qarşısında sarı xətt dəstəni ortadan ayırır, bir-birinin arxasınca gedən beş nəfər qapıdan tunelə girirdi. Elə burda da hamının canı əsgərdən qurtardı...

Tunelin divarında iki yanaşı pəncərə eskalatora baxırdı. Pəncərələrin ortasındakı divar monitor idi, orda animasiya göstərilirdi; hər kəs paltarını, əşyasını bu pəncərələrdən eskalatora qoymalıdır, alt paltarla da xətti keçmək qadağan edilmişdi. Monitorda göstərilirdi ki, kuryer əşyaları ünvana çatdırır.

Ailələr soyunmaq istəmridilər. Deyirdilər, müqavilədə soyunmaq yazılmayıb. Bu, adamları alçaltmaqdır.

Geriyə qayıtmaq mümkün deyildi, qapı bağlanmışdı. Borunun içindən çıxmağın tək yolu irəli getmək idi. Kim soyunub gedirdisə, başından aşağı püskürdülən mavi buxarın içindən keçirdi, çıxırdı geniş salona. Ortalıqda quraşdırılmış dairəvi eskalator karton yeşikləri gətirmişdi. Kim yeşiyin üstündə adını tapırdı, götürüb çəkilirdi kənara. Yeşiyi açırdı: səliqəylə qatlanıb yığılmış paltarları görürdü. Ağ mayka-tuman, qara corab, qara çəkmələr, mavi köynəklər, tünd göy kombinezonlar – bəzilərinin rəngi fərqli olsa da, hamısı eyni biçimdəydi. Hər köynəyin sol döş cibinə bir telekart qoyulmuşdu. Hələ gəmidə olanda həmən sarı üzlü təlimat kitabçasında bu teklekartın adi bir smartfon olmadığını, həm də hansı işlərə yaradığını oxumuşdular. Bilirdilər ki, onu itirdinsə, deməli, bütün hüquqlarını itirdin, yəni bu cihaza bağlanmalısan. Cihazın yanlardan çıxan zoğal çəyirdəyinə oxşar qulaqcıqlar da mütləq qulağında olmalıdır; gecə-gündüz, yatılı, oyaq... Çünki Miroqradda sənin operatora ehtiyacın var. Operator olmasa, nə bilərsən nə vaxt yeməlisən, nə vaxt yatmalısan?! Bir də ki, axı təkcə yemək, yatmaq deyil...

Kim qulaqcığı taxırdısa, operator qızın səsini eşidirdi; bu səs adamın beyninə düşmürdü, ürəyinə axırdı. Gərilmiş sinirlər boşalırdı. Deyirdi ki, müqaviləyə əsasən, Sarı Bank maaşın on beş faizini sənin hesabına köçürdü.

On nəfərlik qrupun birlikdə qəbul olunacağı məntəqənin yol xəritəsi hamının telekartına yükləndi.

Bir neçə metr qabaqda sarı xəttin daxilində avtobus dayanacağı, elektron köşk qoyulmuşdu. Şüşədə isti, soyuq yeməklərin şəkli, suların, çayların, kofelərin növləri yazılmışdı. Kim nə istəyir seçir, telekartıyla QR kodu oxudub hesabından ödəyirdi.

Qruplar arasındakı məsafənin niyə bu qədər uzundığını indi anlamaq olurdu. Arxadakı qrup elə indi gəlib çatsaydı, yəqin ki, bir konfeti də bir-birinə güzəştə getmək istəməyən adamlar arasında əməlli-başlı mərəkə qopardı.

Sarı xəttin tələbi, hələ ki, hamının yadında qalmırdı, başı qarışıb ayağını xətdən kənara kim qoyurdusa, telekartına cərimə bildirişi gəlirdi.

Kim hesabından silinən məbləği ekranda görürdüsə, gözü kəlləsinə çıxırdı. Uşaqlı gəlin də hamıya təsəlli verirdi, deyirdi buna yaxşı tərəfdən baxmaq lazımdır, əgər cərimələr olmasa, nizam-intizam da olmaz.

Şəhərin içinə girdikcə mənzərə dəyişirdi, şəkillənirdi. Bəstəboy şəhər təmiz, səliqəli, yaşıllığın içində sakit görünürdü. Nə siqnal səsi, nə mühərrik uğultusu eşidilirdi.

Ayısız qalmış neyrocərrah – mən onun adını hələ bilmirəm, – bu dəfə qrupun qarşısına özü çıxdı. Hamının diqqətini özünə çəkmək üçün əllərini təslim olmuş kimi qaldırıb dedi:

– Belə olmaz, axı, burda hamı ziyalıdır, artıq söz deməyə ehtiyac yoxdur. Doğrudur, yorulmuşuq, amma tələsmək lazımdır. Mənim görüşə tək getməyimin nə faydası? Biz bir qrupuq. Tələb budur ki, birlikdə orda olaq. Bizə ayrılan mənzillərə yerləşək, orda da dincələrik. İndi ləngiməyin!

Professor hamıdan arxadaydı, ayaqlarını sürüyürdü. Amma qulağı bu cavan neyrocərrahın etiraz səsini göydə almışdı. Hətta elə bilmişdi, bu oğlan onun arxasınca danışır, qrupda ən yaşlı adam olduğuna görə niyyəti onu gözdən salmaqdı. Yəqin, professor iş təcrübəsində belə adamlara çox rast gəlmişdi, indi bu cavan neyrocərrahı da onlardan hesab eləyirdi.

– Mənə bax, kukla aktyoru, – Hələ cərgəyə çatmamış təngnəfəs dilləndi. Görünür, hələ ağzının kəsərli olduğunu göstərmək istəyirdi. – Sənin kimi minlərlə tələbəyə yol göstərmişəm, indi sən mənə iməkləmək öyrədirsən? – Həkimin ağzını əydi. – Ləngiməyin! – Biz sənin qonur ayın deyilik təlim keçəsən. Hara nə vaxt istəyərəm, o vaxt da gedəcəm.

– Professor, əsəbiləşmək səhhətinizə ziyandı. – Ailəli kişi dilləndi. – Hamı yorğundu, gərgindi. Həkim də doğru deyir, ləngiməsək yaxşıdır. Heç olmasa, mənzilə yerləşək. Uşaqlar da əldən düşüblər.

– Ağıllının biri də çıxdı. – Professor kişiyə, onun əlindən tutduğu uzun saçı açılıb tökülmüş qız uşağına, qucağındakı oğlunu yırğalayıb kiritməyə çalışan arvadına baxdı. – Sən bura imiqrant kimi köçmüsən?

– Biz psixoterapevtik.

– Sizə ehtiyacım yoxdu. Əmrlə, tələblə işləmirəm. Gedin! Kefim nə vaxt istəyər, onda da gedərəm. – Professor dayanacaqdakı taxta skamyaya oturub, ayaqlarını uzatdı. Əlacı olsaydı, ayaqqabılarını da çıxarardı. Belə vaxtda adam yorğunluğun bədəndən ruh kimi çıxdığını hiss eləyir. Nəbzi qızışmış ayaqlarının altında vurur.

Professor tərini, sulanmış gözlərini köynəyinin qoluna sildi. Mənə elə gəlir, professor böyüdücünün linzasından mikrolara gözüqıyıq baxmaqdan

üzünün dərisi bu qədər dərin qırışıb. Elə kolbalardakı maddələri iyləməkdən də burnu arıvurmuşa dönüb. Buna görə də ilk baxışdan qanıacı adama bənzəyirdi.

Professora hərə bir tərəfdən etiraz elədi, dedilər, şəhərə birinci çıxmaqda bəxtimiz gətirib. Bir addım geciksək, çox şey itirə bilərik.

Neyrocərrahı da qınadılar, dedilər, komanda vermək haqqın yoxdur. Gərək professoru tərsə salmayaydın, onsuz da bu yaşlı adam dayanmağa, dincəlməyə fürsət axtarırdı, indi də əlinə bəhanə keçdi. Bütün qrup ikinizə görə şansını itirə bilər.

Gözlənilmədən qəribə bir hadisə baş verdi; bu mənim ağlıma gəlməzdi, onların da, elə professorun özünün də; birdən professoru havada gördük. Doğrudan, bu çox ani oldu. İki kişi diqqət çəkmədən onun yanında skamyaya oturdular, qəfildən professorun ayaqlarından, belindən yapışıb çiyinlərinə aldılar. Bir az gülməli görünsə də, professor özünü cin atına minmiş kimi hiss elədi. Çabalayır, düşmək istəyir, bir yandan da yıxılmağa qorxurdu, bərk-bərk onların saçından yapışmışdı. Hərdən də bu iki kişinin başına qapazlayırdı. Tələb eləyirdi ki, elə bu saat onu yerə qoysunlar.

Xəritə onları "Miroqrad Şəhər İdarəetmə Mərkəzi" binasının qarşısına gətirmişdi. Elə burda – pilləkənlərin qarşısında sarı xətt bitirdi.

Onları dəhlizdə, təbəssümünü hansısa aktyordan oğurlamış arıq qız qarşıladı, kiçik konfrans zalına dəvət elədi. Bir enli stolun arxasında üz-üzə beş stul qoyulmuşdu. Stulların söykənəcəyində nömrələr yazılmışdı. Hərə telekartındakı nömrəyə görə yerini bildi.

Qız başda oturub ayağını ayağının üstünə aşırdı. Ayaqları çox arıq idi, geyindiyi qısa ətəkdə bu daha aydın görünürdü. Qızın arxasındakı divar bütünlüklə monitora çevirilmişdi. Şəhərin bütün ecazkar mənzərəsi, ən gözəl məkanları, dronla çəkilmiş kanyonları, çayları, şəlalələri, gölləri görünürdü.

Qız danışanda bildilər ki, qulaqcıqdan hamını salamlayan operator budur. Bəlkə də, onlar qızı görməsəydilər, belə səsin bu çəlimsiz, bu dıbırayaqlı adamcığazdan çıxdığına inanmazdılar.

– Adım Raya Kozakovadır. Miroqrad qapalı şəhərdir. Burda yalnız daxili qanunlar işləyir. Miroqradın Baş katibi Nikita İliç Vissarionoviç yoldaşdır. – Raya rəhbərin adını ayaq üstə deyib, yüngülcə təzim elədi. Əyləşdi. Monitorda Baş katib göründü; orta boylu, dolu bədənli, lopa bığlı kişi əlində tutduğu qara şlyapasını havada yelpik kimi yelləyirdi. Kadr dəyişdi: bir dəstə xoşbəxt təbəssümlü adamın arasında gəzir, onları dinləyir, nəsə deyir, asta addımlarla kütləni arxasınca aparırdı.

Raya Kozakovanın sözlərilə monitordakı kadrlar üst-üstə düşürdü. Görünür, videoçarxın hər saniyəsini əzbərləmişdi. – Bu şəhərdə hər kəs istədiyini ala bilər. Şəhərimizdə dünyanın ən yaxşı geyim mağazaları var. Əyləncə, istirahət mərkəzi hamı üçündür. Sağlamlığa ziyan olan vərdişlər qadağandır. Xahiş olunur, gəmidə sizə verilmiş sarı üzlü təlim kitabını

oxuyasız. Eyni nüsxə telekartınıza elektron şəkildə yüklənib. Hər kəs nizam-intizam qaydalarını bilməlidir. Hüquqlarınızı, imkanlarınızı öyrənin. Bəhanələr qəbul olunmur.

– Adım Aydın Qaraxanlıdı. Etirazım var. Bilirsiz, yolda bir neçə bəndə göz gəzdirdim. – Neyrocərrah yerindən qalxdı, istədi Raya Kozakova ona cavab verməyə məcbur olsun. – Mənə belə gəldi, elə də çox hüququm yoxdur. Məsələn, istədiyim vaxt şəhərdə gəzə bilmərəm. Xaricə rabitə çıxışı bağlıdır. Bu telekart da ancaq operatoru eşitmək üçündür. Məzuniyyət haqqında heç bir bənd yazılmayıb. Bizə ailəmizi görmək üçün tətil də verilməyəcək?

– Miroqradın qapalı şəhər olduğunu bir daha xatırladıram. Burdan müqavilə vaxtı bitənlər çıxır. Onları şəxsən Vissarionoviç yoldaş – qız yenə adı çəkəndə qalxıb təzim elədi, – hörmətlə yola salır. Şəhərdə gəzmək üçün növbəli istirahət vaxtları var. Mərhələni uğurla keçənlərin yol xətləri açılır.

Professor iki əlini də stola şappıldatdı:

– Qoy, bu qız mənim də sualıma cavab versin! Niyə bizi bura əsgər qabağında gətirib? Niyə dalımızca avtobus göndərməyib? Niyə məni bu yaşda lüt soyundurub? Niyə mənim eynəyimi qaytarmır?

– Miroqrad hökuməti vətəndaşların, qonaqların sağlamlığını öz maraqlarından üstün tutur. – Raya Kozakova dərhal dilləndi. Məncə, bu cavabı dəfələrlə vermişdi. – Əsgərlərin vəzifəsi qonaqları şəhərə hörmətlə, sağ-salamat ötürməkdir. Şəhərə yalnız dizenfeksiya olunmuş adamlar buraxılır. Şəhərdə nəqliyyatın hərəkəti qadağandır. Biz atmosferi çirkli qazlardan, adamları qəzalardan qoruyuruq. Lakin, hamının dayanacaqlarda oturub gözləmək hüququ var. Yerimək həm sağlamlıqdır, həm də qazanc. Siz nizam-intizamla yeridikdə telekartınız addımlarınızı sayar, sizə bonus qazandırar. Bu bonusları alış-verişdə xərcləyə bilərsiz.

Bir-birinə baxan adamlar üzlərindəki istehzanı gizlətmədilər. Raya Kozakovanın izahı onlara elə də ağlabatan görünmədi. Bilmirəm, Raya Kozakova özü də bunu hiss elədimi?! Yəqin, hər cür münasibətə öyrəşmişdi deyə, mimikası dəyişmirdi.

Raya Kozakova burda hamının bir-birinin yoldaşı olduğunu xüsusi vurğuladı. Bir neçə vacib təlimatdan sonra əlavə elədi:

– Yoldaşlar, istənilən saatda suallarınızı mənə verə bilərsiz. Hər kəsin sarı xətti var. Həmişə sizə aid olan yolu tapın. İndi alnınızı stoldakı düyməyə qoyun, gözlükdən baxın.

Gözlük elə bil durbin idi, lap uzaqdakı Baş katib Nikita İliç Vissarionoviç görünürdü, deyəsən, o da görürdü; iş stolunun arxasından başını qaldırıb əlini yellədi. Görüntü l0 saniyə çəkdi.

– Yoldaşlar, stoldakı düyməni özünüzdən sağa siyirin. – Siyirilmiş şüşənin altında dəridən tikilmiş maska vardı. Maskanın ağzı trapesiya, gözləri düzbucaqlı üçbucaq şəklində açılmışdı. Alından çənəyə qədər hissələr ortadan çarpaz tikişlə birləşdirilmişdi. Alına yazılmış rəqəm elə

stolun üstündəki düymə boyda olardı, QR kod pikselləri ilə formalaşmışdı.

Raya Kozakova hamıdan maskaları götürməyi xahiş elədi. Dedi ki, bu gündən sonra sizin əsil üzünüz bu maskadır. Süni-intellektli qapılar maskaların rəqəmlərini oxuyanda açılır.

Bəzilərinin maskası göy, yaşıl, ağ idi. Yəqin peşəsinə, ixtisasına görə fərqlənirdi. Üç nəfərə qəhvəyi düşmüşdü. Hərə öz maskasını götürdü. Həvəsli olanlar üzlərinə taxdılar. Maskadan qəribə qoxu gəlirdi, yad adam qoxusu, – onlar belə dedilər.

– Miroqrada xoş gəldiniz! – Raya Kozakova son sözünü ayaq üstə dedi.

Aydın Qaraxanlı Raya Kozakovanın qarşısına çatanda ayaq saxladı. Qızın oğurluq təbəssümü üzündəydi. Aydın bir neçə saniyə ona baxdı, qızın üzünün cizgiləri dəyişmədi.

BAM-dan çıxan yol qovşaqda düyünlənir, burdan beş istiqamətə açılırdı, – prospektlərə. On nəfərdən çoxunun yolu müəyyən yerə qədər eyniydi, 3-cü prospektlə gedirdilər. Yolun başındakı istiqamət bildirən sarı lövhədə qara hərflərlə "Dmitri" prospekti yazılmışdı.

"Dmitri" prospektinə girəndə yolun sağ çiynində Müdafiə Şirkətinin "Mərkəzi Fiziki-Texniki İnstitut"un böyük binası görünürdü. Həmişəyaşıl sarmaşıqlar pilləkənin başındakı sütunlara dolana-dolana qalxmışdı, binanın fasadını tamam örtmüşdü. Bircə pəncərələrin ətrafı səliqəli budanmışdı. Ondan sonra park salınmışdı. Alaqapıların qarşısında ağ mərmərdən iri skulptur qoyulmuşdu; işarət barmağını dodaqlarına yapışdırıb susmağı işarə edən qadın üzləri dörd tərəfə baxırdı. Parka giriş xətti onun sağından, çıxış solundan keçirdi. Parkın böyründən aşağı enli küçə düşürdü. Sonra bir-birindən yaraşıqlı geyim mağazaları sıralanırdı. Şüşə vitrinlərdə əsgərlərə bənzəyən manekenlər dayanmışdı. Sonra restoranlar, klublar, şirkət binaları çiyin-çiyinə söykənmişdilər. Onların reklamçıları; reklam-adamlar keçənlərin diqqətini çəkməyə çalışır, məhsulu tanıtmaq, içəri dəvət etmək üçün hərədən 13 saniyə vaxt istəyirdilər. Əksəriyyəti çılpaq bədənlərinə şirkətin, mağazanın, sexin adını, loqosunu çəkdirmişdi. Qadınlar, kişilər atılıb-düşdükcə, istər-istəməz diqqət çəkirdilər.

Gedib-gələn adamlardan təsadüf bir-iki nəfəri maskasız idi. Hamı eyni simada görünürdü. Bu, müqavilədə yazılmamışdı, təlimat kitabında oxumamışdılar. Belə görünürdü ki, maskalar nizam-intizam qaydalarına aid deyil. Reklam-adamlar heç, onların onsuz da əsil simaları məlum deyildi. Bircə mağazaların qarşısında dayanıb siqaret çəkən, söhbət edən sahibkarların üzləri çılpaq idi.

Hardansa gələn məktəb zənginin səsi bütün küçələrə yayıldı. Hamı dərhal dayandı. İkinci zəngdə oturdular. Təzə gələnlər nə baş verdiyini bilmədilər deyə, vurnuxurdular. Sonra onlar da hamıya baxıb çöməldilər.

Professor qarşısındakı tanımadığı adamdan niyə çöməldiyini soruşdu, adam sadəcə, çiyinlərini çəkdi. Üçüncü zəngdə durub getdilər.

Yolun solu qayıdış zolağı idi. Sol tərəfdə evlər bir mərtəbədən doqquzuncu mərtəbəyə qədər artıb, cərgələnib. Belə görünürdü ki, Miroqradın boyu doqquz mərtəbəlidir. Bütün binaların üstünə yaşıllıq sərilib, çiçəklər, güllər görünür, ağaclar şaxələnib. Onların kamuflaj, ya təbii olduğunu deyə bilmərəm, aşağıdan baxanda bu aydın olmurdu. Aydın olan budur ki, peykdən baxanda bu yaşıllığın içində gizlənmiş Miroqrad görünməzdi.

Onların yaşayış kompleksi "Dmitri" prospektiylə "Skripal" küçəsinin birləşdiyi kəsişmədə yerləşir. Professor, uşaqlı gəlin, psixoterapevtin ailəsi, Aydın Qaraxanlı pəncərələri "Skripal" küçəsinə baxan binaya düşmüşdülər. Üz-üzə duran iki binanın həyəti bir idi, bura prospektdən dönən sarı zolaqla gəlmək olurdu.

Dördüncü bloka girdilər. Pilləkən məhəccərinin üstündəki taxtanın boyası hər əldə bir az sürtülüb, silinib getmişdi. Professor kimi nabələd adam əlini tutub sürüşdürəndə kaktusun tikanlarına dönmüş yonqarlar batırdı. Professor ucadan söydü...

Yuxarı qalxdıqca qarmaqarışıq qoxular ürək bulandırırdı. Uzanan dəhlizdə qapılar yan-yana sıralanmışdı. Niyəsə qapıların hamısı qəhvəyi boyanmışdı. Qapıların üstündəki rəqəmlər olmasa, adam mənzilini səhv salardı. Raya Kozakovanın "burda hamı yoldaşdır" sözünə bu da bir nümunə ola bilərdi. Bilmirəm, bəlkə də, mən tamamilə səhv düşünürəm, əsl məqsəd heç ağlıma gəlmir.

Professorla psixoterapevtin ailəsi dördüncü mərtəbədə qaldı. Uşaqlı gəlinlə Aydın Qaraxanlının mənzili bir mərtəbə yuxarıda idi. Mənzillərini qapının üstündəki nömrədən tapdılar. Aydın Qaraxanlı 46-ya, uşaqlı gəlin ondan üç qapı qabağa, 39-a getdi.

Aydın Qaraxanlı qapıdakı gözlüyə alnını yapışdırdı. Dəstəyin üstündəki yaşıl diod yandı. Aydın ensiz dəhlizdən içəri bir-iki addım atmışdı ki, dərhal ağzını tutub çölə qaçdı. Maskasını çıxartdı. Kəskin üfunət qoxusundan bir-iki dəfə öyüdü. Açıq qapıdan milçəklər vıjıltı ilə dəhlizə çıxdılar. Aydın əlini havada yelləyib onları başının üstündən qovmağa çalışdı. Səsi dəhlizin divarlarında çiliкləndi, di gəl, bir adam da burnunu qapıdan çıxarıb soruşmadı ki, bu nə hay-küydü? Özünü toparlayanda bu dəfə maraqdan içəri girməyə hazırlaşdı; ağzını-burnunu dirsəyinin bükməsində gizlətdi. İçəri girdi; dəhlizdən açılan hamam otağının ensiz ağ qapısı aralı qalmışdı. Dəhliz əsas otağa açılırdı; bura təbii işıq nisbətən qapıdan, bir də boyük otağın iri pəncərəsindən düşürdü. Tavandan rəngbərəng parça şivrimləri, kəndirlər sallanırdı. Çoxunu kiminsə acıqlı əli dartıb, yoluşdurub yerə atmışdı. Mənzilə baxanda adam mat qalırdı; desəydilər kimsə bu mənzili əlinə ayaqqabı qutusu kimi götürüb, silkələyib, yerinə qoyub, inanardım. Hətta, girdə saat da divardakı yerindən çıxıb düşmüşdü, şüşəsi çatlamışdı, amma əqrəblər hələ də fırlanırdı. Rəfdəki kitablar da, qovluqlar da ortalığa səpələnmişdi.

Divanın üzlüyünü görən onun əsl rəngini təxmin edə bilməzdi; kir parçanın əriş-arğacına dönmüşdü. Divanın üstünə kişi paltarları – köynəklər, şalvarlar atılmışdı. Karton yeşiklər dolmuşdu. Baxanda bilirsən ki, kimsə getməyə hazırlaşırmış, bunlar yaddan çıxıb, ya da nəsə başqa səbəb olub. Divanın qarşısında yerdə göy rəngli keçə örtüyün ortasına axıb, yayılan maye ləkəsi qurumuşdu. Milçəklər həmin ləkənin üstündə miz salıb, ordan uçuşurdular. Otağın təkgöz pəncərə şüşəsini qanadlarıyla döyəcləyir, qırıb, azad olmaq istəyirdilər.

Aydın Qaraxanlı pəncərəni açdı, həm milçəkləri, həm də üfunət iyini "Skripal" küçəsinə buraxdı. İki metr enində olan mətbəxə girdi. Çirkli qab-qacaq çanağın içində göbələk bağlamışdı.

Qəfil fışıltıdan Aydın diksindi, fışıltının ardından krantdan su təzyiqlə axdı, köpükləndi, qablar islandı.

Aydın iyrənə-iyrənə bloka çıxdı. Yan qonşunun qapısını döydü, açan olmadı. O biri qapıya keçdi. Bir az keçmiş bir cavan gəlin astanada durdu. Yuxulu gözünü hələ də qıyıb baxırdı.

– Mən yeniyəm. Bu mənzili veriblər. Ora da girmək olmur. Üfunət iyi...

Qadın qapını onun üzünə çırpdı. Aydın pərt oldu, sonra nə fikirləşdisə, qapını bir də döydü. Gəlin qapını açana qədər əl çəkmədi.

"Növbədən gəlmişəm! Yatmalıyam. Əl çək!" sözünü rusca bağıra-bağıra dedi.

- Bağışlayın. Bilmirəm nə edim. Orda milçəklər miz salıb.

Milçək adını eşidəndə elə bil gəlin ayıldı. Sonra gəlib açıq qapıdan içəri boylandı. Ağzını-burnunu ovcunda gizlədib, "deməli, milçəklər, qurdlar hər yerə burdan yayılırmış. Orda bir kişi qalırdı, yəqin ölüb..." – deyinə-deyinə mənzilinə qayıdıb qapını örtdü.

Bir adamın mənzilində ölüb unudulması Aydın Qaraxanlıya qəribə gəldi. Elə mənə də, bəs mərkəzi sistem?

– Antisanitardı...

Aydın 39-cu mənzilin qapısını döydü.

– Mənziliniz təmizdi?

– Yox. Deyəsən, axtarış olub.

– Bəs, qoxu?

– Kif iyi gəlirdi. Pəncərələri açdım.

– Mənzilimdə adam ölüb. Hər yer milçəkdi, mizdi. İçəri girmək mümkün deyil.– Aydın elə tərzdə dedi ki, gəlin də mənim kimi onun niyyətini anladı.

– Elə-belə də yoldaş Kozakovaya deyin. – Gəlin qapını örtdü.

Operator xidmətin kefiyyətini artırmaq məqsədilə danışıqların qeydə alındığını bildirdi. Siqnal səsindən sonra Raya Kozakova cavab verdi. Aydın ona mənzili təsvir elədi.

– Bu mənzildə qala bilmərəm. Burda insan yaşamaz. Xahiş budur... Lap tələb eləyirəm, mənə bu saat təmiz bir mənzilin ünvanını verin!

Raya Kozakova təmkinlə bildirdi ki, ona aid mənzil oradır. Belə məsləhət elədi ki, pəncərələri açıq qoysun, havanı dəyişsin. Hətta Aydını şanslı hesab elədi, dedi, indi otağı öz zövqünə uyğun səliqəyə salmaq imkanın var. Qapı açıldığına görə mənzildə kommunal xidmətlər aktivdir.

Aydın özünü nə qədər ələ almağa çalışsa da, səsi qeyri-ixtiyari qalxdı. Antisanitariya şirkətindən nümayəndə tələb elədi. Raya Kozakova ona yalnız məsləhət verə biləcəyini dedi.

Aydın əsəbindən bir yerdə dura bilmirdi. Telekartın yaddaşına yazılmış hansı nömrəyə zəng etdisə, siqnal səsindən sonra Raya Kozakova cavab verirdi. Adam belə vaxtı hirsindən lap dəli olar.

– Yoldaş Aydın Qaraxanlı, sizin hələ başqa nömrələrə çıxışınız aktiv deyil. Sınaq mərhələsini uğurla keçmək lazımdır... – Raya Kozakovanın səsi, təmkini Aydına acıq gəlirdi, elə bilirdi qəsdən onu özündən çıxarmağa çalışır. Qız danışdıqca təbəssümü, siması Aydının gözünün qarşısında canlanırdı. Elə bilirdi Raya Kozakova düz burnunun ucunda dayanıb.

Aydın mənzilinə qayıdanda qoxu xeyli çəkilmişdi. Beyni yavaş-yavaş otağın iyinə alışırdı. Otaqda artıq bildiyi hər şeyi dəhlizə daşıdı. Mətbəxdən tapdığı bıçaqla döşəmədəki ləkəli yeri kəsib çıxardı. İyrənə-iyrənə onu pəncərədən atdı. Bəlkə də, iki dəqiqə keçmədi ki, onun telekartına cərimə bildirişi gəldi.

Bir yandan beyni onu sakitləşdirirdi; "Eybi yox, həkim, müvəqqətidir. Bu mənzili səliqəyə salmaq olar, axı, sən seçilmiş adamsan. İndi yorğun, əsəbi olduğuna görə hər şey gözünə pis görünür. Əslində, vəziyyət yaxşıdır". Bir otaqlı mənzili özünə layiq bilmirdi, heç mən də ona yaraşdırmırdım. Aydın Qaraxanlı hansısa özəl klinikada çalışan sıradan neyrocərrah deyildi. İmzası beynəlxalq elm jurnallarında aradabir görünərdi. Bu cavan oğlan beyində yeni ağrı ocağını kəşf edəndən bəri ona daha çox xaricdən diqqət artmışdı. Bir çox institutdan təklif almışdı. BAM-dan gələn nümayəndə Aydınla ilk dəfə görüşüb-danışanda demişdi sənin yerin Miroqraddır. Ancaq Miroqradda sənin elminə layiqli qiymət verilər. İndi, min bir minnətlə çağırıb gətirdikləri Aydın Qaraxanlıya belə bir otaq, əlbəttə ki, uyğun deyildi, amma dözməli olduğunu özü anlayırdı; müqavilə bitənə qədər burdan geriyə yol yoxdur.

Aydın otağa da, qoxuya da öyrəşdi. Divanın üstündəki köynəyi götürüb otağın ortasında fırladır, milçəkləri pəncərədən, qapıdan qovurdu. Sallanan kəndirləri dartıb qopartdı. Bunların nə işə yaradığını, niyə tavandan pərdə saçağı kimi sallandığını bilmirdi.

Mətbəxə girdi, çanaqdakı qab-qacaq islanmışdı, çimçəşə-çimçəşə dırnağıyla içini qaşıyır, boşqabları yuyur, durulayır, iyləyir, sonra bir də yuyurdu. Niyəsə ağlına gəlmişdi ki, bu sınaqdır, imtahandır. Əgər hamının mənzili eyni şəkildədirsə, deməli, bu da növbəti sınaqdır.

Aydın otaqda gecə yarıya qədər əlləşdi. Burda yaşamış adamın neyrocərrah olduğunu əşyalardan, əlyazmalardan, kitablardan anladı. İndi də bu ölümün intihar, yoxsa qətl olduğunu bilmək istəyirdi.

Yuxusu gələndə Aydın karton yeşiklərin arasını açıb divana sərdi. Dincəlmək istəyirdi, ağlına qoymuşdu ki, səhər mütləq şikayətini, etirazını məsul şəxs kimdirsə, ona bildirəcək. Uzandı, gözünü yumanda ağlına qarmaqarışıq fikirlər gəlirdi. Bir yandan da acından mədəsi siyrilirdi. Adət eləmişdi, acanda vaxta baxmazdı, durub nə tapsa yeyərdi.

Telekartda bir neçə restoranın nömrəsini tapdı, zəng elədi. Hər dəfə Raya Kozakova cavab verirdi: "Bu saatda yemək sağlamlığa ziyandır. Su için, yatmağa çalışın".

Aydın Qaraxanlını yuxudan saat zəngi oyatdı. Bu səs saatdan gəlmirdi, divarın tavana birləşən küncündəki havalandırma torundan yayılırdı. Qəfil gələn bu cingiltili səs adamın sinirini qaşıyırdı.

Aydın gözünü birtəhər aralayıb saata baxdı; altını göstərirdi. Beli ağrıyırdı, qurumuşdu, gərnəşdikcə quru budaq kimi şaqqıldayırdı. Beyni ayazıyanda anladı ki, yuxunun hansısa fazasında divandan yıxılıb; özü də cəsədin qalıb dağıldığı, milçəklərə döndüyü yerə. Necə olmuşdusa, başı da keçədən kəsib atdığı dairəyə düşmüşdü. Nə qədər bərk yatdığını özü bilirdi, hətta bələd olanlar Aydına ayı kimi yatdığını deyərdilər. Amma heç vaxt yatdığı yerdən yıxılmamışdı. Heç uşaqlıqda da. Adətən, yatağa necə uzanardısa, elə də qalardı. Axşam ensiz divana güclə yerləşmişdi, uzananda ayağı qoltuqaltıdan çıxmışdı.

Aydın cəsədin yerinə yıxıldığını anlayar-anlamaz, qalxıb özünü hamama saldı. Duşun altına girib özünü sürtdü, qaşıdı. Ona elə gəlirdi milçəklər səhərə qədər saçında, bığ-saqqalında miz salıblar. Meyid qurdları tüklərin arasında gəzir, çənəsi qaşınır. Köhnə ülgücü güzgünün yanındakı rəfdən götürüb qaynar suda yudu, sonra üzünün tükünü qaşıdı. Bəlkə də, peşəsi onu bu qədər titiz, dostlarının dediyi kimi, vasvası bir adama çevirmişdi. Adəti idi, suyun altına girəndə qaşına-qaşına çimərdi.

Hamamdan çıxanda dodağının üstü, çənəsi, boğazının altı qanaq-qanaq olmuşdu.

Telekartına təkrar-təkrar bildiriş mesajları gəldi. Qulaqcığı taxdı; operator ona səhər yeməyinin orqanizmə xeyrindən danışdı. Bildirdi ki, indi səhər yeməyi ala bilər. Sonra, binanın qarşısındakı zolaqda yerini vaxtında tutmalıdır. Uniformanı geyinmək vacibdir.

Mənzilin qapısı döyüldü, Aydın açıb çölə çıxdı. Yaşlı qadın dayanmışdı. Onun əynindəki ağ xələt bədəninə bir ölçü dar idi, düymələri tarım qalmışdı. İki düymənin arasındakı dəlikdən iri döşlərinin arası görünürdü. Qırmızı boyanmış qısa saçlarının uçları qalpağın altından çıxmışdı. Sürüb gətirdiyi sini-arabadakı yemək paketini Aydına verdi. Kağız stəkana çay süzüb, o biri qapıya keçdi.

Bəzi qonşular da qapıya çıxmışdılar. Durub bu yanmış yağ iyi verən qadını, sağ ön təkərinə tük dolaşmış sini-arabanı gözləyirdilər.

Otağa qayıdıb paketini stolun üstündə açdı; iki soyutma yumurta, iki sosis, iki dilim qara çörək, bir ovuc qara kişmiş qoyulmuşdu. Çaydan bir

neçə qurtum içdi, içdikcə ona elə gəldi ki, beyninin quruyub qartımış qırışları nəm çəkdi, neyronları qaynaşdı. Pəncərədən çölə baxdı; yeyə-yeyə fikirləşdi ki, kimsə ona belə bir yerdə səhər yeməyi yeyəcəyini desəydi, inanmazdı.

Binanın qarşısındakı sarı zolaqlarda işçilər toplaşırdılar. Təzə gələnlərdən başqa heç kəs yanındakı adamla maraqlanmırdı. Çevrilib bir-birlərinin üzünə baxmırdılar.

Aydın maskasını əlində saxlamışdı. Üzünə taxanda kəsikləri göynəyirdi. Heç professor da taxmamışdı, taxsaydı, yəqin onu tanımazdı.

– Sabahınız xeyir, professor. Otağınız necəydi? Yata bildiz?

Professorun hirsi keçməmişdi:

– Tör-töküntü... Bir xidmətçi göndərib otağımı təmizlədə bilərdilər. Bu nə yerdi düşmüşük? Bunların elmə, professora verdiyi dəyər, qiymət budur? Özümə söz vermişəm, bu gün təmkinli olacam. Əsəbiləşəndə qan təzyiqim artır.

Aydın öz otağını, gecə çəkdiyi əzab-əziyyəti gizlətmədi, professor da kirimişcə dinlədi.

– Sabahınız xeyir. – Gəlin Aydının arxasında dayandı. Maskasını taxmışdı. Səsindən tanıdılar. – Uşağı beşinci zolağa qoydum. Dedilər, burdan məktəbə getməlidir. Nəqliyyat olsaydı, narahat olardım. Fikrim qalardı onun yanında; qapıdan yıxılardı, hansısa məmurun sərxoş oğlu vurub qaçardı...

– Müqavilədən imtina etmək fikrim var. Bu ağılda adamlarla, bu şəraitdə, bu münasibətdə işləməyi özümə təhqir bilirəm. Axşam oxudum təlim dedikləri kitabçanı. İstədiyim vaxt gedə bilmərəm, yaşıl işıq yanmalıdı, şlaqbaum açılmalıdı. O çəyirtkə mənə məsləhət verməlidi. Bu, mən yaşayacaq həyat deyil. Nədi, bunlar məni ən axırıncı növ heyvan hesab eləyirlər? Hamamda adi bir təmiz dəsmal da tapmadım. Budur nizam-intizam? Hələ eynəyim, kitablarım, paltarlarım...

– Bağışlayın, biz gərək ölkəmizdə tanış olaydıq. Görün harda qarşılaşmışıq. Adınızı bilmədiyim üçün utanıram, professor...

– Sabit Ağazadə. Bioloq.

Aydın arxasında dayanmış gəlinə çevrildi.

– Sara. Ginekoloq.

– Fikrim belədir ki, burda bir-birimizə yaxın olmalıyıq. Psixoterapevtlər də bizdəndi. – Aydın ətrafa boylanıb onları axtardı. – Təəssüf ki, biz özümüzdən başqa heç kimi tanımırıq. Amma gərək bir-birimizə həyan olaq.

İşıqforun yaşıl işığı yandı...

Sara boylanıb adamların arasında onları axtardı, sonra başını yırğaladı.

Sabit Ağazadə:

– Sənin yerlipərsətliyin, irqçiliyin də var?

– Bizim adətlərimiz, mentalitetimiz birdi, axı. Gələcəkdə bayramlarımızı da yığışıb bir yerdə qeyd edərik. Məncə, pis olmaz. Yoxsa tək-tənha bayramın nə marağı? Həm də birlikdə olsaq, darıxmarıq.

– İnsan hər yerdə insandı. Qaynayıb-qarışmaq lazımdır.

Sara:

– Adət-ənənə, mentalitet, milliyyətçilik zərərli vərdişdi. İnsan düşdüyü mühitə dərhal adaptasiya olmalıdır. Sağ qalmaq üçün uyğunlaşmaq vacibdir.

Aydın Qaraxanlı:

– Mən buqələmun növünə aid deyiləm axı. Mənim milli kimliyim var.

Sarı xətt bu küçədə ayrılırdı, biri dairədəki heykəlin başına fırlanıb geri qayıdır, sola dönürdü, biri elə burdan sağa. Bilmirəm, bu yolu belə uzatmağın bəlkə də, başqa məntiqi səbəbi var, amma mənə elə gəldi əsas məqsəd bu heykəli görməkdir. Əslində, xətt sola birləşsəydi, hamı geri qayıdan zolağa keçə bilərdi. Onsuz da hamı "dayanmaq", "üstünlük", "Durmaq qadağandır" işarələrinin, işıqforların tələbinə əməl edirdi. Heykəl də, elə maraqlı bir sənət əsəri deyil: addım atan yerdə donub betonlaşan bəstəboy Lenin: Məhkəmədə and içən adam sayağı, sağ əlini qaldırıb ovcunu göstərirdi, sol əlini açıq pencəyinin yaxasından tutmuşdu. Bəlkə də deyirdi, "dayan, yoxsa yaxandan yapışaram."

Yenə zəng çalındı.

– Bu nə zəngdi, axı? Başa düşə bilmirəm. Niyə dayanıb, çöməlirik, gedirik. – Aydın kimdən soruşurdusa, o adam ya çiynini çəkirdi, ya başını bulayırdı, ya da heç qarşılıq vermirdi.

– Özümü aldanmış, alçalmış hiss eləyirəm. – Sabit Ağazadənin səsində inciklik, küskünlük duyulurdu. – Şirkət iş təklif edəndə, dedim bu qoca vaxtımda əsl nizam-intizamlı, haqqın, hüququn qorunduğu bir kurort şəhərdə yaşayaram. Ən yüksək maaşa işləyərəm. Bir ildə qazandığımı bir ayda alaram. Göndərərəm uşaqlarıma. Özümün də dünya elminə xidmətim olar. Bilərəm it kimi yox, insan ömrü yaşadım. Buyur, konbinezon geyindirib, sarı zolağa soxublar. Keçisaqqalın başına dolanıram. Səhər yediyim kaşanı həyatimdə itimə verməzdim. Dadı hələ də ürəyimi bulandırır. Maskada gəzməliyəm. Nədi, insan üzü bu qədər eybəcərdi?

– Məncə, səhər durub hazır yemək tapmaq çox yaxşıdı. İsti çay... – Saranın səsi maskada bir az kal çıxırdı. – Özünüz də ala bilərsiz, yoldaşlar. Restoranları, mağazaları gördüz... Bura xəyallar şəhəridi. – Sara sevincindən yeniyetmə şıltaq qızlar kimi yerində atılıb-düşür, ətrafına fırlanır, elə bil özünü səhnədə hiss eləyir, gördüyünü tamaşaçılara göstərirdi. – Ətrafa açıq gözlə baxın. Maşın yoxdur, hava təmizdir, qəza riski sıfırdır. Hər tərəf yaşıllıq, gül-çiçək, sənət əsərləri, adamlar bərabərdi. Varlı-kasıb bilinmir. Hamı sakit, nizamla işinə yollanır. Yeridikcə də bonuslar qazanırsan.

– Bəlkə, bir nəfəri də belimə alım gəzdirim? – Sabit Ağazadə ona bozardı. – alnıma da taksi yazım? Heç olmasa at arabası, velosiped ola bilərdi... Biz hansı əyyamda qalmışıq, bilmirəm?!

– Ağazadə yoldaş, hər şeydən narazı olmaq patologiyadı. Baxın, ətrafda polis varmı? Yox! Deməli, adamları bir-birindən qorumağa da ehtiyac yox-

dur. Bəs, niyə? Ona görə ki, cinayət yoxdur, yoldaşlar. Oxumuşam; bu günə qədər burda ən xırda nəqliyyat hadisəsi, terror, silahlı soyğun qeydə alınmayıb. İnsana başqa nə lazımdır? Yoldaşlar, məncə, bura gələcək ölkələrin kiçik modelidir.

– Sara xanım, siz axı gördünüz mənzilimi. Adam ölüb, bəlkə də, öldürülüb. Bilmirəm. Cəsəd yerə dağılıb... Bəs, bunu necə izah edək? Bir təsəvvür eləyin mən harda yatmışam!

– İçazə verin sözünüzü birdəfəlik düzəldim; "Xanım" yox, burda hamı yoldaşdı. – Sara bilərəkdən Raya Kozakovanın sözünü vurğuyla təkrarladı. – Məncə, hər şeyi faciələşdirmək, dramatikləşdirmək əsəblərə ziyandı. Ortada danılmaz bir həqiqət var; bir gün doğulan, bir gün ölür. Kim deyir ki, Miroqradda insan ölümsüzdü?

– Budurmu məntiqli izah? – Sabit Ağazadə Aydından əvvəl dilləndi. – Deyəsən, sən bunlara çoxdan öyrəşmisən.

Aydın tez-tez telekartdakı xəritəyə baxıb, hardan hansı xəttə dönəcəklərini öncədən dedi. Bu dəfə Sabit Ağazadə onun bələdçiliyinə etiraz eləmirdi. Professor arada iki dəfə sarı xətdən çıxanda cərimə bildirişi aldı, onda da Sara dedi ki, əsəbiləşməklə qanunu, tələbi dəyişmək olmaz. Nizam-intizam qaydalarına əməl etmək vacibdir.

Sabit Ağazadə hirsini bu dəfə Raya Kozakovanın üstünə tökdü. Əlacı kəsiləndə eynəyini tələb elədi.

– Ayımı da qaytarmadılar. Bilmirəm, indi Alı hardadı. Başına nə iş gəldi. Heç vaxt məndən bu qədər uzaq qalmamışdı.

Sabit Ağazadə ona tərs-tərs baxdı, başını bulayıb, dodağının altında dedi: "Ay kişi, mən dünyanın harasına düşmüşəm?"

Beynəlxalq Ağrı Mərkəzinin binası onları ilk görünüşdən valeh elədi. Binanın bütün fasadını, çox güman ki, məktəb uşaqları boyamışdı; cizgi filmi personajları, məzəli rəsmlər, uşaqların boyalı əllərinin izləri, əl-ələ tutmuş ailə tablosu, gül-çiçəkli bağçalar, heyvanat aləmi, günəşlə qol-boyun durub gülümsəyən Yer kürəsi... Binanın adı üstündə yazılmış olmasa, deyərdim bura doqquz mərtəbəli uşaq baxçasıdır.

– Buyurun, yoldaşlar, bura ağrıların bitdiyi yerdi. – Sara binaya, yəqin ki, gülümsəyərək baxırdı. Maskalı olduğuna görə dəqiq bilmədim. – Məncə, hər şey çox yaxşıdır. Gəlin içəri! – Qabağa çıxdı.

Baş elmi işçinin otağında görüşdülər, birinci mərtəbədə. Qadın özünü belə təqdim elədi; dedi, adı Anastasiya Mixaylovnadır, amma kolleqaları Anna deyirlər. Qadın hündür boylu, ətli-əndamlı idi. Sarı maskasına 40 yazılmışdı. Səbrlə dinləyir, qısa, aydın cavab verirdi. Sabit Ağazadənin, Aydının mənzil, şərait, şəxsiyyətə münasibət etirazlarına baxacaq, həll edəcək bir səlahiyyətinin olmadığını təəssüflə bildirdi. Amma tədricən hər şeyin düzələcəyinə ümid verdi. Onu da dedi ki, dünyəvi dövlətimiz sizi minlərlə həmkarınızın arasından seçib. Bura gələnə qədər küçələrdə adamlarla rastlaşdız. Hər ölkədən seçilmişləri gördüz. Siz də onların arasındasız. Bu,

sizə, elminizə olan dəyər, yüksək qiymətdir. Burda işıqlı bir gələcək qurulur. Bizim sayəmizdə dünya növbəti bir mərhələyə keçir. Parentallar erası başlayır; super insan, super güc. Ağrısız cəmiyyət formalaşır. Bu parentallar bizim laboratoriyalarımızdan çıxırlar. Dünyanın köhnəlmiş idarəetmə sistemini bizim dövlət yenidən qurur. Gələcək üçün bu gün biz birlikdə çalışmalıyıq. Hərə öz elmi bacarığını ortaya qoymalıdır. Gərək elm, bacarıq, təcrübə bir mərkəzdə cəmlənib hədəfə, məqsədə istiqamətlənsin. Dünyanın ağrısını kəsmək üçün burdasız. Xırda-para məişət məsələlərini yoluna qoymaq sizə çətin olmaz. Axı siz sıradan adamlar deyilsiz.

Bu sözlərin qarşısında nə deyəsən? Anastasiya Mixaylovna közün üstünə su səpdi. İndi bu otaqda dünya üçün nə qədər vacib adam olduqlarına inandılar.

– Gedək, işinizlə tanış olun.

Lift dairəvi foyeyə açıldı; elə bil nadir eksponatlı bir muzey idi. Qırmızı mərmər döşəmədən işıqlı boru akvarium sütunlar qalxmışdı. İçində embrionlardan tutmuş boyu üç metr olan siam əkizləri, dərisinin tən yarısı qara, yarısı ağ adam, hörümçəkəlli kişi, bir ayağı həddindən artıq uzun, biri körpəlik ayağını saxlamış kenquruya bənzəyən qadın mutantlar vardı. Həyəcansız baxmaq mümkün deyildi, adamı dəhşətə gətirirdi. Bəlkə də, bu akvariumun qarşısında durmayan adama gördüyünü təsəvvür eləsən, inanmaz, elə bilər uydurursan, amma uydurmalı bir şey yoxdur, həqiqət burda çox qorxunc görünürdü.

Döşəmənin ortasında iri beşguşəli ulduz, qızılı rəngdə oraq-çəkic elə canlı, elə dəqiq çəkilib, görən deyir əlimi atsam, çəkicin sapından yapışaram, ayağım ilişsə, oraq kəsər. Ulduzun hər guşəsi bir dəhlizin girişində bitirdi.

Anastasiya Mixaylovna Sabit Ağazadəni 3-cü guşəyə apardı. Dəhlizin başında işıqlı lövhəyə yazılmışdı: "Mikrobiologiya Elmi-tədqiqatlar İnstitutu". Anastasiya professoru laboratoriya rəhbərinə təhvil verib qayıdacağını dedi.

– Heç vaxt belə mutasiya görməmişəm. Bu, əsl inqilabdı. – Sara heyranlığını gizlətmirdi. – Məncə, dünyanın bunlardan xəbəri yoxdu. Burda, deyəsən, doğrudan da yeni insan yaranır.

– İnsan demək çətindi. Bu, eybəcərlikdə inqilabdı. – Aydın Qaraxanlı akvariumların qarşısına qoyulmuş lövhədə mutantın tarixçəsini, hansı şöbənin, laboratoriyanın, qrupun işi olduğunu oxuyurdu.

– Parentallar erası. "Super insan, super güc". – Sara təsəvvür elədiyini yaşayırdı, gələcəyi görürdü.

– Yoldaş Sara, səncə görüntü bir az fərqli deyilmi? Nümunələr göz qabağındadır.

– Biz sağlam, güclü, ağıllı gələcək üçün burdayaq. Burda sürətlə inkişaf etmiş elm var. Mən bunu görürəm.

– Daha çox cinayətə oxşadıram. Axı, bunlar genə müdaxilədi.

Anastasiya Mixaylovna onları "Genetologiya Elmi-tədqiqatlar İnstitutu"na aparanda Aydına burda heç kimin darıxmadığını dedi.

İçəridə Saranın yolu ayrıldı; "İn Vitro"[1] şöbəsinə keçdi. Anastasiya Mixaylovna Saraya laboratoriyanın nömrəsini dedi.

Aydın Qaraxanlı Anastasiya Mixaylovnanın maskasındakı rəqəmi görmüşdü, bir də baxdı; onların qrupu 40-dan başlayırdı, amma qrupun birincisi Anastasiya Mixaylovna deyildi, rəng fərqliydi.

Şöbənin girişinə "Beriya"[2] laboratoriyası yazılmışdı. 2 nömrəli qapıdan geniş otağa girdilər. Qapıyla üz-üzə əməliyyat çarpayısı qoyulub. Çarpayıdan sağda da, solda da cihazlar, monitorlar quraşdırılıb. Çarpayının başından naqillər sallanır. Yuxarıda dairəvi projektorun bir işığı yanırdı, o da çarpayıda lüt oturmuş əsnəyən qızın başından qucağına, dizlərinə süzülürdü. Onun bədənində köhnə yaraların yerləri qaysaq bağlamışdı. Tikişlərin, çapıqların izləri görünürdü. Qoluna, buduna təzə kəsik atılmışdı, qanı hələ də süzülürdü. 41, 47 uniformalı həkimlər əllərindəki planşetdə nəyisə müzakirə eləyirdilər.

– Yoldaş Anna, bacardıq. – Anastasiya Mixaylovnanı görəndə kişi səsi eşidildi. 47 qızın gözlərini bağladı, skalpeli götürüb onun sol budunun incə yerinə kəsik atdı. Aydının qeyri-ixtiyari sızıldadı. – Hissiyyat yoxdur. İndi F30-un dərisiylə ayaqqabımın dərisi eynidir.

– Anna yoldaş, F30 bütün əmrlərə cavab verir. – Bu dəfə qadın səsi idi; əlində skalpel olan 47 nömrəli maska.

– Bu uğurdu, yoldaşlar, – Anastasiya Mixaylovna onları alqışladı. – Əsl uğur. Elmin, zəhmətin parlaq nəticəsi...

47 qızın süzülən qanını məhlullu pambıqla sildi.

– Bir də psixometrik telesteziya nümunəsinə tamaşa edin. İndi baxın skalpeli necə tapır. – 41 skalpeli gizlətməyə otaqda yer axtardı. Otaq geniş idi; divar boyu aşağı, yuxarı ağ üzlü tibbi şkaflar, cihazlar düzülmüşdü. Ortalığa çarpaz arakəsməli dörd nəfərlik iş stolu qoyulmuşdu. 41 stolların başına fırlanır, trayektoriyasını qəsdən xaotikləşdirir, guya gizlin yer axtarırdı. Nəhayət, gəlib Aydın Qaraxanlının kombinezonunun cibinə qoydu. Aydın bunu gözləməsə də səsini çıxarmadı.

41 gəlib yerində durdu. 47 qızın gözlərini açıb skalpeli tapmağı əmr elədi. Qız əsnəyə-əsnəyə çarpayıdan durdu, 41-in otaqdakı trayektoriyasını eyni ilə təkrarladı, gəlib durdu Aydının qarşısında. Onun cibindən skalpeli götürüb göstərdi.

– F30-u aldatmaq mümkün deyil.

Anastasiya Mixaylovna bir də alqışladı:

– Vissarionoviç yoldaşa təhfil verməliyik. Sizin də təqdimat vaxtınız çatıb.

---

*[1] – Eksperimental biologiyada canlı orqanizmlərdən kənarda, sınaq şüşəsində təcrübələrin aparılması texnologiyası*

*[2] – Lavrenti Beriya. SSSRİ Baş Dövlət Təhlükəsizliyi Komissarı*

– Yox hələ, Anna yoldaş, – 41-in məyusluğunu səsinin düşük tonundan anlamaq olardı. – Prental[1] həddindən artıq əsnəyir. Lap yersiz yerə. Normal deyil. Bu qüsurla yoldaş Vissarionoviçin qarşısına çıxa bilmərik. Bizə bir az da vaxt lazımdı. Uğurlarımız az deyil, amma indi vaxta ehtiyacımız var.

– Vaxt yoxdu. Yoldaş 46 davam edəcək. – Aydın Qaraxanlı başını tərpədərək onları salamladı. Hələ də fikri qızda qalmışdı. Qız əlini aşağı salmaq üçün əsnəyə-əsnəyə əmr gözləyirdi. Aydın Qaraxanlı qızın insan, ya süni intellektli avatar olduğunu aydınlaşdıra bilmirdi. Qeyri-ixtiyari Aydın da əsnədi. Mən də əsnəməyin gülmək kimi yoluxucu olduğunu eşitmişdim.

Anastasiya Mixaylovna:

– Yoldaş 46, ona diaqnoz qoyun. – dedi. Anastasiya Mixaylovnanın da sözü əsnəyə-əsnəyə dediyinə indi fikir verdim.

– Aydın Qaraxanlı. – Aydın qəfil müraciətdən çaşdı. – Mən... tanış deyiləm. Gərək müayinə edəm.

– Tələsin, yoldaşlar. – Anastasiya Mixaylovna sözünü astanada dedi. – Vaxt daralır. Vissarionoviç yoldaş nəticələri gözləyir. Tələsin!

Aydın Qaraxanlı hələ də çaşqın baxırdı. Bir az da pərt olmuşdu, Anastasiya Mixaylovnanın bu adamların yanında onu rəqəmlə çağırmağı arına gəlmişdi. Əslində, təmtəraqlı təqdimat gözləyirdi. Ən azından, elmi nəzəriyyəsini xatırladacaq, deyəcəkdi: "Buyurun, adını eşidib, üzünü görmədiyiniz neyrocərrah Aydın Qaraxanlı". Amma bu adamlara heç onun adı da maraqlı deyildi, nömrə kifayət eləmişdi.

Aydın Qaraxanlı çarpayının başındakı mavi zolaqlı xələti götürüb F30-a uzatdı, qız geyindi. Aydın F30-la necə danışacağını, müayinəyə hardan başlayacağını bilmirdi. Həkimlər elə bil bu an ondan möcüzə gözləyirdilər.

– Əyləş... – Qıza dedi. Monitorda tomoqrafiyanın görüntüləri qalmışdı. Aşkarlanmış hansısa ağ nöqtə dairəyə alınmışdı. Cihazların əksəriyyətinin az qala iyirmi-otuz yaşı olardı, bunların bəzilərinin imkanları elə də geniş deyildi. Amma ilk dəfə burda gördüyü, nə işə yaradığını bilmədiyi son model cihaz da divara söykənib iri monitor gözləriylə baxırdı. Ona elə gəldi ki, cihazın içində kimsə var, çıxmaq üçün içəridən döyəcləriy. Şüşə tünd olduğundan içini aydın görmürdü.

– Yoldaş 46...

– Aydın Qaraxanlı. – Aydın qadının sözünü kəsib əl uzatdı. Adını eşitdirəcək şəkildə ucadan tələffüz elədi. – Yəqin məndən əvvəl adımı eşitmisiz? "Ağrının matris düsturu" – Aydın məşhur nəzəriyyəsinin adını fərəhlə dedi.

– Nana Dolidze. – Aydının əlini tutdu – Yoldaş Qaraxanlı, – kimisə uniforma nömrəsiylə çağırmaq təhqir deyil. Rəqəmlər göz qabağındadır. – İşarət barmağıyla alnındakı 47-ni göstərdi. – Bizi rəqəmlər idarə eləyir.

Aydın Qaraxanlı:

– Xəstənin anamnezinə baxmaq istəyirəm.

*[1] – İng: Valideyn. Yeni insan növü*

– F30 xəstə deyil. Könüllüdür. Biz onun bütün ağrı siqnallarını söndürmüşük.

– Bunu necə bacardınız?

– Onun bütün xatirələrini sildik.

– Xatirələrini? Hansı üsulla?

– Süni hipotalamus transplantasiya etdik. Keçmiş silindi. Bircə bu əsnəmə qalıb. Sinirlə əlaqəli olduğunu düşünürük.

41:

– Təmir lap təcili olmalıdır. Yoldaş Annanı eşitdin.

– Təmir? Siz onun haqqında cihaz kimi danışırsız...

– Cihaza süni intellekt yerləşdirib insana bənzətmək çətin, həm də bahalı prosesdir. Sərfəli deyil. – 41 xırıltılı səsinə jestlərini də qatmışdı. Burda işlərin başında durduğunu bədən diliylə göstərirdi.

Aydın Qaraxanlı:

– Adın nədi? F30 yox, əsl adın. Valideyinlərinin sənə verdiyi ad. Yaxşı, neçə yaşın var? – Qız susurdu. – Ailəndən kimi xatırlayırsan? Demək, heç kimi. – Yoldaş Dolidze, anamnezə mütləq baxmalıyam. Onun hansı təcrübələrdən keçdiyini bilsəm, diaqnoz qoymaq asan olar. – Mənə elə gəldi Aydın Qaraxanlı nəyə qadir olduğunu bu adamlara elə indi sübut edəcək.

– Kompüterində var. – Nana Dolidze dedi. Ortalıqdakı iş stoluna yaxınlaşdılar. Aydına yerini göstərdi.

– Yoldaş Dolidze, bəs əvvəlki 46-ya nə oldu? – Şüşənin üstünə yazılmış 46 rəqəmini işarət barmağıyla döyəclədi.

– Müqavilə vaxtı bitdi. Vissarionoviç yoldaş vidalaşdı.

– Məncə, mənzilində ölüb. – pıçıltıyla dedi, – Həmən mənzili mənə veriblər. Adamın cəsədi yerdə qalıbmış...

– Yoldaş Morud Uluqbeki yola saldıq. F30 onun son işi oldu.

– Morud?! Demək, gedib. Mo-rud... – Aydın adı təkrarlayıb yaddaşına yazdı. – Bəs, mənzildə kim ölüb?

– Mənzildə nə baş verdiyini görməmişəm.

Nana Dolidze işinə qayıdanda Aydın monitorun yuxarısındakı cücəgöz kameraya alnındakı QR kodu oxutdu, ekran işıqlandı. Ensiz pəncərə açıldı, fayl yüklənirdi. Bitəndə proqram açıldı; Anamnez "Beyin köçü. F30".

Aydın Qaraxanlı oxuduqca bir yandan da beyninin bir hissəsində öz səsi danışırdı. Mənzildə ölmüş adamın Morud Uluqbek olmadığına məntiqli izah axtarırdı.

Aydın durub əməliyyat çarpayısına yaxınlaşdı.

– Siz bu qızla laboratoriya siçanı kimi davranmısız.

– Rahat gələcək əzablı eksperimentlərin üzərində qurulur. F30 ağrılarıyla doğulmuşdu. Yeddi yaşlı bir qızın necə əzab çəkdiyini görsəydin... – Nana Dolidze gördüyü işdən başını qaldırmadan danışırdı. – 12 ildi onun üzərində çalışırıq. Bu da nəticə; ətin kəssən, xəbəri olmaz.

Aydın Qaraxanlıya elə gəldi ki, Nana Doludze onu ələ salır. Bunu ciddi qəbul etmək istəmirdi. Bir uşağın üzərində belə təcrübələr aparmağın cinayət olduğunu xatırlatdı.

41 razılaşmadı:

– Kəskin ağrılardan əzab çəkən insan yaxşıdır, yoxsa ağrı hiss etməyən parental? Səncə, ağrıların əlində qıvrılmaq kimə xoşdur?

Aydın telekartını çıxarıb göstərdi:

– Yəni bunun kimi; ekranını sındırsam, ağrımaz. Ağrı yoxdursa, duyğular, hisslər olarmı?

– Zərərli vərdişlərdən uzaq durmaq lazımdır. Gəlin razılaşaq ki, ağrını hər şeyə qurban vermək olar. – 41 bu dəfə Aydına baxdı. – Bir əsgər təsəvvür elə; hücuma keçir, bir güllə gəlir, gəlir, – skalpeli güllə kimi havada süzdürdü, gətirib Aydının sinəsinə yapışdırdı. – Dəyir. əsgər yaralanır, amma canı ağrımır. Lap yıxılsa da, durur, ölənə qədər hədəfə doğru qaçır. Rinqdə döyüşçü... Zərbələrin ağrısını hiss eləmir. Ya boks kisəsi, ya onun başı. Eynidir. Ağrı insanı ləngidir, qorxudur, məğlub edir. Hər kəs məğlubedilməz olmaq istəyir axı. Budur bizim nəticə! F30! Onun ağrıları yoxdur. İdeal ola bilər. Sadəcə, bu əsnəmək... Qorxuram Vissarionoviç yoldaşı da yoluxdurar.

Aydın Qaraxanlı 41-in təntənəli çıxışından sonra etiraz edəcək tutarlı söz tapmadı, ya da bunlara nəyisə izah eləməyi yersiz hesab elədi. Sadəcə, başını sağa-sola yırğalamağa gücü çatdı.

– Əsnəmək! – Aydın Qaraxanlı, nəhayət, istehzayla dilləndi. – Bəli, əsnəmək dəhşətli simptomdu. Ağrının nə olduğunu bilməyən bir adam fasiləsiz əsnəyir... Hələ bir yoluxdurur da.

Qızı çarpayıya bağlamışdılar, barmaqlarına, başına rəngli naqillərin iynələri sancılmışdı. Monitordakı diaqramlar ağrı təzyiqini göstərirdi. Qız qəfil cikkə çəkib qışqıranda diksindilər. F30 ağrının şokundan huşunu itirdi.

Nana Dolidze sinirə hansı təsir gücündə bədənin reaksiya verdiyini sevincək dedi. 41 razılaşmadı. Dedi, onun üzərində bir az da işləməliyik. Tələb budur ki, parentalın istənilən sinirini klippatorla[1] tutub dartsaq, hiss eləməsin.

Nana Dolidze qızı çarpayıdan açanda ayıldı. 41 F30-un başına çənə korsetini keçirdi, qayışı dartıb təpəsində kip bağladı. İndi nəinki əsnəmək, qız heç dilini çıxarıb qurumuş dodağını da islada bilməzdi. Qıza otağına getməyi əmr elədi.

F30 baş divardakı şüşəli qapını açanda içərinin led işıqları yandı. Otaq daha çox biradamlıq həbsxana hücrəsinə, ruhi dispanser palatasına oxşayırdı: içəridə bir çarpayı, bir yığcam stol, stul, bir unitaz, bir duş görünürdü. F30 çarpayıda oturub kürəyini divara söykədi, dizlərini qucaqlayıb baxırdı. İndi qız içinə əsnəyir, yaşaran gözlərini ovcuyla silirdi. Adam bilmirdi ağlayır, yoxsa doğrudan da gözləri sulanır. Kəmərləri dartıb

[1] – *Tibbdə qayçıya bənzər tutucu alət*

açmaq, başından çıxartmaq da elə bil ağlına gəlmirdi, ya da oturub əmr gözləyirdi.

Aydın qeyri-ixtiyari əsnədi, tez də ağzına vurub əsnəməyini yarımçıq qaytardı. Qızın bu an daxilən əzab çəkdiyini yəqin hiss eləyirdi. Onun yerinə tıncıxdı, ürəyi sıxıldı, dartıb maskasını üzündən götürdü. Hirsindən yanaqları allanmışdı. Amma bu dəfə səbrini basdı, sakitcə dedi:

– Belə işgəncə verməkdənsə, reabilitasiya etmək olar.

– Yoldaş 46, sənin vəzifən onun əsnəməyini dayandırmaqdı. Məsləhət verməyi hamı bacarır.

Nana Dolidze Aydın Qaraxanlıya F30-un bütün arxiv tomoqrafiyalarını göstərmək istədiyini dedi. Monitorun arxasında yanaşı əyləşdilər.

Nahar fasiləsində yeməkxanaya birlikdə getdilər. Mavi işıqlı dəhlizin divarları yaşıl boyanmışdı. Boyanın üstünə müxtəlif rənglərdə, ayrı-ayrı adamlar tərəfindən riyazi düsturlar, həndəsi fiqurlar, kimyəvi formullar, fiziki həllər, sözlər yazılmışdı... Səbrsiz müəllimin, tələskən tələbələrin əl işlərinə bənzəyirdi. Üz-üzə dəmir qapıların boğazdan yuxarısı barmaqlıq pəncərə idi; bəziləri üzlərini bu barmaqlığın arasına salıb baxırdı, yeməkxanaya gedən eyni simalı həkimləri gözləri ilə ötürürdülər. Bir nəfər dəmir qapını döyəcləyir, üzünü dəmir barmaqlıqdan çıxarıb bağırırdı, deyirdi Anastasiya Mixaylovnanı çağırın. Deyirdi mən könüllü deyiləm... Deyirdi maskamı qaytarın...

Boyu çatmayanlar dartınıb boylanırdılar, balaca əlləri paslı armaturdan bərk-bərk yapışmışdı, çənələrini dəmirə dayamışdılar, gözləri yarıyumulu görünürdü.

Dəhlizdə iki nəfər yerdə çapalayırdı; belləri ayrı, ayaqları bir bütöv olan şalvar geyinmişdilər, kəmər bellərinə kip bağlanmışdı. Başqa iki nəfər bədəni ayrı, qolları bir, boğazı boru kimi bir-birinin başından çıxan jaketin içində çapalayırdı. İki nəfər kürəkləri yapışmış bir pencək geyinmişdi. Aydın bu paltarların birləşdirdiyi adamlara təəccüblə baxsa da, səbəbini Nana Dolidzedən soruşmadı.

Yeməkxananın taybatay qapısından girdilər. Divarlar süd bəyazlığına boyanmışdı, içəridən arpa yarmasının, qarabaşağın, kişmiş kompotunun qarışıq iyi gəlirdi. Uzun stollar, skamyalar düzülmüşdü. Tez gələn qruplar oturub illərin acı kimi yeyirdilər. Dəmir boşqabların, qaşıqların çaqqıltısı divarların bəyazlığına çırpılırdı.

Sıraya durdular, hərəsi bir sini götürdü, alüminium boşqablara çəkilmiş sulu yeməyi, iki dilim çörəyi, üstündə iki tikə ət olan qarabaşaq nimçəsini, kişmiş kompotunu alıb, oturmağa yer axtardılar. Bir stolda yanaşı oturan üç nəfərin qarşısı boş idi. 41 bir az becit gedərək əlindəkiləri stola qoyub yer tutdu. Yanaşı oturdular. Aydın ortaya düşdü. Heç kim maskanı çıxarmadı deyə, Aydın da məcbur olub maskayla yeməyə çalışdı. Hər dəfə qaşığı ağzına aparıb başını qaldıranda bir nəfərə baxırdı; kimin qadın, kimin kişi olduğunu bilmək istəyirdi. Aydın əsasən onların maskayla necə

yediklərinə fikir verirdi; görürdü ki, rahatdılar. Maska onların əsl üzlərinə çevrilmişdi. Aydın hələ öyrəşə bilmirdi, məcburən əlini qaşığın altına tuturdu. Əlinə düşən yağlı damcını bilmirdi hara silsin. Səbri çatmadı, maskanı çıxardı. Qarşısında oturan adam başını qaldırıb onu maskasız görəndə öyüdü. Yanındakılar da iyrənib üzlərini yana çevirdilər.

Nana Dolidze:

– Bu tərbiyəsizlikdi. Ayıbdı axı.

Aydın Qaraxanlı dərhal maskanı üzünə taxdı.

– Maskayla yemək çətindi...

– Heç kim borclu deyil sənin eybini görsün.

– Eybimi? Yəni üzümü deyirsən?

41:

– Sosial prestij qaydalarını pozursan. Özü də yemək vaxtı. Sən könüllüsən, yoxsa seçilmiş?

Aydın indi 41-ə daha diqqətlə baxırdı: əllərinin qırışından, dərisinə düşmüş qocalıq lentiqosundan[1] kişinin yaşını təyin eləməyə çalışdı.

– Yoldaş 41, neçə ildi burda yeyirsən?

Bu dəfə 41 dolu qaşığını havada saxladı, başını çevirib Aydına baxdı. Bu vaxt onun qaşığının altından yağlı damcılar düşürdü.

– Bilmək istəyirəm, niyə birlikdə işlədiyiniz Morud Uluqbek qızın əsnəməyini dayandırmadı. Sadəcə, vidalaşdı. – Aydın ikisinə də baxırdı. Nana Dolidze də deyəsən tutarlı bir cavab vermək istəmirdi: ya bilmirdi, ya da gizlədirdi.

– Yoldaş Morud Uluqbek müqaviləsinə uyğun işini bitirdi.

Aydın bu dəfə kimlərinsə eşidəcəyindən ehtiyatlanıb səsini qısdı:

– Ölüb! Ola bilsin öldürüblər. Mənzilində. Müqavilənin vaxtı bitəndə bu, bizim də başımıza gələ bilər. Onun gəmiyə minib getdiyini kim görüb?

– Gəmiyə niyə? – 41 soruşdu.

Qarşısındakı adam qisas alırmış kimi, Aydını pərt eləməyə çalışdı.

– Bu elə bilir gəmilər meşədə üzür.

– Burda dəniz yoxdu.

– Yoldaş Vissarionoviç necə istəsə, elə yola salar.

– Bura necə gəlmisiz? – Aydın hövsələdən çıxdı. – Məni gəmi gətirib. Sahildə bizi əsgərlər qarşıladı...

Onlar bu dəfə həqiqətən mat-məəttəl bir-birlərinə baxırdılar. Ya inana bilmirdilər, ya da xatırlamağa çalışırdılar.

– Sən doğrudan gəmi görmüsən? – Nana Dolidze soruşdu. – Gəmi!

– Bu yoldaş normal deyil. Əvvəl süfrədə uniformasını çıxarır, indi də deyir onu Miroqrada gəmi gətirib. – Başda oturan boz maskalı adam kompotunu içib stəkanı stola qoydu. – Hələ bir soruşur, "bura necə gəlmisən?" Bu nə axmaq sualdı. – Boşqablarını siniyə yığıdı. – Bu lap ağ oldu. Rəhbərliyə şikayət edəcəm. Görək kimsən? – Kişi sinini götürüb ayağa durdu.

[1] – *Piqment ləkəsi*

– Bəs, sən kimsən? Heç özündən soruşmusan?

Kişi gedəndən sonra heç kim danışmadı. Aydın Qaraxanlı yeməyi axıra qədər yeyə bilmədi. Tikələr qayış kimi bərk idi. Duzsuz qarabaşaq ağzından düşürdü. Nana Dolidzedən sonra o da nimçəsini götürüb apardı.

Yeməkxananın qapısından çıxanda Nana Dolidze bir də soruşdu ki, doğrudan bura onu gəmi gətirib? Yəni bu yaxınlarda dəniz var? Aydın Qaraxanlı mayakı da gördüyünü dedi. Dedi istəsən, birlikdə dənizə baxmağa gedərik.

– Bilirsən, hələ mənim assistentim Alı da var, Ayıdı. Şəhərə keçid məntəqəsində bizi ayırdılar. Demişdilər kuryer mənzilə gətirəcək. – Aydın telekartını çıxarıb Raya Kozakovayla əlaqə saxladı. Xahiş elədi ki, elə indi onun ayısını qaytarsınlar. Əməliyyata girməlidir, assistentsiz ona çətin olacaq. Mənzilinə təmiz döşək, yastıq, çarpayı, televizor istədi.

Nana Dolidze ayrılıb gedəndə dəhlizin divarları Aydının diqqətini çəkdi, ləngiyib oxumağa çalışdı. Düsturların çoxunun üstündən ötəri keçirdi, bəzi formullar ona tanış deyildi. Diqqətini daha çox kiçik təsvirlər, sözlər çəkirdi. Səliqəsiz yazılmış hərfləri oxumaq istəyirdi. "Mavi göy üzü, büllur kimi göl, yamyaşıl çəmən... Atlar çapar... atlar... Mənim yurdum ordadı... Mənim evim ordadı... Mənim yarım ordadı, Mənim... ordadı..." Aydın Qaraxanlı ortada pozulmuş sözü oxuya bilmirdi. Brayl əlifbasını oxuyan kor kimi barmaqlarını sürtüb gördüyü oyuğu da, çızığı da, çatı da anlamaq istəyirdi. Yəqin ona elə gəlirdi ki, Misirin sirri ehram divarlarına çəkildiyi kimi, Miroqradın sirrləri də bu divarlara yazılıb, sadəcə, doğru cümləni, dəqiq işarəni tapmalıdır.

41 gəlib onu yanladı.

– Sən getmirsən?

– Hara?

– Sağıma.

Yeməkxanadan çıxan kişilər dəstə-dəstə oraq-çəkiçli qırmızı dəhlizə çıxır, ordan da "Sovxoz" guşəsinə keçirdilər. Hamı öz sırasını gözləyirdi, sonra "Mao üçün unitaz"[1] yazılmış qapıdan içəri girdilər.

41 ələ də sözünü bitirməmişdi:

– Adamın başı işinə elə qarışır ki, özünü unudur.

Göz içərinin alaqaranlığına alışanda görürsən ki, yerdən üç pillə yuxarı səkilər var. Adamlar şalvarlarının düymələrini açmaq üçün eşələnə-eşələnə pillələri qalxır, nikelli paralel qolların arasında dururlar...

Aydın:

– Hər kəs hardan gəldiyini bilməlidir. Axı, hərə öz millətinin genini daşıyır. İtsə necə olar?

Ön məhəccərdə hər adam üçün uzun silikondan məməciklər qoyulmuşdu. Məməciklərin arxasından xortum uzanıb aşağıdakı xüsusi

---

*[1] – "Mao üçün unitaz" – Əməliyyatın adı. Mao Tzse Dunun 1949-cu ildə SSRİ-yə səfəri zamanı Çin liderinə xüsusi unitaz hazırlanıb. Məqsəd çinli liderin xarakterini analizlə öyrənmək olub*

bidona birləşirdi. Fermada belə süd sağım aparatlarını çox görmüşdüm; sağıcılar selekon məməcikləri inəyin süd dolu əmmiyinə taxırdılar, nasos işə düşəndə süd bidona axırdı.

Düşənlər arxa qapıdan çıxırdı.

– Deməli, hər gün nahardan sonra?

– Sabah tikələri mütləq ye. Yoxsa sənə çətin olacaq.

– Bəs təbii yol?

– Sən heyvan deyilsən axı.

Aydın nəyisə anlamağa çalışdı, sonra dedi ki, bilmirəm genimin öyrənilməsi bu işin yaxşı tərəfidir, ya pis?

Aydın laboratoriyaya gələndə F30 stulda oturmuşdu. Nana Dolidze qapının qarşısında dayanıb ona baxırdı. Aydın gəlib Nana Dolizdenin çiynindən içəri boylandı. Qız qaşığını təmiz nimçənin içinə qoyub özündən bir az qabağa itələmişdi, görünür, yediyini bitirmişdi, indi harasa lap uzaqlara əsnəyə-əsnəyə baxıb, boş fincandan nəsə qurtumlayırdı.

Aydın Qaraxanlı Nana Dolidzeyə baxdı. Üzünün ifadəsini görməsə də, Nana Dolidze Aydının təəccübünü, sualını anladı.

– Bu gün öz istədiyini yeyib-içir.

– Nə yedin? – Aydın Qaraxanlı içəri keçdi. F30-un qarşısında durub onun gözlərinin içinə baxdı.

Qız ona gülümsədi; gözləri tumurcuq kimi çırtlayıb, çiçək açdı:

– Laqman.

– İçdiyin nədi?

– Qımız.

Aydın Qaraxanlı bir anlıq harasa lap uzağa getdi; ilk dəfə kasada qımız içdiyi həmən qırmızı döşəməli otelin restoranına. Laqmanın dadına da elə bu restoranda baxmışdı; konfransdan sonra, demişdilər bu, qazax xalqının milli xörəyidi.

– Onun telepatik qabiliyyəti var? – Nana Dolidzedən soruşdu.

– Dəqiq məlum deyil.

Aydın qızın telepatik gücünü yoxlamağa çalışdı; ağlından keçirdiyini qızdan soruşdu. Qız bilmədiyini dedi. Aydın yenə şübhəli qaldı, bir neçə sual verdi, dünənlə, bir ay əvvəllə bağlı aldığı cavablar onda fikir formalaşdırdı.

– Yoldaş Dolidze, – nəzakətlə dedi. – Mənə belə gəlir, bu, dağınıq sklerozdu. Ağır eksperimentlər nəticəsində beyinlə orqanizmin üzvləri arasında əlaqə pozulub. Üz əzələlərinin hərəkətini tənzimləyən beyin hüceyrələri zədələnib. Nəzarətsiz, həm də qeyri-ixtiyari əsnəmələr baş verir.

– Bunun reabilitasiyasını necə görürsən?

– Ancaq yaddaşı qaytarmaqla mümkün olar. Geriyə qayıtmalıdı. Özünü tapana qədər geriyə...

Nana Dolidze qızın çənə karsetini kip bağladı. Aydının qoluna girib otaqdan çıxardı, dabanıyla qapını örtdü.

– Yoldaş Qaraxanlı, qətiyyən olmaz. Əvvəla hipetalamusu sünidi. Sənə demişdim axı, hər şey silinib. Yox, əgər xatırlasa, söndürdüyümüz ağrı ocaqları yenidən oyanacaq. Deyirsən, çəkdiyimiz bu qədər əziyyəti onun bir əsnəməsinə qurban verək? F30 dönüb olsun adı bir adam? Yox, buna imkan vermək olmaz!

– Kimin daha çox əziyyət çəkdiyi göz qabağındadı. Ağrı siqnallarını söndürmək doğru deyil. Eksperimentlərin təsiri öz işini hələ də gizlicə görür. Radionun səsini alanda elə bilirsən aparıcı orda danışmır? Musiqi davam eləmir? Sən beynin səsini almısan, ağrı davam eləyir. Qız hər dəqiqə ölə bilər.

– Quyruğu qapı arasında qalanda civildəyən siçovul yoldaş Vissarionoviçin nəyinə lazımdır? Heç bilirsən Sarı Bank bizim təcrübələrimiz üçün nə qədər pul ayırıb?

– Bəs, ölsə?

– Bilirsən növbədə nə qədər könüllü var? Burda səhər, günorta, axşam havayı isti yemək verilir. Çöldə hamı adi adam olmaqdan bezib. Yeni tip, yeni növ bir varlıq olmaq istəyirlər. Həm də çalışırlar hamıdan birinci olsunlar, nəyə çevrilməyin onlar üçün fərqi yoxdur. Məsələn; bir hidra kimi regenerasiya olmağı kim istəməz? Əlin, ayağın kəsiləndə dırnağın, saçın kimi uzanıb öz yerini alsa, pis olar? Bu ki, əladı! Bir timsah kimi insan bədəni qocalmasa, bioloji ölüm baş verməsə, necə olar? Təbiətdə var, deməli, mümkündür. F30 kimi ağrını hiss etməmək. Kim istəməz onun yerində olmağı? Sən dırnağını, saçını kəsəndə ağrıyırmı? Bəs, niyə başqa orqanlar da belə olmasın? Sən ki, gördün onun hissləri necə güclüdür. F30 gömrük itlərindən də bacarıqlıdı. İstəməzsən belə bacarığın olsun? Bilirsən bioloji şöbədə nəyə nail olublar? Zəhərinin öldürmədiyi parentala. İsətənilən ilan sancması onun vecinə deyil. Demək, əsas nəticəyə baxmalıyıq. F30 normal əsnəsə, biz də işimizi uğurlu bitirmiş olarıq. Sonra biz də gedərik. Yaxşı yadıma düşdü, bayaq dediklərin doğrudu? Gəmi əhvalatı...

– Uydurmaq üçün səbəbim yoxdu. İş vaxtı bitəndə səni birlikdə gəldiyim yoldaşlarla tanış edərəm. Bir də onlardan eşidərsən.

Binadan çıxanda hava qaralmışdı. Təmiz havaya nə qədər ehtiyacı olduğunu indi ciyərlərini dolduranda hiss elədi. Yorulmuşdu. Bir neçə dəfə özünü dərindən əsnətdi. F30-u fikirləşdi: "Qız təmiz havaya çıxırmı? Yoxsa, onun üçün dünya elə laboratoriyadan ibarətdi? Ağaclar, binalar, yerə bu qədər yaxın görünən ulduzlar onun yadına düşürmü?"

Aydın əvvəl Sabit Ağazadəni, sonra Saranı gördü, professor maskasını çıxarmışdı. Küçəyə endilər. Sarı xətlərin fosforlu olduğu indi bilinirdi. Şəhər ecazkar görünürdü. Amma ətraf Sabit Ağazadənin gözündə bir səhra qədər mənasını itirmişdi. Görünür, nəyəsə əsəbiləşmişdi. Aydın nəzakətlə ondan nə baş verdiyini soruşdu.

– Zəhər düzəldirik. İysiz, qoxusuz, tamsız... – Acıqlı, kinayəli cavab verdi. – Gör ha, özü də məqsədin adını qoymuşuq xilas etmək üçün. Təsəvvür eləyirsən, insanı xilas etmək üçün bizim laboratoriya, bəlkə də, dünyanın ən dəhşətli zəhərini hazırlayır. – Professor özünü acıqlı-acıqlı gülməyə məcbur elədi.

– Zəhər olmasa, onun zərdabı da olmaz. Məqsəd insanları zəhərlənmədən qorumaqdı, professor. – Sara həvəslə izah elədi. – Zəhərdən peyvəndləmə. Bizim inkubatorlarda embrionlara həmən vaksinlər vurulacaq. Gələcəkdə insanlara heç bir zəhər təsir etməyəcək.

– Qəbul eləmirəm! – Sabit Ağazadə özündən çıxdı. – Embrionun peyvəndlənməsi ağlabatan deyil. Bu qətldi! Zəhər peyvəndi! – O da əgər yaşasa, gələcəkdə mütləq ağır fəsad verəcək. Şübhəsizdir.

– Yoldaş 13, elm əvvəlki deyil, burda inqilab olub. – Sara razılaşmaq istəmirdi. – Tez-tez eşidirik hansısa dövlət katibi, hansısa iş adamı zəhərlənib. Yadınızda deyilmi, dedilər Şuşa otelində NATO-nun generalı öldü. Pilləkənləri qalxanda insult oldu. Görüşə girə bilmədi. Niyə? Səssiz, qansız, klassik, həm də təbii görünən qətl. Pillələri qalxırsan, təziq artır... Nəticə məlumdur. General vaxtında peyvənd olsaydı, orqanizm zəhəri tərə, ya sidiyə çevirərdi. Terrorçu məqsədinə çatmazdı.

Sara sözünü bitirənə qədər Sabit Ağazadə başını buladı:

– Məqsəd də, hədəf də aydındı. Genetikaya uyğun zəhər, zərdab hazırlamaq. Yox... Yox! Mən bura genetik silah düzəltməyə gəlməmişəm. Heç bilirsən nə qədər könüllü var? Könüllü! Beyinsizlərin adını da "könüllü" qoyublar... Hər gün onlara zəhərin necə təsir elədiyini görmək istəmirəm. Sabah tələb edəcəm məni geri göndərsinlər.

– Bu gün gözümün qabağında ana öz uşağını öldürdü. Ətini yedi. Buqələmun sindromu. Heç bir hiss, analıq duyğusu, insanlıq... Dəhşət! Dəhşət! Onu alqışladılar. Cəmiyyətə qayıtmağına qərar verildi. Bircə mən etiraz elədim, tək olduğum üçün qəbul olunmadı.

– Siz yaxşı tərəfdən baxın. Elm də bir növ müharibədir axı, burda da qurbanlar olmalıdır. Zəif insanın dövrü bitməlidir. Transgender parental güclüdür; hiperhiss, hiperintellekt. Bütün ali məqsəd sağ qalmaq deyilmi? Sağ qalmaq üçün ağrı kəsməlidir. Yoldaş Vissarionoviç də bu ağrını kəsməyə çalışır.

– Görürəm Vissarionoviçin zəhəri sənə çoxdan təsir edib. – Professor sözünü hökmlə deyib, üzünü Aydına çevirdi. – Bizim bu lənətə gəlmiş şəhəri gəzmək ixtiyarımız var, ya yox? Bütün günü yerin altında ilan kimi işləmişəm. Əsəblərim yerində deyil.

– Mənim də. Məncə, gəzə bilərik, professor. – Aydın dərhal dilləndi, – Yaxşı bir yerdə adam kimi yemək yeyərik. Bizim laboratoriyada bir yoldaş var. İstəyirdim sizinlə tanış olsun. Ona gəmidən danışaq. Tərslikdən, bu gün gecə növbəsinə qalacaq. Bu adamlar gəminin, dənizin olduğunu ya

görməyiblər, ya da unudublar. – Aydın boylanıb binadan çıxan adamların arasında Nana Dolidzeni axtardı.

– Sizə qoşula bilmərəm, hörmətli yoldaşlar, qızım yəqin məktəbdən qayıdıb. – Sara Dmitri pospekti ilə düz getdi.

– Hamısı, bax, bu sarının fəsadıdı. – Professor paralel xətləri tapdalaya-tapdalaya dedi. – Yol sarı... tutacaq sarı... yazılar sarı... lövhələr sarı... Bank sarı... Hər yerdə sarı... Hücum ediblər beynimizə...

Aydın şəhərin mərkəzinə gedən küçələrin nömrəsini naviqatordan tapdı. Professor onun komandanlığına bu dəfə razı görünürdü. Deyirdi, nə olur-olsun, beynim dincəlsin.

– Professor, doğrudur, mənə də elə gəlir burda beyinlər yuyulur. Qəribəsi də budur ki, heç kim hardan gəldiyini bilmir. Qayıtmaq üçün keçmişləri yoxdu.

Raya Kozakovanın səsi ikisinin də qulaqcığında eyni anda səsləndi. Geri qayıtmağı tələb eləyirdi. Deyirdi, şəhəri gəzmək üçün onların istirahət günü bu gün deyil. Vaxtında mənzilə qayıtmalı, tez yatıb, tez durmalıdılar. Operatorun təlimatı Sabit Ağazadəni barıt çəlləyi kimi partlatdı. Professor özünü ələ almadı, deyəsən bütün nizam-intizam qaydaları, təlimlər, qanunlar yadından çıxdı. Raya Kozakovaya bağıra-bağıra sözünü deyirdi. Deyirdi, mən nə sənin, nə də səni ora quraşdıran adamın köləsi deyiləm. Azad insanam, işdən sonrakı vaxt mənə aiddi, hara istəyərəm, ora da gedərəm.

Onun telekartına nizam-intizam cərimələri dalbadal gəlirdi. Hər dəfə də rəqəmlər əvvəlkinin iki qatına vurulurdu.

– Tələb budur! Elə indi məni geri qaytarın. Müqavilədən birtərəfli imtina eləyirəm. Bütün hesabı çıxın, amma məni geri qaytarın! Bu mənim haqqımdır! – Aydın Sabit Ağazadəni sakitləşdirə bilmirdi. Deyirdi, tüpürüm bunların yeni dünyasına. İnsanı iki xəttin içinə soxublar. Bu qədər adam bir zənglə çöməlir-durur. Uşaq bilmirlər, böyük bilmirlər, hamı laboratoriya siçanıdır.

Sabit Ağazadə sarı xəttdən çıxıb iti addımlarla uzaqlaşdı. Gələn bildiriş mesajları vecinə deyildi, heç baxmırdı da. Qulaqcığı da çıxarıb cibinə qoymuşdu.

Aydın onu xəttə qayıtmağa çağırırdı, deyirdi belə getsə, onun hesabında bir qəpik də qalmayacaq.

– Mən insanam! – Sabit Ağazadə bağıra-bağıra yeriyirdi. Di gəl, heç kim dönüb ona baxmırdı, hətta cərgəni ortasından yarıb keçəndə sağa-sola itələdiyi adamlar da bir kəlmə söz demədilər. İstəyirdi hamı ona baxsın. Miroqradda etiraz etməyi bacaran ilk insanı görsünlər. Görsünlər ki, cərimələr qorxulu deyil, sarı xətt onun əl-ayağını bağlaya bilmir.

Nə oldusa, professor sarı xətdən kənarda, – neytral yerdə yıxıldı. Ürəyinin ona badalaq gəldiyini əsməyindən bildim, başı kəsilmiş toyuq kimi çırpınırdı. Sinəsini didir, yaxalağını dartışdırırdı. Əli çatsaydı, ürəyini

ovuclayardı. Mənə elə gəldi ki, onu hava boğur; adi hava onun üçün karbon qazına çevrilib.

Deyəsən, paralel sarı xətlər bu adamlar üçün, əslində, hündür divarlardı, divarların o üzündə nə baş verirdi, görmürdülər. Heç şübhəsiz, ötüb keçənlərin hamısı onu görürdü, amma bir addım əl atıb yerdə çapalayan adamı dartıb sarı xəttə salmırdı. Ayağının ucunu da bu həddən kənara qoymurdu. Hamı vaxtında yatmağa tələsirdi. Nə nizam-intizamı pozurdular, nə də dayanıb başqasını ləngidirdilər.

Aydın Sabit Ağazadəni bir neçə yaxın küçədə axtardı, sonra bunun mənasız olduğunu anlayıb binaya qayıtdı. Mənzilinə çıxmamış, professorun qapısını döydü. Hansısa yolla ondan tez gəldiyini güman elədi. Sonra bir-bir qapılara getdi, bilmirdi psixoterapevtin ailəsi hansı mənzildədir. 16 nömrəli qapı açılanda sevindi. Tanış gəlin qarşısında durmuşdu.

– Salam. Yəqin məni tanıdız? Biz bir qrupda gəlmişdik...

– Nə lazımdı?

– Səhər də, işdən sonra da sizi, yoldaşınızı görmədim.

– Səni bizə nəzarətçi təyin ediblər?

– Yox... Yox. Nigaran qaldım. Axı, biz yerliyik... Yoldaşınız da evdədirsə, içəridə beş dəqiqəlik bir vacib məsələ haqqında danışardıq?

Gəlin bunu əri Mikayıldan soruşmalı olduğunu dedi, qapını örtdü. Qapını Aydının üzünə bu dəfə Mikayıl açdı, onu içəri könülsüz dəvət elədi.

– Əslində, işə hazırlaşırıq. Gecə növbəsiyik. Vaxt elə də çox deyil. Otağı da görürsən, hələ yerləşməmişik...

– Elə bu barədə danışmaq istəyirəm. – Aydın Mikayılın göstərdiyi yerdə oturdu. – Mənim mənzilimdə adam ölmüşdü. Onun cəsədi otaqda qalıb, dağılmışdı. Miz basmışdı, qurd... İçəridən üfunət iyi gəlirdi. Nə baş verdiyini bilmirəm...

Gəlin mətbəx qapısının ağzında dayanıb diqqət kəsildi. Bir ara əriylə göz-gözə gəldilər. Elə bil bu adamın onların pasienti olub-olmadığını dəqiqləşdirməyə çalışırdılar.

– Mən bu işdə çətin kömək edəm.

– Sizcə, burda bir adamın mənzilində ölüb unudulması qəribə deyilmi? – Aydın onların diqqətini çəkmişdi, indi arxayın danışırdı. – Bizə verilən otaqların hamısı dağıdılıb. Nəsə axtarıblar. İstəyiblər biz görməyək.

– Bu gün yorğun görünürsən. Dincəl. – Mikayıl ayağa durub qapıya tərəf addımladı. –Uşaqlar yatmalıdır.

Aydın onu anladı. Qapıya qədər danışmadı. Dəhlizdən çıxanda ayaq saxlayıb Mikayıla döndü:

– Bu gün professor Sabit Ağazadə harasa getdi. Əsəbləri yerində deyildi. Vaxtınız olsa, onunla da bir az danışın. Burda biz bir olsaq yaxşıdır. Qəribçilikdi.

Aydın Qaraxanlı bloka nə atmışdısa, otağa daşıdı. İndi bütün bunlar onun üçün cinayət yerindən tapılmış əşyayi-dəlil idi. Yerə, rəfə, stolun

üstünə sırayla, səliqəylə düzürdü. Çalışırdı hər əşyanın öz yerini tapsın. Köhnə paltarları da qaytardı, divardakı asılqana keçirdi. Öz ölçülərinə uyğun gəlirdi.

Karton yeşikləri eşələdi, xışmalanıb atılmış vərəqləri oxuyanda bildi ki, sarı üzlü qovluğun içindən düşüb. F30-un anestezi idi, görünür, Morud Ulikbek evdə də çalışırmış. Aydın vərəqləri tutuşduranda bəzi sözlərin dəyişdiyini gördü. Morud Uluqbek atılmış vərəqlərdə səhifələrin ikirəqəmli nömrəsini ayırmışdı, təkliyi səhifənin başına, onluğu yanına yazmışdı. Səhifələri qatlayıb cibinə qoydu. Qovluğun üstündəki qeyd yazını təkrar oxudu: "Özümə motivasiya: Hər gün yaz. Sən bacararsan!"

Karton qutudan parçalanmış beyin fiqurlu suveniri götürdü. Parçalarını birləşdirib rəfə qoyanda altına yazılmış söz diqqətini çəkdi: "Məni unutma!" Bunun hədiyyə olunduğunu düşündü. Naməlum adamın başqa bir hədiyyəsini axtarır, çalışırdı heç nə gözündən qaçmasın. Poster tapdı; şəkli divardan dartıb qoparmışdılar. Yarıya qədər cırılıb haçalanmışdı. Aydın onun divardakı yerini axtardı, şəkli birləşdirib dəhlizdə divara yapışdırdı. Arxaya çəkilib baxdı; marafonda idmançı finiş lentinə doğru qaçırdı. Gəlib yenidən eşələdi; paltarların arasına bükülmüş şaman davulunu tapanda təəccübləndi. Davulun üzünün dərisi parçalanmışdı, qanla çəkilmiş rəsmləri anlamaq olmurdu. İçində – ipliklərin arasına toxmaq taxılmışdı. Toxmağın üstünə yandırma üsuluyla qazax dilində "Ruhunu oyat" yazılmışdı. Baxanda davulun da, toxmağın da əl işi olduğu bilinirdi. Hesab elədi ki, bunu Morud Uluqbek düzəldib. Tavandan asılmış rəngli kəndirlər, şivrimlər indi aydın olurdu.

Ortalıq yığışanda gecəydi. Aydın aşağı mərtəbəyə endi, Sabit Ağazadənin qapısını döydü, gözlədi, bir də döydü. Mənzilinə nigaran qayıtdı. Pillələri qalxanda operatorla əlaqə saxladı, Sabit Ağazadənin mənzilinə qayıtmadığını dedi. Xahiş elədi ki, professoru təcili tapsın. Raya Kozakova Aydına yatıb dincəlməyi məsləhət gördü. Dedi: "Sabit Ağazadə harda olduğunu özü yaxşı bilir".

– Demişdim axı, təmiz yataq dəsti, bir də şəxsi əşyamı qaytarın.

– Sifarişiniz nəzərə alındı.

– Yemək sifarişi vermək istəyirəm.

– Yoldaş Qaraxanlı, bu vaxt yemək səhhətinizə ziyandır. Su içib, yatmağa çalışın.

– Yata bilmirəm, axı. Bu kirli divarlara baxıram. Heç olmasa televizor verin. İndi musiqi dinləmək istəyirəm.

– Zərərli vərdişlər qadağandır. Miroqrad Səhiyyə Departamenti musiqinin insan sağlamlığına ziyan olduğunu bildirir. Musiqi dinləmək, mahnı oxumaq, hər hansı parfümdən istifadə səhətinizə ziyandır.

Aydın qulağından qulaqcığı hirslə çıxarıb atdı. Qulaqcıq divara dəydi, ordan da divanın altına diyirləndi. Aydın kobud danışmaqdan, qıza əsəbi halda söz deməkdən özünü saxladı.

Aydın Qaraxanlı zəng səsinə oyandı, saata baxdı; altını göstərirdi. Bədəni qurumuşdu, tərpəndikcə xırçıldayırdı. Özünü uçub-tökülmüş divarın altında hiss eləyirdi. Yenə yuxunun hansısa fazasında divandan diyirlənib yıxılmışdı. Yenə başı həmən dairədəydi... Betonun soyuğundan beyni uyuşmuşdu, ayılsa da, ləng qavrayırdı. Huşu özünə gələndə yerdə olduğunu anladı. Cəld durmaq istədi, dura bilmədi, ayaqları da keyimişdi. Hıqqana-hıqqana qalxıb hamama getdi.

Mənzilin qapısı döyüldü, şalvarını əyinə keçirib açdı. Ağ xələtli, başı qalpaqlı, dolu bədənli qırmızıbaş qadını görəndə məyus oldu.

Kağız stəkana çay süzüləndə Aydına elə gəldi dünənki günü təkrar yaşayır.

Aydın sarı paketi stola qoyub açdı; iki yumurta, iki sosis, bir ovuc kişmiş...

Aydın bu dəfə hirsini Raya Kozakovanın üstünə tökmək istəyirdi. Qulaqcığı axtardı, divanın altına dığırlandığını xatırladı. Divanın bir başından tutub qaldırdı, dik qoydu, yerə göz gəzdirib tapdı. Başını qaldıranda divanın altının taxtasındakı sivastikanın içindəki yazını oxudu: "Mənim Tengrim ordadı..." Divarda oxuduğu yazını xatırladı. Bu misra həmin yerə uyğun gəlirdi, elə bil ordan sürüşüb bura düşmüşdü. Aydının təsəvvüründə Morud Uluqbek yavaş-yavaş şəkillənirdi. Yadında qalan sözləri təkrarladı: "Orda atlar çapar. Mənim yurdum ordadı... Mənim yarım ordadı... Mənim Tengrim ordadı..." İndi ona elə gəldi ki, hansısa çox gizlin bir sirri açdı. Əlinə keçən şivrimlərdən bir neçəsini tavandakı yerinə bağladı, uc-uca düyünlədi.

Binanın qarşısındakı sırada yerini alanda boylanıb Sabit Ağazadəni axtardı. Sara gəlib onun yanında dayandı.

– Professor gecə qayıtmadı.

Sara:

– Yoldaş 46, başqalarının işinə qarışmaq nizam-intizam qaydalarına ziddi.

– Professor bizdən biridi. Başına nə iş gəldiyini bilmirəm.

– Bəlkə, indi daha yaxşı yerdədi. Danışırsan, başqalarının səssizliyinə mane olursan. Mən də tələbləri pozmağa məcbur oluram. Görürsən hamı necə səssizdi?! Sən də hamı kimi ol.

Aydın onun cavabından pərt oldu:

– Görürəm, ölü kimidilər. Təlimat kitabını yaxşı əzbərləmisiz.

Mərkəzi binaya catana qədər Aydın Sarayla kəlmə də kəsmədi, hatta ona tərəf baxmadı da, uşaq kimi küsmüşdü. Onun belə xasiyyəti var; tez küsəndi, adi bir sözdən, adi münasibətdən. Tez də barışır; küsdüyü adam üzünə gülsün, danışdırsın, hər şeyi elə o an yaz buludu kimi dağılırdı. Hətta qarşısındakı adama bəraət qazandırmağı da bacarır.

Laboratoriyada məşvərət saatı başlamışdı. İçəridə bir neçə həkim kreslosunu istədiyi yerə çəkib əyləşmişdi. Aydın Qaraxanlı nə danışacağını hələ bilmirdi. Dünəndən bəri hazırladığı ütülü cümlələr indi yersiz gəldi ona. Bu

adamlara onların bilmədikləri yeni sözü, yeni diaqnozu deməyin nə qədər çətin olduğunu anladı. Amma danışmalıydı, bilirdi bunu. Dünən qərara gəlmişdi ki, F30-u bu adamların əlindən almaq üçün izah eləməlidir.

– Yoldaş kolleqalar, sizə hipotalamusun funksiyasından danışmaq fikrində deyiləm. Dağınıq sklerozun əlamətləri bizə bəllidir. Hipoksiyanın[1] fəsadları da. Təklifim budur: əvvəl F30-un əsnəməsinin patoloji, ya fizioloji olduğunu təyin edək...

– Patolojidir.

Səs Aydına tanış gəlmədi, bilmədi kimə baxıb sözünü desin.

– Onun ensefalitə[2], serebral ateroskleroza[3] yoluxması hipetalamusa təsir edib.

– Bu yoldaş hələ bilmir F30-un hipetalamusu transplantasiyadı? – 40 onun sözünü kəsdi.

– Yoldaş Morud Uluqbekin sonuncu ən uğurlu işi "Süni hipotalamus" oldu. F30-un anestezi ilə də diqqətlə tanış olmaq lazımdı. Deyəsən, mən bunu demişdim axı.

– Yoldaş 46 vaxtımızı almağı bacardı.

Aydın Qaraxanlı dünən əməliyyat otağında dediyi fikri bu gün gizlətmək istəyirdi:

– Hipotalamusun protez olduğu, əlbəttə, mənə məlumdur. Məsələ burasındadır ki, üz əzələlərinin hərəkətini tənzimləyən beyin hüceyrələri zədələnib. Fikrimcə, təcili neyroproflaktika olunmalıdır. Yoxsa angiospastik işemiya[4] qaçılmazdı.

Hamının eyni vaxtda susmağı Aydın Qaraxanlını bir az ürəkləndirdi. Onlar bir-birlərinə baxdılar, sonra da durub hərəsi öz kreslosunu sürüyüb iş stoluna çəkildi. 44 durub getdi. Aydın Qaraxanlı ortalıqda tək qaldı. Toplantının belə qəfil, özü də nəticəsi elan olunmamış bitməsi gözlənilməz oldu.

Köşəsinə qayıtdı. Monitoru işıqlandı. İndi Aydın anestezi oxuduqca bir tərəfdən fikri dağılırdı. Oxuduğunu başa düşmürdü, qayıdıb bir də oxuyurdu. 28-ci səhifədəki sözlər ona tanış gəldi, cibindəki səhifələri çıxarıb tutuşdurdu. Dəyişən sətirləri tapmaq üçün yuxarıdan-aşağı saydı, 8-ci sətrə düşdü. Əlindəki vərəqdə həmən sətrin qarşısına 8 yazılmışdı. Bu rəqəmin dəyişən sətrin sırası olduğunu anladı. Səhifənin yuxarısına yazılan 2-nin sirrini axtardı. Səkkizinci sətirdə dəyişən sözlərin sayı ikidən çox idi. Əlindəki vərəqdə yazılmış sözlər yerli-yersiz düzülmüşdü. Süni hipatalamus nəzəriyyəsini yazan bir adamın belə səhv etməyi məntiqli görünmürdü. Aydın həmən sözləri əsas səhifədə səkkizinci sətrə qaytardı. Bu dəfə sözlərə şəkil kimi baxdı. Ağlına gələn fikirdən ürəyinin ritmi artırdı. Sözlərin

*[1] – Oksigen çatışmazlığı*
*[2] – Beyin iltihabı*
*[3] – Beyində qan damarlarının xroniki xəstəliyi*
*[4] – Arteriyaların spazmı nəticəsində yaranan yerli qan azlığı*

ikinci hərflərini böyüdüb oxudu: “Bioterror”. Dərhal sözləri pozdu. Əlində ikinci vərəqə baxdı, beşinci sətirdə ancaq üçüncü hərfləri birləşdirdi: “Dayandır!”

Aydın əlindəki kağızları qatlayıb cibinə qoyanda yazının əsas sinirini tapdığına əmin oldu. Onun hansı səhifələrə şaxələndiyini axtardı. Çox diqqətlə oxuyurdu; əvvəl birinci hərfləri, sonra ikinci, üç... Beyninin bir küncündə sözlər təkrarlanırdı: “Bilirdim. Başa düşmüşdüm... “Bioterror!” “Dayandır!” Nəyi? Necə? Sabit Ağazadənin sözü yadına düşdü: “Onu bilirəm ki, mən burda qalıb zəhər düzəltmək istəmirəm”. Sara: “...Şuşa otelində NATO-nun generalı öldü. Səssiz, qansız, klassik qətl...”

Operator vidalaşma olacağını elan etdi. Bütün monitorlara mərkəzdən göndərilən görüntü gəldi; Miroqradın görüntüsü, rəhbərliyin binası. 10-dan geriyə sayım. Canlı yayın Vissarionoviçin qəbul otağından başladı. Otağın qəhvəyi rəngli mebellərində işıqlar əks olunurdu. Baş divarın üzünə yerdən tavana qədər taxta lövhə vurulmuşdu. Lövhənin yuxarıdan ortasına iri dairəvi gerb asılmışdı. Bu lövhəli divarın qarşısında rəhbərin qırmızı döşəkli taxta stulu, onun da qarşısından enli, ortasında dəliklər olan stolu uzanırdı. Sağ tərəfdən stolun arxasında beş nəfər gərgin əyləşmişdi; qurcalanırdılar. Başlarının arxasından, təpələrinin üstündən kamera qapını göstərirdi. Qapının üstündə böyük çərçivədən Snejnevski[1] dişlərini göstərib, gülürdü. Gülməkdən qıyılmış gözləriylə otaqdakılara yanakı baxırdı.

Nəhayət, qapı açıldı, bir nəfər qara kostyumlu adam qapını açıq saxladı, onun dalınca Vissarionoviç ağır-ağır içəri girdi. Hamı, elə laboratoriyadakılar da ayağa qalxdılar. Onlara baxıb Aydın da yerindən durdu. Vissarionoviçdən sonra bir nəfər də sarı kostyumlu adam girib əl çaldı, hamı alqışladı. Növbəti sarı kostyumlu məmur qoltuğunda sarı qovluq tutmuşdu. Tələm-tələsik Vissarionoviçin sağına keçdi, qovluğun arasından kağızları çıxartdı. Stola qoydu, bir addım geri çəkildi. Əl çalan adam dayandı, hamıya oturmağa işarə elədi. İndi bircə Vissarionoviçin xorultulu nəfəsi, ağzının marçıltısı hamının qulağında lap aydın eşidilirdi. Baş katib bığını sığallayıb, işarət barmağının üstü ilə uclarını yanlara siyirdi, dodaqlarını açdı. Elə bil damağına iris yapışmışdı, çeynəyib uda bilmirdi, marçıldadırdı. Kağızları götürüb, çıxışını oxudu:

– Hörmətli yoldaşlar, sizinlə yeni gündə, yeni vidalaşmada görüşürük. Bu da bizim görüşə yeni rəng qatır. İkiqat bayramdır. İstəyirəm sizi – elmin müxtəlif sahələrində fədakarlıq göstərən, ayrı-ayrı elmi dərəcələr qazanan zəhmətkeşləri ürəkdən təbrik edim. Sizin sayənizdə daha ağıllı gələcək qurulur. Müharibəsiz, silahların qadağan olunduğu bir dünya bizim məqsədimizdir, hədəfimizdir. – Çox çətinliklə danışırdı, hər sözünün sonunda mütləq ağzını marçıldadır, nəfəsini burnundan alanda xoruldayır,

*[1] – Andrey Vladimiroviç Snejnevkiy – Sovet psixiatrı, SSRİ-də bir neçə psixiatriya məktəblərindən birinin banisi*

fınxırırdı. Adama elə gəlirdi Baş katib iclasda sərxoşdu, o qədər içib, keyimiş dili söz tutmur. Bəzi sözlər anlaşılmırdı. Elə buna görə də onun çıxışı monitorlara altyazılı verilirdi. – Lakin, hörmətli yoldaşlar, bizə bu ədalətli yolda addımlamağa mane olan xarici qüvvələr var. Onlar silah istehsalında, satışında, kiçik ölkələrdə müharibə ocaqlarının yaranmasında maraqlıdılar. Bizimlə razılığa gəlmək istəmirlər. Biz onlara silahla, ağır texnikalarla deyil, qanla deyil, elmin gücüylə qalib gələcəyik. – Alqışlardan sonra sözünə davam elədi. – Bütün Qafqaz, Orta Asiya, yaxın-uzaq Şərq ölkələri bizim istədiyimiz kimi düşünəcək. Orada parentalları, bu üstün zəka sahiblərini biz yüksək postlara təyin edəcəyik. Təklənmiş Qərb, Avropa, xüsusən də Amerika bu yeni erada məhvə, süquta, bizim elmin qarşısında təslim olmağa məhkumdur! Onların NATO-su varsa, bizim də Beynəlxalq Ağrı Mərkəzimiz var. Bütün bu gələcək sizin zəhmətin bəhrəsi olacaq. İndi, hörmətli yoldaşlar, sizi qazandığınız etibara görə böyük, güclü dövlətimiz tərəfindən mükafatlandırıram. Müqavilənizin vaxtı bitdi. Sizinlə təəssüflə vidalaşırıq. Ancaq sizə həmişə ehtiyacımız var.

Alqış dirijorunun işarəsiylə otağı çəpik səsi bürüdü. Sarı qovluqlu köməkçi monitorlarda indi görünən yan stolda sıraya düzülmüş sarı üzlü mükafat zərflərindən birini götürüb Vissarionoviçə verdi, qulağına nəsə pıçıldadı. Vissarionoviç zərfin üstündəki adı güclə tələffüz elədi. Adı çəkilən yaşlı kişi durub yaxınlaşdı, onun qarşısında bir az təzimlə dayandı. Vissarionoviç paketi təqdim elədi.

– Dünya elminə göstərdiyin xidmətə görə ədalətli dövlətimiz səni qızıl "oraq-çəkic" ordeniylə təltif edib. Bu da sənin bank kartın. – Onu nümayşkaranə göstərdi. – 9 milyon sənindi.

Yaşlı adam ordenin sarı üzlü qutusunu, üstündə kartını aldı. Əllərinin əsdiyini hamı görürdü. Gözləmədiyi anda Vissarionoviç onun başını qarpız sıxırmış kimi, ikiəlli tutub saxladı, dartıb dodağından marçıltıyla öpüb, buraxdı. Sarıqovluqlu köməkçi ikinci mükafatı onun qarşısına qoydu. Adı çəkiləndə cavan gəlin mükafatı almağa gəldi... Vissarionoviç onun dodağından öpəndə gəlinin gözləri böyüdü, boğulduğu hiss olunurdu. Gəlin alqışlanaraq yerinə qayıtdı. Məncə, gəlin bu an paltarının qolu ilə dodaqlarını silmək istəyirdi, amma bunun Vissarionoviçə qarşı nəzakətsizlik olacağını düşünüb, dözürdü.

Vissarionoviç sonuncu öpüşdən sonra dedi:

– Hörmətli yoldaşlar, sizə sağlam can, həm iş, həm də şəxsi həyatınızda uğurlar arzulayıram. Çalışın, çox yaşayın. – Əlini qaldırıb vidalaşanda hamı onu ayaq üstə alqışladı. Birinci adam qapını açdı; Vissarionoviç, dalınca sarıqovluqlu köməkçi, sonra alqış dirijoru getdi. Qapı örtüləndə canlı yayın bitdi. Əyləşdilər.

Vissarionoviçin təngnəfəsliyi, xorultusu, marçıltısı hələ də Aydının beyninə ilişib qalmışdı. Onun adamları başından tutub öpməsindən zəhləsi getdi. Özünü bir anlıq orada, o adamların yerində təsəvvür elədi, gec-tez

bu olacaqdı, Baş katibin tüpürcəkli iri ətli dodaqlardan çiyrəndi, qeyri-ixtiyari ovcuyla dodaqlarını sildi. Elə bildi Vissarionoviçin bığları onun dodaqlarına batır, cod tüklər burnunun deşiyinə girir, qıdıqlayır. Tez fikrini başından tüstü-duman kimi qovdu. Bu haqda bundan artıq düşünmək, təsəvvür etmək istəmədi. Dünəndən yarımçıq qaldığı sətirlərə qayıtdı. Oxuduğu sətirlərin içində gizlənmiş sözləri axtardı. Axtardıqca özüylə danışırdı: "Belə bir adam öləcəyini bilməsəydi, özündən sonra gələcək neyrocərraha niyə şifrəli mesaj göndərsin?" "Bioterror..." "Bütün Qafqaz, Orta Asiya, Yaxın-Uzaq Şərq ölkələri bizim istədiyimiz kimi düşünəcək..." "Siz nə düşünürsüz? İstədiyiniz nədir?"

Aydın bütün sualların cavabını F30-un yaddaşında tapacağına inanırdı. "Niyə bu şifrəli mesajları Morud Uluqbek onun anestezinə yazmışdı? Qımız içən... Morud Uluqbek onu niyə seçmişdi?"

Durub otaqdan çıxdı. Dairəvi dəhlizdən "Mikrobiologiya Elmi-tədqiqatlar İnstitutu"na getdi. Sol divarın içindən heykəl çıxmışdı: Bir adam ağ qoruyucu tibbi xələt geymişdi, üzünə xortumlu əleyhqaz taxmışdı. Qucağına aldığı Yer kürəsini sarı əlcəkli iri əlləri ilə tutmuşdu. Heykəldən bir metr sonra sağda birinci qapı açıq idi. Aydın qapının üstündəki işıqlı lövhəni oxudu: "Bioloji və toksik silahlardan müdafiə" şöbəsi. İçəri girdi. Qarmaqarışıq kəskin qoxu gəlirdi. Cihazların səsləri eşidilirdi. Sırayla dörd cərgə bioloji təhlükəsizlik boksları qoyulmuşdu, bokslarda üz-üzə dörd nəfər oturub əllərini şüşədəki dəliklərdən əlçəyin içinə salmışdılar. Alınlarını şüşəyə söykəyib böyüdücü eynəklərdən baxırdılar. Divar boyu cihazlar, şüşə kapsullarda, rəfdəki kolbalarda rəngli məhlullar sıralanmışdı. İçində kolbalar fırlanan böyük bir cihazın qarşısında üç nəfər nəyisə müzakirəyə çıxarmışdı. Onlardan bir-iki addım sağda şüşə kabində çılpaq bir kişi dəmir stulda oturmuşdu. Yuxarıdakı dəliklərdən onun başına buxar püskürürdü. Kişi, deyəsən, qulağından, burnundan gələn qanı hiss eləmirdi, eləcə soyuq-soyuq baxırdı.

Aydın onlara yaxınlaşıb Sabit Ağazadəni soruşdu, nömrəsini dedi. Onların göstərdiyi 13 nömrəli maska qadın idi, əllərini boksa soxmuşdu. Rəqəm onun stulunda yazılmışdı.

Bu dəhlizdən yeməkxanaya gedənlərə qoşuldu. Gözü oturanların arasında Sabit Ağazadəni axtardı. Gəlib sinini götürüb növbəyə dayandı. Yenə dünənki stolda oturdu. Həmən boz maskalı üç nəfər qarşısında əyləşmişdi. 41-lə Nana Dolidzenin arasında yerini tutdu.

– Bu mənim dünənki yeməyimdi. Həmən qayış kimi tikədi. Burasını mən qopartmışdım. Bu sup da odu.

– Yeyənə qədər sənindi.

Aydın durub baxırdı; hamı iştahla yeyirdi. Bəziləri boş dəmir nimçələri yığıb qalxırdı. Aydın əlacı kəsilmiş halda supdan bir qaşıq ağzına qoydu. Soyuq yağlı suyun dadından ürəyi bulandı. Dünən isti olanda bir neçə qaşıq içə bilmişdi. İndi içindəki iri soğanların canına istilik keçməmişdi. Bir

tərəfdən də mədəsi siyrilirdi. Acından başı ağrıyırdı. Tikəni ağzına qoydu, ha çeynədi, uda bilmədi, boşqaba tüpürdü.

– Bizi gəmiyə apara biləsən? – Qarşısındakı adam soruşdu.

– Mayaka qədər gedə bilərik.

– Mayak? – Başda oturan adam soruşdu. – Deməli, mayak da var?

– Var.

41:

– Niyə bunları uydurursan?

– Uydurmaq niyə? Bəs siz necə gəlmisiz? Dünən də soruşdum. Yaxşı, bayaq müqaviləsi bitən yoldaşlarla Baş katib vidalaşdı. Sizcə, o yoldaşlar gəldikləri yerə necə qayıdacaqlar? Maşınla? Avtobusla? Bəlkə, təyyarəylə? Əlbəttə ki, gəmi aparacaq onları. Sizi də, məni də... Axu bu niyə sizə təəccüblü gəlir?

Nana Dolidze:

– Miroqrad ada deyil. Heç yarımada da deyil. Meşədi.

Aydın Qaraxanlı arxaya çevrilib stoldakılardan Miroqrada hardan, necə gəldiyini soruşdu. Araya bir neçə anlıq sükut çökdü. Sonra başda oturan adam dedi ki, bu haqda fikirləşməyə ehtiyac yoxdu.

– Zəhmət olmasa, o biri stolda əyləşən yoldaşlardan da soruşun. Bəlkə onlar bilər?

Aydın Qaraxanlının sualı stoldan-stola keçdi. Hamı əyilib yanındakı adamdan bura hardan, necə gəldiyini, gəmini görüb-görmədiyini soruşdu. Aydının qarşısındakı adam sinini götürüb duranda ucadan dedi:

– Bu yoldaş 46 deyir onu bura gəmi gətirib. Hələ Mayak da görüb.

Yeməkxanaya ölü bir sükut çökdü, sonra kimsə pıqqıldadı, dalınca güldü. Onun gülüşü sürətlə hamıya yoluxdu. Hərə bir cür qəhqəhə çəkdi. Bəzilərinin tikəsi ağzından düşdü, bəzilərinin loxması əlində qaldı. Yırğalana-yırğalana gülürdülər. Aydın bu kütləvi gülüşün səbəbini anlaya bilmirdi. Durub bir az pərt, bir az mat-məəttəl onlara baxdı. Kimsə: "Gəmi... Mayak" deyib, öləziyən gülüşləri körükləyirdi.

Bir adam yerindən dedi:

– Gəmi yox, qatarla gəlmişik. Qatarla!

Aydın Qaraxanlı yeməkxanadan laboratoriyaya əsəbi gəldi. Bir tərəfdən aclıq, bir tərəfdən də bildiyi həqiqəti dediyi üçün hamının gülüş hədəfinə çevrilməyi onun sinirlərini tarıma çəkmişdi. Əlacı olsaydı, bağırardı, lap elə ağzına gələni də deyərdi. Hirslənəndə sözünün əvvəlini-axırını düşünmürdü. Bəzən bildiyi söyüşləri də utanmadan deyirdi. Amma indi boğula-boğula qalmışdı.

F30 çarpayıda uzanmışdı. Monitorun yaşıl fonunda simvollar, rəqəmlər, hərflər sürətlə dəyişirdi. İnformasiya yazılırdı, sistemə axtarış verilmişdi.

Aydın ilk baxışdan qızın bayğın, yoxsa yatılı olduğunu anlamadı. Onun biləyindən nəbzini tutdu, impulsu artmışdı. Göz qapağını qaldırıb didəsinə baxdı, bəbəklər işığa qarşılıq verdi. Monitorda yaşıl fon dərhal itdi. Qız

gözünü açdı, bir neçə saniyəlik tavana baxdı, sonra Aydın Qaraxanlıya. Oturdu.

– Adını xatırlaya bilərsən? Bəs, qımızın dadı necədi? – Aydın maskanı üzündən çıxartdı, onunla üz-üzə dayandı. İstəyirdi qız onun gözünün içini görsün. – Mənə hər şeyi deyə bilərsən. Morud Uluqbek... bu adı eşitmisən? Yadına düşür? Bu maskada olurdu. 46.

– 46 sənsən! Mənə söz vermişdin.

– Mən? Söz vermişəm... Hə. Yadıma sal. Nə söz vermişəm?

F30 onun üzünə boş-boş baxırdı.

– Bilmirəm. Sən dedin... – Qız hər susanda Aydının ürəyi üzülürdü. – İlğımda çimən atlara aparacaqsan. Birlikdə bacararıq.

– Hə. Hə... – Aydın indi nəyə razılaşdığını bilmirdi. – Atlara... İlğımda... Hə. Atlar... Hardadı atlar?

– Sən də onlar kimisən. – Qızın üzünün ifadəsi dəyişdi, elə bil küsdü. Bunu Aydın da hiss elədi.

– Onlar kimi, yəni necə?

Nana Dolidze, 41, 45 içəri girdilər, dərhal da monitora yaxınlaşdılar. 41 planşetdə nəyisə yoxladı, 45 klaviaturada yazdı.

– Sən oyatdın? – 41 Aydından soruşdu.

– Pozulub. – Nana Dolidze monitorda informasiyanı oxuya-oxuya dedi. – Yenə tez oyanıb. Biz onun beynində, şüuraltında yaşadığı hər saniyəni görməliyik.

Bu dəfə Aydın onları göydə anladı:

– Yuxusuzluq.

41:

– Özü yatmalıdır. Bizə lazımdı hipotalamusa daxıl olaq. Cihazlararası əlaqə qurulsun. Onda, bəlkə, hansı sinirin zədələndiyi məlum olar.

– Özünübərpa mümkün olmasa, biz bütün üz sinirini dəyişə bilərik. – Nana Dolidze əlavə elədi. Elə bil həmişə eyni sözü təkrarlayırdı. – İşimiz bitər. Yoldaş Vissarionoviçin qarşısına çıxarıq.

– Siz yatmayan adamın yuxusunu görmək istəyirsiz? Baxın, hər dəfə əsnəyəndə onun gözləri sulanır. – Aydın bu dəfə özünü sözünə əmin göstərdi. – Onun simpatik, parasimpatik sinir sistemlərinin profilaktikası vacibdir. Mən bunu səhər demişdim. Neyroproflaktikadan sonra ya yuxu normallaşacaq, biz hipotalamusa daxil ola biləcəyik, ya da əsnəmə normallaşacaq.

Aydın Qaraxanlı gecə burda qalmaq istəyirdi, elə bu təcrübə çarpayısında yatacaqdı. Hər halda, bura mənizilindən daha səliqəli, çarpayı da divandan rahat görünürdü. Səhər döşəmədə oyanmaq, soğan iyi verən qırmızıbaş qadının əlindən iki yumurta, iki sosis almaq, sıraya durub, yaşıl işığı gözləmək, eyni maskalı adamlarla çömbəlib-durmaq, addımlamaq istəmirdi. Morud Uluqbekin şifrəli mesajı ona göndərdiyinə əmin idi. Düşünürdü ki, onun dissertasiyalarını, F30-un anestezini, nəzəriyyələrini, yəqin

ki, kolleqaları oxumuşdu, amma ikicə əzilmiş vərəqdən ibarət olan açar sözü mən tapmışam. Mənim cibimdədir. Deməli, bu işlər təsadüf deyil. Aydın inanırdı ki, Morud Uluqbek ona yarımçıq işini tapşırıb, bunu davam eləməlidir. Amma hələ hansı iş olduğunu, işin nəyə xidmət elədiyini də tam anlaya bilmirdi. İndi hər şey ona Morud Uluqbekin şifrəli mesajı kimi görünürdü. Hətta F30-un əsnəməyində də nələrinsə gizləndiyini düşünürdü. Düşünürdü ki, süni hipotalamusu yaradan, protezi beyindəki yerinə köçürən adam niyə sinir səhvi eləsin? Öz-özünə deyirdi: "Bəli, Morud Uluqbek bu qımıziçən qızı mənə tapşırıb". İndi qalırdı mesajın şifrəsini açmaq. Ağlında vuruşdururdu: "Görəsən atların çimdiyi ilğım hardadı? Atlar hardadı?"

Aydın F30-la tək qalmağa can atırdı, istəyirdi onun yaddaşını oyatsın, qız özü desin ilğımın, atların yerini.

Nana Dolidze qalıb ona kömək edəcəyini deyəndə, qanı qaraldı. Əslində, neyrofizioloqa proses vaxtı ehtiyacı ola bilərdi.

F30-u əməliyyat çarpayısına uzatmışdılar. Ayaqları, əlləri çarpayıya bağlanmışdı. Nana Dolidze silindr formalı Funksional Maqnit Rezonans cihazını onun başından çiyinlərinə qədər keçirdi. Blutuzötürücü işə düşdü. Cihazın üstündə diodlar qırpındı. Monitorla əlaqə quruldu.

– Bizim F29 könüllümüz olub. Elə sənin kimi. Normal adamın ölə biləcəyi cərəyana dözürdü. Düzdü, dayanmadan bağırırdı, amma dözürdü. Elə hey deyirdi ki, mən sizdən biriyəm. Elə bilirdi neyrocərrahdı. Qəribəsi budur ki, o da deyirdi məni gəmi gətirib... Birinci dəfə gəmi sözünü ondan eşitmişəm. Beynində yaşadığını reallıq bilirdi. Hipotalamus köçürülənlərdə belə hallar olur...

– Əsnəyirdi?

– Yox, sadəcə, yararsız çıxdı. Uğursuz oldu. Təsəvvür edirsən, Sarı Bank bu qədər sərmayə ayırsın, illərlə layihənin üzərində işlə, gecə-gündüz bunun üstündə həyatımızı çürüdək, buna hipotalamus köçürülsün, bu da oturub düşünsün. Parental da düşünərmi? Bəs, Vissarionoviçə nə cavab verərik? F29-u reallığa qaytara bilmədik.

– Deməli, düşünürdü?

– Əgər parental düşünürsə, demək, problem var. Sən bilirsən düşünmək nə qədər zərərlidir? Sən əmr verirsən, o düşünür, bunu edim-etməyim? Sonra başlayacaq qorxmağa. Qorxu da ağrı yaradır axı.

– Deməli, yaşamaq istəyirsənsə, maskanı tax, tapşırığı yerinə yetir. Düz başa düşdüm?

– Yoldaş 41 ona yüngül şok verdi, F29 da stolda qaldı. Əlavə təsirin nə olduğunu bilmədik. – Onun səsindən gülümsədiyi hiss olunurdu. – Amma yaxşı olacaq. Lap yaxın zamanda süni hipotalamus üçün hamı növbəyə duracaq. Hormonal pozuntu daim nəzarətdə olanda adamların xəstələnməyi, qocalmağı bir yana, heç tükləri də tökülməz. Uğurlu təkmilləşmədən sonra mən də hipotalamusumu dəyişəcəm.

– Deyirsən əbədi cavanlıq bizə bu qədər yaxındır?!

– Əlimizdədi.

– Yəni, hamı timsah ömrü yaşayacaq.

– Hamı yox. Bu həm də yoxsulluğun aradan qaldırılması planına uyğundur.

– Demək, dünya maskabaşlara qalacaq.

– Buna xalq deyək.

– Könüllü kölələr, məncə, daha uyğundur. Biz axmaq işlərlə məşğuluq. Adamlara virus yayırıq ki, sonra sağaldaq. Cəmiyyətin sinirlərini zədələyirik ki, sonra bərpa edək. Çalışırıq ki, insanlığın sonunu gətirəcək təkamülü sürətləndirək. Sonra həmən mutanta qarşı mübarizə aparırıq. Yeni silahlar düzəldib satırıq, başqaları bizimlə müharibə eləsin, ölək-öldürək. Adamları həbs etmək üçün cinayətə çəkirik... Azadlıq şüarları altında həbsxanalar tikirik. Nə qədər istəsən, belə misal çəkə bilərəm. İnsan onsuz da ölümə məhkumdur, hardansa gətirib məqsəd üçün burda çarpayıya bağlamaq, orda hücrədə saxlamaq, iki xəttin arasında gəzdirmək, başqalarının həyatına sahib çıxmaq elmin işidirmi?

Nana Dolidzenin cavabı uzun-uzadı oldu. Elə istəyirdi Aydın ancaq dinləsin. Aydın Qaraxanlı onun çənədən saz olduğunu anlamışdı. Fürsət tapan kimi soruşdu:

– Transplantasiyadan sonra siçanlar, meymunlar nə reaksiya verdilər? Onlarda da əsnəmə olurdumu?

– Siçanlar? – Təəccübləndi. – Axı heyvanlarla təcrübə aparmadıq.

– Birbaşa insan?

– Bu bahalı əməliyyatdı. Süni hipotalamusu bir heyvanın beynində korlamaq havayı xərcdir. Bizə ağrısız, ağıllı, güclü parental yaratmaq tapşırılıb. Quyruğu qapı arasında qalanda ciyildəməyən siçan Baş katibin nəyinə lazımdı?!

– Bir gün də bu parentallara qarşı mübarizə başlayacaq.

Monitora beynin 3 ölçülü modeli çıxmışdı; pəncərə dörd hissəyə bölünmüşdü, beyin dörd kəsikdən görünürdü. Diaqramların rəqəmləri artıb-azalır, impulslar yazılır, dalğa tezliyi ölçülürdü. Beyni örtən selik, qırışlar elə bil şüşənin içindəydi. Görüntü təpə payına keçdi, boylama yarığından irəlilədikcə monitorda tunel effekti yarandı. Sinirlər önə çıxdı. Monitorun dördüncü hissəsində başın düz kəsiyində üz əzələləri, üçlü sinir şaxələri görünürdü.

– Trigeminusdan[1] başlayaq. – Aydın xəbərdar etdi. Hansı sinirə toxundusa, F30 ona qeyri-ixtiyari qarşılıq verdi. – Mandibularis. – Qız tez-tez çeynəyir, ağzı tamam əyilib-düzəlirdi. Çənəsi açıla bildikcə açılır, bəzən qıc olurdu. – Normal.

Nana Dolidze ikinci monitorun qarşısında oturub beynin tomoqrafik görüntüsündə prosesi izləyirdi.

---

*[1] – 12 kəllə sinirindən ən böyük 5-ci sinirdir. Üzdə hissiyyat, dişləmə, çeynəmə kimi hərəkətləri təmin edir*

– Təzyiq normaldı. – Çevrilib qıza baxdı. Onun gözlərindən yaş süzülürdü. – Mənə elə gəlir, hamıya ildə bir dəfə neyroprofilaktika lazımdır.

– Səncə, Morud Uluqbek niyə ona diaqnoz qoymadan getdi?

– Vaxtı çatmadı.

Aydın onun sözünü kəsdi:

– Bu səbəb deyil. Hara getdiyini bilirsən?

– Yox.

– Uşaq vaxtı aldığın ən yaxşı hədiyyə nə olub? – Aydının qəfil sualı Nana Dolidzeni bir az çaşdırdı; bir anlıq donuxub qaldı, eləcə Aydına baxdı, sonra monitora.

– Səni doğrudan gəmi gətirib?

– Hə. İri sərnişin gəmisi.

– Hardan? Hansı dənizdə üzürdü o gəmi?

– Hardan? Necə yəni hansı dənizdə? Dənizdə... – deyəsən, Aydın dənizin adını xatırlamaq üçün sözü təkrarlayıb vaxt qazanmaq istəyirdi. Bu anlarda gördüyü işi də unutdu. F30-un üz əzələləri dartılmışdı, tavana baxıb gülürdü. Eləcə də qalmışdı.

Neyroprofilaktik əməliyyat səhər açılanda bitdi. Aydının gözləri yorulmuşdu, sulanırdı. Amma hələ də davam eləmək, nəticəni görmək istəyirdi.

Nana Dolidze F30-u çarpayıdan açdı, oturtdu. Qızın ağzına taymer lenti yapışdırdı. Qız hər əsnədikcə, Nana Dolidze əsnəmə aralığındakı müddəti deyirdi.

– On beş saniyədə iki dəfə. – Əsnəyə-əsnəyə təəssüfləndi. – Artır.

– F30 axırıncı dəfə nə vaxt şəhərə çıxıb?

– Şəhər könüllünün nəyinə lazımdı. Onun yeri hələ buradı. Hazır deyil axı.

– Əgər müsbət nəticə istəyiriksə, bunu etməliyik. Ağlıma bir fikir gəlib, biz onu dəniz kənarına apararıq. Sən də dənizi görərsən.

– İstəyirsən, sənə hardan gəldiyini göstərim? Görürəm, həqiqətən keçmişini unutmusan.

Nana Dolidze onunla getməyi xahiş elədi.

"İn Vitro" şöbəsində dəhlizin lap sonundakı tağın üstünə qabarıq şriftlə "Maşınqayırma" yazılmışdı. Nana Dolidze qapını özünə tərəf çəkib açdı. Aydın Qaraxanlı içəri birinci girdi. Elə ilk addımda qarşısındakı mənzərədən gözləri böyüdü. Bu dəfə yuxulu kimi içəri yeridi. Tavan, təxminən, 4 mərtəbə hündürlüyündə olardı. İşığın qarşısında tənbəl-tənbəl fırlanan iri havalandırma pərlərinin kölgələri qarşıya düşürdü. Zalın lap ortasında böyük çevrəsi olan ana gövdə döşəmədən qalxıb tavana birləşmişdi. Elə bil yeri-göyü saxlayırdı. Ondan ayrılan boru-göbəklər cərgələrdəki süni ciftlərə birləşmişdi. Ciftlərdə embriondan tutmuş, çapalayan uşaqlara qədər, hansısa qrupa görə sıralanmışdı. Cərgələrin arasında küvəzləri sürüb aparan ginekoloqlar, budaqlardan meyvə dərirmişlər kimi, vaxtı yetişmiş uşaqları götürür, göbək saplaqlarını kəsir, arxalarına bir-iki tənbeh şilləsi

çəkib ağladır, ağzını-burnunu silib küvəzə atırdılar. Bir tərəfdən də mayalanmış toxumlar çəyirdək kimi əkilirdi.

– Bura fabrikdi... – Aydın bu an ağlına gələn ilk sözü dedi.

– Bilirsən, mən çox görmüşəm, elə adamlar var hardan gəldiklərini heç vaxt soruşmurlar. Onlara maraqlı deyil. Bu haqda düşünmürlər. Amma sən indi həqiqəti gördün.

– Yo-ox... Yox! Bu mümkün deyil. Uydurmadı. Mən hardan, necə gəldiyimi yaxşı bilirəm. Hətta bizimlə uşaqlı ailələr də gəlib. Əsl ailə...

– Uşaqlar o adamlara verilir ki, onların genetik yaddaşında ana olmaq, ata olmaq var. Sənin xatırladığın dəniz də genetik yaddaşındı. Beyin belə oyunları bacarır, özün bilirsən. Yəni, kimin genetik yaddaşında əsas nə varsa, "Genetika" sexlərində mütəxəssislər ordan başladır bizi.

– Bu cəfəngiyyatdı. – Aydın başını yırğalayırdı.

– Sən dənizin adını xatırlamırsan. Sənin yoldaşların da xatırlamaz. İnsanı burda modelləşdirmək, ona lazım olan təhsili, istiqaməti vermək, tələb olunan əxlaqla böyütmək mümkündürsə, niyə hardasa təsadüfən doğulmuş bir adamı gətirsinlər?

– Bu fikirləri sənin yaddaşına köçürüblər. Həqiqət bu deyil. Doğulduğum şəhər də, evimiz də, getdiyim ölkələr də yaxşı yadımdadı. Bu yuxu deyil, beyin aldatması da deyil.

– Yaxşı, kimdi sənin atan, anan?

Aydın dərhal cavab verdi:

– Anam doğuşda ölüb, atam da həbsdə. Atam ginekoloqdan anamın qisasını alıb.

– Bu fikirləri sənin yaddaşına köçürüblər. – Nana Dolidze elə bil bu sözü ona qaytarmağın əsil məqamını tapdı. Yəqin bu an özündən razı qaldı. Çünki Aydın Qaraxanlı cavab verə bilmirdi. Belə vaxtı adam həqiqətin harda başlayıb, harda yalana çevrildiyini görmür. Nabələd yolçunun iki yol ayrıcında durmağına bənzəyir. – Bu, əslində, çox yaxşıdır. Belə süni mayalanmalarla çiftlərdə doğulmaq daha yaxşıdır. Valideyn vəzifəsi almış iki nəfərin köləsi olmursan. Onların istədikləri kimi böyümürsən. Klassik ailə modeli insan hüququnun pozulmasıdır. Fərqi yoxdur o, uşaqdır, yeniyetmədir, ya gənc. Amma bu yeni ailə modelində azadsan!

– Buna inanmıram. Bu mənim yaddaşımda yoxdu.

– Olacaq. Yaddaşın oyanacaq bir gün. Belə şeylər hamıda olur.

– Bəs müqavilə? Bəs vidalaşma? Mükafat. Özün demirdin ki, müqaviləmiz bitsin, gedək? Belə çıxır ki, özün də özünü aldadırsan? Yox, orda yeni nəsil yarana bilər, amma mən doğulmuşam. Bura gəlmişəm. Gətiriblər. Özü də gəmiylə. Elə səni də.

Aydın sözünü bitirər-bitirməz, başını götürüb qaçdı; bu gedişə ancaq qaçmaq demək olar.

Aydın otağın qapısını arxasınca çırpıb örtdü. Elə bil əlinə fürsət keçmişdi, nə işə yaradığını hələ də bilmədiyi divara söykənmiş iri cihazın

qarşısında dayandı. Əlini durbin kimi büküb gözünü dayadı, içəri baxdı. İçəridəki adamın üzünü seçə bilmirdi, bircə onu görürdü ki, kimsə içəridən əlini durbin kimi tutub ona baxır. Sonra bu maraq, deyəsən, birdən-birə öldü. Gəlib əməliyyat çarpayısına uzandı. Üzünü çevirib qıza baxdı. F30 karsetlə oturmuşdu. Deyəsən, onu bu dəfə özü bağlamışdı. Heç on beş, iyirmi saniyə keçmədi, qapı döyüldü. Aydının durub qapını açmağa nə həvəsi, nə gücü qalmışdı. "Gəl" deyib, qapı açılana qədər bağırdı.

Yeməkpaylayan qırmızıbaş qadın araba-sinini bura gətirmişdi, onun yemək payını qucağına dürtdü, çay süzüb, cihazın üstünə qoydu.

Aydın qadını görəndə necə mat-məətəl qalmışdısa, bir də o gedəndə özünə gəldi. Üstündəkiləri götürüb, durdu.

– Dayan. Dayan görüm! – Qadını qapının qarşısında dayandırdı. Paketi açdı; iki yumurta, iki sosis, qara çörək, kişmiş qurusu...

– Niyə mənə hər gün eyni şeyləri gətirirsən?

– 46 nömrəli maska bu yemək setinə abunədi. Maska harda olsa, paketi ora çatdırmalıyam. – Otaqdan çıxdı.

İsti olsa da, çayı iri qurtumlarla içdi. Paketi götürüb F30-un yanına keçdi. Stolun üstünə qoydu. Əvvəl öz maskasını çıxardı, sonra qızın karsetini açdı. Yumurtanın birini qıza verdi, birini də özü götürüb ovcunda saxladı.

– Gəl döyüşək! – Qırılanı alıb soydu. – Uduzdum.

Qız asta-asta yeyir, tamsınırdı. Aydın ona fikir verirdi, qız çeynəyəndə əsnəməyi gecikirdi. F30 kişmiş qurusunu ovcunda tutub ilk dəfə görürmüş kimi, baxdı. Nazik barmaqlarının ucunda 2-3 dənəsini bir-birinə sıxıb götürdü, ağzına qoydu, Aydının üzünə baxdı, gözlərindən yaş süzüldü. Aydın bunun əsnəmənin yaratdığı adi göz sulanması olmadığını anladı.

– Ağlayırsan? Ağlaya bilirsən? Xatırladın?

Qız yaddaşının lap dərinliyində qalmış keçmişi dumanlı görürdü: çölün ortasında dayanmışdı, hər tərəfi ağappaq duman bürümüşdü, yel hərdən dumanı seyrəldəndə lap uzaqda mənzərə açılırdı, orda, o çöllükdə atlar qaçırdı, şahə qalxıb kişnəşirdilər. Duman qatılaşır, yenə seyrəlirdi; bir qadın əli mis dolçadan kasaya qımız tökürdü, qımız köpüklənirdi...

– Xatırla.

– Bacarmıram. – Qız əməlli-başlı ağladı. – Nəyi unutduğumu bilmirəm. Yaddaşım ağrıyır... Çox bərk ağrıyır.

Aydın yaddaş ağrısının necə olduğunu tam olaraq anlaya bilməsə də, sinir ağrısına bənzətdi.

– Morud Uluqbek... – adı çəkib bir neçə saniyə susdu. – Səni niyə qoyub getdi?

– Demişdi kim mənə iki yumurta, iki sosis, kişmiş yedirsə, ona deyim...

– Nəyi? Denən...

Nana Dolidze içəri təngnəfəs girdi.

– Gəlirlər! Gəlirlər! – Elə bildim otaqda gizlənməyə özünə yer axtarır. Müəllim görən şagirdlər kimi, on nəfər bir-birinin dalınca içəri girdi. Kim harda yer tapdı, əyləşdi.

Onların dalınca içəri Anastasiya Mixaylovna, bir də qara kostyumlu, sarı qalstuklu, əlində sarı qovluq tutmuş adam gəldi. Aydın maskasını götürəndə yumurta qabıqlarını yerə dağıtdı. Qapıdan çıxıb dayandı.

41 təlaşlı görünürdü, bilmirəm niyə, amma professor əsən əllərini ağ xələtinin ciblərində gizlətməyə çalışırdı.

Anastasiya Mixaylovna elə də uzun-uzadı danışıb izahat vermədi, görünür, Aydından başqa hamı sarı qovluqlu adamın gəlişinin səbəbini bilirdi.

– Parentalı bu gün təhvil verməlisiz. Yoldaş 41, inanıram ki, hazırdı.

41 yerindən qalxmadı, məncə stuluna əyləşməmişdi, yapışmışdı, indi də dura bilmirdi, hansısa daxili ağırlıq qüvvəsi onu içindən basırdı.

Kostyumlu adam sarı qovluğunu sinəsi bərabərində tutub, nəyisə qeyd eləmək üçün cavab gözləyirdi.

– Bizə bir günlük vaxt krediti lazımdı.

Məncə, heç kim bu cavabı gözləmirdi, çünki çaşqın göründülər. Amma yenə də etiraz edən olmadı. Görünür, bunu indiki halda ən doğru qərar idi.

– Yoldaş professor 41, – Anastasiya Mixaylovnadan ilk dəfə 41adını eşitdim. Bəlkə, əvvəllər də demişdi, amma bu dəfə səsinin tonu da fərqli gəldi. – Buna əminsən?

Kostyumlu adam razılaşdı, nəsə yazıb kağızı 41-ın qarşısına qoydu. 41 əlini cibindən çıxardıb qələmi stoldan götürdü, imza atdı, 42-yə uzatdı...

Kağızda nə yazıldığını Aydın Qaraxanlı imzalayanda oxudu. Vaxt bitənə qədər F30 təhvil verilməsə, bütün qrup könüllü olmağa razılıq verirdi. Tərəddüd eləsə də, imza atmağa məcbur oldu. Onlar kağızı alıb qapıdan çıxanda otağın havası yüngülləşdi, hamı dərindən nəfəs dərdi. İndi hərə bir tərəfdə deyinirdi, 41-ə etiraz eləməyə başladılar. 41 yerindən durub bağırdı. İki əlini də təslim olmuş kimi, başından yuxarı qaldırıb hamını susdurdu:

– Kimin alternativ fikri var? – Hamının hələ də susqun durması onun üçün gözlədiyi cavab idi. – F30-un hipotalamusunu yenidən dəyişməliyik.

– Bunu yaxşı fikir hesab eləmirəm. – 43 etiraz elədi. – Nəticələri itirə bilərik. Elə onun özünü də.

– İndiki halda özümüzü xilas eləməliyik. – 41 əminliklə dedi. – Çıxış yolu budur. Onu əməliyyat stolunda itirsək, işimizə qaldığımız yerdən davam edə bilərik. Bizə başqa könüllü verəcəklər.

Hamının onunla razılaşdığı sükutdan bəlliydi.

Aydın, deyəsən, olacaqları indi qavradı:

– Əsnəyir deyə onu öldürmək? F30 ağrı hiss eləmir. İstədiyiniz bu deyildimi? Ətrafı gözüyumulu görür. Bu da azdı?

– Deyirsən, yoldaş Vissarionoviçin qarşısına parentalı belə ağzıayrıq çıxaraq? Parental mükəmməl deyil. – 41 danışdıqca səsini qaldırdı. – Mükəmməl deyil! – Gəlib qızın otağına girdi. F30-a baxdı. – Görürəm, neyroprofilaktika da nəticə verməyib.

45:

– Yoldaşlar,ləngimək olmaz. Mən sabah könüllü kimi dəmir qapıların arxasında oturmaq istəmirəm.

Aydın Qaraxanlı qadınların ikisini də kənara itələdi.

– Bu qız insandı. Adını nə qoyursuz, qoyun. Vissarionoviçin istədiyi kimi olmağa məcbur deyil.

Nana Dolidze onun qolundan tutdu.

– Əgər düzəldə bilməsək, yoldaş Vissarionoviçə təqdim etmək olmaz, jüri bizə nə deyər, heç bilirsən? Bu günə qədər ödənmiş pulları Sarı Banka qaytara bilmərik.

– Bu nədir tökmüsən bura? – 41 ayaqqabısının ucuyla yerə dağılmış yumurta qabıqlarını göstərdi. – Bunu ona vermisən? – Cinayət üstündə yaxalamış kimi bağırdı. – Sən ona zülal, protein vermisən?

Deyəsən, indi hamı cavab gözləyirdi. Aydın da bunu hiss elədi.

– Neyroprofilaktika bitdi. İndi nəticəni müxtəlif üsullarla yoxlamaq qalır. Bu, təcrübədi. – Aydın üzünü Nana Dolidzeyə çevirdi. – Əgər jüri qəbul eləsə, qızın sonrakı taleyi nə olacaq?

– Rəhbərlikdən tapşırıq alacaq. Cəmiyyətdə yaşayacaq. – Nana Dolidze hamıdan tez cavab verdi.

43:

– Geniş şəkildə hipotalamusun transplantasiyasına başlanacaq.

– Mənim müqaviləm bitəcək.

Aydın gəlib 41-in qarşısında dayandı:

– Müqavilən bitəcək. Çox yaxşı. Hara qayıdacaqsan? – 41 cavabı fikirləşirdi, Aydın 43-ün qarşısında dayandı. – Bəs sən? Sən hardan gəlmisən? Demə ki, "Maşınqayırma"dan.

Aydın sualı hamıya bir-bir təkrarladı. Bilmirəm maskanın altında üzlərinin ifadəsi necəydi. Susurdular, bu adi susmaq deyildi.

– Sizin keçmişiniz yoxdu. Siliblər. Siliblər ki, sizdən istədikləri kimi istifadə eləsinlər. – Aydın bir-bir onların qarşısında durub gözlərinin içinə baxdı. – Sən mətbəx robotusan, sən telekartsan. Sən elektrik mişarısan. Sən... Sən soyuducusan...

– Bəli, biz hamımız çox hörmətli Vissarionoviç yoldaşın istədiyi kimi olmalıyıq. – 44 onunla deyişməyə hazır dayanmışdı. – Sən nəsən? Yoldaş Vissarionoviç yoldaşa qarşı çıxırsan? Bəlkə, sən onun qurduğu bu cəmiyyəti bəyənmirsən?

– Mən maskabaş olmaq istəmirəm. – Telekartını çıxarıb göstərdi. –Bu cihazı idarə edə bildiyimiz kimi, onların da məni idarə etməsinə razı

deyiləm. Maskabaş cəmiyyəti qurulur. Özü də bizim əlimizlə. Bizim ölkələrdə. Bizim uşaqlardan.

– Cəmiyyəti özbaşına qoymaq olmaz. Mütləq sosial mühəndislər tərəfindən idarə olunmalıdı. Lazımsız adamlar yararsız inventar kimi ortadan çıxmalıdır. Hansısa ucqar bir kənddə beş-on keçinin, qoyunun dalınca düşüb, nimdaş geyinən kəndçi, ya da şəhərin küçələrində səfil dolaşan, onun-bunun qapısında bir qarın yemək üçün çalışan yoxsul adam müasir cəmiyyətdə nəyə lazımdır? Hansı işə yaraya bilər? Hələ bir siçovul kimi doğub artalar da. Gələcəkdə iti şüurlu, nizam-intizamlı parentallar olmalıdır. – 44 bütün inancıyla fikrini çatdırdı. Aydına meydan oxuyurmuş kimi, burnunun üstündən baxırdı.

İçəri girib qızı çıxardılar. Aydın onların qarşısına keçdi.

– Toxunmayın ona. Mən... mən onun əsnəməyini ləngidə bilərəm.

Deyəsən, inanmadıla. Aydın gedib Nana Dolidzenin stolundakı saqqızlardan birini gətirib F30-a verdi. Onun qolundan tutub öz köşəsindəki stulda oturdu:

– Qızı həyəcan əsnədir. Gərək tam sakit ola. Başa düşürsüz, tam sakit, rahat. Baxın, çeynəyir...

Qız sakit-sakit çeynəyirdi. Nana Dolidze onun əsnəmə aralığını ölçür, hər dəfə vaxtın uzandığını deyirdi.

– Biz onu elə indi havaya çıxarmalıyıq. Təmiz havada gəzməlidir...

– Bu mümkün deyil... – 41 onun sözünü kəsdi. – Qadağandır.

– Qadağandırsa, gizlin çıxarmaq lazımdır.

Nana Dolidze Aydının sözünü davam elədi:

– Saqqız verib, jüriyə təqdim edərik. – Bu dəfə sevincək dilləndi. – Mən ona saqqızı lap asta-asta, hətta hiss elətdirmədən gövşəməyi öyrədərəm.

41 nəticədən məmnun qalmışdı, əlləri əsmirdi. Aydın onu ilk dəfə yeməkxanada necə özündənrazı, arxayın görmüşdüsə, indi də eləydi. Hamının qərarını soruşdu, sonra gəlib əlini Aydının çiyninə qoyub işi bacardığını dedi.

44 onunla razılaşmadı:

– Yoldaş Vissarionoviçi aldatmaq yaxşı iş deyil. Mən razı deyiləm. Bu barədə rəhbərlərə anonim məktub yazacam. Qoy gəlib bu saxtakarlığa son qoysunlar. Yoldaş Vissarionoviçə qarşı çıxanlar cəzalansın...

– Bu gövşəmək aldatmaq deyil. Bu da, bir növ, peşədi. – 41 Aydının qulağına əyildi. – Əgər jüridən yaxşı qiymət alsa, biz vaxt udarıq. Yoldaş Vissarionoviçə qədər bir az da gövşəmə üzərində işləyərik. Sonra... – 41 sözünü yarımçıq kəsdi. Yəqin, istədi ardını Aydın özü fikirləşsin. – Bilirsən həmişə ən böyük arzum nə olub?

– Nə?

– Sarı qalstuk.

– Sadəcə, sarı qalstuk?!

– Hə.

– İndi onu verəcəklər?

– Yox. – 41 içini çəkdi. – Artıq gecdi. Geri qayıdıram.

– Hara?

– Geriyə... – Düşünmədən cavab verdi. Yəqin əvvəllər də bu barədə düşünübmüş, tapdığı cavab da elə bu idi: "Sadəcə geriyə."

İş saatı bitəndə 41 Aydına onunla yollarının üstündəki bara getməyi təklif etdi. Xahiş elədi ki, etiraz eləməsin, indi bir neçə qədəh içmək olar. Deyəsən, içini boşaltmaq istəyirdi, Aydın bunu anladı. Yaxın olduğundan 41 prospektin başındakı açıq bara yaxınlaşdı. Onlar küçəyə bir neçə stol, stul qoymuşdular. Əksər stollarda adamlar tək oturub içir, qəmli-qəmli siqaret çəkirdilər. Küçədəki adamlar stolun lap bir addımlığından keçirdilər.

– Həyat çox gözəldi. – 41 dolu qədəhi başına çəkib yerə qoyandan sonra dedi. Nizamını pozmayan adamlara bu an heyranlıqla baxırdı.

– Həyat? Hansı həyat? Bunu deyirsən? – Aydın əlini uzadıb küçəni, sonra hərəsi bir stolda oturan adamları göstərdi. – Məncə, bu adamları bir-birinə bağlayan heç bir ortaq dəyər yoxdu. Hətta, açığını desəm, bu adamlara yazığım gəlir. Elə indi ağlıma gəlir ki, mən də onlardan biriyəm.

40 qədəhi yerə qoyan kimi, doldurub əlinin altına hazır qoyurdu. Aydına da işarə eləyirdi ki, ləngiməsin, içsin. Sonra Aydının sözünə hansısa səbəbdən əməlli-başlı güldü.

– Adamları bir-birinə bağlayan nizam-intizamdı. Mən onları bir sapa düzülmüş mirvari dənələri kimi görürəm. Hamı eyni, hamı bərabər. Bax, yoldaş Vissarionoviç gələcək üçün bu rejimi qurub.

– Məncə, mən adam müqəvvasıyam. İçimizdəki hansısa bir mexanizm, dişli çarxlar bu müqəvvanı hərəkətə gətirir. O ki qaldı hamının bərabərliyinə, onu da qəbul eləmirəm. Məncə, adamlar yalnız kölə olanda bərabər olurlar, eyniləşirlər. Fikrimcə, insan yaşadığı cəmiyyətdə fərqli olmağa çalışmalıdır. Seçilmək üçün hədəfi olmalıdır. Bütün ömrü boyu adilikdə, eynilikdə qala bilməz. Başqasından daha yaxşı yaşamaq, ondan daha çox qazanmaq, ondan daha yüksəkdə durmağa can atmalıdır. Axı, niyə hamı bərabər olmalıdır? Niyə mən başqası kimi düşünməli, yeriməli, qazanmalı, geyinməliyəm? Azadlıq bərabərlikdən, eynilikdən xilas olmaq deyilmi?

– Deyirsən yəni adamların bərabər hüquqlu olması köləlikdir? – Susdu, sonra qədəhi başına çəkdi. Dodaqlarını marçıldatdı. – Belə görürəm, yoldaş Vissarionoviçin qurduğu rejimi, idarəçilik siyasətini bəyənmirsən. Bəlkə, sən daha içməyəsən?

– Bir bizim kombinezonlarımıza bax. Biz bu rejim üçün nəyik axı? Guya bu adamların F30-dan fərqi var?

– Fərq böyükdü.

– Səncə bu gedən adamların harasısa ağrıyır? Yox. Onlar ağrı hissini çoxdan itiriblər. Mən hər səhər onlara fikir verirəm. Heç bu adamları parentala çevirmək üçün əlavə süni hipotalamusa da ehtiyac yoxdur. Sarı xətt işi çox

yaxşı görür. Hətta mənə elə gəlir, əsil iş bu küçələrdədi, biz laboratoriyada başımızı qatırlar. Gəl elə səndən danışaq. Kimin üçün darıxırsan? Sənin xatirələrin, xəyalların da yoxdu. Nəyi unutduğunu unutmusan. Sən də ağrının nə olduğunu bilmirsən. Amma bilirsən ki, dünya var, insanlar var, bir insan cəmiyyəti var. Var, amma bizdən, burdan kənarda. Bizi dartıb, ordan qoparıblar.

– Mən adi bir adam deyiləm. Ömrümü işimə bağlamışam. Məqsədimiz bioloji ölümü gecikdirməkdir. Süni hipotalamus layihəsi orta yaş həddini yüzə qaldıracaq. Təcrübələrimiz hormonları idarə etməyin mümkün olduğunu sübut edib. İstənilən vaxt beta-lipotrofini[1] artıranda, bu vaxt yaranan endorfin sinirləri keyidir, ağrı kəsir. Yaxın gələcəkdə dünyanın beta-lipotofinini artırmaq əlimizdə olacaq. Sən də mənə xəyaldan, xatirədən danışırsan. Budur mənim missiyam.

– Bəs F30 hipetalamusunu necə idarə eləyir? Hormonlarını necə artırıb-azaldır?

– Bu mexanizm hələ birbaşa beyinlə idarə olunmur. Endokrin sistemi telekartla, planşetlə idarə olunur. Daha asan. Məsələn; gülmək, sevinmək istəyirsən? Sistemə girirsən, hormonu seçirsən, artırırsan, qəhqəhə çəkib gülürsən. Qocalırsan? Estrogen hormonunu seçirsən, bir az kollagenin, bir az elastinin ifrazatını artırırsan, bütün qırışların bir neçə saata ağ köynək kimi ütülənir. Görürsən get-gedə bədənin gücü azalır? Heysizləşirsən? Hormonu artır. Vəssalam. Budur bizim gələcək.

– Əllə idarə olunan beyinlər.

– F30-un əsnəməyi hormonal olsaydı, biz bunu çoxdan bacarardıq.

– Müqavilən bitərdi.

– Hə. – Qədəhin arxasını stola vurub, sonra içdi. – Yoldaş Vissarionoviçlə üz-üzə dayanacam. Uniformasız. Heç bilmirəm axırıncı dəfə üzümü nə vaxt çıxartmışam.

– Elə indi çıxar.

– Yox... – Tərəddüd elədi. – Küçədə ayıbdı. Kənardan necə baxarlar? Mən professoram.

– Ətrafı unut. Heç olmasa bir dəfə ürəyin istəyən kimi ol. – Çox güman ki, Aydının məqsədi onun əsil üzünü görmək idi.

– Yəni, deyirsən çıxartsam olar? Bu qədər adamın arasında... Elə biləcəklər könüllüyəm.

41 cəsarətləndi. Barmaqlarını maskanın gözlərinə soxub dartdı. Elə bil sifətini dartırdı; yaraya yapışmış pambıq kimi ehtiyatla qopartmağa çalışırdı. Üzü maskanın şəklini almışdı, mənə elə gəldi, onun dərisini şam kimi əridib bu maska-qəlibin içinə tökmüşdülər, onun formasını almışdı. İndi ilk dəfə professorun üzü qəlibdən çıxırdı. Kosa olduğundan üzü qadın dərisi kimi tüksüz idi. Bəlkə də, saqqalın qarşısını almaq üçün hansısa qarışıqdan istifadə edib, ya da maska onun üzünü bu şəklə salıb? Üzünə

---

*[1] – Hipofiz vəzisindən sintez edilərək Endorfini yaradan maddə*

sərin meh dəydikcə, yavaş-yavaş gülümsədi, özü də çox ehtiyatla gülümsədi. Elə bil qorxurdu dodağı, yanaqlarının dərisi cırılar. Bilmirəm, əvvəllər gülümsəmişdi, ya yox, amma indi yavaş-yavaş dodaqlarını dartırdı. Bu gülümsəmənin fonunda onun gözləri çox qəribə görünürdü; dəqiq anlaya bilmədiyim boş bir ifadə vardı.

– İlk dəfədir ictimai yerdə uniformamı çıxarıram. – 41 ayıbını göstərirmiş kimi, qısılaraq dedi. – Yəqin, çox eybəcərəm. Hə? Üzüm necədi? Yaxşıdır demə. Yalan deyəcəyini bilirəm. Yoldaş Vissarionoviçin qarşısına bu eybəcər sifətlə çıxmaq istəmirəm. – 41 maskanı stoldan götürüb üzünə taxmaq istədi, Aydın onun biləyindən tutdu. – Özümü cəmiyyət arasında tumansız, lüt görürəm. – Sözünə kinayə ilə gülümsədi.

– Sənin üzün bu hansısa heyvanın dərisindən hazırlanmış quru maskadan daha yaxşıdır. Yalan demirəm.

– Heyvan deyil... Qadınların yançaq dərisindən hazırlanır. – 41 bu dəfə bir az cəsarətlə gülümsədi.

Aydın Qaraxanlı qeyri-ixtiyari, maskanı üzündən çıxarıb ona iyrənə-iyrənə baxdı. Bu, onun heç vaxt ağlına gəlməzdi, elə mənim də. Öz-özünə "Axı niyə? Niyə?" – deyə təkrarladı. Onu bu fikir bataqlığından qəfil dartıb çıxaran Raya Kozakova oldu. Sabah şəhər xətlərinin açılacağını dedi. Məsləhət gördü ki, bu gün vaxtında mənzildə olsun, yatmaq daha xeyirlidir. Aydın Qaraxanlı fürsətdən istifadə edib Sabit Ağazadənin yerini soruşdu. Elə bu saat professor haqqında məlumat verməyi tələb elədi. Yenə də operator Aydını təmkinli cavabıyla yandırıb tökdü. Aydın 41-ə şikayət elədi. Dedi, buna deyirdin gözəl həyat? Həmən gün bu operator Sabit Ağazadəni bərk əsəbiləşdirmişdi. Sabit Ağazadə də, sadəcə, gəzmək istəyirdi. Telekartına cərimələr gəlirdi. Professor sarı xətti vecinə də almadı, başını götürüb getdi. İndi də xəbər yoxdu. Bu qız da yerini demir.

– O... o... – 40 özünü tarazladı, stoldan durmuşdular. Amma hələ yolu seçib getməyə tələsmirdilər. – Akvariumdadı. Cərimələrə görə... Sarı Banka borcun olanda... Nizam-intizamı pozanda... Sarı Xətt Nazirliyi cəza verir. Hesabın bitəndə könüllü olursan. Akvarium...

– Hardadı o akvarium?

– Sənin keçid icazən yoxdu.

– Bəs sənin?

41 bir az duruxub, sonra başını tərpətdi:

– Mənim bu qadın dalından hazırlanmış üzüm bütün qapıları aça bilir. – Güldü. – Amma şərtim var. – Barmağını havada silkələdi. – Məni gəmiyə aparmalısan. Görmək istəyirəm.

İçəridəki iri butulka şəkilli akvariumlar iki cərgədən, iki mərtəbədən ibarət idi. Sağ, sol cərgənin ortasından iki metr enində dəhliz uzanırdı. Bir də havalandırma borusu onları yuxarıdan birləşdirmişdi. Akvariumun dairəsinə kameralar qoyulmuşdu. Könüllünün içəridə aldığı nəfəs də, bədən təzyiqi də, ürək ritmi də müşahidə zalındakı iri monitorlarda

görünürdü. Növbətçi müşahidəçilər nömrələnmiş akvariumlardakı adamları izləyir, hansısa nəticələri yazırdılar.

Aydın monitorlara heyrətlə baxırdı. Öz-özünə "Bu nədi belə?" deyib təkrarlayırdı. Bəzi adamlar butulkaya salınmış həşərat kimi çapalayırdılar.

Yuxarıdan butulkanın ağzından iri başlı duş sallanırdı. Küncdə rahat bir çarpayı qoyulmuşdu. Sağ cərgədə birinci mərtəbənin bəzi akvariumlarında çirkab su çarpayının yarısına qədər qalxmışdı, könüllü çirkaba bulaşmış ayaqları ilə çıxıb oturmuşdu çarpayısında. O biri akvariumda könüllü çarpayısını duşun altına çəkmişdi, döşəyini bir küncə qatlamışdı, dəmir qolların üstündə dayanıb özünü qaşıya-qaşıya yuyunurdu. Bir könüllü sifariş verdiyi yeməkləri iri bir sinidə alırdı; yuxarıdan aşağı endirirdilər.

– Üfunət... çirkab...

– Ürəkləri istəyəni yeyirlər. Dünyanın bütün mətbəxindən yemək-içmək sifariş verə bilərlər. Nə vaxt istəsələr, isti-soyuq duşları başlarının üstündə. Çimirlər. Rahat yatacaq çarpayılar verilib. Dünyada hamının istəyi bu deyil-mi?

– Unitaz yoxdur. Heç olmasa yumruq girəcək boyda bir dəlik olsa... çirkab axıb gedərdi.

– Özlərinindi, yeyib-içdikləri, bədənlərinin suyu. Ora kənardan çirkab su tökülmür. Bu, haqsızlıq olardı. Üstəlik, onların havalandırması var.

41 monitorun arxasında oturmuşdu, klaviaturada düymələrə toxun-duqca, könüllüləri iri planda, üzləri tanınacaq şəkildə önə çıxarırdı.

– Sabit Ağazadə yazın. Bəlkə, adıyla çıxar. – Aydın onun maskasının nömrəsini də dedi. –İndi ağlıma gəldi. Demək, bu adamlar elə Sabit Ağa-zadə kimi, elə bizim kimi kənardan, müqavilə ilə gələnlərdi? Hə, belədir?

– Nizam-intizam qanunları hamı üçün eynidir.

İkinci cərgədəki akvariumlarda nə duş vardı, nə çarpayı, nə də yemək. Təkcə iri, rahat unitazlar qoyulmuşdu. Akvariumda könüllülərin bəzisi əsəbindən dövrə vurur, bəzisi bir tərəfdə qıvrılıb yatıb, başqası qarşıdakı akvariumda çarpayıda oturub sinidəki yeməyi iştahla yeyən adama baxır, divarı döyəcləyirdi. O birisi dizlərini qucaqlayıb ağlayırdı...

– On üçə qaytar. Adamın üzünə baxım. – Bir küncdə qıvrılıb uzanmış adam Aydına tanış gəldi. – Odu! Sabit Ağazadə! Bizim professor. Mənim yerlim. Ordan çıxarda bilərsən?

– Onlar Sarı Banka borcludurlar. Hesabları bitib.

– Bilirdim professor buranın qanunlarına əməl edən deyil. Bəs, necə çıxara bilərik?

– Cəriməni ödəmək üçün işləməlidir. İşləmək üçün ordan çıxmalıdır. Ordan çıxmaq üçün də banka borcunu ödəməlidir. Bu da o deməkdir ki, mümkün deyil.

Aydın yanındakı müşahidəçinin uniformasını görəndə tanıdı.

– Tamara xanım. Yoldaş Tamara, bu mənəm. – Aydın maskasını çıxartdı. – Üst qonşu.

– Bildim. – Könülsüz cavab verdi.

– Bizim professor ordadı. Siz yəqin onu tanımamısız?

– Könüllüdür.

– Mən hər gün onu sizdən soruşurdum axı.

– Biz şöbə rəhbərinə hesabat veririk.

– O, Sabit Ağazadədi. Bizim ölkənin alimidi. Professordu. Ordan bura acından ölməyə gəlməyib.

– Öz seçimidir. Başqalarının qərarlarına hörmətlə yanaşmalıyıq. Bizim işimiz könüllülərin üzərində əsəbin maddələr mübadiləsinə təsirini öyrənməkdir.

– Heç bilirsən onun neçə yaşı var?

– Bizi nəticə maraqlandırır. Tapşırıq belədi.

– Tapşırıq? Bəs, siz düşünmək üçün öz beyninizdən istifadə eləmirsiz?

Aydın bilmədi Tamarayla hansı dildə, hansı qılıqda danışsın. Gözü otaqda Mikayılı axtardı, onun da buralarda olduğuna əmin idi, amma uniformasının nömrəsini, rəngini xatırlamırdı. Qadından soruşmağı da yersiz hesab elədi, ağlından keçdi ki, Mikayılla blokda üz-üzə danışar, evinə girər, razı salar.

41 dedi ki, əsas odur Sabit Ağazadə Miroqraddan qovulmayıb, indi onun yerini bilirsən. Könüllünü ordan çıxartmaq üçün bir yol fikirləşib tapmaq olar. Amma indi getsələr yaxşıdır, burda qalmağın mənası yoxdur. Sabah onlar üçün xüsusi gündür. Bu haqda fikirləşməlidir. Aydın razılaşmadı, dedi professoru burdan çıxarmağın yolunu tapmasa, heç bir yerə gedən deyil. 41 Aydını inandırdı ki, yaxşı bir fikri var.

Küçədə 41 Aydına dedi:

– Sənin sayəndə müqaviləm tezliklə bitəcək. Yoldaş Vissarionoviçin mənə verəcəyi kartda sənin də haqqın var. İstəsən, onu professorun hesabına köçürərsən. Həm cəriməsi ödənər, həm də Sarı Banka depozit qoyarsan. Ordan çıxar.

Aydın uşaq kimi sevindi. Yolun ortasında onu qucaqlayıb, bağrına basdı. 41 Aydını əsəbi halda itələdi, qollarının arasından dartınıb çıxdı, özündən araladı, dedi, bu, çox alçaldıcı hərəkətdi, bir də belə eləməsin.

Parkın qarşısındakı küçədə dayanan adamları görmüşdüm. Onlara qəpik-quruş verib qucaqlayırdılar. Kimi istəyirdin seçirdin, sadəcə, qucaqlayıb başını onun çiyninə, ya sinəsinə qoyurdun.

41 özünü o adamlara tay tutulmasından alındı. Aydın onun könlünü almaq üçün təklif elədi ki, səhərə qədər küçələri gəzsinlər, bu uğurlu günün kefini yaşasınlar. Raya Kozakova tapşırdı ki, xətti dəyişməsin. Aydın bu dəfə əsəbiləşmədi, bircə onu dedi ki, mən sənin tramvayın deyiləm.

Aydın qulaqcıqla birlikdə telekartını avtobus dayanacağındakı skamyanın altına qoydu.

– İndi gedək! Qoy, bu dıbırayaq elə bilsin burda oturmuşam.

– Sistemi aldada bilməzsən.

– Onlar bizi bu telekartla izləyir. GPS-lə. – Aydın sübut eləmək üçün xətdən neytral əraziyə çıxdı. Dərhal da kartına cərimə bildirişi gəldi. Siqnal səsi onu geri qaytardı.

– Sən sistemə aidsən. Onunsan.

Aydın telekartı götürüb cəriməsinə baxdı.

41 əlini onun çiyninə qoydu:

– Sabah təqdimatdan sonra səni vətəndaş mərhələsinə keçirəcəklər. Bütün xətlərin açılacaq. İndi get yat, tramvay.

41 ayrılıb gedəndə Aydın bir müddət onun arxasınca baxdı, sonra skamyada oturdu. Qeyri-ixtiyari köks ötürdü. Qarşısından keçən adamlara baxırdı. Sonra durub yolun ortasında dayandı, üstünə gələn adamlar haçalandılar, sağından-solundan keçdilər. Gözləyirdi bir adam onunla burun-buruna durub etiraz eləsin, qarşısından itələyib keçsin. Adamların bu qədər səbirli olması getdikcə onu özündən çıxartdı. Özünü adamların qarşısına atır, istəyirdi kiminləsə toqquşsun. Adamların etinasızlığı onu bir az da cəsarətləndirdi. Yanından keçən adama badalaq verdi, əvvəl özünü elə göstərdi ki, guya bu, təsadüfən oldu. Yıxılan adam durub üstünü çırpmadan getdi. Aydın bir az da ürəkləndi, özünü dəcəl uşaq yerinə qoydu, gah sağ, gah sol ayağını uzadıb, kimisə yıxmağa çalışdı. Adamlar ona məhəl qoymurdular, ayağının üstündən keçən də olurdu, büdrəyən də. Əmin oldu ki, cəmiyyət mühəndisləri işlərini çox dəqiq görüblər. Nizam-intizam kitabında kütlə mədəniyyəti haqqında oxuduğu bir neçə məqam yadına düşəndə içindəki dəcəl uşaq qaçıb getdi. Əvvəl istədi gedib adamlardan üzr istəsin. Sonra fikrindən daşındı, onlar üçün bunun bir fərqi olmadığını düşündü.

Zəng səsi hamını dayandırdı, çöməldilər, durub getdilər.

Dmitri küçəsi ilə addımladıqca 41-ın sözü beynində təkrarlanırdı: "Sən sistemə aidsən... İndi get yat, tramvay."

Aydın yata bilmirdi. Nə qədər yorğun olsa da, divana uzanmaq istəmirdi. Fikri Sabit Ağazadənin yanında qalmışdı. Pəncərənin qarşısında dayanıb öz-özünə danışır, anlamağa çalışırdı: "Demək, belə, rejim işçilərlə istədiyi kimi davranır. Tramvay... Tramvay... Onların məqsədi beynimizi yumaqdı. Görəsən, beyni yuyulan adamlar bunu bilirlər?" Rəfdəki beyin fiquru gözünə sataşdı. Gedib götürdü, altındakı yazını bir də ucadan oxudu: "Məni unutma". Demək, bunu deyən öz beynindi. Başqasının hədiyyəsi deyil. Səni yavaş-yavaş eşidirəm, Morud Uluqbek, eşidirəm".

Aydın pəncərənin şüşəsində əksini gördü. Gördü ki, hələ də maska üzündədir, gördüyü özü deyil. Maskanı çıxardıb stolun üstünə atdı. "Sən məni uda bilməzsən." Götürüb qrafinə söykədi. "Mənim keçmişim var. Düzdü, orda atam-anam yoxdu, amma dostlarım, tanıdıqlarım... bu saat yadıma salacam. Deməli..."

Aydın F30-a kişmiş gətirmişdi. Nana Dolidze gedəndə onun ovcuna tökdü.

– Ye. Mənə nə deməliydin?

– Hazıram. Vissarionoviçi öldürə bilərəm.

– Öldürmək? Sus! Sus... Divarların qulağı var. Olmaz.

– Morud Uluqbek məni buna görə seçdi. Mən onun qarşısına çıxacam.

– Dayan! Dayan! İndi başa düşdüm. – Aydın bir anlıq duruxdu. – Olmaz. Əgər sən onu öldürsən, 41-lə vidalaşa bilməz. Akvariumda professor var, onu çıxartmalıyam.

– Demişdi sənə mənzilin dəhlizindəki şəkli xatırladım.

– Hə. Hə... Deməli, qaçmaq. Vissarionoviçi öldürmək. Qaçmaq. Amma necə? Hara?

– Qaçmağa hazırlaşırsan? – 43 içəri girdi. Aydın qəfil səsdən bir anlıq özünü itirdi. – Yoldaş Vissarionoviçi öldürmək?! Səni bura bizim yoldaş Vissarionoviçi öldürməyə göndəriblər? Bilirdim! Bilirdim, sən neyrocərrah deyilsən. Casus! Səni oteldə ölən NATO generalına görə göndəriblər. Aşkar olundun, xain! Bunu rəhbərliyə deməliyəm. – 43 otaqdan çıxmaq istədi, elə çevrilib bir addım atmışdı ki, Aydın arxadan onun paltarının boynundan yapışdı, dartıb otağın ortasına fırlatdı. 43 F30-un ayağının altına uzandı. Aydın ona yerdən durmağa macal vermədi, üstünə atılıb boğazını sıxdı.

43 çapaladı, Aydının biləyindən yapışıb aralamağa çalışırdı. Maskası üzündən düşdü. Aydın 43-ün qadın olduğunu görəndə elə bil əli isti soba borusuna dəyib yandı, geri təpildi. Qadının qırtlağını buraxıb oturan yerdə arxaya sürütləndi. Kürəyi şüşə divara dəyəndə dayandı.

Qadın dalbadal öskürdü. Ağzını açıb havanı udmağa çalışdı. F30 onun arxasında dizlərini yerə qoyub oturdu. Qadının ağzını, burnunu əlləri ilə tutub öz sinəsinə sıxdı. Qadın çapalayırdı, bərəlmiş gözlərini Aydına dikmişdi. Baxışıyla yalvarırdı ki, onu qızın əlindən alsın. Aydın durub otaqdan çıxdı, canverməni görməyə səbri çatmadı. Laboratoriyanın qapısına doğru tələsdi. Qapıya çatar-çatmaz, 41, dalınca Nana Dolidze içəri girdilər. Qəfil rastlaşmadan üçü də bir anlıq duruxdu. Aydın daha tez özünə gəldi. Onları otaqdan geri qaytarmaq istədi, hətta iki əlini də 41-in sinəsinə qoyub astanadan içəri girməsinə mane oldu. Yəqin ki, uydurmağa ağlına daha yaxşı fikir gəlməmişdi; dedi F30 otaqda yoxdu. Onu tapıb hazırlaşdırmaq lazımdı. Bir azdan səhnəyə çıxacaq. Gedək onu axtaraq. 41 onun əlini kənara itələyib içəri girdi. Nana Dolidze də ona təəccüblə baxırdı, barmağını uzadıb qızı göstərdi.

– Burdadı.

Aydın qızı qapının ağzında gördü; öz otağından çıxmışdı, getməyə hazır görünürdü. 41 qıza yaxınlaşdı. Aydın Nana Dolidzenin çiyninin üstündən içəri boylandı; 43-ün cəsədini görmədi.

Nana Dolidze cibindən saqqız çıxarıb F30-a verdi. Qız çeynəməyə başladı. Nana Dolidze dirijor kimi barmağını havada oynadır, qıza daha sakit, təmkinli gövşəməyi başa salırdı. Qızın çeynəməsi getdikcə hiss olunmadı. Bu müddətdə bir dəfə də əsnəmədi.

41 əl çalıb, alqışladı. Əvvəl Aydını təriflədi, gövşəmə ilə əsnəməyi dayandırmağın dahiyanə olduğunu dedi.

– Bilirsən, bu, açıq yaranın qanını kəsmək kimi bir şeydi. Yoldaş 47, sənin də zəhmətin göz qabağındadır. F30-a gövşəməyi ən yüksək səviyyədə öyrətmisən. Mənə belə gəlir ki, biz yeni növ süni hipotalamuslara dəvədən alınmış nümunələrlə gövşəmə funksiyasını əlavə etməliyik. Bu həm də aclıq hissini öldürəcək. Gələcəkdə Dünya qida qıtlığı problemini yaşamayacaq. Necədi? Dahiyanə deyilmi? Bəli, məncə, dahiyanədir. Biz F30-u yaratdıq. – Qızın çənəsindən tutub başını bir az yuxarı qaldırdı. Qız onu burnunun üstündən görürdü. – Yoldaş 47, sən bunu apar təlimatlandır. Qoy bilsin jüri qarşısında nə edəcək. Biz də gəlirik.

Aydın qeyri-ixtiyari bu bir neçə metrlik otağa göz gəzdirib 43-ün cəsədini axtardı. Görmədi.

Nana Dolidze F30-la gedəndən sonra 41 Aydının qoluna girdi.

– Tezliklə yoldaş Vissarionoviç mənimlə vidalaşacaq. Sən qalırsan. Burdan getmək üçün götür mənim bayaq dediyim dahiyanə fikri dəyərləndir. Dəvə gövşəməsi lap əla ideyadı. Dəvə gövşəməsi. – Onlar qapıdan çıxdılar. – Gəmini də unutma... Məni bu axşam dənizə aparmalısan.

Parket döşənmiş dəhlizə keçdilər. Hər addımda quru taxtalar inciyirmiş kimi, çırıldayırdı. Sol tərəf enli şüşəli iri pəncərələr idi. Burdan şəhər görünürdü. Sağ tərəfdə bir-birindən aralı qəhvəyi üzlü qapılar sıralanmışdı. Dəhlizlə dəstə-dəstə gedən adamlar taybatay açılmış hündür qapıdan girirdilər.

İçəri mühazirə auditoriyası idi. Qapıdan girən öz qrup şöbəsinə aid olan dörd nəfərlik skamyanı tapıb əyləşirdi.

Təxminən yarım saat sonra yaxalığında sarı ulduz olan beş nəfər gəlib protokoldakı yerlərini aldı. Səhnədəki kürsüyə Anastasiya Mixaylovna çıxdı. Barmağının ucuyla mikrofonu döyəcləyib küt səsi zala yaydı. Sonra yoldaş Vissarionoviçin elmə verdiyi diqqətdən, qayğıdan, gələcək planlarından danışdı. Bu gün təqdim olunacaq şöbələrin adlarını sadaladı.

Aydın ortada oturmuşdu, 41-in qulağına pıçıldadı:

– Bizim qızı səhnəyə kim gətirəcək?

– Yoldaş 43.

Aydın üzünü səhnəyə çevirib bir az aşağı sürüşdü, elə bil özünü qarşısındakı adımın peysərində gizlətməyə çalışdı.

Səhnəyə birinci model çıxmışdı. Arxadan ara-sıra pıçıltılar, anlaşılmaz səslər gəlsə də, ümumilikdə hamı diqqətini səhnəyə yönəltmişdi. "Model Erqot22" – Anastasiya Mixaylovna belə təqdim elədi. Qoca, arıq kişinin üzünün dərisi sümüyünə yapışmışdı, sol əli titrəyirdi. Qara mamba hamının gözü qarşısında onu sancmalıydı.

F30 səhnəyə çıxanda Aydın onu alqışladı. Sonra 41-lə Nana Dolidze də ona qoşuldu. Sükuta bürünmüş zalda yalnız üç nəfərin çəpik səsi eşidilirdi. Qəfil də əllərini saxladılar.

– 43 hanı bəs? Niyə səhnədə deyil?

– Mən gedərəm. – Anastasiya Mixaylovna təqdimatı oxuyanacan Nana Dolidze səhnəyə çıxdı. Təqdimatda istifadə olunacaq iti, küt, sıxıcı, əzici alətlər dəstini təkərli sinidə sürüb gətirdilər. Nana Dolidze qızın xələtini siyirib onun çiynindən ayağına saldı. Beyindəki ağrı ocaqlarının necə söndürüldüyünü, süni hipotalamusun üstünlüklərini izah elədi. Təklif elədi ki, kim istəsə, gəlib F30-un ağrı hissiyyatını yoxlaya bilər. Səhnəyə bir kişi çıxdı, alətləri bir-bir götürüb baxdı, seçdi. Nəhayət, mismar, çəkic, taxta parçasını götürdü. Qızın ayağını həmən taxta parçasının üstünə qoyub, mismarı axıra qədər ayağının üstündən taxtaya çaldı.

– Kim istəyir, buyurub gəlsin. – Nana Dolidze səhnənin qabağına gəlib tamaşaçıları həvəsləndirdi. – Gəlin, çəkinməyin, gəlin siz də yoxlayın. İşimizə qiymət verin. F30-a istədiyiniz qədər əzab verə bilərsiz. Bir şərtlə; ölümcül olmasın!

Səhnəyə hər çıxan çalışırdı F30-un ağrıdığını, təcrübənin alınmadığını, modelin yararsız olduğunu sübut eləsin. Tərslikdən, jüri də qane olmurdu, dayandırmırdı, eləcə, maraqla baxırdılar.

Aydın bundan artıq dözə bilmədi. Bayaqdan bəri başını aşağı salmışdı, onu belə al-qan içində görmək istəmirdi. Axır ki, cəsarətini toplayıb yerindən durdu. Yuxarı qalxıb auditoriyadan çıxdı. Pəncərənin qarşısında dayandı. Hönkürüb ağlamaq istəyirdi, bacarmırdı. Qışqırmaq istəyirdi, səsi çıxmırdı. Nəfəs yoluna düşən çəyirdək kimi hava da tıxanıb qalmışdı. Sadəcə, qıcana bilirdi. Arxasında qapı aralı qalmışdı, içəridən alqış səsləri gəlirdi. Aydın bu səslərdən də qaçdı.

Qapı dəhlizə açıldı. Nana Dolidze F30-u xərəkdə dəhlizə çıxaranda qarşılaşdılar. Aydın qızın üzünə baxdı, deyəsən, huşunu itirmişdi.

– Yüksək qiymət aldıq. – Nana Dolidze sevincək dedi. Özünü alqışladı. – Sən gördün saqqızı necə çeynəyirdi? Heç kim hiss eləmədi. Hətta, mənə də elə gəldi onun ağzında heç nə yoxdur. Afərin bizə.

Nana Dolidze susmurdu. Eyni sözü təkrarlayırdı. Aydın eşitmirdi, xərəyin yanıyla addımlayır, qızın əlini buraxmırdı. Qızın baş barmağının üstünü barmağıyla sığallayır, ritmlə döyəcləyirdi ki, nəsə hiss eləsin. Qızın beyninə siqnal göndərsin, yanında olduğunu bildirsin. Qız Aydının əlini zəif də olsa sıxıb buraxdı.

Laboratoriyanın qapısından girəndə Aydın qıza təcili tibbi yardım göstərməyə çalışdı. Nana Dolidzeni də tələsdirirdi.

– Niyə belə təlaşlısan? Onsuz da heç bir ağrı hiss eləmir. İndi mən onun hormonlarını da artıraram... – Yuxarıdan sallanan rəngli naqillərin ucunu qızın alnına, gicgahına batırırdı. – Planşeti götürdü. – Hormonlar hər şeyi tənzimləyəcək. Bax, görürsən, işimizin uğuru budur.

– Elə indi şokdan ölə bilər. Bunu başa düşürsən? Qızın beynində gedən prosesi bilmirik. Sadəcə, səsi çıxmır. Pis olan da, elə budur. Bir tərəfdən də, qan itirir.

Taxta parçası hələ də qızın ayağında qalmışdı. Aydın ürək edib onu çıxarda bilmirdi. Bir dəfə cəhd elədi, sonra əlini saxladı.

– Parentalımızın sirr saxlaya bildiyini hamıya sübut edə bildik. Əsirlikdə olsa da, lap elə dindirilməyə çıxarılsa da, bütün işgəncələrə dözər. Yoldaş Vissarionoviçə lazım olan da budur. Kim ondan dövlət sirrini ala bilər?

– Danışma, yoldaş Nana! Bunu yoldaş Vissarionoviçin qarşısına çıxartmaq olmaz. Birdən xətər yetirdi, lap elə öldürdü, bəs, onda?

– Bu mümkün deyil. Parentalın elə tapşırığı yoxdu.

– Qıza kömək elə.

– Hormonları tənzimləyirəm.

Aydın qızı ayıltmağa çalışırdı. Yaşıl ekrandakı qırmızı xəttin qalxıb-enməsi Aydının ürəyincə deyildi. Qızın daxili orqanlarını, beynini, qan dövranını, virtual modelini görürdü, yenə də Nana Dolidze kimi rahat ola bilmirdi. Təqsirli Nana Dolidzeni bilsə də, susmağa məcbur olduğunu anlayırdı. Beynində bir fikir qətiləşmişdi; professoru akvariumdan çıxarmaq, qızı da götürüb qaçmaq.

Qızın dodaqları tərpəndi, nəsə pıçıldadı. Aydın eşitmək üçün qulağını onun dodaqlarına yaxınlaşdırdı. Qız bir neçə dəfə də sözü təkrarladı, Aydın yenə eşitmədi. Onun üz-gözünü məhlulla sildi, bir neçə dəfə çağırdı. Qız gözünü açıb monitorun qarşısında oturan Nana Dolidzeni işarə elədi. "Öldür onu! Öldür!" Qızın huşu getdi. Aydın bu dəfə eşitdi. Dikəlib Nana Dolidzenin açıq boynuna baxdı. Stolun üstündəki iri skalpel diqqətini çəkdi, götürüb onun boğazına bir neçə dəfə soxub çıxara bilərdi.

Aydın skalpeli nə vaxt götürdüyünü özü də hiss eləmədi. Bir də onu gördü ki, əlində bərk-bərk tutub. Gözü Nana Dolidzenin şah damarına zillənmişdi. Onun gözündə ətraf bulanmışdı; bircə boyundakı nazik dərini qabardan damarı, nəbzin vuruşunu görürdü. Aydın bir addım atıb dayandı, indi bir həmləyə əlindəki skalpeli damara bir neçə dəfə soxub çıxara, damarı siyirib kəsə bilərdi.

Hay-küylə 41 içəri girəndə Aydının hücum havası dağıldı, elə bil hipnozdan ayıldı. Əlindəkini kombinezonun cibinə qoydu. 41 ikisini də təbrik elədi. Əla iş bacardıqlarını dedi.

– Süni hipotalamusun transplantasiyasına qərar verildi. – 41 dedi.

Nana Dolidze uşaq kimi atılıb-düşdü, deyəsən, necə sevinməyi yadırğamışdı. Gah kəsik-kəsik qışqırır, gah yerində fırlanırdı. Daha çox özünə nəzarəti itirmiş adama bənzədirdim onu.

Aydın susmuşdu, qıza baxırdı. Düzdü, onun kardioqramı həyatda olduğunu göstərirdi, hələ bəlkə də, ətrafdakı bu səs-küyü də eşidirdi, di gəl, gözünü açmırdı.

41 F30-un belə halıyla əvvəl də qarşılaşmışdı, ya yox, onu deyə bilmərəm. Görünən bu idi ki, Nana Dolidzeylə həkimlərin əlindən güclə canını qurtarmış qızı unutmuşdu. Ya da bundan sonra qızın həyatı ona maraqlı deyildi. Bu, daha çox ağlabatan idi; yəqin ki, yaxında 41-i vida

otağına çağıracaqlar. Bundan sonra F30 onun nəyinə lazımdır? Məncə, Aydın da bunu fikirləşirdi.

– Əslində, bizi xilas edən sənin tapıntın oldu: gövşəmə. Yenə deyirəm, bu əsl möcüzədi. Sənə də əhsən, yoldaş Dolidze! Sən gövşəmək mövzusunda doktorluq işini başlaya bilərsən. Qoy gələcəkdə aspirantlar bundan istifadə eləsinlər. Hə, yoldaşlar, bunu qeyd eləmək lazımdır. Mənim stolumda yaxşı araq var.

Nana Dolidze məmnuniyyətlə razılaşdı. Gedib dolabdan idrar üçün plastik analiz qabından üçünü gətirdi, qırmızı qapaqlarını açıb kənara qoydu. 41 qabın üstündəki ölçü rəqəminə baxa-baxa arağı süzdü.

– Yoldaş 43 hardadı? Niyə iştirak eləmədi? İndi də ortalıqda yoxdur.

– Bəlkə, başqa korpusa göndəriblər? – Aydın onların fikirlərini yayındırmağı bacardı. – Bu gün içə bilmərəm. Özümü yaxşı hiss eləmirəm.

– İçməlisən, yoldaş 46, yoxsa sənin haqqında ağlımıza pis fikirlər gələr. Məni gəmiyə aparmağa da söz vermisən. İnanıram ki, bəhanə axtarmırsan.

Aydın onları bu axşam gəmiyə aparacağına söz verdi. Yeməkxanada onu ələ salıb hamıya güldürən həkim də hardansa xəbər tutmuşdu, o da qrupa qoşulacaqdı. Aydın etiraz eləmədi. Əksinə, istəyirdi hamı hər şeyi görsün. Əsasən də, Nana Dolidze, görsün ki, süni mayalanmayla süni ciftdə doğulan insan deyil. Əsil insandı; atasını, anasını görməsə də, ölkəsini, şəhərini, evini tanıyır, onu böyüdən nənəsini xatırlayır. Atasından yadigar qalmış ayı Alını bura gələnə qədər heç vaxt yanından ayırmayıb. Alı ona həmişə atasını, uşaqlığını xatırladıb. Alı uşaqlığının şahidi idi.

Aydın fürsət tapan kimi F30-un otağına girdi. Əsas gümanı gələn yer F30-un yatağı idi, 43-ün cəsədini örtüyün altında gizlədə bilərdi. Bu balaca otağa baxanda adamın ağlına ilk gələn bu fikir olurdu. Aydın arxa, yan divarı döyəclədi, gizlin bir qapının olduğu ağlına gəlmişdi. Başını qaldırıb yuxarı baxanda cəsədi gördü: havalandırma borusunun üstünə zivəyə asılmış köynək kimi sərmişdi; cəsədin əlləri, ayaqları yanlardan sallanırdı. Onun üzünü görəndə maskasının düşdüyünü xatırladı. F30 onu da gizləmişdi. Aydın fikirləşə-fikirləşə qalmışdı ki, qız bu cəsədi bir neçə saniyədə necə qaldırıb borunun üstünə atmışdı? Bu axı elə də asan iş deyildi.

Aydın təxmin elədi ki, qız cəsədi qucağına dolu çuval kimi alıb, stula, ordan stola çıxıb, bir həmləylə atıb borunun üstünə. İndi onu düşündürən bir əsas məsələ qalmışdı; bu cəsəd burda qala bilməzdi, bir gün, iki gün, bəs sonra... Cəsəd şişib iylənəndə? Onu axtaracaqlar axı. Hər gün daha ciddi axtarış gedəcək. Hələ operator. Bilmirəm, onun da qulağına danışan Raya Kozakovadır, ya bir başqası, amma onu tapacaqlar. F30-un cəsədlə nə edəcəyini bilmirəm. Aydın da bilmir, tərslikdən, qızın da huşu gedib-gəlirdi. Görünür, beynində çox güclü, hətta elmə məlum olmayan proseslər başlamışdı.

F30 hərdən gözünü açırdı. Əsnəyirdi, nəsə deməyə çılışırdı, yenə süstləşirdi. Hər dəfə də Aydın həyəcanla qulağını onun dodaqlarına yapış-

dırır, nəsə vacib bir sirr eşidəcəyini gözləyirdi. Nahara da getmədi, oturdu çarpayının yanında. Planşeti aldı əlinə, qızın virtual beyninə daxil oldu, hormonlarını tənzimləyir, nəticəyə baxırdı.

Qız bu dəfə də xırıldadı. Sonra dalbadal əsnədi. Gözünü hərdən açıb baxır, güclə aralı saxlamağa çalışırdı:

– Qaçaq.

– Hara?

– İlğıma... Əvvəlcə Vissarionoviçi... – F30-un huşu yenə getdi, başı yana düşdü. Aydın monitorlara baxdı; qan təzyiqi normadan artmışdı. Üçölçülü beyin modelində qığılcımlar şəklində qaynaşan neyronlar görünürdü. Diaqramda rəqəmlər artıb-azalsa da, bədəni sustalmışdı, hətta əsnəmirdi də. Bircə baş barmağı tərpənirdi; ya sinir atırdı, ya da gücü bircə bu barmağı tərpətməyə çatırdı. Aydın onun baş barmağını tutdu, üstünü ehmal sığalladı, sonra iki dəfə döyəclədi, bir də sığalladı...

İşdən sonra "Miroqrad Şəhər İdarəetmə Mərkəzi" binasının qarşısına toplaşdılar. Gəmini görmək istəyənlərin sayı artırdı. Aydının təlaşı da artırdı, görürdü ki, hamı bir-birinə xəbər verib. Kimin bu gün, sabah istirahət saatı başlamışdı, gəlmişdi. Bəziləri bilmirdi kimin dalınca düşüb gedəcək, amma gəmini görmək, mayaka baxmaq istəyirdilər. İstəyirdilər, di gəl, yenə də öz aralarında deyirdilər ki, bu ola bilməz, Miroqrada gəmi gəlmir.

Yolun nömrəsi deyəsən doğrudan da Aydının yadında qalmışdı, on nəfərlik bir qrupu dalınca salıb aparırdı. Hərdən də dönüb arxaya baxırdı, şəhərin mərkəzi yolundan çıxdığını görürdü. Arxayınlaşırdı, görünür, yolu düz seçdiyinə əmin idi.

Sarı xətt getdikcə paralel xətlərdən ayrılır, təkbaşına uzanırdı. Yol kənarındakı dayanacaqlar hər yerdə eyni idi. Bəzilərində adamlar oturub gözləyirdilər. Aydın arxada deyinən adamları inandırırdı ki, bu yoldan gəlib, bu qədər yol gediblər, bu əziyyəti çəkiblər. Gəmini görmək istəyirlərsə, bir az da dözməlidilər. Aydın deyinən adamlara susmağı tapşırdı, dedi, danışsanız qağayıların, dalğaların səsini eşitməzsiniz. Səsinizi kəsin, ətrafı dinləyin.

41:

– Mayak uzaqdan görünməlidir axı. Əgər bu qədər yol gəlib onu görmürüksə, bəs gəmilər necə görsün? Yəni mayak hündürdə deyilmi?

– Görürsən, mayakla bağlı təsəvvürün var. Mayak da, gəmi də, dəniz də yaddaşında gizlənib.

– Əlbəttə, xatırlayıram. Kitabda görmüşəm.

Arxadan kimsə deyirdi:

– Bu qədər yol gəlmişik, nizam-intizam qaydalarına görə mənə bir neçə bonus gəlir. Yerimək xeyrimədir. Amma bu qaranlıqda meşənin içiylə getmək təhlükəli ola bilər. Yoldaş 46, biz doğru yoldayıq?

Kimsə ona cavab verdi:

– Demişdim axı, meşədə gəmi olmur.

Görürdüm ki, Aydın Qaraxanlı pərtdi, çaşqındı, təlaşlıdı. Bu halda adamı boğa biləcək bütün hisslər onu sarıb-sarmalamışdı. Beynində 41-in sözü dolaşırdı; onunla razıydı, mayak ən hündür yerdə tikilir, hər tərəfdən görünür. Axı, elə mayak bunun üçündür. Bunun üçün onun işığı qaranlığı qılınc kimi kəsib keçir.

Nana Dolidze bu qədər yolda ilk dəfə söz dedi, bayaqdan bəri onun qrupdakı varlığından xəbərim yox idi. Aydına dedi ki, sənə gəminin, mayakın genetik yaddaş olduğunu demişdim.

Sarı xətli yolun fosforu təxminən yüz metr irəlidə itirdi. Hesab eləmək olardı ki, ordan aşağı yoxuşdu, ona görə görünmür. Tərslikdən, paralel yol da görünmürdü.

Aydının telekartına cərimə mesajı gələndə dayandı. Başa düşdü ki, sarı xətli yoldan çıxıb. Heç bir yoxuş yox imiş, sadəcə, xətt bura qədər çəkilmişdi. Aydın geri çəkilib xəttin son həddində dayandı. Yəqin, bu an özünü uçurumun kənarında görürdü. Uçurumun lap kənarında dayanmış tramvay!

– Yol bitdi. – Kimsə hamını təlaşa saldı. – Bəli, yoldaşlar. Bitdi! Biz bu axmağın sözünə inanıb gəldik. Nə gəmi var, nə mayak. Demişdim axı!

– Gəldik! Bəs qayıtmaq? Axı geriyə yol yoxdu. Bu yol bir istiqamətlidir.

Nə dönüş var idi, nə geriyə işarə. Heç kim cəsarət edib beş addım da geriyə hərəkət etmək istəmirdi. Nə irəli, nə geri, qaranlığın ortasında durdular.

Aydın Qaraxanlı tənbehlərdən, hədələrdən bezib bağırdı:

– Mən sizi dəvət eləməmişəm. Siz gəmini, mayakı görməyə gəldiz. Bilirdiz yoxdur, niyə gəlirdiniz? Bax, elə sən, yoldaş Nana Dolidze, sən əmin idin ki, gəmi mənim genetik yaddaşımdı, mən süni ciftdən çıxmışam. Bəs, niyə burdasan? Sən, boz kombinezonlu, yoldaş 85. Deyirdin, gəmilər meşədə üzmür. Doğrudur. Niyə meşədə axtarırsan? Yoldaş 41, yoldaş tramvay, gəmini görməyi sən məndən istədin. Miroqradda gəminin, mayakın olmadığını bilirdinsə, niyə mənə qoşuldun?

Bəlkə də, bu an göyün lap uzaqlığında qağayı qurultusu eşitməsəydilər, onun cavabını verərdilər. Hamının fikri bir anlıq yayındı. Hamı bir-birindən "Qağayı səsidi?" soruşdu. "Qağayı..."

– Ay yazıqlar, axı siz hardan bilirsiz ki, qağayı necə səs çıxarır?

Aydın öz sualına özü də cavab axtardı. Bu qaranlıqda hardasa lap uzaqda uçanın qağayı olduğuna əmin idi. İndi hamı susmuşdu, ilişib qalmışdılar Aydının sualında. Qağayını harda, nə vaxt görmüşdülər?

Yorulanlar yerdə oturdular. Nümunəvi yoldaş olmaqdan yorulanlar da əvvəl çöməldilər, sonra arxalarını yerə qoydular. Oturub düşünürdülər ki, neynəsinlər. Hərəsi öz operatoru ilə danışır, bəlkə də, hamının bir Raya Kozakovası var, bilmirəm, – təcili təxliyə olmaq istəyirdilər. Deyirdilər azıblar, deyirdilər girdikləri xətt yolun yarısında bitib... Hərə bir səbəb uydururdu. Bircə Aydın Raya Kozakovaya dedi ki, gəmi yoxdu. Mayak görünmür, şəhərin keçid qapılarını tapa bilmədi. Həmən yolun xəritəsini

göndərməyi xahiş elədi. Raya Kozakova Miroqradın qapalı şəhər olduğunu xatırlatdı. Şəhərə giriş xəttinin yalnız şəhərə girənlərə aid olduğunu dedi. Məsləhət gördü ki, təxliyə olunana kimi gözləsinlər. Qaranlıqda kimin danışdığını ayırd eləmək çətin idi, deyinirdilər. Əmin idilər ki, bunun cəzası ağır olacaq.

Aydının əsəbləri gərilmişdi, hamıya acıqlı-acıqlı cavab verirdi:

– Təsəvvür edin ki, bir az qabaqda mayak var, ordan aşağıda da dalğalar qayaya çırpılır, lap iri bir gəmi sahildə yırğalanır, başımızın üstündə də qağayılar uçur. Yaxşı, mən haqlı çıxdım, gəlib, gördünüz. Bəs sonra? Biz yenə bu yolla geri qayıda bilməzdik. Siz təqsiri məndə yox, sizin yoldaş Vissarionoviçdə axtarın. Bu yolu bura qədər çəkən yol nazirliyinə etiraz edin. Fikirləşin, sizin gəmini, dənizi, mayakı görüb, qayıtmaq haqqınızı mən əlinizdən almışam, yoxsa sizi iki xəttin içinə həbs edənlər?

– Yoldaş 46, yoldaş Vissarionoviçin əleyhinə danışmaq xəyanətdir, bəli, xəyanət.

– Xəyanət? – Aydın özünü rişxəndlə gülməyə məcbur elədi. – Bəs, sizin kimi alimləri, professorları, həkimləri gətirib burda tramvaya çevirməyə nə deyək? Yoldaş 41 haqlıdır, biz, sadəcə, tramvayıq. Onlar bizi çəkdikləri xəttə istədikləri kimi sürürlər. Ona görə burda başqa maşın yoxdu. Çünki, biz varıq. Maşınlarda da belədi, beyin var, şüur yox. Sizcə, tərifli yoldaş Vissarionoviç bizim ölkələrdən nə qədər adam tutub? Lap balıq kimi tutub bizi; pulu qırmağın uçuna torpaq qurdu kimi qoyub, biz də aldanıb qarmağa keçmişik. Heç vaxt puldan əvvəl ölkəmizi fikirləşməmişik.

– Deyirsən, bizi aldadıblar?

– Elə bilirsiz Morud Uluqbek dolu kartını alıb evinə qayıdıb? Orda Sarı Bankın bir bankomatından pulunu çıxarıb istirahətinə xərcləyir? Demişdim axı, o adam mənzilində ölüb. Bayaq mənim keçiyə oxşayan operatorum bir daha təkrar elədi ki, Miroqrad qapalı şəhərdi. Bura yalnız giriş var.

– Yoldaş 46, sən doğrudan da axmaq adamsan! Biz dünya elminin ən hörmətli nümayəndələriyik.

– Dünya elminin? Lap yaxşı, bəs bu dünyada sənin evin hardadı? Laboratoriyada? Sən də, yoldaş Nana Dolidze kimi, süni ciftdə doğulduğuna inanırsan?

– Bunlar boş cəfəngiyyatdı. Beynəlxalq Ağrı Mərkəzində hər professor çalışa bilməz.

– Mən inqilabçı deyiləm. Məndən qəhrəman da olmaz. Bura tıxanıb qalmışıq deyə ağlıma cürbəcür fikirlər gəlir. Ağlıma gələni də əsəbimdən deyirəm. Məncə, ağrı elə bizik! Bu da mənim lap elə indi ağlıma gəldi. Hə, bizik, Vissarionoviçin, onun hökumətinin ağrısı, məqsədi də bu ağrını kəsməkdi.

– Sənin məqsədin də elə indi aydın oldu. Bizi gəmiylə, dənizlə aldadıb gətirmisən ki, Vissarionoviç yoldaşın hökumətinə qarşı beynimizə fikir yerləşdirəsən? Əminsən ki, Avropaya işləyən casus deyilsən?

– Vissarionoviç yoldaş bizi burda həbs eləyib. Gəldiyimiz yerdə yerimizi boş qoyub. Bu, Miroqrada beyin köçüdür. Baxın, mənim öz yerlim, professor Sabit Ağazadə akvariumdadır. Niyə? Niyə öz ölkəsinin ən hörmətli professoru ordan bura gətirilib laboratoriya dovşanına çevrilib? Ölkə dedim, siz ölkənizi də unutmusuz. Üzünüz kimi. Maskaları çıxarsanız, heç kəs bir-birini tanımaz. Xatirələriniz də yoxdur. Silinib. Kimdi əsil ağrısız parental?

Aydın, bəlkə də, ona görə belə rahat-rahat danışırdı ki, onun sözünü kəsmirdilər. Görürdü hamı dinləyir, daha da cuşa gəlirdi. Maskasını çıxardı, özü də elə tərzdə çıxardı ki, bu qaranlıqda hamı bunu gördü.

– Mən tramvay deyiləm! Vissarionoviçin maskabaşı deyiləm. Aydın Qaraxanlıyam. Azərbaycandan gəlmişəm. Gəmi gətirib məni. İri, sərnişin gəmisi.

– Yaxşı, əgər dediyin doğrudursa, gəmidən danış. Ordakı adamlardan...

– Söz demək istəyirəm. – Bu səsi mən də birinci dəfəydi eşirdim, qadın səsiydi. – Mən yoldaş 46-ya, yəni Aydın yoldaşa inanıram. Əvvəllər travmalı könüllülərlə işləyirdim. Onlar da gəmiylə gəldiklərini deyirdilər. Əşyaları olub. Əşyaların yığıldığı anqarı da görmüşdüm. Ora çox böyükdü. Bizi anqara çeşidləməyə aparırdılar.

– Biz necə gəlmişik? Könüllü. Müqavilə imzalamışıq. Təklif olunan pula görə. Yoxsa, bu da yadınızdan çıxıb, yoldaşlar?

Aydın Qaraxanlı onlara gəmidən danışdı. Arabir dayandı, hər şeyi gözünün önünə gətirdi, gördüyünü təsvir elədi. Bayaqdan bəri nağıla qulaq asan uşaq kimi, dinməz-söyləməz oturanlardan kimsə onun sözünü kəsdi:

– Axı, nə olsun gəmi var? Nə olsun gəmiylə gəlmişik? Danışmaq istəmirdim, amma hövsələm kəsildi. Nədi məqsədiniz? Məqsədinizi bilmək üçün gəlmişəm.

41 dedi ki, gəmini görmək istəyib. Sonra bu yoldaşlar da xəbər tutub, bizə qoşulublar. Cavab adamı qane eləmədi, Aydını bir də məcbur elədi ki, gəmini onlara göstərməyin səbəbini desin. Tutaq ki, səhər açılanda biz onu qarşımızda gördük. Bəs sonra?

– Yoldaş maskabaş, hardan, necə gəldiyinizi bilmək istəmirsiz? Bəs, hara, necə gedəcəyinizi? Axı, gəmi, dəniz, mayak adamın ruhunu oyadır.

– İstəyirsən açıq deyim; bu qrupa qoşulmağı mənə rəhbərlik tapşırdı. Bəli, sənin casus olduğun artıq məlumdu. Bunu bayaq bir yoldaş da dedi. Daha özünü gizlədə bilməzsən. Məqsədin də məlumdur, nizam-intizamı pozmaq, hamını Vissarionoviç hökumətinə qarşı çevirmək. Sən aşkarlandın, casus!

Aydın özünü müdafiə eləmədi. Bir kəlmə yerinə düşən söz tapıb deyə bilərdi, şübhələri dağıdardı, demədi. Bilmirəm, casus damğası onun xoşuna gəlmişdimi, hansısa işinə yarayırdımı, nəsə sirri vardımı? Susurdu! Səhərə qədər də susdu. Hamı öz hayına qalanda, kimi susuzluqdan, kimi aclıqdan

deyinəndə, çevrilib baxmadı. Uçurumun kənarında bardaş qurub yolun ən son həddində oturmuşdu, üzü qaranlığa tərəf.

Vaxt getdikcə, bədənin tələbləri Miroqradın qayda-qanunlarını, nizam-intizamını üstələyirdi. Təbii ehtiyaclarını ödəməyin yolunu tapmışdılar, xəttin kənarında durub bacardıqca uzağı isladırdılar. Uzanıb əlini başının altına qoyanlar yatmaq vaxtının keçdiyini xatırladıb, onları sakitliyə çağırırdı. Ucadan mübahisə edənlər özlərindən başqa heç kimi eşitmirdilər.

41 bura gəldiyinə peşman olmuşdu, deyirdi müqaviləsinin vaxtı bitib, bəlkə də, elə sabah onu yoldaş Vissarionoviç vidalaşmaq üçün çağıracaq. Sabah təxliyyə olunmasalar, qalacaq. Kimsə təkrar deyirdi ki, yoldaş 46 mütləq cəzasını alacaq. Biri də özünü inandırmağa çalışırdı, deyirdi heç bir təqsirim yoxdu, casus yoldaş 46 məni aldadıb bura gətirib, yolu azıb. Onu yəqin ki, bizim laboratoriyaya atarlar; "Qriboyedov" laboratoriyasına. Mən də bu gecənin qisasını ondan alaram, yoldaşlar. Hamının əvəzinə. Arxayın olun. Cəsus başını sarı möhürə döyəcək.

Lap aşağıdan qağayı quruldaya-quruldaya uçdu. Uçdu getdi düz Aydının baxdığı səmtə. Sonra narın yağış başladı...

Səhər açılanda bir quru telləri də qalmamışdı, nə qədər özlərini sıxıb saxlamağa çalışsalar da, suya düşmüş cücə kimi əsirdilər. Üfüqdə qızaran Günəşə tərəf əsə-əsə durub baxırdılar... Lap qabaqda 41 dayanmışdı, Aydının yanında. Aydın gecədən bəri yerindən tərpənməmişdi, maskası da yanındaydı. 41 ona baxıb üzündən maskasını çıxardı. Günəşin hələ ilınmamış şəfəqlərini üzündə hiss elədi. Nana Dolidze, sonra arxasındakı, onun yanındakı maskasını çıxardı... Bəlkə də, ilk dəfə idi bu hissi yaşayırdılar. Günəşin istisini yanaqlarında hiss eləyirdilər. Bu istilik onların içlərinə süzülürdü.

– Günəşi görürsən? – 41 Aydından soruşurdu.

– Mən onu həmişə görmüşəm. Günəş bizim dənizdən doğur. Mənim evim ordadı. – Birdən divarda oxuduğu sətirlər yadına düşdü. Öz qarnını ritmlə döyəcləyə-döyəcləyə içindən gələn melodiya üstündə astadan oxudu:

*"Mavi göy üzü, büllur kimi göl,*
*yamyaşıl çəmən.*
*Atlar çapar. Atlar...*

*Mənim yurdum ordadı...*
*Mənim evim ordadı...*
*Mənim yarım ordadı,*
*Mənim Tengrim ordadı..."*

Mənə elə gəldi ki, Aydın ağlayır, səsi titrəyirdi, boğazındakı qəhəri hiss eləmək olurdu. Heç kim demirdi ağlama, demirdi oxuma, nizam-intizamı

pozursan. Bəlkə də, kimsə üzünü Günəşə tutub ondan eşitdikləri sözləri ürəyində təkrarlayırdı. Aydın təkrar-təkrar oxuyurdu, getdikcə də lap ucadan oxudu, sarı xəttin, nizam-intizamın, Sarı Bankın, Vissarionoviçin acığına oxudu. Hamının canı qızana qədər oxudu; bir az Günəşin şəfəqindən, bir az da Aydının səsindən, hamının əsməsi keçirdi. Yəqin ki, sözlər də kiminsə yaddaşına ilişirdi. Beyin çox qəribə orqandı axı, hansısa məqamda onlara şüurlu, qeyri-şüurlu, bu sözləri xatırladacaq. Onlar elə Aydının səsi ilə oxuyacaqlar.

– Ağlayırsan. Haran ağrıyır? – Boz maskalı adam soruşdu.

– Yaddaşım ağrıyır. Xatirələrim ağrıyır. Xəyallarım ağrıyır.

– Bu necə ağrıdı?

– Dözülməz! Dözülməz!

Yəqin indi Aydın F30-u daha yaxşı anlayırdı. Qız "yaddaşım ağrıyır" deyəndə bunu sinir ağrısına yaxın hesab eləmişdi. Deyəsən, əsil fərqi indi bilirdi. Görünür, bu, sinir ağrısından da betərdir.

Günəşin zenitə qalxdığı vaxtda yol idarəsindən bir nəfər, arxasınca iki əsgər salıb gətirdi. Onun yol idarəsinin işcisi olduğu yaxasındakı döş nişanından, başındakı kaskadan bilinirdi. Zarafatcıl adama oxşayırdı, hələ gəlib yaxınlaşmamış, hamıya atmaca atıb, ələ saldı, güldü. Telekartını bir-bir hamının maskasındakı rəqəmə tutub, QR kodunu oxudur, ekranda çıxan profilin altına nəsə yazırdı. Həmən adamı əsgər iri çuval kimi alırdı çiyninə, otuz-qırx metr aparıb, atırdı sarı xəttin içinə, qayıdırdı.

– Hə... qaldıq biz. – Yol işçisi Aydına xatırlatdı. Deyəsən, elə bu məqama görə Aydın özünü ən axıra saxlamışdı. Hərəni bir əsgər aldı çiyninə, ikisi də ağzı aşağı sallandı.

Yol işcisi, deyəsən, belə gedişə öyrəşmişdi. Hətta əllərini də boş buraxmışdı, yırğalanırdı.

– Sən mayakın yerini bilirsən? Hə, bilərsən. Niyə bilməyəsən? Mən mayakı görmək istəyirəm. Gəmini, dənizi...

– Mayak olan yol oradı.

– Mayaka qalxa bilərəm? Ordan dənizə, gəmiyə baxa bilərəm?

– İcazən var?

– Əvəzində nəsə istə.

Əsgərlər onları xəttin içinə atanda Aydın gördü ki, hamı dayanıb mayaka baxır. Mayakın başındakı işıq ürək kimi döyünürdü. Demək ki, burdan görünürmüş.

– Nədi? Mayak görməmisiz?

– Gəmi də var?

– Hələ dəniz də!

– Doğru deyirmiş.

– Deyirdin casusdu.

– Bizə Günəşin necə doğduğunu göstərdi. Mayakı da.

– Bu da deyirdi casusdu.

– Demək, biz də könüllüyük.

– Hə... Mayakdı. Bura gələn gəmilərə istiqamətini bildirir.

Aydın kişidən əl çəkmirdi. Dil dökürdü, onun ürəyini yumşaltmaq istəyirdi. Kişi deyirdi bacardığı bura qədərdi. Onun vəzifəsi adamları evakuasiya eləməkdir.

– Bəs, ora gediş yolu hardandı?

–İcazəsi olan adam gedə bilər.

– Bircə dəfə ordan baxmaq istəyirəm.

– Bu da deyirdi yoldaş 46 casusdu... – Qadın səsi yenə təkrarlandı.

Yol işçisi gəldiyi kimi də əsgərləri ardına salıb hamıdan qabaq getdi. Elə yeyin getdi ki, ona heç kim çata bilməzdi. Sonra da harasa dönüb, gözdən itdi.

Anastasiya Mixaylovnanın otağında müəllimənin qarşısında dərsdən qaçmış şagirdlər kimi dayanmışdılar. Əyinləri hələ də yaş idi. Durduqları yerdə döşəmə islanmışdı. Anastasiya Mixaylovnanın qərarını gözləyirdilər. O da elə bil qəsdən vaxtı uzadırdı, onları qarşısında saxlamaqdan həzz alırdı. Bu da bir cəza üsulu ola bilərdi. Deyəsən, gecə yol azmaq məsələsi Anastasiyanın ağlına batmamışdı. Batmazdı da, biri durub deyə ki, yoldaş 46 casusdur, bizi aldadıb aparıb, bizi yoldaş Vissarionoviçə etiraz eləməyə, inqilaba çağırıb, bunu qoyub, kim yol azmağa inanar?

Anastasiya Mixaylovna onların yolu azdıqlarına inandığını dedi. Dedi ki, bəzi yollar çox qarışıb, çoxunun da geri dönüşü, qoşulması yoxdu. Tamamlanmamış yollar da var. Həmişə teklekartın yol xəritəsindən, operatordan istifadə etməyi məsləhət gördü. Sonra 41-ə dedi ki, bir neçə saatdan sonra yoldaş Vissarionoviç onunla vidalaşacaq. Özünü səliqəyə salsın, görüş kostyumunu geyinsin. Hamı onu alqışladı. 41-in əllərinin əsdiyi gözümdən qaçmadı. Əllərini təslim olmuş kimi qaldırıb hamıya təşəkkür eləyirdi, bu daha çox üstünə yağan çəpik səslərindən özünü qorumağa bənzəyirdi.

– Bəs mən? – Nana Dolidze bir addım qabağa çıxdı.

Onun sualı havada qaldı, yerə düşdü, nə oldusa, cavabı gəlmədi. Hamı bir-birinin dalınca otaqdan çıxanda Anastasiya Mixaylovna Aydın Qaraxanlıdan qalmağı xahiş elədi.

– Adamları arxanca aparmağı bacarırsan. Bu çox yaxşıdır. Rəhbərlik bacarıqlı adamlara xüsusi diqqət göstərir. Səni də nəzərə alacaqlar.

Bilmədim Anastasiya Mixaylovna ikibaşlı danışdı, yoxsa doğrudan da Aydını qarşıdakı günlərdə xoş xəbər gözləyirdi. Aydın, yəqin ki, heç bir xoş xəbər gözləmirdi. Sabit Ağazadə kimi professoru böcək kimi tutub butulkaya salan hökumətin xoş xəbəri nə ola bilərdi?

Aydın laboratoriyaya tələsdi. Gəldi, gördü qız hələ də bayğındı. Əlini onun alnına qoydu. Əlinin hərarətini qıza hiss elətdirdi, onun da hərarətini aldı; soyuq idi. Amma əsnəyirdi. Monitora diqqətlə baxdı, hər şey

qaydasında görünürdü. Sonra qızın otağına gedib havalandırma borusuna baxdı. Meyid qaçası deyildi ki; sərildiyi kimi qalmışdı.

Aydın gəlib qızın yanında dayandı.

– Mayakı gördük. Günəşin necə doğduğuna baxdıq. Sabit Ağazadəni də çıxarım, gedək burdan.

Nana Dolidze küskün görünürdü; davranışından, səsinin tonundan bunu hiss eləmək olurdu. Gəlib dedi ki, qızı hazırlamalıdır, yoldaş Vissarionoviç onu görmək istəyəcək. Aydın etiraz elədi, qızın ayılmasına bu dəfə imkan vermədi.

Nikita İliç Vissarionoviç otağa girəndə hamı ayaq üstə dayanmışdı. Alqış dirijoru onlara işarəni verdi. Beş nəfər adam əl çalmaqda yarışırdı, istəyirdilər Vissarionoviç görsün onu kim daha yaxşı alqışlayır. Deyəsən, elə Vissarionoviç də ağzını marçıldada-marçıldada buna göz qoyurdu. Bu beş nəfərdən hansının yoldaş 41 olduğunu, bəlkə də, Aydından başqa tanıyan olmazdı. Kim onun üzünü görmüşdü?

Alqış dirijorunun işarəsiylə hamı susub, əyləşdi. Çıxış mətni yazılmış kağızı Vissarionoviçə yenə sarı qovluqlu adam verdi.

Vissarionoviç oxuduqca Aydın görürdü ki, adamın oxuduğu mətnin sözündən nə bir vergül artıb-azalıb, nə bir marçıltı. İlk dəfə necə görmüşdüsə, eləydi. Bircə adlar fərqliydi. Düzdü, əvvəl mükafat üçün çəkilən adlar mənim də yadımda qalmayıb, mübahisə eləmirəm ki, eyni adlardı, ya yox.

Aydına elə gəldi 41 kartını ona göstərir. Deyir, aldım, indi Sabit Ağazadəni ordan çıxara biləcəksən. Arxayın ol. Aydın, bəlkə də, bunları öz ürəyindən keçirirdi, amma səs 41-in səsiydi.

Gəlmədi 41. Aydın onu gözlədi. Gözlədi ki, laboratoriyaya gələcək, getməmişdən əvvəl onlarla da vidalaşacaq, birlikdə gedib, professorun hesabına Sarı Banka depozit qoyacaqlar. Gəlmədi. Aydın iş vaxtı bitənə qədər 41-i şöbələrdə axtardı.

Aydın 41 mənzilinə getdi. Pillələri iki-iki qalxıb qapını döydü. Vaxt itirmək istəmirdi, ona elə gəlirdi gecikdiyi hər gün, hər saat, ölüm, Sabit Ağazadəni həyatın qucağından dartıb qara quyusuna çəkir.

Məyus halda küçəyə qayıtdı. 41-ə inandığına görə təəssüflənirdi. Dmitri prospektinə əli ətəyindən uzun gəldi. Yerimirdi, ayaqları gövdəsinin ağırlığı altında sürünürdü, hərdən ayaqqabısının burnu yerə ilişirdi. Yəqin, ümidi qırılmış adamın yerişi belə olur. Aldanmağından çox, Sabit Ağazadəni ordan çıxara bilmədiyinə görə belə qırılmışdı. Binaya yaxınlaşanda içindəki qurumuş hisslərinin arasından ümidi nar çiçəyi kimi qızardı. Bu nar çiçəyi onu məcbur elədi ki, təslim olmasın, gedib yapışsın Mikayılın yaxasından, onu da məcbur eləsin, birləşib Sabit Ağazadəni akvariumdan çıxarmağın bir yolunu tapsınlar.

Bu dəfə hər addımda dabanlarını yerə çırpırdı. Mikayılın qarşısını evdən çıxmamış kəsmək istəyirdi. Üçüncü mərtəbədə pilləkənin başında dayanıb

mat-məəttəl yuxardan düşən yeniyetmə qıza baxdı; bir yaşlı kişi meyidinin ayaqlarından tutub darta-darta düşürürdü. Ağ saçlı uzunsov baş pillələrdə top kimi çilənə-çilənə, arıq, uzun bədənin dalınca gəlirdi. Qız təngnəfəs olmuşdu, gücünün çatmadığı görünürdü. Aydını görəndə dayandı, cəsədin ayaqlarını buraxdı, bu dəfə cəsəd özü sürüşüb Aydının qarşısında dayandı.

Qız Aydından kömək istədi, dedi atamdır. Bu gün məktəbdən gəldib, görüb ölüb. Cəsədi aparıb təhvil verməlidir, sabaha saxlaya bilməz.

– Bilirsən, yoldaş 46, – qız onunla köhnə tanışı kimi danışırdı. – Mən "Tullantıların qəbulu" şirkətindən kuryer çağıra bilərdim. Onlar cəsədi aparmağa otuz faiz alırlar. Bu çoxdu. Kömək eləsən 15 faiz verə bilərəm.

Aydının qızı anlamadığı susqunluğundan bilinirdi, amma razılaşdı. Başın pillələrə çırpılmasını istəmədiyini dedi.

– Ağrı hiss eləmirlər. Yuxuda keçinib. Bəlkə də, atam elə bilir hələ də yatıb.

– Operatora xəbər vermisən? Bəlkə, cəsədi belə aparmaq olmaz? Cinayətdir.

– Cinayət? Miroqradda cinayət olmur. Bu adi ölümdü. Mənim də borcum cəsədi təhvil verməkdir. Sən də işləsən, 15 faiz qazanarsan. Daşıma haqqı. Burda cinayət yoxdur.

– "Tullantıların qəbulu" şirkəti?

– Heç cəsəd verib, pul almamısan?

Cəsəd elə də ağır deyildi, di gəl, Aydın rahat addım ata bilmirdi, baş imkan vermirdi rahat yerisin. Cəsədin qollarından bir az qaldırmışdı, kişinin burnu, ağzı onun paçasının arasına girmişdi. Qolları bir az boş buraxanda da baş yerə sürtülürdü. Qıza nisbətən rahat idi; atasının hər ayağını bir qoltuğunun altına almışdı, aparırdı. Aydının çəkdiyi əziyyətə dönüb baxmırdı da.

Avtobus dayanacağına çatanda Aydın dedi oturaq, bir az dincəlsək yaxşıdı. Cəsədi qarşılarında yerə uzadıb skamyada yanaşı oturdular. İkisinin də nəfəsi təngimişdi.

Qız siqaret çıxarıb Aydına da təklif elədi, Aydın başını buladı. Qız tüstünü havaya püskürəndə elə bil içinin yorğunluğunu ağzından, burnundan çıxarırdı. İkisi də xeyli vaxt susdu.

– Anan hanı?

– Ehtiyac olmadı. Bəlkə duraq, yoldaş 46...

– Adım Aydın Qaraxanlıdır.

– Yoldaş Aydın Qaraxanlı, orda növbə çox olur.

Aydın getmək istəmirdi, amma qızı bu qaranlıqda cəsədlə ortalıqda qoyub mənzilinə qayıtmağı da özünə sığışdırmadı. Hesab elədi ki, ona heç kim kömək eləməz, qız da cəsədi sürüyüb aparar. Bilmədi cəsədə ürəyi yandı, yoxsa qıza.

Ünvan elə də uzaqda deyilmiş. Müdafiə Şirkətinin Mərkəzi, Fiziki-texniki İnstitutun arxasında yerləşirdi. Üçmərtəbəli binanın girişindəki işıqlı

lövhəyə "Tullantıların qəbulu" yazılmışdı. Növbə çox idi. Bura gəlib, görməyənə qədər təsəvvür eləmək çətin olardı. Hətta ağacların altında oturub gözləyənlər var idi. Aydın istəsə gedə bilərdi, amma maraq saxlayırdı; cəsədin necə, niyə qəbul olunduğunu görmək istəyidi. Miroqradda məzarlığın olmadğını indi eşitmişdi. Qız deyirdi cəsəd çox yaxşı qazancdı. Niyə torpağa basdırıb çürüdəsən?

Aydın, deyəsən, qızla razılaşırdı, başını yırğalayırdı, sonra dedi ki, əgər cəsəd geri alınırsa, doğrudan onu torpaqda çürütməyin nə mənası?! Qız növbə çeki götürmək üçün içəri getdi. Aydın qaldı cəsədin yanında. Ətrafdakı adamlara, cəsədlərə baxa-baxa fikirləşirdi ki, görəsən bu qədər adam harda ölür, necə ölür?

Aydın it-pişik cəsədini görəndə Morud Uluqbekin dərisi cırılmış şaman davulunu xatırladı. Ağlına gəldi ki, davulun səsi F30-u keçmişinə, uşaqlığına qaytara bilər, Morut Uluqbekin "Ruhunu oyat" mesajı da elə budur. Dəri tapıb davulu yeniləyəcəyinə qəti qərar verdi.

Dəhlizdə xeyli adam gözləsə də, kuryerlər xərəklə gətirdikləri cəsədləri qəbul şöbəsinə növbəsiz aparırdılar.

BK-892. Yazını monitorda görəndə qız atasının ayaqlarını yenə qoltuğunun altına aldı, Aydını tələsdirdi. Aydın kişinin gövdəsini yerdən qaldırdı, qəbul pəncərəsinə yaxınlaşdılar. Sağ tərəfdə morq vannası var idi. Vannanın baş tərəfindəki elektron ekran onun həm də bir qapan olduğunu göstərirdi. Kuryerlərin gətirdiyi sonuncu cəsəd hələ də vannada qalmışdı. Kuryer pəncərənin qövsvari dəliyindən aldığı sənədi imzaladı, aralaşdı. Vanna eskalatorun üstündə hərəkətə gəldi, divardakı dəliyə doğru sürüldü. Cəsəd Aydının qarşısından keçəndə o, qeyri-ixtiyari "Dayanın! Dayanın! – bağırdı, – bu ki, 41-di. Professor 41. Onunla yoldaş Vissarionoviç vidalaşmışdı." Şüşənin arxasındakı maskalı adam Aydından kənara çəkilməyi tələb elədi. Aydın onu eşitmədi, dəliyə dönmüşdü, istəyirdi hamını inandırsın. Bu üzü heç vaxt səhv sala bilməzdi. Həmin maskanın qəlibinin formasını almış solğun sifəti tanıyırdı. Meyidin donmuş gözləri tavana baxırdı. "O necə ölüb?" Aydın şüşənin arxasındakı adamdan təkrar-təkrar soruşurdu.

Aydını itələyib aralaşdırdılar. Qarşısından gedən cəsədə təəssüflə baxdı, hətta açıq gözləri sığamaq üçün əlini cəsədə uzatdı, çatmadı, vanna dəlikdən keçib getdi.

Qız onun belinə əlini şappıltı ilə çırpanda Aydın diksinib yerindən qopdu, bir az qabağa səntirlədi. Ayıldı. Gəlib başını qövsvari dəlikdən içəri soxdu.

– Mənə dəri lazımdı. Qarın olsun. Özü də tüksüz.

Aydın onun dediyi istiqamətə getdi.

Bilmirəm onun ağlına hardan gəldi ki, burda lazım olan əzanı, orqanı almaq olar?

Aydın binadan çıxanda əlində bağlama var idi. Qızı görmədi; getmişdi.

Aydın mənzilə girəndə birbaşa mətbəxə keçdi. Bağlamanın içindəki qart dərini çanağa qoyub suyu açdı. Sonra tuman-maykaya qədər soyunub rahatlandı. Davulu gizlətdiyi yerdən çıxarıb dərisini sökdü; quru sağanaq qalana qədər kəndirləri səliqəylə açdı.

Dəri islanıb adi parça kimi incəlmişdi. İndi onu sağanağın üzünə tarım çəkib, bağlamaq olardı. Aydın kəndiri keçirmək üçün dərinin kənarlarını hər deşəndə, qarnı sancılanırdı. Elə bilirdi bıçağın ucunu öz dərisinə soxur. Hər dəfə də "Bağışla, Morud Uluqbek. Bağışla." – deyirdi. – "Bu da axırın! Dərin bir sağanağa üz, kiməsə ayaqqabı, kiməsə çanta oldu."

Bütün bu sancılara baxmayaraq, dəri hər tərəfdən bərabər dartılsın deyə əlləşirdi, çalışırdı.

Aydın davulu döyəcləyə-döyəcləyə "Dmitri" prospektiylə üzüyuxarı addımlayırdı. Yaddaşında qalan bu ritmlə addımlarını da eyniləşdirmişdi: Dup... dup-dup-dup. Dup! Dup!

Aydın sükuta qapanmış adamların kədərli səssizliyini cəsarətlə pozurdu. Onların üzünü özünə tərəf çevirə bilmişdi, diqqət çəkirdi. Aydın bu baxışlardan daha da coşur, toxmağı bir az da zərblə vururdu. Vururdu ki, qupquru dərinin fəryadı uzaqlara getsin. Aydına elə gəlirdi bu ritm adamları yavaş-yavaş öz tilsiminə salır.

Bu dəfə zəng səsinə nə dayandı, nə də hamı kimi çöməldi. Əksinə, istəyirdi davulun səsi zəngin səsini batırsın.

Aydına cərimə mesajı gəldi; nizam-intizam qaydasına görə, musiqinin qadağan olduğunu bilirdi, bu mesajları gözləyirdi.

Aydın Raya Kozakovaya nizam-intizam qaydalarını pozmadığını bağıra-bağıra başa salmağa çalışırdı. Deyirdi, bu, musiqi deyil.

– Bu, ritmdi. Başa düşürsən? Ritm universal titrəyiş dilidir.

Aydın laboratoriyaya girəndə Nana Dolidzeyə yoldaş 41-in öldürüldüyünü dedi. Nana Dolidze inanmadı.

– Niyə başa düşmək istəmirsən. Beşi də ölüb. Hamı elə bilir onlar mükafatlarını alıb, getdilər. Karta heç bir məbləğ ödənilmir. Sarı Bank aldadır. Həqiqət bizə göstərilən deyil.

– Həqiqəti sənə göstərmişəm.

– Yox! Yox, yoldaş Nana. Əsl həqiqət Şərqdə doğan Günəşdi. Sən onu gördün. Mənim ölkəm, mənim evim ordadı. Mən qayıdacam.

– Yenə xatırladıram; sənin genetik yaddaşın aldadır.

– Bütün gecə qarmaqarışıq fikirlər beynimi didib. Sənə deyirəm, yoldaş Doldze, Vissarionoviçin məqsədi Qafqazın genefondunu dəyişməkdir. İtaətkar maskabaşlar, eşidən qulaqlar lazımdı Baş katibə. "Mao üçün unitaz" şöbəsi də elə bunun üçündür.

Nana Dolidze fikrindən dönmədi. Aydın gəlib qızın başının üstündə dayandı. Toxmağı asta-asta davula vurdu, ritmi yavaş-yavaş tezləşdirdi. Getdikcə daha zərblə vurmağa başladı.

Nana Dolidze monitora baxdı; qızın beyin dalğalarını ölçən xətlərin rəqsi, diaqramların şəkli rəqəmləri dəyişirdi. Heç nə demədi, istəmədi Aydının otağa yaydığı bu ritmin arasına səs salsın.

Aydın ritmə uyğun oxudu:

“Mavi göy üzü, büllur kimi göl,
yamyaşıl çəmən...
Atlar çapar... atlar... atlar...
Mənim yurdum ordadı...
Mənim evim ordadı...
Mənim yarım ordadı,
Mənim Tengrim ordadı...
Atlar çapar... atlar... atlar...”

Aydın özü də hiss eləmədən tutduğu ritmin havasına düşmüşdü; elə bil toxmaqla deyil, başıyla davula vururdu. Maskası düşdü, gözünü yummuşdu. Bəlkə də, indi kənardan baxsaydı, özünü tanımazdı, inanmazdı ki, içinin dərinliyində gizlənmiş başqa bir adam onun bədənində peyda olub. Bu adam bu ritmlə böyüyür, böyüyür, az qalır başı tavana dəysin. Enlənir, enlənir, otağa sığmır. Bir azdan tavan da, divarlar da dağılacaq. Davuldan çıxan səs bütün Miroqrada yayılacaq, zəng kimi. Hamı bu səsə doğru çevriləcək, hətta maskalarını çıxarıb atacaqlar. Davulun səsi yağışın damcıları, günəşin şüaları kimi adamların üzünə toxunacaq. Adamlar yağışdan nəm çəkən quru torpaq kimi islanacaqlar. Ruhları bu nəm çəkmiş bədəndə toxum kimi cücərəcək, boy atacaq...

Aydın inanırdı ki, Morud Uluqbekin istədiyi budur; qızın ruhunu davulun səsiylə oyatmaq...

Nana Dolidze oturub qalmışdı. Görürdü ki, davula dəyən toxmağın hər zərbəsi onun da gözünü qarşısındakı divarın daşlarını uçurur. Yavaş-yavaş o biri tərəfdəki evin damı görünür, eyvanı görünür; taxta eyvana tənək qalxmışdı, qara, ağ salxımlar sallanırdı. Balaca, hörüklü qız ayağının altına kətil qoyub eyvanın sürahisinə qalxdı, üzüm gilələrini qırıb ağzına qoydu. Əzilmiş üzümün şirəsi balaca barmaqlarının ucundan dirsəyinə süzüldü... Birdən ev, eyvan, eyvandakı qız getdikcə uzaqlaşdı... Divardan daşlar onun üstünə töküldü. Hər tərəfdən daş yağdı, daşların altında qaldı.

F30 yuxudan diksinib oyandı. Bağırdı. Ağrıyır, əlləri əsir, gözünün altı səyriyir, çənəsi titrəyirdi. Qızın belə hövlnak oyanıb oturması Aydını da məcbur elədi ki, davulu kənara qoyub onunla maraqlansın.

Qız ağladı; hönkür-hönkür ağladı, belə ağlamağı Nana Dolidze, bəlkə də, hələ heç kimdə görməmişdi. Qız ağladaqca Aydın gülürdü. Gülməyini saxlaya bilmirdi, özünü ələ almaq istəmirdi. Nana Dolidzenin hövsələsi kəsildi, Aydına bağırdı ki, elə bu saat gülməyini kəssin. Axı nəyə gülür?

– Qız ağrıyır. Ağrıyır! Başa düşürsən? Yaraları ağrıyır. Əsl insan kimi.

Bu Aydın elə bil mən bildiyim, tanıdığım neyrocərrah Aydın Qaraxanlı deyildi. Gecədən sabaha dəyişmişdi. Bilmirəm bu dəyişmə, başqalaşma

onu hara aparacaq? Pisdir, yaxşıdır? Bunu da bilmirəm. Mənə elə gəlir özü də yuxudan qəfil ayılıb.

– Ritm tilsimdi, sehrdi... Buna görə qadağan edilib. Ritm xatırladır. Oyadır.

Aydın davulu, toxmağı götürüb otaqdan çıxdı. Dəhlizdə davulu döyəcləyə-döyəcləyə yeridi. Deyəsən, bu ritmi özü tapmışdı, ya da yaddaşından süzülüb gəlmişdi.

Bir paltarın içində çapalayan adamların yanında dayandı. Onlar da dayandılar; yavaş-yavaş sakitləşdilər. Görmüşdüm; ilantutan əsəbi kobranı zurna çalıb yatırtmışdı. Bu adamlar da yatdılar. Aydın yanındakı dəmir qapını açıb içəri girdi. İçəridə altı nəfər kərtənkələ kimi divara yapışıb qalmışdı, bir az keçmiş, arxasının yapışqanı qurumuş tablo kimi yerə çırpıldılar.

Aydın, səsi bütün otaqlara yaymağa çalışırdı, adamlar hipnoz olunmuş kimi onun arxasınca düşürdülər. Aydın qapıları açırdı. Bəzi qapılar da içəridən açılırdı; laboratoriyadan səsə çıxırdılar, mat-məəttəl baxırdılar, nə baş verdiyini bir-birlərindən soruşurdular. Eşitdim, kimsə dedi könüllüdür, "Beriya" laboratoriyasının eksperimentidi.

Hara getdiyini Aydın da bilmirdi; sadəcə, öz havasına düşmüşdü. Bir də bu sarı qapını açanda dayandı. Donuxub qarşısına baxırdı; geniş, pəncərəsiz auditoriyada bir nəfərlik partalar cərgəylə düzülmüşdü. Partalarda oturanlar eyni vaxtda başlarını qaldırıb alınlarını qarşılarındakı yumru möhürdən qalxan sarı işığa çırpırdılar. Hər dəfə başlar qalxanda onların gözlərini görmək olurdu; ölü balıq gözləriydi.

İçəridən kimsə bağırdı, elə bu saat otaqdan çıxmağı, qapını örtməyini istəyirdi. Deyirdi içəri ağ işıq düşür. İçəri, həqiqətən də, dəhlizdən ağ işıq düşürdü. Aydın həmin adamı görmürdü, hardasa lojada gizlənmiş rejissor kimi, eləcə səsi gəlirdi.

Aydın arxaya çəkiləndə dəhlizdə adam əlindən tərpənmək olmurdu. Geri çəkilməyə yer yox idi, az qala hamının qarnı bir-birinin kürəyinə söykənmişdi.

Rupordan Anastasiya Mixaylovnanın səsi yayıldı. İstəyirdi könüllülər öz otaqlarına qayıtsınlar. Elə nəzakətlə deyirdi ki, adam, istər-istəməz, bu səsi qırmaq, bu səsin tələbini pozmaq istəmirdi. Aydının özünü unudub, ekstaza girməsi, davula vurduğu toxmaq zərbələri, ritm hamını çaşdırmışdı. Bilmirəm, yəqin, adamlar əvvəllər bu qadının ürəyəyatan səsini eşidəndə dərhal tabe olurmuşlar. İndi çaşqın görünürdülər.

Əməlli-başlı qarışıqlıq oldu, laboratoriyadan çıxan həkimlər könüllülərə qarışmışdı, onları dartışdırır, itələyib otaqlara salmağa çalışırdılar.

Arxasındakı adamlar Aydını itələyib otağın ortasına qədər gətirdilər. Otaqdakı naməlum adam bu dəfə əsəbi bağırırdı. Aydın cərgələrin arasından keçib, o biri divardakı qapıya tərəf yeridi.

İçərinin işıqları getdikcə öləziyirdi; alın möhürə toxunmayanda sarı işıqlar sönürmüş. Duruxmuş simalar, ölü balıq gözləriylə qapıdan düşən

ağ işığa baxırdılar. Aydın ritmi bir an da kəsmirdi, adamlar bu qaranlıqda səsin dalınca gəlirdilər.

Hər şey bir anda dəyişdi, bircə əmrlə: yoğun kişi səsi əmr elədi ki, davul səsini tutana bir boşqab yemək hədiyyə veriləcək. Bura qədər lunatik kimi yeriyənlər elə bil diksinib oyandılar. Yaxında olanlar Aydının üstünə atıldılar. Qaranlıqda kim kimi dartır, kim kimi tutub sürüyür, kimi təpikləyir – bilinmirdi...

Səs adamların altından sivişib çıxdı, kiminsə əlindəki fənər işığı kimi gah otağın baş divarında göründü, gah sol divarda, gah da sağda... Onlar da işığı tutmaq istəyən pişik sayaq otaqda qaçışır, səsin üstünə atılırdılar. Səs boğulur, bir də imkan tapıb qaçırdı. Sonra səsi tutdular; təpiklədilər, yumruqladılar. Əldən düşən büllur stəkan kimi çiliklənd isəs. Səs batdı.

Bir saatdan sonra otaqda möhür işıqlarının hamısı sayrışdı. Dəhliz boş idi, qapıların arxasından, dəmir barmaqlıqların arasından üzlər boylanırdı. Bir paltara girmiş iki nəfər çapalayırdı...

Dəhilzdə 43 iti addımlarla "Beriya" laboratoriayasına gedirdi. Mənə elə gəlir, 43 qəsdən dabanlarını yerə vururdu, istəyirdi onun addımlarının səsi divarlarda əks olunsun. Qapıların arxasındakılar bilsinlər ki, 43 gəlir.

43 laboratoriyanın qapısından girdi. Çarpayıda uzanmış kişinin qolları, ayaqları bağlanmışdı. Monitorlarda beynin, sinirin modelləri fırlanırdı, diaqramlardakı rəqəmlər artıb-azalır, dalğalı xətlər axırdı. Nana Dalidze monitorun qarşısında oturmuşdu. Qapının səsinə çevrilib baxdı.

– Dayandı! – Nana Dolidze 43-ə dedi. – Bitdi!

43 çarpayının yanında dayandı, kişinin gözlərinə xüsusi eynək taxılmışdı, bu, daha çox virtual gəzinti eynəyinə bənzəyirdi. Başından barmaqlarının ucuna qədər rəngli naqilləri olan iynələr sancılmışdı.

– Nə görürdü?

– Üstünə ölülər töküldü. Cəsədlərin altında qaldı... Sonra qaranlıq. Onun şüuru bu dəfə silindi.

– Əminsən?

– Adi bir müqqəvvadı. Bu dəfə əminəm. Əməliyyata hazırdı.

Kişinin sol əlində baş barmağı tərpənirdi; ya siniri atırdı, ya da özü tərpədirdi. Yəqin danışan bu iki nəfərin səsini eşidirdi, bəlkə də, bu bir işarəydi? Bunu 43 gördü. Kişinin baş barmağından tutdu, sonra onun barmağının üstünü baş barmağıyla iki dəfə sığalladı, üç dəfə döyəclədi, ara verib, bir də döyəclədi...

Monitorlarda hər şey sabit görünürdü. Nana Dolidze kişinin əl-ayağını açdı, eynəyini götürdü. Adamın baxışları hələ də naməlum nöqtədə ilişmişdi. 43 onu başının altından qaldırıb dikəltdi, çarpayıda oturdu.

– Sən kimsən? – 47 onun üzünə əyildi. Düz gözlərinin içinə baxırdı.

– 46 nömrəli maska. Mən 46 nömrəli maskayam. Aydın Qaraxanlı... Neyrocərraham. – Eyni sözü bir neçə dəfə təkrarladı.

– Hazır deyil. – 43 dedi. – Hələ şüuraltıda yaşayır.

– Sən könüllüsən! – F29. – Nana Dolidze Aydının üzünə bağırdı. – Buna bax, bu hələ də özünü bizdən biri hesab eləyir. Yoldaş 46 da ortalıqda yoxdur. Yoxsa mən buna sübut edərdim... – Onun qapıya tərəf gedişindən hiss olundu ki, 46-nı tapıb gətirmək fikrindədir.

43 maskasını çıxarıb Aydınla üz-üzə dayandı. Aydın Qaraxanlı qıza diqqətlə baxırdı, qarşısındakı qızı tanıdığı hiss olunurdu. Bu gözlər onun yaddaşının dərinliyindəydi, bircə dilinə gətirə bilmirdi.

– Məni bura gəmi gətirib. İnanmırsan Alıdan soruş, mənim ayımdan. Alı... Raya da bilir. Kozakova; mənim operatorumdu.

– Sənə inanıram.

– Mənim maskam var; 46. Mənzilim var... Davulum var. Morud Uluqbekin dərisindən... – elə bil xatırladığını özünə deyirdi, ona da eşitdirirdi. – Mən F30-u burdan aparmalıyam. Dünya burda baş verənləri bilməlidir. Könüllü deyiləm. F29 deyiləm...

– Burda ancaq dövlətin sənə verdiyi maskayla yaşaya bilərsən.

– F30! – Aydın indi xatırladı. – F30 sənsən! Ayqız!

– Beynin səni aldadır. Yaşadıqların illüziyadı. Sən, əslində, indi...

Otağa 41, dalınca 47, sonra 46 girdi. Ayqız qapının səsini eşidəndə elə bir cəldliklə maskanı üzünə taxmışdı ki, içəri girənlər görmədilər. Aydın onlara mat-məəttəl baxırdı. Əsasən də 41-lə 46-ya.

– Sən ölmüşdün. Cəsədini görmüşdüm. Sən də... – Durub 46-nın qarşısında dayandı. – Bu mənim maskamdı. Sən kimsən?

– Demək, ayılıb. – 41 dedi.

– Çıxar maskanı! Çıxar görüm kimsən? – Aydın əl atıb 46-nın maskasını çıxartdı. Qarayanız, yumrusifət, qıyıqgöz adam onun qarşısında dayanmışdı.

– F29, sən könüllüsən. Bu qarşılaşma yüzüncü dəfədir ki, təkrar olur. Hər dəfə mən içəri girəndə sən maskamı çıxarıb üzümə baxırsan.

– Morud Uluqbek! Axı ölmüsən. Sənin dərindən davul düzəltmişəm... Səni... – üzünü 41-ə tutdu, – Vissarionoviç öldürdü.

– Onun beyni qeyri-adidi, yoldaş 41, əslində, cihazlar göstərir ki, yaddaşı silinib. Amma oyananda yenə hər şey bərpa olunur. – 47 əslində bilirdi ki, bu izahata qarşısındakı adamların ehtiyacı yoxdur.

Morud Uluqbek onun əlindən maskanı alıb üzünə taxdı.

– Deməli, arxa beyin süni hipotalamusu qəbul eləmir. İndi onlar qarşılaşmış iki cərəyan kimidir. Görünür, hələ bir az da vaxt lazımdır.

– Vaxt yoxdur. – 41 dedi.

– Mən Aydın Qaraxanlıyam. F29 deyiləm. Azərbaycandan gəlmişəm. Gəmi gətirib məni... Könüllü deyiləm, neyrocərraham. Vissarionoviç ikinizi də öldürəcək...

– Hallusinasiyalar davam eləyir.

– Təklif budur ki, beynə yüngül şok verək. Bu onu ayılda bilər.

Aydına heç kim fikir vermirdi, adama elə gəlirdi ki, səs keçirməyən şüşənin arxasından danışır. Səsini ancaq özü eşidir. Aydın birdən hiss elədi ki, doğrudan da şüşənin arxasındadır. Onu nə vaxt bu şüşəli otağa salmışdılar, ya özü girmişdi – bilmədi. Bir onu bildi ki, səsini şüşənin çölündəki adamlar eşitmirlər. Aydının ağlına nə gəldisə, susdu. Geri çəkilib çarpayının yanında dayandı, havalandırma borusuna baxdı. Cəsəd yox idi. Çarpayıda oturdu.

Öz-özünə danışırdı: "Görəsən, indi də beynimin içindəyəmmi? Mənə kənardan baxırlar? Bu da şüuraltıdı? İllüziyadı!? Hallusinasiyadı!? Onlar beynimə giriblər. Ayılmışam, yoxsa çarpayıdayam? – Yataqdan qalxıb əməliyyat çarpayısına boylandı. Boş idi. – Bəlkə başqa otaqdayam? Başqa otaqda... Cərrahiyyədə... Yox! Yox! Burdayam! Həqiqətən burdayammı?"

İşıqlar bir göz qırpımında keçdi, zülmət qaranlıqda zəif bir diod işığı da görünmürdü. Aydın bu zülmətin içinə arxası üstə yuvarlandığını hiss elədi. Adətən, adamın qan təzyiqi düşəndə belə olur. Elə bilirsən səni kosmosun qaranlığına atıblar, sən də bu boşluqda yuvarlanırsan. Bir saman çöpü, bir quş lələyi də yoxdur ki, yapışasan. Belə halda adam tez də gözünü açır, qorxur bu yuvarlanmaqdan. Aydın da gözünü açdı, yenə həmən zülmətdə yuvarlanırdı. Nə bir tunel görünürdü, nə də tunelin axırında işıq. Səs dəydi qulağına, uğultu kimi bir səs. Uğultu getdikcə yaxınlaşdı, birdən qatar səsinə çevrildi; taqqataraqla gedir, gedir, gedirdi... Hardasa lap yaxında mühərrik işə düşdü; sonra insan səsi, pıçıltıları bu mühərrikin pərləri arasından doğrana-doğrana keçirdi. "Yüngül şok onun beynini ayıldacaq." "Ö-ö-ö-lə-lə-lə bi-lər-lə-lər".

Aydın birdən havanı içlnə çəkdi, elə bil bayaqdan bəri nəfəsini tutmuşdu. Sivişib adamların altından çıxdığını, küncün qaranlığında dizlərini qucaqlayıb özünü gizlətdiyini anladı. Aydın görünməsə də, qarşısında bir-birinin belinə dırmaşıb altda qalanı təpikləyən adamlara tərəf baxırdı. Bu qaranlığın içində elə bil itlər boğuşurdu. Aydın durub əlini divara sürtə-sürtə zalın o biri başına tərəf getdi, əli qapı dəstəyini tanıdı. Dəhlizə çıxdı. İri pəncərələrdən döşəməsi parketli dəhlizə hələ işıq düşürdü. Günəş əyilsə də, şəfəqləri buludlardan asıla qalmışdı. Aydın bu qırmızı buludlara baxdı; lopa-lopa qırmızı buludlar səmanın yaxasından yapışmışdı, nə dağılırdı, nə sürüşüb gözdən itirdi. Şüşədəki əksinə baxdı; özünü gördü. Deyəsən, tanımadı: əlini dodağına, burnuna, gözlərinə sürtüb yoxladı. İşarət barmağıyla üzünü döyəclədi: dərisini, barmağını hiss eləmirdi, bircə toxunuşu görürdü.

"İllüziya... İllüziya...İlğım!" Səslər onun qulağının dibindən sürətlə gedən maşın vıyıltısı kimi keçirdi.

İki nəfər ağ xələtli, iri cüssəli qadın hardan çıxdısa, qəfil Aydının qoluna girdilər. Aydın tərpənə bilmədi, qadınların iri sinələri, ətli qolları imkan vermirdi ki, ayağını rahat atsın. Biri yoğun kişi səsiylə dedi ki, könüllülərin burda gəzməyə icazəsi yoxdur. Aydının gücü bağırmağa çatırdı, deyirdi

könüllü deyiləm, "Beriya" laboratoriyasının neyrocərrahıyam. Bu saat Anastasiya Mixaylovnaya xəbər verin". Aydını aparırdılar: özü də çox yüngül aparırdılar.

Aydını dəmir qapıdan içəri itələyib, dalınca da qapını bağladılar. Aydın indi başa düşdü ki, təqsir özündədir. Axı, bu sifətdə neyrocərrah olar? Neyrocərrahın, həkimin maskası olmalıdır, nömrəsi olmalıdır. Dəmir barmaqlıqdan dəhlizə baxa-baxa deyinir, özünü qınayırdı. Hərdən də Sabit Ağazadəyə xəyali deyirdi, məni bağışla, professor, səni qoruya bilmədim.

Aydın dəmir qapını var gücüylə döyür, yeməkxanaya gedənlərdən tələb eləyirdi Anastasiya Mixaylovnaya xəbər versinlər. "Beriya" laboratoriyasına gedib, Nana Dolidzeni çağırsınlar.

– Xeyri yoxdur bağırmağın, – mənimlə üz-üzə küncdə oturan qadın dedi. – İllərdi mən də inandıra bilmədim heç kimi. Sənin də yerin, bax, o küncdü. – Aydın çevrilib arxaya baxdı. Pırtlaşıq gümüşü saçları üzünə dağılmış qadının dişləri də tökülmüşdü. Əynindəki kombinezonun şiltimi çıxmışdı. Aydın etiraz elədi, bu dəfə daha cəsarətlə Anastasiya Mixaylovnanı, Nana Dolidzeni çağırdı. İlk dəfə Raya Kozakovanın səsini arzuladı, onu eşitmək, məsləhətini dinləmək istədi. Telekartı, maskanı harda itirdiyini yadına salmağa çalışdı. Gəlib küncdə oturdu, bu gün baş verənləri ardıcıl xatırlamağa, hadisələri bir-birinin ardına düzdü.

– Adam kimi yaşamaq istəyirsənsə, gərək hökumətin sənə verdiyi maskanı itirməyəsən, qulağın həmişə onların ağzında olsun. – Qadın əminliklə deyirdi.

– Sənin maskan neçə nömrəli olub?

– 39. Ginekoloq. Sara.

– Sara? Həmən Sarasan? Yo-ox. – Aydın inana bilmirdi. – "Dmitri" prospekti, "Skripal" küçəsindəki bina...

– Hə.

– Uşaqlı gəlin. Bir gündə bu qədər qocala bilməzsən. Bu mümkün deyil.

– Bir gün? – Sara kinayəylə güldü, – Bilmirəm neçə illərdi burdayam. Daha mənə vaxt, zaman gərək deyil.

– Məni xatırlayırsan? Neyrocərrah, Aydın Qaraxanlı. Mənzil 46. Bəs, Sabit Ağazadə? Professor, bioloq, yadına düşürmü? Pisixiatorlar ailəsi, Mikayıl... Biz bir gəmidə gəlmişdik.

– Gəmi nədi? Burda gəmi var?

– Bəs, sənin qızın hardadı?

– Mənim qızım yoxdu.

– Sən, axı, Miroqrada tez öyrəşmişdin. Yadımdadı, deyirdin, hər şey burda çox yaxşıdır. Vissarionoviçin bütün qanunlarını qəbul etmişdin. Nizam-intizam qaydalarını bilirdin.

– Sənin gördüyün mən deyiləm. Maskamı götürüblər...

Otağa məktəb zənginin cingiltili səsi yayıldı, Aydın duruxdu.

– Yenə təmizliyə aparırlar. – Sara dedi.

– Nə təmizlik? Heç yerə getmirəm. Anastasiya Mixaylovna bu saat bura gələcək. Mən neyrocərraham.

– Mən də genekoloq. – Güldü.

Aydın küçədə də deyinirdi; cərgədən, sarı xətlərin arasından çıxmasa da, özündən çıxmışdı. Ona məhəl qoyan olmasa da, öz-özünə əsib-çoşurdu.

Gəldikləri yer daha çox anqara oxşayırdı, yuxarıdan – tavana yaxın yerdən taxıl biçən kombaynların xortumları içəri girmişdi, xortumdan tökülən əşyalar qalaqlanmışdı. Aydın şəhərə girişdəki şəffaf tuneli, assistenti Alını xatırladı. Alını burda tapacağına inandı. Başladı tələb olunan kimi hər şeyi çeşidləməyə, kənara yığmağa, Alını axtarmağa. "Alı yaxşı bilir mən kiməm" deyirdi. Elə həvəslə deyirdi ki, adam inanırdı boz ayının danışacağına: "Hə, bu, tanınmış neyrocərrah Aydın Qaraxanlıdır." Sonra gətirib onun 46 nömrəli maskasını, telekartını verəcəklər. Bu dəfə Raya Kozakovanın səsini eşitməkdən xoşhal olacaq.

Aydın Saranı yanladı:

– Doğrudan gəmi yadına düşmür? – Xatırlatmağa çalışdı. – Dəniz, sahil... yekəpər əsgərlər. Qarğalar, qağayılar...

– Yox. – Sara gözünü naməlum uzaqlığa dikib baxırdı, sonra elə bil həmən uzaqlıqdan qayıtdı. – Miroqrad meşədi. Burdan ancaq qatar keçir. Hərdən onun taqqıltısını eşidirəm. Qulağımı divara söykəyəndə qatarın səsi gəlir, daşın içindən gəlir. Bax, belə səs çıxarır: Tak-tarak, tak-tarak-tarak...

– Bəs mayak?

– Vaqon yadıma düşür. Pəncərə tərəfdə oturmuşdum. Baxırdım. Yol meşənin ortasından keçirdi, budaqları bir-birinə dolaşan ağacların altı tunel kimiydi... Sonra kanyonları gördüm... Şəlalə çox gözəliydi...

– Nə qədər ki, bizi laboratoriya siçanı kimi əməliyyat stoluna uzatmayıblar, nə qədər ki, dodağımıza Vissarionoviçin dodağı dəyməyib, qaçaq burdan. Evimizə qayıdaq.

– Hardadı evimiz?

Çeşidləmə bitmədi, Alı tapılmadı, amma Aydın özünü də, Saranı da gizlədə bildi. Təmizlikçi dəstə geri qayıdanda onlar eskalatora qalxmağı bacarmışdılar. İkinci dəfəydi Sara onu geri qaytaran eskalatora güc gələ bilmirdi, qolları yorulurdu, əşyalara qarışıb düşürdü anqara. Aydın Saranı atıb getmək istəmirdi, məcbur geri qayıdırdı. Bir də ərincək yerişiylə ağır-ağır yuxarı dırmaşırdılar. Aydın bu dəfə Saranı qabağa saldı. Kənarların sabit nilkelli borularından tutub özlərini qabağa çəkirdilər, Sara geri sürüklənəndə Aydın onun quru yancaqlarından başıyla qabağa basırdı. Çalışırdılar üzlərinə, başlarına dəyən ağır-yüngül əşyalara fikir verməsinlər. Birdən-birə hiss elədilər ki, əşyaların zərbəsi onları ağrıtmır. Hətta iri çamadanın tini Aydının başına dəyəndə də ağrı hiss eləmədi.

Eskalatorun lap başına qalxdılar. Burdan şəffaf tunelə çıxdılar. Sara dayanıb ətrafına baxdı. Əşyaların hardan eskalatora atıldığını, kimlərin qoyduğunu görmədi.

– Hə. – Sara dedi, – Bura həmən yerdi. Qatar burda dayandı. Biz düşüb bu qapılardan içəri girdik. Elə bil lap dünən olub.

– Qatar bura necə gələ bilər? Dəmir yolu yoxdu. Biz gəmiylə gəlmişik. Bax, dəniz o tərəfdədir.

– Ora bax. – Aydın indi gördü, heyranlıqla şüşəyə yaxınlaşdı. Hava qaralmışdı deyə, çöl aydın görünürdü; mayakın işığı bu dəfə ürək kimi döyünmürdü, gəzirdi, gecə növbəsində ətrafı gəzən nəzarətçinin əlindəki fənərin işığı kimi gəzirdi, elə bil mayak onları axtarırdı. İkisi də şüşənin qarşısında dayanmışdı. İstəyirdilər nəzarətçi mayak işığı onların üstünə salsın, görsün. Tapılsınlar.

– Gedək burdan. Qatar mütləq gələcək.

– Professoru, Ayqızı, Alını Vissarionoviçin əlində qoyub qaça bilmərəm.

– Onlar səni xatırlamır.

– Mən ki, xatırlayıram.

– Elə indi mayaka gedəcəm.

– Gedim bizimkiləri də gətirim. – Aydın dediyi sözü elə bil indi düşündü, sonra başıyla təsdiqlədi. – Ayqız hər şeyi danışacaq. Bu laboratoriya dövləti içindən dağılmalıdır.

– Qatar mütləq gələcək. – Sara qapıları silkələdi, biri aralandı, barmaqlarını qapının arasından çölə çıxartdı...

Aydın özünü eskalatora atdı. Eskalator yolu ona bu dəfə çox uzun gəldi, hardansa yuxarıdan əşyalar düşürdü, başqa eskalatorlar bura qoşulub yükünü boşaldırdı. Aydın əşyalara qarışıb anqarın başından aşağı düşdü. Burdan aşağını – qalaqlanmış əşyaları daha yaxşı görürdü. "Bura anqar deyil. Bura... Bura yaddaşdı. Bura kimlərinsə yaddaşıdır! Xatirələri söküb, bura atırlar." İndi Aydına bu əşyalar daha maraqlı göründü; rahat-rahat eşələməyə fürsət tapmışdı. Gözünə maraqlı dəyən əşyanı götürür, çamadanı açıb içini tökür, çantaları eşələyirdi. İstəyirdi sahibi haqqında təsəvvürü oyansın, adamı əşyasından tanısın. Bir neçə eynək tapmışdı, hansının Sabit Ağazadənin olduğunu bilmirdi, amma yenə də ona vermək üçün cibinə yığırdı.

Aydın Alını tapanda uşaq kimi sevindi, amma bu sevinci anqarın qapısına gedənə qədər çəkdi. Çıxa bilmədi, qapılar çöldən bağlanmışdı.

– Alı, görəsən, biz indi kimin yaddaşından atılmışıq? Sən mənim, yoxsa mən sənin. Bəlkə, ikimiz də başqasının xatirəsiyik? Səni mən tapdım, məni kim tapacaq? Məni kim unudub, Alı? Orda... Orda küncdə bir adam da büzüşüb oturmuşdu... bəlkə o? – Məni deyirdi. Onu başa düşürəm, bəzən adam gördüyünü sonradan xatırlayır.

Səhər qapı açılmadı. O biri səhər də gələn olmadı. Aydın gecələr minbir əzabla eskalatorla keçid zalına qalxır, pəncərənin qarşısında dayanıb Alıyla

birlikdə mayaka baxırdı, hava işıqlananda qayıdırdı aşağı. Hər səhər qapının açılacağına ümidlənirdi. Oturub xatırlanacağını gözləyirdi.

Aydın oyananda başını stola qoyub, yatdığını anladı. Qolları keyimişdi, uyuşmuşdu. Gözləri işıqdan qamaşırdı, üz-gözünü turşudub baxırdı. Qarşısında Raya Kozakova oturmuşdu. Həmən oğurluq təbəssümü yenə dodaqlarına taxmışdı.

– Miroqrad qapalı şəhərdi... – Aydın, deyəsən, onun səsini eşitmirdi, eləcə əzilib-büzülən dodaqlarına baxırdı.

– Alı hanı? Assistentim Alını neynəmisən?

– Əşyalarınız otağınıza göndəriləcək...

– Alı əşya deyil. Keçmişimdi. Mən hardayam?

– Əməliyyat stolunda. F29, sən ölmüsən... Gözünü aç. Ayıl... F29, sən ölmüsən... Özünə gəl... – Səslər dəyişir, qarışır, otaq Aydının gözündə dalğalanırdı, bəzən qarşısındakı Raya Kozakova itir, yenə peyda olurdu...

Nəyinsə kəskin qoxusu Aydının beynini ayıltdı. Bu dəfə gözünü açanda başının üstündə dayanan Ayqızı gördü. Beyni yavaş-yavaş ayazıdı.

– Ölmüşəm?

– Hə.

– Necə? Hə, yadıma düşdü, əməliyyat stolunda qalmışam. 41 beynimə şok...

– Könüllülər davulun səsini tutdular.

Aydın ətrafına baxdı, şkafda olduğunu anladı. Könüllülərin altından sivişib bu şkafa girdiyi yadına düşdü.

– İstəyirdim insan olduqlarını xatırlasınlar.

– Adamlar səni bir boşqab yeməyə görə öldürdülər.

Aydın şkafdan başını çıxarıb zala boylandı; hamının başı tikiş maşının iynəsi kimi işləyirdi, ölü balıq gözləri nəyisə möhürə sarı işıqla tikirdi.

– Morud Uluqbek Miroqraddan çıxış yolunu sənin yaddaşına yazıb, Ayqız. Xatırlamalısan... Mən akvariuma gedərəm.

Aydın şkafdan çıxdı, maskanı laboratoriyada axtarmağa getdi. Dairəvi dəhlizdə 46 nömrəli maska taxmış adamın liftə girdiyini gördü. Onun dalınca qaçdı, gec oldu. Qapılar bağlandı. Aydın düyməni dalbadal sıxıb, lifti tələsdirdi.

Binadan çıxanda onu görmədi, "Dmitri" prospektinə tərəf qaçdı. Deyəsən, əmin idi ki, 46 maskalı adam onun mənzilinə yollanır.

Aydın bloka girəndə pillələri qalxan ayaq səslərini eşitdi. Özünü o an çatdırdı ki, maskalı alnını qapının gözlüyünə oxutdu, yaşıl diod yandı, adam içəri girdi.

Aydın qapını örtülməyə qoymadı, əl atıb saxladı, özünü atdı içəri. Maskalı bu qəfil həmlədən diksindi, arxaya çevriləndə çənəsinə dəyən yumruqdan divara çırpıldı. Özünü itirmədi. Aydının biləyindən yapışdı, onun burnuna kəllə vurdu. Aydının dodağının üstünə burnunun qanı süzüldü. Deyəsən, hiss eləmirdi. Bu dəfə otağın ortasına qədər dartışdılar.

Kim kimi hara gəldi çırpırdı, göz açmağa aman vermirdi. Rəfdəki kitablar töküldü. Beyin fiquru düşüb ortadan ayrıldı...

Aydın əlinə gələni maskalının başına vurmağa çalışırdı. Maskalı Aydını altına salmağı bacardı. Qırtlağını tutub sıxdı. Aydın da altdan-yuxarı onun boğazından yapışmışdı. İkisi də bir-birini boğurdu.

Aydının nəfəsi kəsilirdi, maskalı sağ əliylə onun boğazından tutmuşdu, döşəməyə sıxırdı, sol yumruğuyla da onun qulağının dibinə, çənəsinə vururdu. Aydın maskalının altından çıxa bilmirdi, boğula-boğula çapalayırdı.

Aydının əli yan-yörəsində ağır bir şey axtardı. Barmağına toxunan nə idisə, ovcuna aldı, maskalının böyrünə dalbadal çırpdı. Maskalı dayandı. İndi Aydın onun gözlərini görürdü, maskanın içində bərəlirdi. Sonra Aydın nəfəs dərə bildi; maskalının qolu boşaldı, onun üstünə düşdü.

Aydın onu itələyib üstündən atanda, əlində bıçaq olduğunu gördü. Bəlkə də, indi ağlı kəsdi, beyni tanıdı kı, bu, bıçaqdır. Davulun dərisini kəsib deşəndə istifadə elədiyi həmən iri tiyəli bıçaq. Maskalının böyründən axan qan döşəməyə yayılırdı.

Aydın özünü ələ aldı, maskalını silkələyib oyatmağa çalışdı. Maskasını dartıb onun üzündən götürəndə diksindi. Qarşısındakı adam eynən onun simasındaydı. Bəlkə, bəzi cizgilərini bir az fərqləndirmək olardı, amma özü idi.

Aydın onu ayıltmaq üçün əlləşdi. Sonra gec olduğunu anladı. Durub divanda oturdu. Ayağının ucunda uzanmış cəsədə baxır, qarşısındakı simanın ona niyə bu qədər bənzədiyini anlamağa çalışırdı. Aydına elə gəlirdi ki, özünü öldürüb. Hə, deyəsən, belə düşünürdü, maskanı divana qoyub hamam otağına keçdi. Güzgüdə özünə baxdı:

– Mən kiməm? – Barmağıyla güzgünü döyəclədi. – Sən kimsən?

Krantı açıb əllərini yudu, ovcunu doldurub bir neçə dəfə üzünə vurdu. Ovuclarını üzünə elə sürtürdü, deyirdin bəs, bu simanı yuyub çıxarmaq istəyir.

Otağa qayıtdı. Cəsəd divanın qarşısındaydı, yəqin fikirləşmişdi ki, hamamdan çıxanda hər şeyin ilğım olduğunu görəcək. Görəcək ki, divanın qarşısında cəsəd yoxdur, heç kimi öldürməyib. Otağın hər tərəfindən səslər gəlirdi: “Aydın Qaraxanlı sənsən, yoxsa mən? Sən kimsən? Mən kiməm?” Cəsədin də ağzının tərpəndiyini gördü: “Aydın Qaraxanlı sənsən, yoxsa mən?”

– Sən kimsən? – Aydın onun üzünə əyildi. Sonra cəsədin yaxasından tutub bir az qaldırdı, silkələyib üzünə bağırdı. – Kimsən? – Bu dəfə cəsədin dodaqları tərpənmədi, yaxasından əl çəkdi.

Axşam Aydın maskanı taxıb pəncərədə oturmuşdu, ayaqlarını sallamışdı Skripal küçəsinə. Qovluqların arasındakı kağızlardan quş düzəldib yığmışdı stolun üstünə, hər qanadına bir söz yazmışdı: “Kiməm?” “Kimsən?” Bir-birinin dalınca uçururdu. Kağız quşlar süzürdülər. Bəziləri yaralı quş kimi fırlanıb başı üstə yerə çırpılırdı. Aydın elə gəlirdi ki, bu yaralı quşlar Ayqızın

ağrısına dözə bilməyənlərdi. Aydın quşları daha da uzağa atmağa çalışırdı; parkın qarşısındakı susan qadın skulpturun yanınacan...

Ayın işığı onun başının üstündən süzülüb cəsədin üzünə düşürdü. Bu otaqda cəsədi bircə Ay görürdü.

Səhər Aydın zəngin səsinə divanda oyandı. Deyəsən, indi cəsədin əynindəki kombinezonun ciblərini axtarmaq yadına düşmüşdü. Telekartı tapdı, onun qulaqlarından qulaqcıqları çıxardı. Qapını açanda qırmızıbaş qadınla rastlaşdı. Yemək paketini aldı. Çayı götürüb qapını ayağıyla örtdü. Gümrah idi, elə bil yerdəki cəsədi görmürdü. Niyə bu qədər soyuqqanlı oyanmışdı, bilmirəm. Nə var idi ağlında? Nəyə qərarlıydı, nəyə əminiydi, anlamaq olmurdu.

Küçədə kim yerdə kağız quşu görürdüsə, götürüb atırdı. Görürdün ki, adamların başının üstündən quşlar süzə-süzə uçur, ya boş yerə düşürdülər, ya da dimdiyi kiməsə toxunurdu. Bəlkə də, quşun dimdiyi toxunan adamların yaddaşında badam ağac çiçəkləyirdi, o an burunlarına yasəmən ətri gəlirdi, içinin qaramatına işıq düşürdü. Həmən nöqtədən kiminsə bədəni tumurcuq kimi çatlayırdı. Sonra bədəni yavaş-yavaş sovrulurdu, qara külü dağılırdı. Bu küllüyün içindən bir uşaq gülə-gülə çıxırdı...

Adamlar bu quşları bir-birlərinə atırdılar. Aydın düzəltdiyi quşların gecədən bəri hələ də uçduğuna sevinirdi. Uşaq kimi əllərini havaya qaldırıb quşları uçmağa həvəsləndirirdi. Yerdən götürdüyü quşu yanındakı adama verirdi, deyirdi uçur. Quşlar uçduqca Aydın da uçurdu, ayaqları yerdən üzülürdü, qollarını yana açıb süzürdü...

Aydın BAM-ın içindəki Sarı Bankın şöbəsinə girdi. Bütün pulun Sabit Ağazadənin hesabına köçürülməsini istədi. Qız klaviaturanın düymələrini sürətlə döyəcləyir, Aydının dediyi adı, maska nömrəsini, laboratoriya şöbəsini yazırdı. Bir neçə dəqiqədən sonra onun telekartına hesabından köçürülmə bildirişi gəldi.

– Professorun cərimələrini ödədim. İndi yoldaş 13 laboratoriyasına qayıda bilər?

– Yox.

– Niyə?

– Könüllü üzərində aparılan təcrübə uğursuz olub.

– Necə yəni uğursuz olub?

– Cəsəd morqdadı. "Tullantıların qəbulu" şirkətinə veriləcək. Vərəsəlik hüququnuz varsa, cəsədin pulunu şirkət sizin hesabınıza köçürəcək. Arxayın olun.

Aydın özündən çıxdı, ayağa durub bağırırdı:

– Professor ölübsə, niyə mənim pulumu ölmüş adamın cəriməsinə çıxdın?

– Könüllünün cərimәsini ödəmək üçün gəlmisiz. Mən dəvət eləməmişəm. İndi də nizam-intizam qaydasını pozursuz. Hesabınızın sıfırlandığını nəzərə alın. Cəriməni fiziki imkanlarınızla ödəməli olacaqsız.

Aydın laboratoriyada Nana Dolidzeni görəndə, sevindi. Ondan morqa birlikdə getməyi xahiş elədi. Nana Dolidze etiraz elədi, dedi ki, Anastasiya Mixaylovnanın icazəsi olmalıdır. Birdən yadına düşdü:

– F30-u tutdular. – Sevincək xəbər verdi. Şüşəli otağı göstərdi.

Aydın otağa boylandı, Ayqız başında korset, qolları çarpayısına bağlı uzanmışdı.

– F30 yoldaş 43-ü öldürüb. Havalandırma borusunun üstündə cəsədi görəndə az qaldı havalanam. Qız çox təhlükəlidir.

– Necə tutdular? – Aydın şüşəyə yaxınlaşdı.

– 43-ün maskasında qaçmaq istəyirmiş. Onun gözü sistemin yaddaşında yoxdu.

– Gözü? – Deyəsən, bu sualı özünə verdi. – Hə... Maskalar veriləndə biz gözlükdən Vissarionoviçə baxmışdıq. Deməli, görüntü bəhanəymiş.– Nana Dolidzeyə baxdı. – Bağlı qalacaq?

– Bizim üçün təhlükəlidir.

– Parentalı özünüz yaratdınız.

– Biz ona itaət öyrətmişdik. Bilmirəm necə oldu, bu parental sistemdən çıxdı. Bəlkə də, gövşəmək onu dəyişdi. Qorxuram bunu süni hipotalamusun əks göstəricisi hesab edələr. Belə olsa, Sarı Bank bizim laboratoriyaya cərimə təyin edəcək. Bilirsən, bu nə deməkdir? Son. Bu gün göz testi aparılacaq.

– Göz testi?

– Yəqin, başqasının maskasında gizlənən könüllü təkcə F30 deyil.

Aydının ağlına nə gəldisə, gəlib iş stoluna oturdu. Monitorun cücəgöz kamerasına alnını tutdu, monitor açılmadı. Qırmızı diod işığı qırpındı. Aydın yerindən hövlnak durdu, Nana Dolidzenin görəcəyindən qorxdu.

"Qapı evdəkini necə tanıdı? Bəs, onun gözü? Yox, 46 nömrəli maska mənəm. Məndən götürmüşdü. Mən könlüllü deyiləm. Monitor niyə açılmadı?" Aydının səsi qulağında cingildəyirdi.

Laboratoriyanın əməkdaşları içəri girib yerlərini tutandan, sonra Anastasiya Mixaylovna, dalınca da sarı qalstuklu, qovluqlu adam gəldi. Anastasiya Mixaylovna ekspertiza nəticəsinin məlum olduğunu dedi. Dedi ki, yoldaş 43 arxadan boğularaq öldürülüb. Laboratoriyanın yaratdığı parental qatilə çevrilib. Süni hipotalamus əməliyyatını uğursuz hesab elan elədi.

F30 qatil olduğu üçün islah şöbəsinə aparılacaqdı. Sarı qalstuklu imza atmaq üçün kağızı uzatdı. Hamı kağıza atılacaq imzanın nəticəsini bilirdi deyə, almaq istəmirdilər. Otağa ağır sükut çökmüşdü. Aydın kağızı alanda elə bil hamı diksindi.

– İmza atacaq adam təkcə mənəm. – Bir neçə anlıq susdu, sonra qətiyyətlə dedi. – Yoldaş 43-ü mən öldürmüşəm. Mübahisə etdik, məni casus hesab elədi – NATO casusu. Bu təhqir məni özümdən çıxardı. Mən onun yaxasından tutub əvvəl yerə çırpdım. İndi yadıma düşdü, hətta kombinezonunun sol aşırmasındakı düymə qırıldı. Mən onu susdurmaq üçün

arxadan ağzını-burnunu tutdum. Nəfəsi kəsilənə qədər... Cəsədi havalandırma borusunun üstündə gizlətdim. Düyməni də tapıb F30-un çarpayısının altına atdım. F30 itaətkar parentaldı, qatil deyil. Mən cinayətimlə bu elmi kəşfi gizlətmək istəmirəm.

– Sənin hesabın silinəcək. Maskan alınacaq. İş yoldaşını bilərəkdən qətlə yetirdiyin üçün cəzalanacaqsan. – Sarı qalstuklu adam dedi. – Bizim cəmiyyətdə cinayətə, cinayətkara yer yoxdu.

– İcazə verin, F30-u çarpayıdan açım. Vicdanım rahatlasın.

Anastasiya Mixaylovna Aydına razılıq verdi.

Hərə yanındakına bir söz deyirdi, pıçıldaşırdılar, Aydın Qaraxanlını ilk gündən bəyənmədiklərini deyirdilər. Nana Dolidze yerindən durub otaqda gəzişirdi, istəyirdi sözünü hamı yaxşı eşitsin:

– Əvvəldən bu yoldaş Qaraxanlıdan şübhəli idim. Bu adam Miroqrada layiq deyil. Yoldaş Vissarionoviçin çıxışlarında düşmənçilik axtarırdı. Hardan cəsarət tapırdı, bilmirəm, hətta etirazını bildirirdi. Bizi də etiraza çağırdı. Yoldaş Anna, inanıram ki, rəhbərlik bu qatili bizim laboratoriyaya könüllü olaraq verəcək. Mən onunla necə davranmağı artıq bilirəm.

– Bədəni bizə yarıyır. – 42 sözünü təsdiqlədi.

Aydın Ayqızı çarpayıdan açanda qulağına pıçıldadı:

– Morud Uluqbekin dediyini xatırla, Vissarionoviçlə görüş. Dəhlizdəki marafon posterini unutma. Davulu da. Get burdan, yaddaşındakı yerə get. İlğıma. Hər şeyi danış.

Ayqız Aydının biləyindən tutdu, gözünün içinə baxdı.

– Qardaşımla çöldən qoyun sürüsünü gətirdik. Anam qırmızı kasalara qımız süzdü. Soyuq qımızı başımıza çəkdik. Dodağımızın üstündə köpüklü ağ izi qaldı. Bir-birimizə baxıb gülüşdük... Atamın ayağı üzəngidə ilişib qalmışdı. At atamın cəsədini sürüyüb gətirmişdi. Onu vuran kapitan Simyonov da dalınca gəldi...

– Sus! Sus!

Anastasiya Mixaylovna Aydını gətirib bizim dəmir qapıdan içəri ötürdü. Aydın barmaqlıqdan bağırdı:

– Mən neyrocərraham. Adım Aydın Qaraxanlıdır. Məni gəmi gətirib. Gəmi. Azərbaycan. Heç kim məni unutmasın. Mən mayak görmüşəm.

“Mavi göy üzü, büllur kimi göl,
Yamyaşıl çəmən...
Atlar çapar... atlar... atlar...
Mənim yurdum ordadı...
Mənim evim ordadı...
Mənim yarım ordadı,
Mənim Tengrim ordadı...
Atlar çapar... atlar... atlar...”

– Aydın Qaraxanlı, boş-boşuna özünü yorma, səni də unudacaqlar.

Aydın geri çevrilib baxanda gümüşü saçlı qadını küncdə gördü. Qadın o biri küncü göstərib dedi ki, sənin yerin oradı.

– Sara! Sara! Sən axı qaçmışdın. Getdin!

– Miroqrad qapalı şəhərdi. Burda nə qədər icazə versələr, o qədər gedə bilirsən. Sən məni hardan tanıyırsan?

– Sara! – Aydın həyəcanlanmışdı. Gəlib Saranın qarşısında dizlərini yerə qoydu. – Sara bu mənəm – Aydın Qaraxanlı. Biz birlikdə gəlmişdik. Gəmini xatırlayırsan? Professor Sabit Ağazadə akvariumda öldü. Professoru maskabaşa çevirə bilmədilər. Sən Vissarionoviçin qanunlarını hamıdan tez qəbul eləmişdin. Bunları, deyəsən, keçən dəfə demişdim.

– Qaçdığımı hardan bilirsən?

– Doğrudan unutmusan? Axı, səni eskalatora mən qaldırdım. Keçid zalına birlikdə girdik. Mayaka baxdıq. Mən professora, Ayqıza görə qayıtdım. Eh səni!.. Küncə atılmış insan müqəvvası! – Aydın yenə barmaqlıqdan burnunu, dodaqlarını, çənəsini dəhlizə çıxarıb, adını bağırdı.

Qapının altındakı pişik qapısı açıldı, içəri bir nimçədə düyü, üstündə toyuq budu itələndi. Sara dərhal iməkləyib nimçəni götürdü. Dalınca ikinci nimçə itələndi. Pişik qapısı bağlandı. Aydın nimçədəki yeməyi tanıdı, yeməkxanada qaytardığı artığı idi, üstündə də həmən çeynənmiş tikə. Necə qaytarmışdısa, elə də saxlayıb gətirmişdilər. Aydın qaşığı doldurub iylədi, yemək köhnəlmişdi. Nimçəni boşaltmağa künc axtardı. Sara tapşırdı ki, qətiyyən yerə tökməsin, sonra həm yığmaq onun üçün çətin olacaq, həm də tozlu, daşlı yeyəcək. “Professor akvariumda bunu bacarıbsa, mən də bacararam.” Bilmədim Aydın bu sözü Saraya dedi, yoxsa özünə. Yeməyi ciblərinə boşaltdı.

– Burdan qaçmağın asan yolunu bilirəm. – Sara çeynəyə-çeynəyə qapının barmaqlığı arasından dəhlizin tavan küncünə baxırdı. Üzündə ilıq təbəssüm görünürdü. Elə bil hansısa sirri bilirdi.

– Hansı yoldu?

– Xəyalla buralardan çıxmaq olur. Səni Vissarionoviçin heç bir qanunu bizi saxlaya bilməz. Aşa bilmədiyin divar qalmaz. Mən tez-tez qaçıram.

– Hara yollanırsan? Hara çatırsan?

– Qaçıram, qaçıram. – Duruxdu. – Bomboş bir çölün ortasında qalıram. Ordan heç yana gedə bilmirəm. Tapa bilmirəm evimi. Mənə elə gəlir qarşıdadı, qarşı tərəfi də tapmıram. Yenə bura qayıdıram. İstəyirsən gəl bu dəfə yarışaq, görək kim daha uzağa gedər?

– Kim evinə qayıda bilər... – Aydın təklif elədi.

Mən bu dəfə onların gedəcəyinə inanıram. Bu dəmir barmaqlıqlı qapının arxasında, bu pəncərədən işıq düşməyən qaranlıq küncdə təktənha qalsam da, bu dəfə onların getməyini istəyirəm. Qoy, elə indi onlar gözümün qabağındaca çıxıb getsinlər...

...Dəmir qapını Ayqız açanda Aydın sevincək yerindən durdu. "Vissarionoviç öldü. Professoru öpəndə zəhərlənib. Ara qarışıb. Qaçaq! Mən gəmiyə gedən yolu xatırladım..."

Aydın Qaraxanlı gəmidən düşəndə əlində boz ayısı, Alı var idi. Onun dalınca Ayqızla Sara da düşdü.

Aydın Ayını başının üstə qaldırıb ətrafa onun gözüylə baxdı, ölü gəmilər əriyib qumla sovrulurdu...

– Aral dənizinin dibindəyik. Hanı dəniz? Mayak da görünmür.

Burdan səhra başlayıb göz gördükcə uzanırdı. Ayı Alı deyirdi lap qarşıda su var, dəniz ordan başlayır, bir az da gedək.

Ayqız sevincək bağırdı:

– Atlar... Atlar... Atları görürəm... – Uzaqdakı ilğımda atlar dalğalanırdı. Elə görünürdü ki, elə bil onlar dənizində çimirlər.

Çapan atların toxmaq ayaqları Morud Uluqbekin davuluna çevrilmiş yeri döyəcləyirdi.

Onlar ritmə tərəf qaçdılar... ilğıma girdilər.

Aydının ayağı altında qalıb, qırılan 46 nömrəli maskanın yarısı quma batmışdı, bir gözüylə göyə baxırdı.

Göydə kağız quşlar uçurdu...

***Son***





*Ramiz QUSARÇAYLI*

## GÜN ŞUŞA GÜNÜDÜ, İL ŞUŞA İLİ

Ad Şuşa adıdı,
yol Şuşa yolu,
Gün Şuşa günüdü,
il Şuşa ili,
Şuşanın içində Şuşa qurulur,
Şuşanın içində Şuşa tikilir.

Öpüb ulduzunu, öpüb Ayını,
Öpüb hər rəngini çəkir gözünə,–
Göyü, qırmızını, yaşılı Vətən.
Nə gözəl sayrışır Şuşada bayraq,
Nə gözəl səslənir Şuşalı Vətən!

Şuşanın içində Şuşa qurulur,
Şuşanın içində Şuşa tikilir.
"Şuşa, sən azadsan" təntənəsində,
Birliyin gücündə Şuşa tikilir.
Xalqın Qarabağa qayıdışında,
Tarixi köçündə Şuşa tikilir.
Yolboyu güllənən bağ yerlərində,
Əkində-biçində Şuşa tikilir.

Hər qaya, hər dağda Şuşa tikilir,
Külli Qarabağda Şuşa tikilir.

Yırtıb çadır-çadır şəhərcikləri
Abır şəhərinə qayıdır Şuşa.
Öpüb gözlərindən Xarı bülbülün,
Cıdır şəhərinə qayıdır Şuşa.

Süzüb Xankəndini Xan şəhərindən,
Dikəlir yerindən Pənahəli xan,
Silir Natəvanın göz yaşlarını.
Hayqırıb Vaqifin məqbərəsindən
Bir-bir salamlayır yurddaşlarını.

Silkinib içindən kükrəyir Şuşa,
Başlanır şəhərin yeni erası.
Yerinə qayıdır Üzeyir bəyin
Dağları oynadan Üvertürası.

Min bəstə üstündə tikilir Şuşa,
Şikəstə üstündə tikilir Şuşa,
Yerinə qayıdır Bülbülün səsi
Yerinə qayıdır Xan zənguləsi,
Çahargah nərəsi,
Segah naləsi.

Çıxır azadlığa damlanan damlar,
Damlanan qapılar,
o ah yerləri.
Silinir üzündən günah yerləri,
Hasarlar yerinə qayıdır indi.
Yenidən qurulur gorgah yerləri,
Məzarlar yerinə qayıdır indi.

Alıb bir-birindən yurd halallığı
Yerinə qayıdır binə daşları.
Alıb bir-birindən dərd halallığı
Yerinə qayıdır sinə daşları...

Yerinə qayıdır çəmənin ətri,
Yerinə qayıdır meşənin ruhu.

Yerinə qayıdır Vətənin ətri,
Yerinə qayıdır Şuşanın ruhu.

***

Minillik yerindən qopub divarlar,
Kərpicin kərpiclə bağ yeri yoxdu.
Daş var sinəsində yüz dağ yeri var,
Öpməyə üzünün sağ yeri yoxdu...

Muzeydə, məsciddə, qalereyada,
Vəhşi əməlləri,
vandal izləri.
Burdan nə qəbilə,
nə tayfa keçib,
Burdan donuz keçib,
hay donuzları...

Bu bağlar nə qədər zillət yaşayıb,–
Əyir budaqları quru heyvalar.
Quru budaqları ovudur külək,
Boylanır yollara şikəst ağaclar,
Alçalar qızarır qan damlasıtək.

Bu yollar nə qədər heyrət yaşayıb,–
Yumulan gözlərin son baxışları,
Ağaran üzlərin qan naxışları,
Yaralı səsləri, ölüm səsləri,
"İrəli" səsləri, "hücum" səsləri,
Qələbə səsləri, zəfər səsləri,
Cəngavər səsləri, hünər səsləri!

Hər daşın üstündə şəhid nəfəsi,
Hər daşın altında şəhid qanı var.
Şuşanın nəfəsi igid nəfəsi,
Şuşanın ər sözü, hürr dastanı var.

Yenidən tikilib qurulur Şuşa,
Yenidən arınıb durulur Şuşa.
Qovuşur dalanlar, qovuşur tinlər.
Qovuşur məscidlər, kilsələr, dinlər.

Müqəddəs minarə, qocaman qüllə,
Xan evi,
Çöl qala,
Çuxur məhəllə,
Sadıqcanın evi,
Nəvvabın evi,
Xan qızı bulağı,
İsa bulağı.
Yenə güllü-güllü gülür Güllü bağ,
Muğam nəfəsli bağ,
muğam dilli bağ.
Boylanır cənnətin təmas yerindən,
Namusun, qeyrətin xilas yerindən,
Xofun, xəyanətin iflas yerindən
Dərdini özünə danışır indi.
Əli yalın Şuşa, silahsız Şuşa,
Qəlbi təmiz Şuşa, günahsız Şuşa,–
Şuşanı bazara çıxaranların
Qara bazarına Bazarbaşından
Baxıb acı-acı qımışır indi...

***

Şuşa şəhər deyil,–
Azərbaycanın
Ürəyi içində sınan şüşəydi.
Bu nə oyunuydu başına gəldi,
Bu nə vahiməydi,
nə əndişəydi...

Bir ocaq başına yığılır indi
Yad əldə qovrulub alışan Şuşa.
Bağrının başından doğulur indi
Bağrı şan-şan Şuşa,
pərişan Şuşa.

Göz yaşı içində qan çeşmələri
dünəndə qaldı.
Bakıda vəzifə çəkişmələri
dünəndə qaldı.

Muzdlular, quldurlar, quduz köpəklər,
Arxalı düşmənin bic oyunları,
Kənar zümrələrin iç oyunları
dünəndə qaldı

Sorğular, suallar dünəndə qaldı,
Gümanlar, xəyallar dünəndə qaldı.

Donan hıçqırıqlar, donan nalələr,
Gecənin bağrını yonan nalələr,
Ağrımız, acımız, göz yaşlarımız,
Yurdundan didərgin soydaşlarımız
dünəndə qaldı.

Vətən qarşısında günahlarımız,
Günaha açılan sabahlarımız
dünəndə qaldı.

Kükrədi zirvələr, coşdu dərələr,
Dağları lərzəyə saldı nərələr.
Gözündə, könlündə Vətən sevgisi,
Hər igid alınmaz bir qala oldu,
Vətən başdan-başa səfərbər oldu.

Getdi cəhənnəmə erməni mifi,
Qaldı gözlərində istək-kamları.
Uçdu başlarına səngər yerləri,
Yeraltı, yerüstü istehkamları.

Əzazil erməni quldurlarının
"Dağlarda toy" adlı əməliyyatı
cəhənnəm oldu,
Məkrli niyyəti cəhənnəm oldu.

Bütün millətlərdən gec doğulan da,
Bütün millətlərə öc doğulan da,
“Toy”suz doğulan da,
bic doğulan da
Türkə toy tutmağa “məclis” qururdu,–
“Məclisin” məramı Şuşa işğalı,
Şuşanın süqutu,

itirilməsi,
Başına oyunlar gətirilməsi…
cəhənnəm oldu.

"Dağlarda toy" adlı Şuşa döyüşü
“Dənizdən-dənizə” hay xülyasının
İlkin təməliydi,
çin olmasıydı.
Varıb Xankəndidən İrəvanacan,
Varıb Ağrıyacan,
varıb Vanacan,
Erməni mifinin yayılmasıydı,–
cəhənnəm oldu.

Qayadan sürüşən ulu daşlara
Sarılıb bayrağı öpdü oğullar.
Torpağın ətrini gözünə çəkib
Şuşanı gözünə təpdi oğullar...

***

Şuşanın içində Şuşa qurulur,
Şuşanın içində Şuşa tikilir.
“Şuşa, sən azadsan” təntənəsində,
Birliyin gücündə Şuşa tikilir.
Xalqın Qarabağa qayıdışında,
Tarixi köçündə Şuşa tikilir.
Yolboyu güllənən bağ yerlərində,
Əkində-biçində Şuşa tikilir.
Hər qaya, hər dağda Şuşa tikilir,
Külli Qarabağda Şuşa tikilir.

Öpüb ulduzunu, öpüb Ayını
Öpüb hər rəngini çəkir gözünə,–
Göyü, qırmızını, yaşılı Vətən.
Nə gözəl sayrışır Şuşada bayraq,
Nə gözəl səslənir Şuşalı Vətən!

***2022***

## ♦Yeni tərcümələr



**Roald DAL** (1916-1990) – tanınmış Britaniya nasiri, şairi və ssenaristi. Onun mistika, fəntezi və uşaq ədəbiyyatı janrlarındakı əsərlərində qara yumor və gözlənilməz sonluq effektlərinə rast gəlinir.

Məhsuldar ədəbi fəaliyyətinə görə 2 dəfə (1954 və 1960-cı illərdə) Edqar Allan Po ödülünə, Ümumdünya Fəntezi (1983) və "Gümüş stilos" (1979) mükafatlarına, 3 dəfə (1989, 1991 və 1993-cü illərdə) isə Niderland Uşaq ədəbiyyatı ödülünə layiq görülüb.

2013-2020-ci illər ərzində "Mərhumlar arasında dünyanın ən çox qazanan məşhurları" reytinqində ötən il Roald Dal pop kralı Maykl Ceksonu xeyli geridə qoyub: popçunun illik qazancı 75 milyon dollar ikən, 74 yaşında xərçəng xəstəliyindən dünyasını dəyişən yazarın bu göstəricisi 513 milyon dollar təşkil edib.

# *Missis Biksbi və polkovnikin hədiyyə verdiyi kürk*

Amerika – qadınlara böyük fürsətlər vəd edən ölkədir. Zəif cins artıq bu ölkədəki milli sərvətin təxminən səksən beş faizinə yiyələnib. Yaxın gələcəkdə isə bu sərvətin hamısı qadınlara məxsus olacaq. Buna boşanmalar da rəvac verir – bu işə girişənlərin öz köhnə ərlərini unutması qısa sürür və belə məhkəmələri istədikləri qədər uzadıb-təkrarlayan qoparaqlı xanımlar bu cür oyunlardan götürdükləri qazancı bolsıfırlı məbləğlərə qədər artıra bilirlər. Ərin ölümü də onlara qaneedici təzminat gətirməkdədir və bəzi qadınlar varlanmağın bu üsuluna daha çox üstünlük verirlər. Gözləmə müddətinin bir elə uzanmayacağından onlar bəri başdan əmin olurlar, çünki ağır iş şəraiti və əsəbilik qısa vaxtda zavallı ərin axırına çıxır: günlərin bir günü onu öz yazı masasının arxasında və bir əlində amfetamin flakonu, digərində isə trankvilizator tutmuş halda tapırlar.

Amerikalı kişilərin indiki nəsli yetərincə enerjilidir, onların gözünü bu cür boşanma və ölüm variantlarıyla əsla qorxutmaq olmaz. Boşanmaların

sayına uyğun olaraq onların səbirsizliyi də getdikcə artır. Bir azca yetkinləşən cavanlar, siçovullar kimi, ailə qurmağa can atırlar və otuz altı yaşa çatana qədər onların çoxusu artıq (ən azı!) iki arvaddan boşanmış olur. Bu iki qadını saxlamaqdan ötrü isə kişilər qul kimi çalışmağa məcbur olurlar, əslində onlar elə qadınlarının quludurlar. Elə ki bu kişilər gözlədiklərindən daha tez orta yaş həddinə yaxınlaşırlar, taledən narazılıq və təşviş hissləri yavaş-yavaş onların varlığına hakim kəsilir, bundan qurtulmaq üçün onlar axşamlar klub və barlarda vaxt öldürür, həb və viski içə-içə, cürbəcür əhvalatlar danışmaqla bir-birlərinə təsəlli verməyə çalışırlar.

Bu cür əhvalatların mövzusu isə əsla dəyişmir. Onlarda üç əsas surət olur: ər, arvad və baxımsız köpək. Ər – adətən dürüst və çalışqan iş adamıdır. Onun arvadı isə hiyləgər, yalançı və pozğun məxluqdur, murdar köpəklə onun arasında qurulan məhrəmlik isə mütləq xarakter daşıyır. Ər özü dürüst biri olduğu üçün arvadından şübhələnməyi ağlına da gətirmir. Ancaq onun gələcəyi daima suala bürünür: görəsən bu zavallı nə vaxt əsl gerçəyi öyrənə biləcək? Yoxsa o, bütün ömrünü bir dəyyus kimi yaşayacaq? Görünür, elə belə də olacaq. Ancaq gəlin, əlüstü nəticələr çıxarmağa tələsməyək! Heç gözlənilmədən, həm də misilsiz bir hiylə quraraq, ər də öz çoxbilmiş arvadına eyni hərəkətlə cavab verə bilər. Hə, qadın bundan sarsılacaq, alçalacaq, yerlə-yeksan olacaq. Barın servis dəzgahı boyu düzülən kişi müştərilər bunu eşidincə, xəfifcə qımışır və bu hiyləgər oyunun necə baş verəcəyini xəyallarında canlandırmağa çalışırlar.

Uydurmalarla dolu bu cür hekayətlərin çoxunu bədbəxt kişilər bir-biriylə paylaşır. Lakin onların əksəriyyəti ya ağlasığmaz göründüyündən indi və burada təkrarlanmaları yersizdir, ya da hədsiz açıq-saçıq olduqları üçün qələmə alınmaları imkansızdır. Ancaq aralarında bircə hekayət var ki, başqaları ilə müqayisəyə gələmməz və bunun səbəbi – onun gerçəkliyidir.

İki-üç dəfə evlənib-boşanan və özünə hər hansı təsəlli axtaranlar arasında bu əhvalat xüsusilə məşhurdur. Əgər siz də bu tip kişilərdənsinizsə və dediyim əhvalatı hələlik eşitməmisinizsə, onda indi onu maraqla oxuya bilərsiniz. Əhvalat "Missis Biksbi və polkovnikin hədiyyə verdiyi kürk" adlanır və onda aşağıdakılardan bəhs olunur:

Mister və missis Biksbi Nyu-Yorkda kiçik bir mənzildə yaşayırdılar. Diş həkimi olan mister Biksbi babat qazanc sahibiydi. Yaxşı iştaha malik missis Biksbi isə irişaqqallı, qaynar təbiətli qadın idi. Ayda bir kərə, cümə günləri o, "Pensilvaniya vağzalı"nda qatara bilet alar, Baltimorda yaşayan ağbirçək xalasını ziyarətə yollanardı. Xalasıgildə gecələyib, səhəri gün Nyu-Yorka dönərdi ki, əri üçün axşam yeməyi hazırlamağa yetişsin. Mister Biksbi olayların bu cür axarını anlayışla qarşılayırdı. Arvadının xalası Modun Baltimorda yaşadığını və öz həyat yoldaşının bu yaşlı qadını hədsiz sevdiyini bilirdi, odur ki, qadınların ayda bir kərə görüşməsinə mane olmağı heç ağlına da gətirmirdi.

İlk səfəri əsnasında o, xanımına bildirmişdi:

– Bu səfərlərdə səni müşayiət edəcəyimi heç ağlına da gətirmə.

Missis Biksbi də razılaşmışdı:

– Heç gətirmirəm də, çünki o – sənin yox, mənim xalamdır.

İlk baxışda hər şey öz yolunda getməkdəydi. Halbuki bu "xala-bala oyunu" missis Biksbi üçün, olsa-olsa, bir bəhanə idi. Əslində, ər-arvad arasına girən o murdar it rolunu bu səfər Polkovnik kimi tanınan bir centlmen oynayırdı və öz gizliliyini tam mənada qoruyurdu. Bizim qəhrəmanımız sayılan qadın da Baltimorda vaxtının çox hissəsini bu yaramaz həriflə baş-başa keçirirdi. Polkovnik inanılmaz dərəcədə zəngin idi. Şəhər kənarındakı gözəl bir evdə yaşayırdı, əl-ayağına dolaşacaq nə arvadı vardı, nə də oğul-uşağı, sadiq xidmətçiləri isə onun ətrafında pərvanələr kimi dolanırdılar. Missis Biksbi ilə görüşmədiyi günləri o, at minməklə və tülkü ovla-maqla keçirirdi.

Ərli qadınla Polkovnikin arasındakı təmaslar heç bir maneə-filan tanımadan və ildən-ilə uzanırdı. Onlar az-az görüşürdülər: ildə sadəcə on iki dəfə və bu, sən deyən çox sayılmazdı, bəlkə elə buna görə də bir-birlərindən bezib-usanmazdılar.

Hər dəfə öz misilsiz limuziniylə qadını stansiyada qarşılayan Polkovnik uca səslə:

– Haydı! – deyə ona səslənirdi. – Eşqim, sənin necə canalıcı biri olduğunu az qala unutmağa başlamışdım! Gəl, gedək öz soyuq yuvamızı isidək...

Düz səkkiz il beləcə ötüb keçdi. Milad bayramı yaxınlaşırdı. Baltimor vağzalında dayanan missis Biksbi Nyu-Yorka qayıdacağı qatarı gözləməkdəydi. Polkovniklə budəfəki görüşləri necə şirin və dolğun keçmişdisə, dadı hələ də qadının damağından getməmişdi. Belə götürəndə, oynaşıyla keçirdiyi günlərin elə hamısı könlüncə olurdu. Bu kişi ona özünü tamamilə fərqli, misilsiz, ekzotik istedad və bacarıqlara malik, heç nədə etiraz olunmayacaq biri kimi hiss eləmək imkanı tanıyırdı. Belə günlərdə o, özünü doğma ev-eşiyindən tamamilə əl-ətək üzmüş biri sayırdı. Diş həkimi olan əri isə daima qəbul otağında lal-dinməz oturub, oradakı jurnalları vərəqləyərdi, çünki nadir hallarda kabinetinə baş çəkən, onun zərif və təmiz əllərinin incə müdaxiləsinə ehtiyac duyan bir müştərinin intizarında idi.

Qəfildən o, arxasından birisinin:

– Polkovnik xahiş elədi ki, bunu sizə çatdırım, – dediyini eşitdi.

Geri qanrıldığı zaman o, polkovnikin mehtəri, qısa boylu, bozumtul üzlü arıq-uruq liliputa bənzəyən Uilkinsi gördü: kişi əlindəki iri və yastı qutunu qadına uzatmışdı. Missis Biksbi heyrətdən karıxdı:

– İlahi pərvərdigara! Necə də böyük qutudur bu! Nədir bu belə, Uilkins? Bir yazı-filan da yoxdur? O, sənə yazılı kağız vermədi ki?

– Yox, heç bir kağız vermədi, – deyən mehtər əlüstü ondan uzaqlaşdı.

...Vaqondakı yerini tutan kimi missis Biksbi həmin qutu ilə sırf qadınlara aid otağa girib, qapını arxadan kilidlədi. Əcəb maraqlıydı! Bu, polkovnikin Milad hədiyyəsi olmalıydı. Lenti açmağa başlayan qadın ucadan dedi:

– Heç şübhəsiz, bu, paltardır. Ya da bir cüt paltardır. Ya da gözoxşayan gecə geyimi dəstidir. Yaxşısı budur, mən açıb baxmadan, eləcə əl təmasıyla bunun nə olduğuna qərar verim. Həm biçimini bu cür təyin eləyim, həm də rəngini. Hətta qiymətini də.

Gözlərini yuman qadın ehmalca qutunun qapağını qaldırdı. Sonra əlini qutunun içində gəzdirdi. Qapağın altındakı şeyin üstündə bükmə kağızı vardı, onun xəfif xışıltısı dəydi qulaqlarına. Orada ya zərf, ya da açıqca kimi bir şeyə toxundu əli. Zərfi bir kənara qoyub, bükmə kağızının altındakı o şeyi barmaqlarıyla oxşadı – bu, hansısa həşəratın bığlarıyla təması xatırlatdı ona.

Qəflətən qadın heyrətlə dedi:

– İlahi! Bu ki ağlasığmazdır!

O, bərələ qalan gözlərini qarşısındakı kürkdən heç cür çəkə bilmirdi. Sonra onu qutudan dartıb çıxartdı. Hamar qatlanan qalın xəz bükmə kağızı üzərində süründüyü an misilsiz bir xışıltı yaratdı, kürkün nəfisliyindən missis Biksbinin nəfəsi daraldı.

Yox, bu cür samur xəzinə o, heç vaxt rast gəlməmişdi. Hər halda bu, samur dərisiydi də, eləmi? Ancaq necə də təkrarsız rəngi vardı! Hər hansı çaları olmayan bir qara idi bu. Amma ilk baxışda qadına elə gəldi ki, zil qara rəngdədir xəz, ancaq elə ki xəzi pəncərəyə tərəf apardı, onda mavi, həm də dolğun və zəngin bir mavi çalar sezdi, adətən bu çalara kobalt göy rəngdə rast gəlinir. Qadın tezcənə yarlığa göz atdı. Orada: "Yabanı Labrador samuru" sözləri yazılmışdı. Kür-kün haradan alındığına dair və ya başqa heç bir məlumata rast gəlmədi. O köhnə tülkü özündən sonra heç bir iz buraxmamaq üçün çox cəhd göstəribmiş. Afərin ona! Ancaq bu kürk neçəyə olardı görəsən? Bunu düşünmək belə qorxunc idi. Dörd, beş, yoxsa altı min dollar! Hər halda, daha baha olardı.

Qadın gözlərini kürkdən heç cür çəkə bilmirdi. Bir an əvvəl onu əyninə geymək üçün səbirsizlənirdi. Əynindəki qırmızı paltonu soyundu, qeyri-ixtiyari və ardıcıl şəkildə nəfəs alıb-verdi və gözlərini geniş açdı. Bu kürklə təmas necə də xoş idi, ilahi! Hələ onun bu enli manjetlərə malik geniş qollarına bir bax! Tanışlardan vaxtilə kim ona demişdi ki, kürkün qol qismi üçün dişi heyvanın, bütün qalan qismləri üçün isə erkək heyvanın xəzi işlənir? Hə, bunu kim isə demişdi ona. Çox yəqin Con Ratfild demişdi, ancaq o Con samur xəzi barədə bunları haradan bilərdi axı?!

Eynilə ikinci dərisiymiş kimi, bu misilsiz qara kürk onun çiyinlərinə rahatca oturdu. Bax, ha! Buna söz ola bilməzdi! Missis Biksbi aynada özünü süzdü. Ağlasığmazdır bu! Qadın göz qamaşdırırdı, misilsiz və təkrarsız görünürdü. İndi özünü heç sanmadığı qədər güclü biri sanırdı o! Əynindəki bu kürk ilə istədiyi yerə, məkana gedə bilərdi və insanlar, eynilə dovşanlar

kimi, onun həndəvərində ora-bura vurnuxardılar. Bu kürkün gözəlliyi sözə-tərifə sığan deyildi ha!

Hələ də qutunun içində duran zərfi missis Biksbi əlinə aldı. Açdığı zaman Polkovnikin ona yazdığı məktub keçdi əlinə:

"Bir dəfə samur xəzini sevdiyini demişdin deyə, bu kürkü sənə hədiyyə kimi aldım. Deyilənlərə görə, bu, qiymətli bir şeydir. Ən xoş arzularımla birgə bu kürkü də bir ayrılıq hədiyyəm kimi qəbul elə. Şəxsi səbəblərim ucbatından bundan belə səninlə görüşə bilməyəcəyəm. Xudahafizləşir, sənə uğurlar diləyirəm".

Hə-ə... Səbəb bu imiş demək!

Çox gözlənilməz alınmışdı. Həm də özünü hədsiz xoşbəxt saydığı bir vaxta təsadüf eləmişdi bu.

Həyatında polkovnikə yer olmayacaqdı daha. Əcəb dəhşətli zərbə idi... Onun yeri elə görünə-cəkdi ki!

Missis Biksbi yumşaq və qara xəzi ehmalca sığallamağa başladı.

Onsuz da bir şeydə udanda, digərində mütləq uduzursan.

Qadın gülümsündü, qatladığı məktubu cırıb, pəncərədən bayıra atmaq istədi, o an nəzərləri kağızın arxa üzündə də nələrinsə yazıldığına sataşdı:

"P.S. Evdə deyərsən ki, bu, sevimli və nəcib xalanın sənə Milad bayramı hədiyyəsidir".

Missis Biksbinin zərif bir təbəssümdən gərilən dodaqları təkrar yığıldı, sanki onlar gözəgö-rünməz bir yay ilə idarə olunurdular. Qadın qeyzləndi:

– Dəli olub ey deyəsən! Mod xalamda bu qədər pul nə gəzir?! Bəyəm o, mənə belə bahalı hədiyyə verə bilər?!

Amma, yaxşı, bu kürkü ona Mod xala verməmişdisə, bəs onda kim hədiyyə eləmişdi axı?!

İlahi! Həm hədiyyədən, həm də onu geyinib-şellənməkdən həzz alan missis Biksbi bu həyati baxımdan vacib məqamı tamamilə unudubmuş.

İki saatdan sonra o, Nyu-Yorkda olacaqdı. On dəqiqə sonra isə evinə çatacaq və əriylə qarşılaşacaqdı. Hətta Siril kimi birisi, yəni kəsici dişlər, karies və diş kökü kanallarından ibarət yeknəsəq bir aləmdə yaşayan hərif də xalasıgildə keçirdiyi bu həftəsonu tətilindən evə əynindəki altı min dollarlıq samur xəzli kürklə qayıdan və sevincindən yerində fırlanaraq, bunu göstərən arvadına cürbəcür suallar verəsiydi.

Öz-özünə belə qərara gəldi: "Məsələ belədir. O lənətəgəlmiş Polkovnik məni ələ salmaq fikrinə düşübmüş. Dəqiq bilirdi ki, Mod xalamın bu bahalıqda kürk alacaq pulu-zadı yoxdur. Onu da bilirdi ki, mən bu kürkü özümdə saxlaya bilmərəm".

Ancaq belə bir kürkdən imtina fikri də missis Biksbiyə çəkilməz gəlirdi. O, öz yekun qərarını ucadan səsləndirdi:

– Bu kürk mənim olacaq! Bu kürk mənim olacaq! Bu kürk mənim olacaq!

"Çox yaxşı, əzizim. Qoy o sənin olsun. Ancaq başını da itirmə. Otur, sakitləş. Axı sən ağıllısan, axı sən əvvəllər də onu aldatmışdın. Ərinin öz

zondundan o yanı görmədiyi sənə də yaxşı bəllidir. Ona görə də indi sakitcə düşün. Yetərincə vaxtın var”.

İki saat yarımdan sonra missis Biksbi “Pensilvaniya vağzalı”nda qatardan enib, tələsik çıxışa tərəf üz tutdu. Əynində əvvəlki kimi öz nimdaş qırmızı paltosu vardı, bir əlində isə həmin qutunu tutmuşdu. Bir taksi saxlayıb, soruşdu:

– Sürücü, bu yaxınlıqda hələ də qapanmamış bir lombard dükanı tanımırsınız ki?

Sükan arxasındakı kişi qaşlarını çatdı, arxayın baxışlarla qadını süzərək dedi:

– Lombardların əksəriyyəti Altıncı avenyudadır.

– Elə isə rastımıza çıxacaq ilk lombardın yanında maşını saxlayın. Danışdıq?

Qadın maşına əyləşdi və yola düzəldilər. Az sonra taksi üzərində üç gümüş kürə olan bir qapının önündə dayandı.

Missis Biksbi sürücüyə:

– Zəhmət olmasa, məni burada gözləyin, – deyib, dükana girdi.

Piştaxtanın üstündə oturan iri pişik bəyaz nimçədəki balıq başını gəmirirdi. Öz sarımtıl və parlaq gözlərini ötəri missis Biksbiyə zilləyən heyvan təkrar geri qanrılıb, yeməyinə davam elədi. Missis Biksbi piştaxtanın yanında və pişikdən bacardıqca aralı dayanıb gözlədi ki, yerin yiyəsi gəlib çıxsın və o arada saatlara, toqqalara, minalı yaxa sancaqlarına, köhnə durbinlərə, qırıq gözlüklərə, taxma damaqlara göz gəzdirməli oldu. İnsanların öz damaqlarını niyə satışa çıxardıq-larına da heyrətləndi. Məkanın qaranlıq bir küncündən zühur edən dükan sahibi dedi:

– Eşidirəm sizi.

Missis Biksbi salamlaşdı:

– Axşamınız xeyir.

Qadın qutuya bağlanan lenti açmağa başladı. Kişi isə pişiyə yaxınlaşdı, onun belini sığalladığı vaxt heyvancığaz da balıq başını gəmirməyindən qalmadı.

Missis Biksbi sözə başladı:

– Başıma sarsaq işlər gəlib. Çantamı haradasa salıb, itirmişəm. Bu gün isə şənbədir, banklar bazar ertəsinə qədər bağlıdır, mənə isə həftə sonu tətili üçün təcili pul lazmdır. Bu, son dərəcə bahalı bir kürkdür, ancaq mən sizdən böyük məbləğ istəməyəcəyəm. Mənə bazar ertəsinə qədər yetəcək pul lazımdır. Həmin gün gəlib, bu girovu təhvil alacağam.

Kişi kəlmə kəsmədən onu dinləyirdi. Ancaq elə ki, qadının qutudan çıxartdığı qalın samur xəzi piştaxtanın üstündə açılıb-yayıldı, heyrətdən qaşlarını çatan kişi əlini pişikdən çəkdi, diqqətlə süzməkdən ötrü kürkə yanaşdı. Kişi onu yuxarı qaldırıb, qarşısında tutdu.

Missis Biksbi dedi:

– Əgər yanımda saat və ya hər hansı üzük olsaydı, onları girov qoyardım. Ancaq yanımda bu kürkdən başqa bir şey yoxdur.

Qadın əllərini irəli uzadıb, barmaqlarını araladı ki, kişi bundan əmin olsun. Kürkü nəvazişlə sığallayan kişi dedi:

– Deyəsən, təptəzədir axı bu.

– Elədir. Ancaq dediyim kimi, mənə bazar ertəsinə qədər pul lazımdır. Əlli dollar verə bilərdiniz?

– Hə, sizə əlli dollar verə bilərəm.

– Bu kürk o məbləğdən yüz qat bahalıdır, ancaq geri alacağım vaxta qədər əmanətimə qayğı ilə yanaşacağınıza da inanıram.

Kişi siyirmədən çıxartdığı girov qəbzi formasını piştaxtanın üstünə qoydu. Bu qəbz öz şəkli və ölçüləri baxımından vağzallarda çamadanların qulpuna bağlanan yarlıqları xatırladırdı, qəhvəyi rəngli sərt kartondan hazırlanmışdı. Ancaq orta xətt boyunca sıx dəliklər açılmışdı ki, onu iki eyni parçaya bölmək rahatlaşsın.

Kişi soruşdu:

– Soyadınız necədir?

– Buna gərək yoxdur. Ünvana da.

Kişinin fikrə getməsi və onun qələminin ucunun qırıq-qırıq xətt üzərində donub qalması qadının gözündən yayınmadı.

– Belə başa düşdüm ki, soyad və ünvanı göstərib-göstərməmək sizdən ötrü hər hansı önəm daşımır, eləmi?

Kişi çiyinlərini çəkib, başını buladı və qələmin ucu sonrakı sətrin üstündə dayandı.

Missis Biksbi izah elədi:

– Bunu, sadəcə, istəməzdim. Belə davranmam sırf şəxsi xarakterli səbəblərdən irəli gəlir.

– Onda gərək bu qəbzi əsla itirməyəsiniz.

– İtirmərəm.

– Yəqin ondan da agahsınız ki, qəbzi tapan istənilən şəxs gəlib, girov qoyduğunuz bu əşyanı dükandan təhvil ala bilər?

– Hə, bundan da agaham.

– Sırf qəbz nömrəsinə əsasən ha?

– Hə, agaham.

– Bəs bu kürkü mən necə təsvir edim?

– Təsvirə gərək yoxdur, təşəkkürlər. Bu, bir elə də vacib sayılmaz. Sadəcə, mənim az sonra sizdən alacağım o məbləği yazın, yetər.

Qələmin ucu bu səfər də "Əşyanın adı" sözlərinin qarşısındakı qırıq-qırıq xəttin yanında ilişib qaldı.

– Ancaq, məncə, girovla bağlı hər hansı təsvir vacibdir. Əgər bu qəbzi satmaq istəsəniz, o təsvir həmişə işinizə yaraya bilər. Heç bilmək olmaz, birdən qəbzi də satmaq fikrinə düşərsiniz.

– Yox, onu satmaq kimi bir niyyətim yoxdur.

– Bəs birdən olsa, necə? Bənzər hallar tez-tez yaşanır axı.

Missis Biksbi dedi:

– Qulaq asın, əgər çox maraqlanırsınızsa, mən müflis-zad olmamışam. Sadəcə, çantamı salıb, itirmişəm. Başa düşürsünüz?

Kişi dedi:

– Özünüz bilərsiniz. Axı kürk sizə məxsusdur.

Həmin an nəhs bir fikir ucbatından təlaşa sürükləndiyi üçün missis Biksbi dedi:

– Siz mənə bircə şeyi başa salın görüm. Əgər verdiyiniz qəbzdə girovluq əşyanın təsviri olmazsa, necə əmin olacağam ki, siz mənə başqasını yox, məhz öz kürkümü təhvil veribsiniz?

– Mən onunla bağlı axı öz kitabıma da gərəkli qeydi edəcəyəm.

– Ancaq mənim əlimdə, sadəcə, nömrə olacaq. Ona əsasən isə siz istənilən köhnə əşyanı mənə verə bilərsiniz, elə deyilmi?

Kişi dəqiqləşdirdi:

– Siz əşyanın təsvirini tələb edirsiniz, ya yox?

– Yox, – dedi qadın. – Sizin dürüstlüyünüzə güvənirəm.

Dükan sahibi qəbzin hər iki qismində "Əşyanın dəyəri" sətrinə "Əlli dollar" sözlərini əlavə elədi, sonra onu açılmış dəliklər boyu iki yerə ayırdı, aşağı qismi piştaxtanın üzərindən qadına uzatdı. Pencəyinin döş cibindən pulqabısını çıxarıb, oradan bir əlli dollarlıq ayırıb dedi:

– Mən hər aya üç faiz tuturam.

– Olsun, buna da razıyam. Təşəkkür edirəm. Yəqin siz əmanətimlə diqqətli davranacaqsınız?

Bir cavab verməyən kişi, sadəcə, başıyla bunu təsdiqlədi.

– Kürkü təkrar qutuya qoyum?

Kişi razı olmadı:

– Yox, ehtiyac yoxdur.

Missis Biksbi arxasını dönərək, mağazadan küçəyə çıxdı. Onu gözləyən taksiyə oturdu və on dəqiqə sonra evinə çatdı. Ərini öpərkən dedi:

– Əzizim, məndən ötrü darıxmadın ki?

Axşam qəzetini bir kənara qoyan Siril Biksbi qol saatına göz ataraq dedi:

– Yeddiyə on iki dəqiqə işləyib. Sən bir az gecikmisən deyəsən?

– Bilirəm. Qatarlar adamı lap bezdirir. Mod xala həmişəki kimi, sənə salam göndərdi. Mən yamanca içmək istəyirəm, bəs sən necə?

Qəzeti səliqə ilə bükən əri onu öz kreslosunun dirsəkliyi üzərinə qoydu. Sonra yerindən qalxıb, bufetə tərəf getdi. Otağın tən ortasında dayanıb, əlcəklərini çıxaran qadın diqqətlə ərini süzür, "Daha nə qədər gözləyəcəyəm?" – deyə düşünürdü. Kişi arxası ona dayanıb, ölçü stəkanına tərəf əyilmişdi: həm də ara-sıra stəkanı üzünə yaxınlaşdırırdı, sanki o ara bir dişçi kimi öz müştərisinin ağzını müayinə edirdi.

Polkovnikdən sonra bu kişi qadına çox cılız görünürdü. Polkovnik yekəpər idi, tüklü-müklü idi, yanında dayandığın zaman ondan gələn zəif xardal qoxusunu hiss edirdin. Bu baxımlı, çəlimsiz və sırf sür-sümükdən ibarət kişidən isə ümumiyyətlə heç bir qoxu gəlmirdi, olsa-olsa, nanə

nabatının iyi gələrdi, bunu da o, nəfəsinin təravətli qalmasından ötrü sorurdu.

Ölçü stəkanını yuxarı qaldıran kişi dilləndi:

– Bax gör, nə almışam mən. Bundan belə mən vermutu milliqramına qədər dəqiq süzə biləcəyəm.

– Hə, əzizim, bu, çox vacib idi.

Missis Biksbi düşündü: "Gərək ərimi fərqli geyinməyə razı salmağın yollarını axtarıb, tapım. Onun kostyumları hədsiz gülüncdür... Vaxtilə onun geyimləri, o Edvard tərzindəki, yüksək yaxalıqlı və altı düyməli pencəklər mənə misilsiz görünərdilər, indi isə bunlar mənə düşük təsir bağışlayırlar. Hələ onun dar-düdük şalvarlarını demirəm. Belə geyinməkdən ötrü insanın fərqli üz ifadəsi olmalıdır, Sirilin isə üz-gözündə fərqli heç nə tapmazsan. Üzü arıq və uzundur, burnu da uzunsovdur, çənəsi isə nisbətən önə çıxıb, bu sifəti axıra qədər düymələnmiş köhnədəbli kostyumla bir arada görəndə, sanki əsl karikaturanı xatırladan Sem Uelleri (Çarlz Dikkensin "Pikvik klubu barədə qeydlər" romanında mister Pikvikin nökərini – A.Y.) görürsən. Halbuki Siril özünü Bo Bremmel-filan (Bo Bremmel (1778-1840) XIX əsrin əvvəllərində ingilis modasının əsas siması sayılıb. "Bo" sözü həm də "ədabaz" mənasına gəlir – A.Y.) sanır. Hətta öz xanım müştərilərini kabinetində qəbul edərkən Siril bəyaz xələtinin yaxasını açıq tutur ki, onlar xələtin altındakı bu pencəyi görə bilsinlər... Çox yəqin, bu yolla o, göstərməyə çalışır ki, özü də qismən qa-dın düşkünüdür. Ancaq missis Biksbini belə şeylərlə qandırmaq olmazdı: ona yaxşı bəlliydi ki, bütün bu geyim-filan sırf göz aldatmaq üçündür və əslində, bunun ardında heç nə dayanmır. Əri ona yaşlandığı üçün lələkləri tökülsə də, çəməndə öz əvvəlki ehtişamı və qüruru ilə gəzişən bir tovuz quşunu xatırladırdı... Bəzən bu kişi zəncirotu kimi öz-özünü tozlaya bilən bir çiçəyi də yada salırdı. Toxum versin deyə, zəncirotunu tozlandırmağa gərək yoxdur axı, buna görə də onun o sarı ləçəkləri – boşuna vaxt itkisidir, bir əyləncədir, yalandan öyünməkdir. Bioloqlar buna nə deyirlər? Cinsiyyətsiz. Nacins zəncirotu. Bunlar da elə yayda su hövzəsi üstündə bulud kimi duran o mığmığalara bənzəyirlər. İstər-istəməz, Lyuis Kerrolu xatırlayır adam. Mığmığalar, zəncirotular və diş həkimləri".

Martini qədəhini alıb, divanda əyləşərək, çantasını dizləri üstünə qoyan qadın təşəkkür elədi:

– Sağ ol, əzizim. Dünən axşam nə işlə məşğul idin?

– Eləcə kabinetimdə qurcalanırdım, bir neçə diş dolğusu hazırladım. Sonra qəbzləri səliqə-sah-mana saldım.

– Qulaq as, Siril, bu cür qara işləri sənin yerinə görəcək birisini tutmağın vaxtı çoxdan çatıb. Bunu özünə yük eləmə. Bəlkə diş dolğusu hazırlamaqdan ötrü texnik-zad tutasan?

– Mən bu işi də özüm görməyə üstünlük verirəm. Həm də öz diş dolğularımla hədsiz öyünürəm axı.

– Bilirəm, əzizim, mən də onları misilsiz sayıram. Dünyadakı ən keyfiyyətli dolğular – səninkilərdir. Ancaq özünü bu qədər əldən salmanı da istəməzdim. Bəlkə hesab-kitabla da Paltni məşğul olsun? Axı, bu, onun işidir?

– O, bu işlərlə məşğul olur. Ancaq yenə də hər şeyin qiymətini şəxsən özüm təyin eləməliyəm. Müştərilərdən kimin zəngin, kimin kasıb olduğunu o, bilmir axı.

Qədəhini divanın böyründəki kiçik masaya qoyan missis Biksbi dedi:

– Misilsiz martinidir bu. Söz ola bilməz.

Sonra əl çantasını açıb, yaylığını çıxartdı, sanki burnunu silməyə hazırlaşırdı. Lombard qəbzini görüncə, çılğınlıqla dedi:

– Yeri gəlmişkən, sənə bir şeyi göstərməyi lap unutmuşam. Bunu indicə taksidə tapdım. Üstündə bir nömrə yazıldığı üçün bunun lotereya bileti ola biləcəyini düşündüm və onu özümə götürdüm.

Bunu deyərək o, qəhvəyi rəngli qalın kağız parçasını ərinə uzatdı: kişi onu o üz, bu üzə çevirməklə gözdən keçirdi, sanki bu, zədəli bir diş idi. Sonra isə təmkinlə soruşdu:

– Heç bilirsən bu nədir?

– Yox, əzizim, bilmirəm.

– Bu – lombard qəbzidir. Burada girov əşyaya qiymət biçən adamın soyadı və haradasa Altıncı avenyudakı bir adres qeyd olunub.

– Ah, əzizim, gözləntilərim tamamən puç oldu. Mən də ümid bəsləyirdim ki, yəqin bu, uduşlu bir bilet çıxar.

Siril Biksbi dedi:

– Məyusluğa bir səbəb görmürəm. Əslinə qalanda, bu qəbz son dərəcə maraqlı şeydir.

– Bunda maraq doğuracaq nə var ki, əzizim?

Kişi girov qəbzinin nə olduğunu ətraflı şəkildə arvadına başa salarkən onu da xüsusi vurğuladı ki, bu qəbzi təqdim edən istənilən şəxs o girov qoyulan əşyanı təhvil ala bilər. Ərinin oxuduğu bu mühazirəni qadın səbrlə dinləməli oldu və sonda soruşdu:

– Deyirsən yəni o girovu almağa dəyər?

– Ən azından onun nə olduğunu öyrənməyə dəyər. Görürsən, burada məbləğ kimi əlli dollar göstərilib? Bilirsən, bu nə deməkdir?

– Yox, əzizim. Nə deməkdir ki, bu?

– Bu o deməkdir ki, girov əşya burada göstərilən məbləğdən qat-qat bahadır.

– Yəni o, əlli dollarlıq mal deyil?

– Yəqin ki, beş yüz dollardan da bahadır.

– Beş yüz dollar?!

Əri soruşdu:

– Yoxsa heç nə anlamırsan? Lombardlarda təhvil verilən mala onun gerçək dəyərinin onda birindən artıq qiymət biçmirlər.

– İlahi! Bax, bunu heç bilmirdim.

– Sən hələ çox şeydən xəbərsizsən, əzizim. İndi mənə qulaq as. Bu qəbzdə mal sahibinin soyadı və ünvanı göstərilmədiyi üçün...

– Ancaq malın kiməsə aid olduğu haradasa qeyd olunub da yəqin?

– Yox. Yolunun lombarddan düşdüyünü gizlətmək istəyənlər, bundan utanıb-çəkinənlər adətən bu cür davranırlar.

– Yəni sən əminsən ki, biz bu qəbzi mənimsəyə bilərik?

– Əlbəttə ki, mənimsəyərik. Artıq bu, bizim qəbzimizdir.

Missis Biksbi inamla dedi:

– Demək istəyirsən ki, bu – mənim qəbzimdir. Axı onu mən tapmışam.

– Əzizim, axı indi bunun nə önəmi var?! Əsas məsələ odur ki, biz girov əşyanı cəmi əlli dollar ödəməklə istədiyimiz vaxt gedib, təhvil ala bilərik. Bəyəm bu, sənin könlüncə deyil ki?

Missis Biksbi dedi:

– Əcəb də maraqlıdır! Girovun nə olduğunu bilmədiyimiz üçün, məncə, ona olan maraq daha da şiddətlənəcək. Siril, axı bu, istənilən əşya ola bilər, elə deyilmi? Ağlına gələ biləcək istənilən əşya!

– Əlbəttə ki, amma çox yəqin o əşya ya üzükdür, ya da saat.

– Əgər bu hədsiz qiymətli bir şey olarsa, bizə daha çox ləzzət verər! Yəni nə isə həqiqətən qədim bir şey, məsələn, gözəl bir vaza və Roma dövrünə aid heykəlcik olsa.

– Əzizim, o əşya ağlına gələ biləcək hər şey ola bilər. Hələlik isə biz səbrimizi cilovlamalıyıq, çünki hər şey sonradan bəlli olacaq.

– Maraqdan lap çatlayıram ey! Qəbzi mənə ver ki, bazar ertəsi, elə səhər açılan kimi ora yollanıb, hər şeyi öyrənim!

– Məncə, bunu mən etməliyəm.

Qadın səsini yüksəltdi:

– Xeyr! İcazə ver, mən təhvil alım.

– Buna heç dəyməz. Mən onu işə gedərkən elə yolüstü də alaram.

– Ancaq o qəbzi mən tapmışam axı! Xahiş edirəm, izn ver, mən alım, Siril. Niyə bu həzzi illah özün dadmaq istəyirsən?!

– Sən o dəllalları tanımırsan, əzizim. Onlar sənin başını asanlıqla tovlayarlar.

– Tovlaya bilməzlər, ciddi sözümdür, buna əsla yol verməərəm. Qəbzi mənə ver, lütfən.

Əri gülümsəyərək dedi:

– Bir də hələ yanında əlli dolların da olmalıdır. Nağd şəkildə əlli dollar ödəməsən, o girovu sənə verməzlər.

Missis Biksbi razılaşdı:

– Başa düşürəm. Bundan ötrü də bir şey düşünərəm.

– Heç etiraz eləmə, bu işlə məşğul olmanı heç münasib saymıram.

– Ancaq, Siril, qəbzi mən tapmışam axı. Girov hər nə olursa-olsun, qəbz – mənimkidir, elə deyilmi?!

– Ona söhbət ola bilməz, əzizim. O səbəbdən də bunca təlaşlanman yersizdir.

– Mən heç təlaşlanmıram. Sadəcə, maraq duyuram, vəssalam.

– Məncə, sənin heç ağlına da gəlmir ki, birdən o girov əşya kişiyə aid bir şey olar – məsələn, bir qol saatı və ya qol düymələri. Bilməmiş olmazsan, axı lombarda, sadəcə, xanımlar getmirlər.

Missis Biksbi könülaçıqlığıyla dilləndi:

– Elə olarsa, o əşyanı Milad hədiyyəsi kimi sənə verərəm. Həm də canikönüldən. Əgər əşya qadına aid olsa, onu özümə götürərəm. Danışdıqmı?

– Nə deyim, beləsi daha doğru olar, onda girov almağa gedəndə sən niyə mənə qoşulmayasan ki?!

Missis Biksbi elə hazırlaşırdı ki, buna razılıq versin, qəfil özünü ələ aldı, çünki ərinin yanında lombard sahibinin onunla köhnə müştəri kimi salamlaşmasını o, tamamilə yolverilməz sayırdı. Odur ki, dedi:

– Yox, mən getməsəm, yaxşıdır. Bütün bunların nə ilə bitəcəyini intizarla gözləməm daha maraqlı olar. Girovun ikimizə də lazımsız bir əşya olmayacağını umuram.

Əri razılaşdı:

– Bu barədə haqlısan. Əgər girov əşya əlli dollara dəyməyən bir şey olsa, bəlkə onu götürməkdən də imtina edə bilərəm.

– Ancaq özün demişdin ki, ən azı beş yüz dollar dəyərində olasıdır.

– Tamamilə əminəm ki, məhz elə də olacaq. Sən heç narahat olma.

– Ah, Siril, maraqdan lap çatlayıram ey. Səncə, bu marağım yersizdir ki?

Qəbzi jiletinin cibinə qoyan kişi dilləndi:

– Bu, məzəli bir şeydir. Həm də çox məzəli.

Nəhayət, bazar ertəsi gəldi. Səhər yeməyindən sonra missis Biksbi ərini həm qapıyacan ötürdü, həm də paltosunu geyinməyinə kömək elədi. Hələ ona tövsiyə də verdi:

– Əzizim, işdə özünü çox da yorma.

– Baş üstə, yormaram.

– Saat altıya qayıdarsan?

– Ümidvaram.

Qadın dəqiqləşdirdi:

– Lombarda getməyə necə, imkan tapacaqsan?

– İlahi, onu tamam unutmuşdum. Taksi tutub, elə indicə oraya baş çəkərəm. Yolumun düz üstüdür.

– Qəbzi necə, itirməmisən ki?

Jiletinin cibinə üstdən toxunan kişi dedi:

– Əminəm ki, yox. Budey, buradadır.

– Pulun çatacaq?

– Heç şübhəsiz.

Onsuz da zövqlə bağlanan qalstuku guya bir az da səliqəyə salan missis Biksbi dedi:

– Əzizim, əgər o əşya nə isə gözəl, yəni sənin zənnincə, ürəyimə yatacaq bir şey çıxsa, işə çatan kimi mənə zəng edərsən, yaxşı?
– Əgər belə istəyirsənsə, edərəm.
– Əslində, bilirsən, Siril, bunun sənə aid bir əşya olacağına ümid bəsləyirəm. Özümə aid yox, məhz sənə uyğun bir şey olması daha uyğundur.
– Əzizim, bu, sənin tərəfindən hədsiz alicənablıqdır. İndi isə mən getməliyəm.
Bir saat sonra telefon zəng çalanda missis Biksbi bu cihazın üstünə şığımaqla, dəstəyi necə qamarladısa, ikinci zəngə bir ehtiyac qalmadı.
Əri müjdəni verdi:
– Aldım!
– Eləmi? Oh, Siril, nə imiş o elə? Fərli-başlı bir şeydir barı?
Əri səsini yüksəltdi:
– Yaxşı şeydir! Ağlagəlməz şeydir! Kaş indi onu özün görəydin... bayılardın vallah!
– Əzizim, nədir axı o?
– Əcəb bəxtin gətirir ha.
– Onda o girov mənə aid əşyadır ki?
– Əlbəttə, sənə aiddir. Ancaq bu cür əşyanı niyə əlli dollara girov qoyubmuşlar?! Başıma güllə çaxalar, yenə də anlamaram. Ancaq başdanxarab birisi belə şey edər.
– Siril! Bəsdir də, canımı çəkdin! Səbrim lap daraldı axı!
– Görüncə, ona bayılacaqsan.
– Nədir axı o elə?
– Özün tapmağa çalış.
Missis Biksbi cavabı ləngitti. Öz-özünə dedi: "Ehtiyatlı ol, gərək indi çox ehtiyatlı davranasan".
– Boyunbağıdır yəqin.
– Yox.
– Brilyant qaşlı üzük.
– Heç yaxınına da getmədin. Sənə bir ipucu verim. O əşyanı adam əyninə geyinir.
– Əyninə geyinir? Onda şlyapadır.
Əri qəhqəhə çəkərək dedi:
– Yo-ox-x, şlyapa da deyil.
– Yalvarıram sənə, Siril, niyə bunu özün açıb-demirsən axı?
– Çünki bunu bir sürprizə çevirməyə niyyətliyəm. Axşam onu evə gətirəcəyəm.
Qadın səsini başına atdı:
– Elə şey olmaz! İndicə, bax, özüm durub ora gələcəyəm.
– Belə etməsən yaxşıdır.
– Axı niyə, əzizim? Niyə ora gəlməyim ki?

– Çünki indi işim başımdan aşır. Gəlsən, bu səhərki işlərimin gedişatını poza bilərsən. Onsuz da işə yarım saat gecikmişdim.

– Elə isə nahar fasiləsinə gələrəm. Yaxşı?

– Mən naharsız işləyirəm. Çox istəyirsənsə, ikinin yarısına, yəni mən sendviç fasiləsinə çıxanda gəl. Görüşənədək.

Saat düz ikinin yarısında missis Biksbi özünü ərinin iş yerinə çatdırıb, zəngi basdı. Diş həkiminə məxsus ağ xələtdə əri özü qapını ona açdı.

– Oh, Siril, səbirsizlikdən lap çatlayacam.

– Bəs nə bilmişdin?! İndiyədək bəxtinin necə gətirdiyi barədə yəqin sən heç düşünməmişdin?

Dəhlizdən keçirməklə o, xanımını cərrah kabinetinə qədər müşayiət elədi. Alətləri sterilizatora yığan köməkçisinə üz tutaraq, dedi:

– Nahara çıxa bilərsiniz, missis Paltni. Qayıdanda bu işi tamamlayarsınız.

Siril köməkçisinin otaqdan çıxmasını gözlədi, sonra isə öz paltarlarını asdığı kiçik şkafa tərəf gedib, onun qarşısında dayandı. Barmağıyla onu nişan verərək dedi:

– O, buradadır. Hə, gözlərini yumsana.

Missis Biksbi üzüyola halda ərinin dediyini elədi. Sonra dərindən köks ötürüb, nəfəsini tutdu, araya çökən sükut fonunda o, şkafın qapısının necə açıldığını eşitdi. Ərinin oradan çıxartdığı naməlum əşya nə isə xəfif bir xışıltı yaratdı.

– İndi ona baxa bilərsən!

Qəhqəhə çəkən missis Biksbi dedi:

– Buna cürət eləmirəm!

– Barı bir gözünün ucuyla baxsana!

Qadın şit-şit gülümsədi və nə isə tutduğu əlini yuxarı qaldıran, ağ xalatlı ərinin qaraltısını görə biləcək qədər gözünün birini araladı. Əri uca səslə dedi:

– Samur xəziymiş bu! Əsl samur xəzi!

Bu sehirli sözü eşidən qadın cəld hər iki gözünü açdı və irəli cumdu ki, kürkü alıb, bağrına bassın.

Ancaq qarşısında kürk-filan yox idi! Əri əlində xəzdən hazırlanan vecəyaramaz, kiçicik bir qorjet (əlləri soyuqdan qorumağa yarayan və boru biçimli xəz qolçaq – A.Y.) tutmuşdu.

Əliylə ağzını qapayan missis Biksbi geriyə sıçradı. Öz-özünə dedi: "İndicə nalə çəkəcəyəm. Bax, indi mütləq bir şivən qoparacağam".

Xəzi əlində yellətməyinə ara verən və xanımının nə deyəcəyini gözləyən əri gözlərini ona dikərək soruşdu:

– Nə oldu belə sənə, əzizim? Yəni heçmi könlünə yatmadı bu?!

Missis Biksbi mızıldandı:

– Yatdı. Mən... məncə... bu... son dərəcə xoş bir şeydir.

– Yəqin ilk dəqiqə həyəcandan hələ nəfəsin də daraldı?

– Hə.

Kişi sözünə davam elədi:

– Keyfiyyətinə söz ola bilməz. Rəngi də təkrarsızdır. Bilirsən nə var, əzizim? Əgər sən özün gedib, bunu mağazadan alsaydın, məncə, ona ən azı iki, ya da üç yüz dollar saymalı olardın.

– Heç şübhəsiz, elə olardı.

Əlindəki qorjet iki fərqli, həm də ensiz və nimdaş xəzdən hazırlanmışdı. Bunların baş qismlərindəki göz dəliklərinə şüşə muncuqlar yerləşdirilmişdi, pəncələri isə aşağı sallanırdı. Başlardan biri digər heyvanın arxasını ağzına alıb, dişləyirdi sanki.

– Onu taxıb, baxsana bir.

Əri qorjeti qadının çiyninə saldı, sonra öz heyranlığını bildirməkdən ötrü kənara çəkildi:

– Əladır. Sənə yaraşır. Əzizim, hər qadının belə samur xəzi olmur ha.

– Hə, hər qadına qismət olmur bu.

– Mağazalara gedərkən bunu taxmaman daha məsləhətlidir, yoxsa elə düşünəcəklər ki, biz milyonçuyuq və bizdən ikiqat pul qopartmağa çalışacaqlar.

– Bunu nəzərə alaram, Siril.

– Yəqin Milad bayramına sənə başqa bir hədiyyə ala bilməyəcəyəm. Çünki o əlli dollar sənə hədiyyə üçün ayırdığım məbləğdən qat-qat çox idi.

Arxasını dönən kişi əlüzyuyana tərəf gedib, əllərini sabunladı.

– Hə, əzizim, indi isə get və bir yerdə oturub, yaxşıca nahar et. Elə mən də sənə qoşulub gedərdim, ancaq protez damağının sıxacı qırılan qoca Qorman indi qəbul otağında oturub, məni gözləyir.

Missis Biksbi qapıya tərəf yönəldi.

Öz-özlüyündə deyirdi: "Mən o lombard sahibini gəbərdəcəyəm. İndicə oraya, onun dükanına gedəcək, bu iyrənc qorjeti onun təpəsinə çırpacağam, əgər öz kürkümü geri verməsə, mütləq onu gəbərdəcəyəm".

Əlini yumağına davam edən Siril Biksbi ondan soruşdu:

– Sənə demişdim ki, bu gün evə gec dönəcəyəm?

– Yox.

– Ən azı doqquzun yarısından sonra, ya da doqquzda gələcəyəm.

– Hə, hə, yaxşı. Görüşənədək.

Missis Biksbi qapını öz ardınca örtdü.

Elə həmin anlarda nahara çıxan katibə-assistent miss Paltni də dəhlizdə ikən onun böyründən sovuşub, keçdi. Üzündə təbəssüm dolaşan qadın ayaq saxlamadan ona söz atdı:

– Əcəb xoş hava var, elə deyilmi?

Qadının yerişində nə isə yüngüllük sezilirdi, ondan ətrafa dalğa-dalğa zərif bir ətir yayılırdı: əyninə geydiyi qara rəngli, misilsiz samur xəzli, üstəlik də, polkovnikin missis Biksbiyə vida hədiyyəsi kimi verdiyi kürk sayəsində indi bu qadın bir kraliçanı, həm də həqiqi kraliçanı xatırla-dırdı.



***Tərcümə etdi: Azad YAŞAR***



*Rafiq YUSİFOĞLU*

## ALİ BAŞ KOMANDANIN QUBADLI SƏFƏRİ

Bitdimi bu qara-qorxulu nağıl?
Ürək xiffət çəkir ötən çağ üçün.
Torpağı ölümdən qurtaran oğul
Gedir xəstə yurdu yoluxmaq üçün...

Yanır, şölələnir köksündə məşəl,
Can atır kəndləri qurub tikməyə...
Düşmənin başında yumruq olan əl,
Gedir küskün yurda sığal çəkməyə...

Sevincdən uçunur bərələr, bəndlər,
Divarlar dikəlmək, qalxmaq istəyir.
Yaralı şəhərlər, viranə kəndlər
Xilaskar oğluna baxmaq istəyir.

Elə bil budaqda yarpaq sevinir,
Könlündən dil açmaq arzusu keçir.
Doğma qədəmlərdən torpaq sevinir,
Qəlbindən gül açmaq arzusu keçir...

Böyük də, kiçik də olub səfərbər,
Çirkinə verməri̇k gözəlimizi!
Əlini Arazda yumasa rəhbər,
Zəfərdən yumuşduq biz əlimizi...

Güclü ol, zamanın budur tələbi,
Sanki köks ötürür Araz dərindən...
Sevinc karvanları keçir elə bil
Əsrlər şahidi Xudafərindən...

Qaçıbdır Mollunun gözündən yuxu,
Bənd uçub, Həkəri dolama gəlir.
Qəhrəman Nəbinin, Həcərin ruhu
Bir cüt nəvəsini salama gəlir...

Gülür Şah İsmayıl, Babək, Koroğlu,
Bu zəfər çevrilib heyrət rəmzinə.
Elin qeyrətini çəkən oğulun
Özü də çevrilib qeyrət rəmzinə.

Nəğməkar Bərgüşad coşqun, inadlı,
Kükrəyən çayların ilhamı gəlib.
Sevinir ürəyi dağlı Qubadlı
Onun görüşünə İlhamı gəlib...

Payız gülləri də ətir qoxuyur,
Duman, get, sevirik biz aydınlığı.
Sanki Ağa çayı nəğmə oxuyur,
Verir doğma yurda göz aydınlığı...

Açır gözlərini yaralı torpaq,
Üzləri təbəssüm bəzəyir indi.
Zirvədə yellənən üçrəngli bayraq
Zəfər çələnginə bənzəyir indi...

## ZƏFƏR MÜJDƏSİ

Çat-çat ürəyimdə dərd qəlpə-qəlpə,
Gəldi doğma yurda səfər müjdəsi.

Həsrətdən göynəyən viranə qəlbə
Gözəl məlhəm imiş zəfər müjdəsi...

Axır ki, açıldı paslı kilidlər,
Bayraqlar yurdumu bəzəyir necə!
Xaraba şəhərlər, xaraba kəndlər
Viranə könlümə bənzəyir necə?!

Ağır sınaqların, möhnətin izi
Elə bilməyin ki, bizi sarsıtdı...
Qəlbimizdə olan vətən sevgisi
Bitib tükənməyən silah-sursatdı...

Yaşadıq ayrılıq məşəqqətiylə, –
Bir köz kömür olub, bir közüm gülür.
Doğmalar öldülər yurd həsrətiylə, –
Bir gözüm ağlayır, bir gözüm gülür...

Uşaqlar böyüyüb, qocalmışıq biz,
Anıb kövrəlirık o çağımızı...
Şükür, boş qalmayıb bizim yerimiz,
Yandıran olacaq ocağımızı...

Ötdü uzun illər, namərd sənələr,
Gəldi başımıza sonsuz bəlalar.
Köçdü bu dünyadan baba-nənələr,
Yurda sahib çıxın, əziz balalar!

Çox yola salmışıq tufanları biz,
Quruyan ümidlər tumurcuqlayır.
Görəndə qeyrətli cavanları biz,
Dolan gözümüzdə yaş muncuqlayır...

Ürək çan atırsa çata yurduna,
Yenə bu torpağa bahar gələcək!
Övlad sahib çıxsa ata yurduna,
Qərib məzarlarda ruhlar güləcək.

Yadlara qıymayın, özünüz dərin,
Cavanlar, köksümdə bitən həsrəti.

...O yurdu bir dəfə görməyənlərin
Gözündən boylanır vətən həsrəti...

– Qəlbimiz titrəyən nanə yarpağı,
Həsrət quyusuna daş atmışıq biz.
Bir yol görməsək də doğma torpağı,
Onu qəlbimizdə yaşatmışıq biz...

Geriyə dönərmi yaydan çıxan ox? –
Dönürük vətənə, – qərar qətidir...
O torpaq tək bizə babaların yox,
Həm də şəhidlərin əmanətidir...

...Çat-çat ürəyimdə dərd qəlpə-qəlpə,
Gəldi doğma yurda səfər müjdəsi.
Həsrətdən göynəyən viranə qəlbə
Gözəl məlhəm imiş zəfər müjdəsi...

## YARALI ƏSGƏRİN DÜŞÜNCƏLƏRİ

Aydınlıq gecədir, torpaq soyuq, nəm,
Dostlar şəhid olub, təkcə sağ mənəm...
Özümə gəlmişəm, ancaq bilmirəm
Qismət olacaqmı yaşamaq mənə?

Bir də görəcəmmi gələn baharı?
Hər yan qar olsa da, hələ deyil qış...
Özümdən gedəndə, dizdən yuxarı
Kimsə ayağımı qaytanlayıbmış...

Ulduzlar bərq vurur nəmli gözümdə,
Arxası üstəyəm, köksüm qabarıb...
Tək-tənha qalmışam çölün düzündə,
Mərmi ayağımı qırıb aparıb...

Deyəsən sönəcək ömür çırağım,
Cənnət misallıdır burda qəbir də...
Babamın yurduna dəyən ayağım
Qayıtmaq istəmir geriyə bir də...

Ay aman, deyəsən çin olub yuxum,
Pozur sakitliyi şırıldayan çay.
Yaram göynəsə də, xoşbəxtdi ruhum,
Başımın üstündə gülümsəyir Ay...

## TORPAQ TƏSLİM OLMAYIB

İllərin ayrılığı məni qoyub pis günə,
Heç bilmirəm yer nədir, heç bilmirəm göy nədir.
Korun-korun yanıram, tüstü çıxır təpəmdən,
Talan olmuş yurd yeri gözlərimi göynədir...

Bu amansız canilər, bu qaniçən yağılar
Möhtəşəm sarayları odlara qalayıblar.
Bu quldurlar, oğrular təkcə sərvətimi yox,
Vətənli illərimi çapıblar, talayıblar...

Yurdu kimsəsiz görən meşə haraya gəlib,
Özünü lüt evləri örtməyə yetiribdir.
Kimsəsiz həyətləri boş qoymayıb təbiət,
Düz evin ortasında ağaclar bitiribdir...

Qəlbində dağ yaşayıb yurdum dağlar qoynunda,
Yalnız dağ çəkə bilər bu ağrını, bu dərdi...
Torpaq təslim olmayıb, qalxıb yaşıl üsyana,
Düşmənlərin izini otla, çiçəklə örtüb...

Boynubükük evlərə sığınan bənövşələr
Əyilən divarlara dayaq olmaq istəyib...
Düz divarın üstündə bitən qızıl lalələr
Evimizin üstündə bayraq olmaq istəyib...

## ŞUŞA YOLU – ZƏFƏR YOLU

Həsrət buludları dönübdür selə,
Dağlar da “Yallı”ya, “Halay”a gedir.
Şuşaya çəkilən təzə yol ilə
Alİ Baş Komandan Qalaya gedir...

Yenidən geriyə dönür o çağlar,
Zirvəyə ucalan yollar sevinir...
Gəlib həyəcana dərələr, dağlar,
Ağaclar sevinir, kollar sevinir...

Qeyrət karvanının qaçın önündən,
Halal zəmimizə sünbül qayıdır...
Qalaya tələsən köçün önündə
Natəvan, Üzeyir, Bülbül qayıdır...

"Şuşanın yolları dolambadolan", –
Görən ürəyindən büstün nə keçir?
Bu yol ümidləri gözündə qalan
"Yan"ların, "hay"ların üstündən keçir...

Duman dağ başında olubdur cuna,
Sevinc gözümüzdə ulduzdu, aydı...
Yaralı heykəllər gəlibdir cana,
Əziz şuşalılar, gözünüz aydın!

Düşmənin gördüyü sərsəm yuxunu,
Şükür, Cəhənnəmə göndərə bildik.
Xoşbəxtik, yenidən xalqın ruhunu
Vüqar qalasına döndərə bildik...

Tələsir yaxından, uzaqdan gələn,
Bu yol ulu yurda səfər yoludu...
Bu yol Qobustandan, Azıxdan gələn
Ulu bir millətin zəfər yoludu...

## DÖYÜŞLƏR DAVAM EDİR

Axır ki, son qoyuldu illərin əzabına,
Axır ki, sirdaş olduq bol müjdəli səhərlə...
Biz qəhrəman oğullar, igidlər hesabına
Qarabağ döyüşündən çıxa bildik zəfərlə...

Qələbə sevincindən coşdu millətin qanı,
Təzədən su gələcək bizim köhnə arxlara.

Düşmənə Dəmir yumruq göstərən Komandanın
Barmağı silkələndi harın oliqarxlara...

Neçə igid ömrünün qaralıb işıqları,
Təzəcə qaysaq tutan yaranı qanadırlar.
İndi də Paşinyanın bacısı uşaqları
Qarabağda villalar tikməyə can atırlar.

Gözaltı edənlər var dərələri, dağları,
Yenəmi yurd sahibi qalacaqdır qıraqda?
Şəhidlərin qanıyla yoğrulan torpaqları
Pay-püşk eləmək üçün duranlar var marıqda...

Yaratmaqla işi yox, bu, hazıra nazirdi,
Sanarlar ki, mömindir onu tanımayanlar...
Bir qarış torpaq üçün qan tökməyə hazırdı,
El yolunda bircə yol burnu qanamayanlar...

Hazır leşin üstünə qarğa-quzğun yığılar,
Ekranda növbə ilə özlərini öyürlər...
Döyüşdə çanağına çəkilən tısbağalar
İndi boyun uzadıb “biz də varıq”, – deyirlər...

Birinin el yolunda qanamayıb barmağı,
Bəs onda nəyə görə göz dikiblər payıma?
Düşmənin tapdağından azad olan torpağı
Hasarlamaq üstündə dava gedir, ay aman!...

Qorxmurlarmı nə vaxtsa yağa hiddət yağışı?
Nigaran baxışlarda görmürlər şimşək çaxır?
Hələ heç qurumayıb anaların göz yaşı,
Bunların torpaq üçün ağzının suyu axır...

Şəhid haqqı tapdansa, göydən ələnməzmi daş?
Girişməyin milləti talamağa, çapmağa.
Əkəndə, biçəndə yox, yeyəndə ortaq qardaş
Olanlar hazırdılar tikəmizi qapmağa...

Tanrı bu acgözləri niyə belə yaradıb?
Gücsüzə ağadılar, güclüyə nökərdilər.

Əlacları olsaydı, dənizi də qurudub,
Dibindəki torpaqda villalar tikərdilər...

İşlər öz qaydasına düşəcək narın-narın,
Acgözlər ətəyindən tökə bilsələr daşı...
Gözü torpaqlanmasa bu acgöz harınların,
Zəfərlə bitə bilməz haqq-ədalət savaşı...

## BƏXTİM AYAQ ÜSTDƏYMİŞ

Ötür gözüm önündən ömrün ötən çağları,
Tale qismət elədi durdum o ucalıqda...
Mən üstünə çıxmışam sinəmdəki dağların, –
Nə gözəl görünürmüş yurdum o ucalıqdan...

Sanki doğma hənirdən xaraba kənd sevindi,
Yaralı xatirələr ürəyimi göynətdi...
Bu divarları uçan ev mənim ilk evimdi,
Bu həyət ayaq tutub gəzdiyim ilk həyətdi...

Ömrün ixtiyar çağı insan olur yalquzaq,
Nə yaxşı ki, dərələr qısqanmır dağa çayı.
Bu, mənim yer üzündə ilk su içdiyim bulaq,
Bu, suyunda çimdiyim ilk çaydır – Ağa çayı...

Heç zaman ürcah olmaz deyirdilər dağ dağa,
Uşaqlıqla qocalıq burda üz-üzə gəlib...
Hanı qaya üstündə bitən nəhəng dağdağan? –
O quruyandan bəri kəndimiz gözə gəlib...

Ömrün ötən çağları çevrilibdir səraba,
Lənət olsun düşmənin ev yıxan nifaqına...
Hacı Hüseyin bəyin yurdu qalıb xaraba,
Düşmən Şahsuvar bəyin od vurub tifaqına...

Məlhəmtək içimdəki dərin yaranı yuyur,
Ağa çayı axdıqca nələr düşür yadına?
Göz yaşıma qarışıb doğma bulağın suyu,
Yeni bir ahəng qatır qəlbimin fəryadına...

Yaralı xatirələr mənə verməyir macal,
Çırmanıb uşaq vaxtı bu çaydan çox keçmişəm...
Çaylaqdakı hər qaya çevrilir addamaca,
Ayaq basıb üstünə adlayıram keçmişə...

Ən ağır məqamlarda yetə bilir dost dada,
Burda hər yol, hər cığır mənə doğma, tanışdı...
Elə bil Ballı qaya dilə gəlib astadan
Mənimçün şirin-şirin xatirələr danışdı...

Sönən ocaq közərir korun-korun, gizlicə,
Bura yenidən dönmək taleyin fürsətidi...
Xarabaya dönsə də, kəndim gözəlmiş necə!
Onu gözəlləşdirən sonsuz yurd həsrətidi...

...Ötür gözüm önündən ömrün ötən çağları,
Bəxtim ayaq üstəymiş, durdum o ucalıqda.
Fövqündə dayanmışam sinəmdəki dağların, –
Nə gözəl görünürmüş yurdum o ucalıqdan...

## O DAĞLAR, DƏRƏLƏR GÖZLƏYİR MƏNİ

Şirin xatirələr mənə əl edir,
Uzaqda qalmışam tənha adatək.
Bizim Daşlıdərə uzanıb gedir
Əyinin altından Bərgüşadadək...

Bir vaxt bu dərənin hər yamacında
Bostan yerlərimiz sıralanardı...
Hərə öz işində, öz amacında,
Xatirə bostanı uralanardı...

Kimi qınayıram, axı mən kimi?
Günahkar özüməm, yurd unudulub.
Gözümüz üstündən çəkilən kimi
Pəyhan bulağının gözü tutulub...

Qarağac bulağı qalıb pis gündə,
Vida söyləyibdir öz həyatına.

Doğma üz görməyib yerin üstündə,
Qayıdıb gedibdir yerin altına...

Mənimçün darıxıb Qısraq bulağı
Gözümü yumantək girir yuxuma...
Gecə səhərəcən çağlayır, axır,
Sərinlik gətirir təşnə ruhuma!

Çıxıb bağlığından dərədəki bağ,
Daha mal-davar da mağala gəlmir.
Ağsuyun köksünə çəkilibdi dağ,
Bu nə müsibətdi? – Ağıla gəlmir...

Bulağa çevrilir gözlərimdə yaş,
Qısraqdan su içən köksüm dənizdir.
Bu doğma məkanda hər qaya, hər daş
Ruhumu titrədir, mənə əzizdir...

Hicran alovunda oda qalandım,
Yara var köksümdə yaralar kimi?
Dünyada çox yeri gəzib dolandım,
Gözəl yer tapmadım buralar kimi...

Ötən xatirələr səsləyir məni,
Zaman işindədir, gəlib vaxt-vədə...
O dağlar, dərələr gözləyir məni, –
Yollar əvvəl-axır dönür məbədə...

## SƏNİN AYRILIĞININ ÖMRÜ HƏR GÜN UZANIR

Doğma yurd, neçə ildir yuxu getmir gözümə,
Hicran məşəqqətinin hər üzünə bələdəm.
Yanına gedən yollar açılmayıb üzümə,
Bir ildi sən azadsan, mən dustağam hələ də...

Xəbərim yox Yazıdan, Çayzəmidən, Gəyəndən,
Oyatmır yatanları "Heyratı"lar, "Cəngi"lər.
Sənin ayrılığında bir ömür xərcləyəndən
Xərclik umur yolunu kəsən Ərəbzəngilər...

Leysanla da yuyulmaz içimdəki bu kədər,
İldırım şaqqıldasın, bəs hanı dəli gürşad?
Həkəri nigarandı, Ağa çayı mükəddər,
Doğma adamlar üçün qəribsəyib Bərgüşad...

Həsrət yaxır qəlbimi, başımı duman alıb,
Haqqın dili tutulub, danışa, dinə bilmir...
Uçuq ata evimin gözü yollarda qalıb,
Çat-çat oğul ürəyi məlhəmə dönə bilmir.

Doğma yurd, məskəniydin bir zaman ərənlərin,
Soyuyub babaların əliylə yanan ocaq.
Azadlıq xəbərinə canını verənlərin
Qismətində yox imiş qoynunda dəfn olunmaq.

Yollar hələ bağlıdır, işim düşüb çətinə,
Ayrılıq zəqqum qatır xəyalların balına.
Bir kimsə gedə bilmir qəbir ziyarətinə,
Ölülər ağlayırlar dirilərin halına...

Səndən ayrılan cavan olub bir kövrək qoca,
Kim geri qaytaracaq həyatımın yazını?
Tüstü çıxır təpəmdən, öz ömrüm qısaldıqca
Sənin ayrılığının ömrü hər gün uzanır...

Doğma yurd, neçə ildir yuxu getmir gözümə,
Hicran məşəqqətinin hər üzünə bələdəm.
Yanına gedən yollar açılmayıb üzümə,
Bir ildi sən azadsan, mən dustağam hələ də...

## QUBADLIYA YAĞIŞ YAĞIR

Bədənimə sanki düşüb vicvicə
Gözüm dağda çəni görüb kövrəlib.
Qubadlıya yağış yağır gör necə! –
Sanki yurdum məni görüb kövrəlib,
Saçımdakı dəni görüb kövrəlib...

Bir gözəllik sərgisi var qarşımda,
Dağ öpəcək bizi dartıb elə bil.
Qaçqınların gözlərinin yaşından
Bərgüşadın suyu artıb elə bil...

Solmuş gülə həyat verir baxışım,
Payız ömrüm sanki dönüb yaz olub.
İçimdəki otuz ilin yağışı
Buludların kirpiyindən asılıb...

Çox şükür ki, vüsal düşdü payıma,
Həyəcandan məcnun köksüm qabarır.
Qubadlıya yağış yağır, ay aman,
Sellər məni keçmişimə aparır...

Öz yurduna qovuşanın qəmi yox,
Narahatam, bəlkə bu da yuxudur?!
Məni yerdə basdırılan mərmi yox,
Minalanmış xatirələr qorxudur...

Bu yerlərin payızını, qışını
Xatırlayıb bulud kimi dolmuşam.
Hücum çəkir xatirələr qoşunu,
Qarşısında əliyalın qalmışam...

Görən nədir bizdən göyün tələbi?
Nələr deyir ildırımın çaxışı?
Ruhlar dönüb pərvanəyə elə bil
Sevincimin işığına axışır...

Bədənimə sanki düşüb vicvicə
Gözüm dağda çəni görüb kövrəlib.
Qubadlıya yağış yağır gör necə! –
Sanki yurdum məni görüb kövrəlib,
Saçımdakı dəni görüb kövrəlib...

## QƏM HEYKƏLİ

Hava qarsır üzümü, nə olub mən fağıra?
Hər yan həsrət oduyla qızdırılıb elə bil.

Həyatimizə gedən kol-kos basmış cığıra
İllər də mina kimi basdırılb elə bil...

Bir zaman xoşbəxt idik, xatırladım o çağı.
Bomboş həyət-bacada yer tapmıram özümə...
Dili söz tutmur nəsə deyə ata ocağı,
Dayanıb küskün-küskün baxır mənim üzümə...

Nələr, nələr söyləmir mənə qəmli baxışlar?
Üz sürtmək istəyirəm torpağına, daşına.
Qara buludlar dolub, yağan narın yağışlar
Elə bil ki, züy tutur gözlərimin yaşına...

Köksümdə əsən ürək alovlanır, alışır,
Doluxsunmuş gözlərim olub qəm piyaləsi,
Uçuq-sökük divarlar elə bil ki, danışır, –
Ürəyimi titrədir onun dilsiz naləsi...

Bilmirəm heç neyləyim, pis gündəyəm, pis gündə –
Tənhalıq güc gələrmiş qocaman dağ kəlinə...
Dağılmış evimizin xərabəsi üstündə
İndi mən çevrilmişəm uca qəm heykəlinə...

## DOĞMA YURDA QƏDƏM BASDIM BU SƏHƏR

Təşnə üçün bir udum su bəs edər,
Bu taledən umacağım yox daha!
Doğma yurda qədəm basdım bu səhər,
Şükür bizi qovuşduran Allaha!

Sanki həsrət məlhəmidir hava, su.
Qismət məni bir də bura göndərdi.
Ciyərimə doldu vətən havası,
Bəxtim məni bəxtəvərə döndərdi.

Necə tapım dədə-baba evini?
Dərd göyərib ürəyimin çatında.
Elə bil ki, gəlişimə sevinir,
Torpaq gülür ayağımın altında...

Abad yurdu gör qoyublar nə günə?
Qu söyləsən, burda qulaq tutular...
Yağıların birə düşüb kürkünə,
Oğulları haraylayır atalar...

Doğmaları, əzizlər ara bir!
Dözə bilmir ürək həsrət közünə.
Gözümüzü gizləyirik arabir,
Utanırıq baxaq yurdun üzünə...

Bu evdən o evi seçə bilmədim,
Sanki tüstü qalxdı mənim başımdan.
Qubadlıda su da içə bilmədim,
O, su içdi gözlərimin yaşından...

Nə umursan qəlbi, ruhu sınıqdan?
Bəxş edən var belə gözəl günləri.
Ulu yurdum, çıxdın ağır sınaqdan,
Qarşıdadır hələ gözəl günlərin...

Göynərtini yumaq olmur yağışla,
Dözmək olmur nakamların ahına!
Ulu yurdum, qalanları bağışla
Həsrətindən ölənlərin ruhuna!

Çətin kəsə bu intizar yağışı? –
Göyüm-göyüm göynəyirdi bu torpaq.
Qayıdanda ayağımdan yapışıb,
Sanki "getmə" söyləyirdi bu torpaq...

Təşnə üçün bir udum su bəs edər,
Bu taledən umacağım yox daha!
Doğma yurda qədəm basdım bu səhər,
Şükür bizi qovuşduran Allaha!

## BİR OVUC TORPAQ

Ümidlə baxsam belə hər açılan səhərə,
Ağrıların əlindən qurtara bilmədim mən.

Səni mən gətirmişdim, əziz ana, şəhərə,
Bağışla ki, geriyə qaytara bilmədim mən...

Qaçqınların ahından gələrdi Vətən ətri,
Səbirlər diləyərdik sizə, hər gün səbirlər.
Hamı qəribsəmişdi doğma evindən ötrü,
Qərib adam görmüşdük, – bu da qərib qəbirlər...

İllər görüb işini, qəlbimin odu sönüb,
Daha əlimdən gəlmir seltək coşub çağlamaq.
Qismətimdə var imiş yenidən geri dönüb,
Xarabazar yurdumda için-için ağlamaq.

Qaldım öz evimizə uzaqdan baxa-baxa,
Baxışlarımla öpdüm daşını, divarını...
Üz də sürtə bilmədim o müqəddəs torpağa,
Aşıb keçə bilmədim illərin hasarını...

Nə qədər baxasıyıq evimizə uzaqdan?
Daha insanların da güvə düşüb səbrinə.
Əlimdən nə gəlir ki, doğulduğun torpaqdan
Bircə ovuc gətirib səpdim sənin qəbrinə...

İndən belə çətin ki, tale sizə yar ola,
Ayrılıq ayazında baş daşın buz kimidi...
O bir ovuc torpaqla sağalarmı yaralar? –
O, torpaq yox, yaraya səpilən duz kimidi...

Günel NATİQ

# BONCUQ



♦ *Hekayə*

*Evimizdən yüz metr aralıda sahibsiz torpaq var. Deyilənə görə, lap əvvəllər bura qəbiristanlıq olub. Sonra bir adam alıb buranı, şumlayıb, əkin əkib, amma bir günün içində tarla od tutub yanıb. Dünyagörmüş yaşlılar deyib ki, ölülərin ahı tutub o qaramat adamı. O vaxtdan da adam ilim-ilim itib, bir də görən olmayıb. Həmin torpaq sahəsinə isə bir də heç kim yaxın düşməyib...*

*Yağış yağanda həmin torpağın üstündə gəzməyi sevirəm. Elə bil doğma adamların, doğma varlıqların iyini duyuram. Qəribə ətir gəlir torpaqdan...*

* * *

İlk dəfə idi ki, yağış yağanda sevinmədim. Əksinə, yağışı yağdığına peşman etdim, yamanladım. "Torpağı suyun altında qalıb indi" – dedim öz-özümə. Soyuğu heç sevməzdi, isti adyalların üstündə xumarlanardı. Yeri isti, kefi lap kök olanda astadan mırıldayar və quyruğunu yellədərdi. Anamla baxıb gülərdik.

Düzü, özüm də bilmədim necə həyatımıza girdi. Ailəcə it-pişik saxlamağı sevməmişik. Ancaq günlərin birində evdə siçan peyda olanda ayrı əlacımız qalmadı. Mən təmiz, sağlam pişik balası soraqlamağa başladım.

İş yoldaşımın pişiyi təzəcə balalamışdı. Dedi, pişiyin bir ağca balaları var ki, iki göz istəyir tamaşa etsin.

– Bilirsiz, mən balaca pişikləri sevirəm, – dedim, – amma böyük pişiklərə qanım qaynamır, ayağıma toxunanda isə ətim ürpəşir.

– Əgər balacalıqdan götürüb saxlasaz, sevəcəksiz, – evində 5-6 pişiyə "analıq" edən iş yoldaşım gülümsədi.

– Onda mənə ağ rəngli balanı gətirin. Düzdür, anam və mən pişikləri sevmirik, amma birtəhər saxlayarıq. Əslində, çox da ağlım kəsmir...

Üstündən bir həftə keçdi. Dediyim sözü artıq unutmuşdum ki, iş yoldaşımdan zəng gəldi:

– Balan gəlib, gəl apar.

Getdim. Balaca ağ bir məxluq iş yoldaşımın qucağında vurnuxurdu.

– Anasını axtarır, – iş yoldaşım kövrələrək dedi.

Və onu mənim qucağıma verdilər. Bu balaca məxluqla necə davranacağımı bilmədim, hətta caynaqlarından qorxdum da. "Qorxma, o hələ lap körpədir", deyə pişik saxlamaqda təcrübəsi olan iş yoldaşlarım gülüşdülər.

Yolboyu ağ məxluq başını torbadan çıxarıb aramsız miyoldayırdı. Təngə gəlib öz-özümə dedim ki, istəyən olsa, ona verəcəyəm, mən bununla baş edə bilmərəm. Amma sonra düşündüm ki, oyuncaq deyil ha. Canlı varlıqdır. Əgər mənə əmanət edilibsə, artıq ondan imtina edə bilmərəm.

Anamın nə deyəcəyini də düşünməmiş deyildim. İt-pişikdən diksinən anam çox güman ki, onu qəbul etməyəcəkdi. Təzə dostum isə yumruq boyda başını aramsız torbadan çıxarıb şikayət edərcəsinə miyoldayırdı.

Bir də onu gördüm ki, qapımızın ağzında dayanmışam. Anam isə qapını açıb bizə baxır və gülümsünür. "Ola bilməz" – özlüyümdə düşündüm. Anam isə daha da xoş təbəssümlə gülümsünərək:

– Hardan bildin ki, ürəyimdən dondurma yemək keçir! – dedi.

Demə, o, dondurma qutusunda gətirdiyim pişiyi dondurma zənn edibmiş.

Anam Boncuğun dondurma deyil, bığlı, quyruqlu və aramsız miyoldayan pişik balası olduğunu biləndən sonra üz-gözünü turşutdu. Amma mən təkid etdikdən sonra:

– Bir-iki gün qalsın, sonra baxarıq, – dedi.

Biz pişiklə nə edəcəyimizi götür-qoy edərkən, o, divanın dalında gizlənmişdi, təkcə quyruğunun ucu görünürdü.

– Aman Allah! Divanın arxasında sıxılıb əzilər, onu tez çıxarmaq lazımdır, – deyə anam pişiyi xilas etməyə tələsdi.

Bir-iki gündən sonra Boncuq bizə öyrəşdi, daha künc-bucaqda gizlənmirdi, anamın qolunun üstündə yumrulanıb yatırdı. Anam isə onu oyatmaqdan qorxaraq əlini saatlarla tərpətmirdi. Sonra isə:

– Zavallı bala, kimsəsiz bala, məni anası bilir, – deyə ehmalca onun tüklərini sığallayırdı.

Beləcə, Boncuq həyatımıza daxil oldu. Elə bildik elə ömür boyu Boncuqla bərabər yaşamışıq. Biz yatanda gəlib ayağımızın yanında qıvrılar, yemək yeyəndə quyruğunu tərpədərək öz payını tələb edər, söhbət edəndə böyrümüzdə oturar, bizi anlayırmış kimi, qulaqlarını şəkləyərdi. Doğrudan da, hərdən bizə elə gəlirdi ki, o bizi anlayır. Haqqında danışanda – adını çəkməyəndə belə – harda olsa, yanımıza gələr, muncuq gözlərini üzümüzə zilləyərdi. Bu 15 ildə başqa heyvan görməməsi, adamların arasında yaşaması elə bil onu bizdən biri etmişdi.

– Ana, Boncuq gələndən sən daha mənim saçlarımı sığallamırsan, – deyə bəzən şikayətlənirdim.

– Artıq sonbeşik Boncuqdur, – anam yarızarafat, yarıciddi deyirdi. – Həm o kimsəsizdir, onun qayğıya daha çox ehtiyacı var. – Və saatlarla sevimli "oğlunu" tumarlayırdı. Boncuq isə isti qucaqda xumarlanır, arabir də mırıldanırdı. Adətən pişiklər özlərini xoşbəxt hiss edəndə belə səslər çıxarırlar.

Boncuq ipə-sapa yatan pişik deyildi. Aradan çıxmaq üçün girəvə gəzirdi, qapı təsadüfən açılan kimi özünü bayıra atırdı. Çox uzağa getməyə də qorxur, bir neçə mərtəbə yuxarıda, ya da yandakı blokda gizlənirdi.

Bir dəfə necə oldusa, Boncuq evdən qaçdı. Gecənin qaranlığında anamla küçədə onu gəzir, hər dəlmə-deşiyə baxırdıq. Boncuqdan isə əsər-əlamət yox idi. Həmin gün anam səhərə kimi yatmadı. Birdən Boncuq gələr deyə, tez-tez qapını açıb bloka çıxırdı. Boncuq isə sanki əppək olub göyə çəkilmişdi.

Səhər tezdən yenə dəcəl pişiyimizi axtarmağa yollandıq. Birinci mərtəbədəki pilləkənin üstündə ağ tüklər gözə dəyirdi. Anam "Bu, Boncuğun tükləridir, yəqin itlər onu apardı" – deyib ağladı.

Qonşu oğlanın dediyinə görə, gecə blokda pişiklər əməlli-başlı müharibə aparıb, bir-birlərini didik-didik ediblər. Aralarında bir ağ pişik də varmış.

Anam ürəyini tutdu:

– Aman Allah, bizim Boncuq ömründə evdən bayıra çıxmayıb, heç başqa pişik də görməyib, o, davanın nə olduğunu bilməz ki. Yəqin o biri pişiklər onu fağır görüb incidiblər.

– Ay Sona, yuxarı mərtəbədə tükləri pırtlaşmış bir pişik var, sizin pişik olmaya? – qonşulardan biri də belə söylədi.

Tez yuxarı mərtəbəyə cumduq. Üst mərtəbə əşyaların qəbiristanlığına oxşayırdı. Hər cür vaxtı ötmüş, ömrünü başa vurmuş lazımsız əşyaya rast gəlmək mümkün idi. Əslində, pişiyi axtararkən bir neçə dəfə bura çıxmışdıq, amma iz-filan görməyib geri qayıtmışdıq. Deməli, daha diqqətlə axtarmaq lazım idi.

– Tansu, bir bura bax! – anam səsləndi. Onun göstərdiyi küncə tərəf əyildim. Toz basmış taxtaların arasında bir cüt göz bizə baxırdı. Bu, Boncuq idi, amma gözləri özününkü deyildi. Gecəki qorxu və stress bəbəklərinə hopmuşdu. Gizləndiyi yerdən çıxmağa ürək eləmirdi, yerində donub qalmışdı.

Yəqin ki, həyatda ən gözəl şeylərdən biri itkin doğmanı tapmaqdır, ya yenidən ona qovuşmaqdır.

– Canım Boncuq, gözəl Boncuq, – deyə-deyə onu ehtiyatla taxtaların arasından çıxardıq, amma o, iti dişlərini bizə göstərib xəbərdarlıq etdi ki, əgər bundan artıq toxunsaq, dişləyəcək. Odur ki, kənara çəkildik. Boncuq taxtaların üstündə oturub müdrik bir görkəm aldı. Sanki gecə baş verənləri çözmək istəyirdi.

Onu "düşüncələrilə" baş-başa qoyub evə qayıtdıq, yarı canımız isə pişiyimizin yanında idi. Yalnız bir neçə dəqiqə səbir edə bildim, sonra yenidən onun yanına çıxdım. Boncuq bir az özünə gəlmişdi, onun başını sığallamağa icazə verdi və qucağımda evə gəldik. Anam və mən bir-birimizə baxıb gülümsəyirdik. İkimiz, yox, üçümüz də sevincli idik.

Boncuq bir müddət bayır-bacadan qorxub küçə qapısına yaxın gəlmədi. Amma bu dəfə də kürlük edib balkondan yıxıldı. Xoşbəxtlikdən, pəncərədən uçarkən balkonun aşağı kənarına tutunmağa macal tapmışdı. Zavallı pişik görmədiyi vəziyyətlə üzləşmişdi və durmadan miyoldayırdı.

Məndən fərqli olaraq anam özünü itirmədi və tez qapıya qaçdı. Bir neçə dəqiqədən sonra o, artıq aşağı qonşunun eyvanında pişiyi xilas etmə tədbirləri görürdü. Ayağının altına taburetka qoyub üstünə çıxmış və Boncuğun quyruğundan tutub aşağı çəkməyə çalışırdı.

– Görəsən bu quyruq nə üçündür? – bəzən anam Boncuğu əzizləyərkən deyirdi.

– Yəqin ki, soyuq olanda üstündə oturmaq üçün, – mən deyirdim, amma anam bu versiya ilə razılaşmır və daha detallı bilgi istəyirdi.

"Yay vaxtı tətilimizi necə keçirəcəyik" sualını özümüzə verməyə qorxurduq. Çünki bütün hallarda Boncuqdan uzaq qalacaqdıq. Əslində, diribaş pişik idi, öz qayğısına qala bilirdi. İki-üç günlüyə qohumlarımızın bağına dincəlməyə gedəndə onun bir həftəlik yeməyini və suyunu tədarük edib yola düşərdik. Amma yarı canımız sevimli pişiyimizin yanında, şəhər evində qalardı. Lap cırhacır istidə anam "birdən pişiyin başına bir iş gələr, qapı-pəncərəsi bağlı otaqda bağrı çatlayar" deyə kritik hava ilə bağlı xəbərdarlığı eyninə almamış, kölgəlikdən məhrum bağ yollarıyla pay-piyada şəhərə qayıtmışdı. Qayıdıb görmüşdü ki, Boncuq heç də darıxmayıb və pəncərənin o tayına qonan quşlarla dostluq qurub. Quşlara baxmağı, öz aləmində onlarla oynamağı sevirdi. Elə bilirdi ki, onlar pəncərənin bu biri tərəfindədir və əl uzatsa, çatar, odur ki, qəfildən pəncərəyə tərəf tullanırdı. Yəqin ki, quşlar bu yekəpər məxluqun sadəlövhlüyünə baxıb gülürdülər.

Hərdən düşünürdüm ki, əgər Boncuq adam olsaydı, çox mərhəmətli və xeyirxah biri olardı. Qapımıza gələn, ya təsadüfən evimizə gələn pişik balalarına öz yeməyini güzəştə gedər, onları heç qısqanmaz, dallarınca düşüb maraqla izləyərdi.

Sağlam pişik idi, heç xəstələnməzdi, bəzən mənə elə gəlirdi ki, güclü xarakteri onu diri saxlayır. Axı pişiklərin də özünəməxsus xasiyyəti olur. Amma 15 yaşına keçəndə hərəkətləri bir az yavaşımışdı. Bir dəfə baytara apardıq, 15 yaşında olduğunu deyəndə çaşıb qaldı, "yəqin ki, peyvəndini vaxtlı-vaxtında vurdurmusuz" – dedi. "Yox, peyvənd-filan vurdurmamışıq, əksinə, belə prosedurlardan qorumuşuq onu" – dedik. Baytar heç nə demədən pişiyi müayinə etdi, amma sonda: "Çox qocalıb, uzağı 6 ay ömrü qalıb" – dedi.

Qeyri-ixtiyari gözümdən yaş süzüldü. Qətiyyətli anam isə evə gəldikdən sonra baytarın dalınca deyindi.

– Elə bil Allahdır, ömür biçir!

İnsanın həmişə öz gerçəyi olur – o, həmişə özünə faydası toxunan sözlərə inanmaq istəyir...

Boncuq əvvəlki qaydada yeyirdi, içirdi. Amma olanlara əvvəlki kimi çevik reaksiya vermirdi.

Yağışlı günlərin birində yenə məni həmin o torpaq özünə çəkdi. Yağışın torpaqla təmasından gələn qoxuları hiss etdim, içim, ruhum təzələndi, evə gəldim.

Boncuq məni bu dəfə qapıda qarşılamadı. Otağın bir güncündə tərpənmədən oturmuşdu.

– Boncuq çox saymazyana davranır, – deyə anama zarafatla dedim.

– Nəsə narahatdır bu gün. Altına palaz salıram, o isə quru yerdə oturur. Yəqin soyuq dəyib ona.

Gecə Boncuğun xəfifcə titrədiyini duydum. Tumarladım, nəsə dedim, danışdım. Boncuq gözlərini yumdu, mürgüləməyə başladı. Bunu onun şıltaqlığına yozdum, yatmağa getdim.

Sabahısı gün Boncuq yenə adəti üzrə yeməyini yedi, suyunu içdi, evdə gəzişdi və anamın qucağında saatlarla oturdu.

Həmin gün yazılarımı gec saatda bitirdim, saat 2 olardı, anam artıq yuxudaydı, kompüteri söndürüb Boncuğa yaxınlaşdım. O, qapının qabağında uzanmışdı, başı titrəyirdi, pəncələri hərəkətsiz kimiydi. Qarnının tüklərinin rəngi dəyişmişdi, çəhrayı rəngə çalırdı. Üzü çökmüşdü, sanki üzünün bir hissəsi formasını dəyişmişdi.

Mən onun can verdiyini anladım. Qucağıma götürmək istədim, amma əlimin arasından sürüşüb çıxdı. Yerini həmişə özü seçərdi. Yanında oturdum, üzünü, qarnını sığalladım. Qarnının tükləri yaş idi.

15 il qabaq onu ilk dəfə evə gətirdiyim günü xatırladım. O vaxt bu evdə arzuolunmaz qonaq idi. Amma bir neçə günün içində nəinki ona, yer üzünün bütün heyvanlarına qarşı fikrimizi dəyişdirmişdi. İslaholunmaz heyvansevərə çevrilmişdik.

Və onu da xatırladım ki, ondan sonra həyatımız necə yaxşılığa doğru dəyişmişdi, mən özümü necə daha gümrah hiss etməyə başlamışdım, bacım yeni işə girmişdi, anam toxtamışdı.

– Mənim oğul balamdır, – anam Boncuğu oynadaraq zarafatla deyirdi.

Anam həmişə oğul arzusunda olmuşdu. Bacımdan sonra bir-iki dəfə uşaq salmışdı – oğlan uşağı. Bacım bir dəfə mənə sirr kimi demişdi ki, həmin dünyaya gəlməyən uşaqlar əvvəllər qəbiristanlıq olan ərazidə basdırılıb. Bacımın bu sözləri məni ağlatmışdı.

– Onda anam hər dəfə ordan keçəndə o uşaqları xatırlayır? – demişdim.

O da məni sakitləşdirib demişdi ki, hər qadının həyatında elə ağrılı anlar olur, amma o anlar həyatın gerçəkliyi kimi qəbul edilir və özünü elə dərindən büruzə vermir.

Amma həyat gerçəkliyini qəbul etmək çox ağır idi və mən o gündən sonra anamın dünyaya gətirmədiyi, həmin sahibsiz torpaqda basdırılan uşaqlar haqqında düşünürdüm və torpaqdan gələn qəribə ətrin sirrini anlayan kimi olurdum.

İndi, Boncuğun can verdiyini görən mən, anamı yuxudan oyatmaq istəmədim, amma o, sanki duyuq düşüb oyandı. Gəlib Boncuğa baxdı. Nə mən ona bir şey dedim, nə də o mənə, amma pişiyin ölmək üzrə olduğunu onun da bildiyini anladım.

– Sən get yat, – anam dedi, – mən burda oturacam.

Dərdimi kiməsə demək, ağlamaq, hayqırmaq istəyirdim, amma susurdum. Yerimə girib ürək döyüntülərimin xəfifləməsini gözlədim.

Səhər saat 6-da oyandım. Anam otaqda kresloda oturub başını aşağı salmışdı. Boncuq iki otağın arasında uzanmışdı. Yəqin ki, dəhlizdən sürünərək yanımıza gəlmək istəmişdi.

Anamla üzbəüz oturdum. Yəqin ki anam da Boncuğun 15 il qabaq ilk dəfə bu evə gəldiyi günü xatırlayırdı – onun necə böyüdüyünü, şıltaqlığını, dadlı tikə yeyəndə dilini yalamasını, özünü şirin göstərmək üçün otağın ortasında tirtap uzanıb bizim onu əzizləməyimizi gözləməsini...

Pəncərənin o tayında quşlar səs-səsə verib civildəşir, şüşəni taqqıldadırdılar. Elə bil öz dostlarını oyuna çağırırdılar. Boncuq pəncərəni də, onun kənarına qonan quşları da görürdü, amma oyuna gəlməyə artıq onun kürlüyü də yetməzdi.

Mən, anam, quşlar, bütün təbiət, kainat yoxluq içindəydi. Bunu Boncuq da hiss etdi, başını xəfifcə qaldırdı. Qəribə səs çıxardı – düz üç dəfə. Və canını tapşırdı.

– Bizimlə halallaşdı, – anam güclə eşidilən səslə dedi.

Kiçik parça gətirib Boncuğun üstünü örtdü. Heç birimiz danışmırdıq, bir-birimizə əlavə əzab vermək istəmirdik.

– Mən aparıb basdıracam, – dedim.

Anam kresloda oturub gözlərini bir nöqtəyə zilləmişdi.

– Mən də səninlə həyətə düşəcəyəm.

Əslində, mənim bu işdə iştirak etməyimi, travma almamı istəmirdi.

– Bir xadiməyə pul verərəm, basdırar, – dedi.

– Yox, yox, onu zibilliyə atacaqlar.

– Mən özüm də orda olacam, baxacam, narahat olma.

– Yox, mən özüm onu basdıracam, onu heç kimə tapşıra bilmərəm, – deyə israr etdim.

Evdən bıçaq və ətdoğrayan götürüb həyətə düşdük.

Torpaq çox sərt idi. Mən bıçaqla oyur, anam ətdoğrayanla çapırdı. Sonra qumu ovuclayıb kənara atırdıq.

– Blokda bel var, onunla qazın, belə sizə çətin olar, – itini gəzməyə çıxaran rus qonşu dedi, – amma dərin qazmaq lazımdır, itlər iyləyib çıxara bilər.

– Yaxşısı budur, kişilərdən birinə pul verin, qazsın, – onun yanındakı başqa bir itgəzdirən qadın məsləhət gördü.

Anamla ikimiz də karıxmışdıq. Mən qarajın yanına, kişilərin toplaşdığı yerə getdim, anam isə əlində bel nə edəcəyini düşünürdü.

Kişiyə pulu göstərib bizə kömək etməyini xahiş etdim. Yanımca düşüb gəldi, anamdan beli alıb qazmağa başladı. Amma torpaq çox sərt idi, kişinin güclü zərbələrinə də tabe olmurdu.

– Gəlin, ora gedək, o əraziyə, – kişi əliylə səmti göstərdi, – oranın torpağı yumşaqdır.

Mən anama baxdım, anam tərəddüdlə razılaşdı.

Kişi hasardan tullanıb sahibsiz əraziyə düşdü, yeri qazmağa başladı.

– Dərindən qazın, itlər onu çıxara bilər, – rus qonşu hasarın o biri tərəfindən dedi.

– Hasar çəkilib, itlər bura yaxın gəlmir, – kişi yeri qaza-qaza dedi.

– Bütün hallarda, azı bir metr qazmaq lazımdır, – qonşu qadın təslim olmadı.

Təxminən yarım metr qazdıqdan sonra Boncuğun uyuyacağı yer hazır oldu. Anam pişiyi gətirmək üçün evə getdi, mən hasarın bu biri tərəfində, kişi də o biri tayında qazılan çalaya baxırdıq.

Çox da balaca olmayan bir arıq pişik hardansa çalanın yanına gəlib çıxdı. Görünür, bütün bu proses ona maraqlı gəlmişdi, başını çalaya salıb qoxladı.

– Düz gəlməmisən, get burdan! – deyə kişi onu qovaladı.

Pişik isə əl çəkmədi, dönüb yenidən çalaya yaxın gəldi.

– Sənə hələ tezdir, – mən yavaşca dedim.

– Hə, sənə tezdi, – kişi öz işinin nəticəsinə fikirli-fikirli baxa-baxa təkrar elədi.

Anam gələnə kimi kişi çalanın yan-yörəsini bir az da genişləndirdi. Sonra beli kənara qoydu, əllərinə baxıb:

– Əllərim də suluqladı, – dedi.

Yan-yörədə tək-tük adam görünürdü. Bir azdan yeni gün başlayacaqdı. İşə gedən, yola çıxan... Bəlkə mənim üçün də adi günlərdən biri olacaqdı. İlk baxışda adi görünən. İşə gedəcəkdim, proqramımı hazırlayacaqdım. Bölüşmək ehtiyacım güc gəlsə, rastlaşdığım adamlara Boncuğun öldüyünü deyəcəkdim. Onlar da avtobusdakı sıxlıqdan, qızmar istidən, mənzilə su qalxmamasından şikayət edəcəkdilər. Gün boyu o qədər pişik ölür ki. Yəqin, Boncuğun da onlardan biri olduğunu düşünüb təsəlli verməyə heç gərək də duymayacaqdılar. Bəzən adamın kiminsə "hər şey yaxşı olacaq" deməsinə elə ehtiyacı olur ki. Bircə sözə. Boncuq danışa bilməsə də, belə anlarda gəlib mənə qısılar, kiçik varlığını hiss etdirərdi – yəni, "qəm yemə, hər şey yaxşı olacaq".

– Bu qadın harda qaldı, – kişi sükutu pozdu. – Axı işimin dalınca getməliyəm.

Kişi artıq səbrini itirməyə başlayırdı ki, anam əlində yekə torbayla göründü. Üzündə ayağı, ya beli möhkəm sancanda gördüyüm ifadə

dolaşırdı. Dinib-danışmadan torbanı ehtiyatla hasarın o tərəfinə uzatdı. Kişi torbanı alanda mən üzümü yana çevirdim. Yenidən çevriləndə Boncuğun ağ-qara quyruğunun çaladan çıxmış ucunu gördüm. Bizimlə oynayanda ya dolabın, ya da soyuducunun arxasında gizlənərdi. Gizləndiyi yerə sığmazdı, həmişə quyruğu görünürdü. İndi də quyruğunu gizlədə bilməmişdi Boncuq...

Kişi quyruğu çalaya itələyib üstünü torpaqla doldurdu. İzi itirməyək deyə, üstünə də böyük bir daş qoydu.

İş başa çatanda əlimdə tutduğum pulları kişiyə verdim. 15 illik dostumuz üçün son edəcəyimiz şey bu idi...

Anam üzünü dəmir hasara söykəyib üzündə tanış ifadə ilə gözlərini çəkmədən baxırdı. Mənə elə gəldi ki, o, dünyaya gəlmədən ölən uşaqlarının torpağa qoylanmasını izləyir.

Asan deyildi anama, üçüncü oğlunu torpağa verib geri qayıdırdı...

**OXUCULARIN NƏZƏRİNƏ!**

**“AZƏRBAYCAN”**

**jurnalına abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalın bir nüsxəsinin qiyməti 2 manat, illik abunə qiyməti 24 manatdır.**
**İNDEKS: 76300**

# ♦ Poeziya



## *Ay BƏNİZ ƏLİYAR*

* * *

Ətrafıma göz gəzdirdim,
Kimim gedib, kimim qalıb?
Baxdım gördüm qəlb evimdə
Sevda yüklü qəmim qalıb.

Damağımın tamı gedib,
Könlümün ilhamı gedib.
Hər kəs gedib, hamı gedib,
Ürək adlı yemim qalıb.

Baxdım ki, çox əzam yoxdu,
Ayağım yox, əsam yoxdu.
Odam yoxdu, masam yoxdu,
Pərvanəsiz şəmim qalıb.

Bir tər durub qaş ucunda,
Kirpiyimin yaş ucunda.
Sal qayanın şiş ucunda
Parçalanmış gəmim qalıb.

Baxdım özgə yolum yoxdu,
Əlim yoxdu, qolum yoxdu.

Dəryazım var, halım yoxdu,
Biçilməmiş zəmim qalıb.

* * *

Mütləqdir, hardasa qapı önündə,
Qapı arxasında qalan biri var.
Bəzən ağlaması, bəzən gülməsi
Doğru biri varsa, yalan biri var.

Biri uzaq ikən yaxından yaxın,
Biri dost-doğmadır, əlində yaxan.
Qarşında gözünün içrə lal baxan,
Arxanca gözləri dolan biri var.

Dünyanın nizamı deyildir əbəs,
Bu dünya hamıya tapacaq əvəz.
Qəlb qıran birinə rastlayıb hər kəs,
Amma həm qəlbini alan biri var.

* * *

Başın qarışmışdı pul qazanmağa,
Sən hələ özünçün yaşamayırdın,
Hələ həvəslərin oyanmamışdı,
Hələ öz yükünü daşımayırdın.

Gözün açıq idi, görmürdün amma,
Qəlbin yalın idi, üşüməyirdin,
Özündən xəbərin yox idi, adam,
Başın qaşınırdı, qaşımayırdın,
Əllərin getmişdi pul qazanmağa.

Evinə baxardın, evin boş idi,
Cibinə baxardın, cibin boş idi,
Elə ürəyin də boş idi, adam,
Başın qarışmışdı pul qazanmağa,
Sənə belə həyat xoş idi, adam...

Yuxulu sabahlar, şirin gecələr,
Hələ ətrafında "dostun" çox idi.
Nə olsun, bolluca pul qazanardın,
Bircə ürəkdə də yerin yox idi.

Ortaya bu qədər pul çıxdı, amma,
Bəs sevgi, bəs istək harada qaldı?
Deyən olmadı ki, yazıqsan, bala,
Bu pul taxtasından başını qaldır.

* * *

Bir yol var, aparır üzü göylərə,
Göydən sevgi yağır, yerdən ayrılıq.
Tanrı insafıyla bölür hər yerə,
Hərdən sevgi yağır, hərdən ayrılıq.

Nə dua hay olur, nə qarğış, küfür.
Məzlumun ahına duran yox kəfil.
Hər şey qəfil olur, qəfil, çox qəfil,
Birdən sevgi yağır, birdən ayrılıq.

Ömür bir şam kimi, yanmadan olmur,
Yuxudur, gözünü yummadan olmur.
Xeyirdən sevgini ummadan olmur,
Bəs necə törənir şərdən ayrılıq?

* * *

Hardasa bir ümid yatmış olaydı,
Gedib oyadaydım özümə onu.
Tanrının yadından çıxıb qalaydı,
Çəkəydim dünyanın üzünə onu,
Dünya işıqlanaydı.

Körpə uşaq kimi durub baxaydı,
Ana südü kimi dərdi içəydi.
Bütün qaranlıqlar yoxa çıxaydı,
Bütün sərhədləri yıxıb keçəydi,
Dünya işıqlanaydı.

O ümid hardasa yataydı keşkə,
Löyün-löyün axan qanlar duraydı,
Savaşlar bitəydi, bitəydi keşkə,
O da missiyasın başa vuraydı,
Dünya işıqlanaydı.

Ağrının gözünə mil eləyərdim,
Oğrunun gözünə mil eləyərdim.
Dərin yuxusundan oyadıb onu,
Dünyanın boynuna hil eləyərdim,
Dünya işıqlanaydı.

* * *

Ən gözəl hisslər də xərclənib bitir,
Yeni heç nə qalmır dişinə dəyən.
Onda yaşamağın mənası nədir?
Heç nə qalmayırsa yenilənməyən?

Sahib durmaq olmur bir çox hisslərə,
Bəzən əsəb belə həddini aşır.
Bir başqa baxırsan olduğun yerə,
Ömür günü-gündən mənasızlaşır.

Uşaqlar böyüyür, qayğılar artır,
Şəkillərə hopur körpə gülüşlər.
Hamısın toplayıb albom yaradır,
İnsana şirinmi ömrü bu qədər?

Daha asan gəlmir yaşamaq dərdi,
Ayıra bilirsən əyrini, düzü.
Bəlkə bir albomluq xatirələrdi
Bizə bəxş olunan səadət özü?

Bir Allah bilir ki, niyə beləyik,
Şirin əzablar da bizə xoş gəlir.

Cavanlıq oduyla çəkdiyimiz yük
Bu yaşda çox ağır daşına bilir.

Xərclənən nə varsa, dəyəri endi,
Xərcləmədiyimiz nə qaldı görək.
Bu quru nəfəsim Sənin evindi,
Başını soxmağa evin var, demək.

* * *

Gözünə Tanrının işığı düşə,
Bəbəyini deşə, qəlbini deşə.
Bir qanlı lalətək sancılıb döşə,
Qonasan torpağın lal yamacına.

Sarasan, bəlkə bir sarıla deyə,
Açasan sinəni, yarala deyə.
Bəlkə zülmətindən qarala deyə,
Hörəsən gecəni bəyaz saçına.

Dünya ağır gələ bu ayıq başa,
Bir həsrət rastına yuxulu düşə.
Qolunu geriyə qarıb gərnəşə,
Döşünü qabağa verib qurcuna.

Əl aça, dilənə, susasan elə,
Salasan ayağa, salasan ələ.
Deyəsən, necədi, necə?
Bax, belə!
Qaçasan, bir daşı basıb ovcuna.

* * *

Daha sən nəyimə lazımsan indi?
Daha mən sənə də lazım deyiləm.
Adımı hayana yazsan, silinir,
Çünki sənin alın yazın deyiləm.

Sən ki öz gücünə çox güvənirsən,
Necə istəyirsən elə də yaşa.
Tanrı səndən heç nə əsirgəməyib,
Niyə şəkk gətirim, şəkkim yox, haşa!

Elə təsəlli var böyük uğurdu,
Daha sən nəyimə lazımsan indi?
Daha mən sənə də lazım deyiləm,
Onsuz da nəyi var dünya sənindi.

Dünya dağılsa da durub baxaram,
Vaxtını keçirib gedər birdənəm.
Sonda sevilmədən sevən mən ollam,
Atan mən olmaram, atılan mənəm.

Daha sən nəyimə lazımsan indi?
Daha mən sənə də lazım deyiləm.
Adımı hayana yazsan, silinir,
Çünki sənin alın yazın deyiləm.

* * *

## *Şəhid Xəyal Həsənova həsr olunur*

Söndü bir can, yerində alovlandı min ocaq,
Milyonların arzusu, duası gerçək oldu.
Bu dəfə əmin idi; zəfər onun olacaq,
Cənnətdə şərəfinə uca bir taxt quruldu.

Öz döyüşçü oğlundan el-oba aldı soraq,
Dedilər bayrağının şərəfinə and içmiş.
Adı Xəyal olsa da, özü şəhid olaraq,
Torpağın yarasına məlhəm olmağı seçmiş.

Dedilər heç qorxmadan canını sipər edib
Torpağına, daşına dəyən acı gülləyə.
Düşmənin üzərinə hamıdan öncə gedib,
Neçə şər yuvasının külün sovurub göyə.

* * *

*Şəhid İlkin Ağaquliyevin əziz xatirəsinə*

O gün döyüş günü, cəng günü idi,
Cəbhə açılmışdı düşmənə qarşı.
Darmadağın edib, yerlə bir edib,
Qalib gələcəkdik haqlı savaşı.

Bir şüar var idi – Zəfərə doğru!
Könlümüz qisasla dolub-daşırdı.
Döyüşə gedirdi evin tək oğlu,
Doğmalar onunla vidalaşırdı.

Vətən səsləyirdi ər oğulları,
Bu yolda ölmək var, dönmək yox idi.
Gedirdi bir evin dövləti, varı,
Şəhidlik onunçün şirin yuxuydu.

Murov yüksəkliyi, Ağaçuq, Talış...
Döyüş tapşırığı şərəfli, ağır...
Alovdur hər addım, oddur hər qarış,
Düşən mərmilərdən qəlpələr yağır.

İyirmi gündür ki, döyüşür İlkin,
Nə qüvvədən düşür, nə gücdən qalır.
Bu iyirmi gündə keçdiyi hər gün
Ömrünün ən şanlı səhifəsi olur.

"Vətəni sevmək də imandan!" – deyir...
O da bayrağına bükülüb döndü.
Daha öz evinin tək oğlu deyil,
Ona "oğul" deyir bu Vətən indi.



*Müxəmməd HAQVERDİ*

## ETÜD

Ölən yarpaqların
Cəsədlərini
Aparar küləklər,
Yuyar yağışlar.
Bir dua oxuyar göylər...
Gah bir qayıq kimi
Üzər sularda.
Gah da çökəklikdə,
Çuxur ağzında,
Quruyar, çürüyər,
Ölər yarpaqlar.
Torpağa alışar,
Torpağa qarışar.
Torpağı artırar.
Torpaq da bir barmaq
Qalxar yuxarı.
Çılpaq ağaclar indi,
Ya şəlalədir
Ya da su buxarı.

***

Ömür yolunun
Neçənci kilometrində
Yıxılacağam,
Deyə bilmərəm.
Bir az ümiddən,
Bir az Allahdan
Tuta-tuta,
Yaşayıram.
Üzü məchulluğa,
Sonu yoxluğa.

## SENTYABRIN 5-DƏN SONRA

Yay fəslidir,
Soyuq qarışıb yaya.
Üç aydır istidən az qala
Ərimişdik.
Qəfil düşdük
Soyuğa.
Bir az isti axtardıq
Yay geyimində gəzməyə.
Hava tutqun
Qış soyuğu,
Yağış da yoxdur,
Göy Yerə baxır
Yorğun - arğın,
Sanki utanır Yerdən.
Dayandığım məkanda,
Bu duyğu ilə
Doluyam mən.

## ƏSİN, KÜLƏKLƏR

Yandırıcı istidən sonra
Əsən küləklər.
“Allah kərimdir” kəlməsinin

Sübutudur bəlkə də...
Yandırıcı istinin
Sükutudur bir anlıq.
Nə xoşdur istini
Qabağına qatıb
Qovan küləklər.
Həyatın dadını
Yaşadan küləklər.
İnsanı insana
Qaytaran küləklər.
Bürküdə əsin, əsin,
İstini əzin, əzin
Qoymayın təbiəti
İsti yesin,
Əsin, əsin küləklər...

***

Dünyanı duyan da var,
Duymayan da.
Dünyaya uyan da var,
Uymayan da.
Amma dünya yaman uydurur
Hər kəsi.
Heç birinin də
Çıxmayır səsi.

***Cəbrayıl***

*Təyyar SALAMOĞLU*



# BİR ROMANIN İZİ İLƏ

***Söhbət Sultan Məcid Qənizadənin "Məktubati-Şeyda bəy Şirvani" əsərindən gedir***

*I YAZI*

## YAZIÇI DÜNYAGÖRÜŞÜ İSLAMİ DƏYƏRLƏR KONTEKSTİNDƏ

XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan maarifçi realizminin tarixində son mərhələdir. Bu mərhələnin əsas nümayəndələrindən biri Sultan Məcid Qənizadədir. Onun bədii yaradıcılığı sözü gedən mərhələnin maarifçi realist nəsrinin estetik prinsiplərinin müəyyənləşməsində əhəmiyyətli rol oynamışdır.

S.M.Qənizadənin "Məktubi-Şeyda bəy Şirvani" (1898-1900), "Allah xofu" (1906) və "Qurban bayramı" (1907) kimi orijinal bədii əsərləri milli nəsrimizin janr baxımından da irəliyə doğru hərəkətinə ciddi təkan vermişdir. F.Köçərli S.M.Qənizadənin yaradıcılıq yolunu ümumiləşdirən yığcam məqaləsində "Məktubati-Şeydabəy Şirvani" əsərinə görə onu "iqtidarlı bir ədib" kimi dəyərləndirmişdir.

20-30-cu illər tənqidinin Ə.Nazim, Ə.Abid, H.Zeynallı kimi nümayəndələri də S.M.Qənizadənin yaradıcılığı haqqında müəyyən mülahizələr söyləmiş, onun pedaqoji fəaliyyətini, əsərlərindəki didaktik pafosu, dramaturgiya, bədii nəsr sahəsindəki xidmətlərini xüsusi qeyd etmişlər.

40-cı illərdə ədəbi tənqid onun adını "maarifçi realistlərin görkəmli nümayəndələri" sırasında çəkir.

"S.M.Qənizadənin Azərbaycanda populyarlaşdırılması, onun ədəbi-bədii irsinin nəşri, tədqiqi və təbliği sahəsində əsas işlər yalnız altmışıncı illərdən sonra görülmüşdür. Bu sahədə filologiya elmləri doktoru, professor Abbas Zamanovun fəaliyyəti xüsusilə təqdirəlayiqdir" (Məmmədov X. Sultan Məcid Qənizadə. Bakı, Yazıçı, 1983, s.10). Sonrakı onilliklərdə S.M.Qənizadənin yaradıcılığına maraq artmış, Q.Xəlilov, F.Hüseynov, Ə.Məmmədov, N.Vəlixanov, X.Məmmədov, A.Məmmədov, B.Əhmədov, Y.Babayev və b. alimlər onun irsini araşdırmışlar.

Ədəbiyyatşünaslığımızda S.M.Qənizadənin “Məktubati-Şeyda bəy Şirvani” əsəri daha çox təhlil predmetinə çevrilmiş, lakin istər maarifçi realizmin estetikası baxımından, istərsə də roman janrının nümunəsi kimi əsərin ideya-estetik keyfiyyətləri tam açılmamış, əsasən müəllifin maarifçi görüşlərinə diqqət yetirilmişdir.

## *“Müəllimlər iftixarı”: Pedaqoji traktat, yoxsa roman?*

“Məktubati-Şeyda bəy Şirvani” “Müəllimlər iftixarı” (1898) və “Gəlinlər həmayili” (1900) adlı hissələrdən ibarət roman-dilogiyadır.

Tədqiqatlarda birinci hissə “pedaqoji traktat səpgisində publisist hekayə” (X.Məmmədov), “didaktik traktat” (F.Hüseynov), ikinci hissə isə roman hesab edilmişdir. Bu yanaşmalar ikinci hissəni də ideya-bədii mükəmməlliyində təhlil imkanını zəiflədir.

Olsun ki, tədqiqatçıların əsərə məhz bu cür yanaşmasında müəllifin sondakı bir qeydi də istiqamətləndirici rol oynamışdır: “Şeyda bəyin bu cüzv məktubatı eşq dövrəsində dolanıban məcazi yol ilə başa gəldiyinə görə, oxuculardan rica olunur ki, məktubatın həzliyyat tərəflərin iğmaz edib ciddən söylənmiş mətləblərini nəzərə alalar”.

Düşünürük ki, müəllifin bu qeydi əsəri yazıçı-sənətkar kimi yazıb, oxuculara pedaqoq-maarifçi stixiyası ilə təqdim etməsi ilə bağlıdır. Çünki tədqiqatçılar da qəbul edir ki, “bu hissələrdən hər birinin öz mövzusu, fabulası, süjet xətti və kompozisiyası vardır” (Məmmədov X. Göstərilən əsəri. s.115). Bu qənaətin özü də birinci hissədən “pedaqoji” və yaxud “didaktik” traktat kimi yox, məhz romanın “birinci hissə”si kimi danışmağın düzgünlüyünü işarələyir.

Dünya ədəbiyyatında XIX əsrdən başlayaraq romanın bir janr kimi sosiallaşmaya meyli elmi həqiqətdir. S.M.Qənizadə də XIX əsərin sonunun hadisələrini sosial prizmadan təhlil obyektinə çevirir və eyni zamanda, hər iki hissə üçün ortaq olan qəhrəmanı Şeyda bəyin və hər iki hissənin digər surətlərinin sosial varlığına nüfuz etməyi bacarır.

Lakin məsələnin başqa tərəfi də var. Əgər həqiqi bədii əsər üçün ən əsas şərt “insanda insanı kəşf etmək”dirsə, onda qəhrəmanın ancaq sosial təbiətinin təsviri yazıçıya uğur qazandıra bilməz. Onun, təbii ki, müəyyən qədər təvazökarlıqla romanın “həzliyyat tərəfləri” adlandırdığı hissələr məhz dövr hadisələrinin həyatiliyini və qəhrəmanların canlı, təbii obrazlar kimi meydana çıxmasını şərtləndirir. Demək, “insanda insan kəşf etmək” tələbi S.M.Qənizadənin romanında insanı həm təbii, həm də sosial varlıq kimi inikas şəklində meydana çıxır. Buna görə də, “Məktubati-Şeyda bəy Şirvani” əsərini həm “eşq dairəsində dolanan” hissələrin – “həzliyyat tərəfləri”nin, həm də “ciddən söylənmiş mətləblər”in sintezində dərk və qiymətləndirmək zərurəti yaranır. Əsəri məhz bu kontekstlərin üzvlüyündə həqiqi roman – “silsiləli nəsrin ilk, ən yaxşı nümunəsi kimi” (X.Məmmədov) qavramaq mümkündür.

Dilogiyanı və ümumiyyətlə, S.M.Qənizadənin bədii yaradıcılığını təhlil edərkən tədqiqatçılar maarifçi-pedaqoq S.M.Qənizadə ilə maarifçi-yazıçı S.M.Qənizadəni ayırmağa çətinlik çəkmiş, əsərə münasibətdə daha çox onun maarifçilik fəaliyyətini, publisistik məqalələrindəki düşüncələrini və əsərdə əksini tapan maarifçi ideyalarını başlanğıc nöqtəsi kimi almış, sonra da bu sərhədin dairəsindən çıxa bilməmişlər. S.M.Qənizadənin "ədəbiyyata müəllim gözü ilə baxması"na, ədəbiyyatı "qüvvətli tərbiyə vasitəsi" hesab etməsinə, "bədii yaradıcılığında ancaq didaktik məqsədlər güdməsi"nə dair formalaşan fikirlər (Zamanov A. Əməl dostları. Bakı. Yazıçı. 1989, s.135-136) romanı da qiymətləndirmənin ilkin meyarına çevrilmiş, sonrakı tədiqqatlarda da bu ənənə davam etdirilmişdir.

## *Birinci hissənin roman strukturu*

Tədqiqatlarda əsərin janr strukturu ilə bağlı belə bir qənaət özünə yer alıb: "Dilogiyanın həm birinci, həm də ikinci qismi məktublar şəklində yazılmışdır" (Mir Cəlal, F.Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı. Maarif. 1982, s.286). Bu qənaət, heç şübhəsiz ki, öz başlanğıcını dilogiyanın adından götürmüşdür. Ancaq bədii mətn bunu təsdiq etmir. Əsərin birinci hissəsində məktub formasından istifadə olunmuşdur. Lakin bu formanı bütövlükdə birinci hissəyə aid etmək olmaz. Əsl həqiqətdə birinci hissə həcmcə az olsa da, ancaq mürəkkəb struktura – kompozisiyaya malikdir. Struktur baxımından "Müəllimlər iftixarı"nı bir neçə hissəyə ayırmaq olar. Əsərin birinci və əsas hissəsi üçüncü şəxsin dilindən təhkiyə olunur. Üçüncü şəxs "mayıs ayının əvvəlləri"ndə müəllim Şeyda bəyin başına gələn əhvalatı nəql edir.

Əsərdə Şeyda bəyin ölümü ilə bağlı hadisələr isə birinci şəxsin dilindən təhkiyə olunur. O, həm də Şeyda bəyin onun adına yazdığı məktubla bağlı hissəni təhkiyə edir. Bu hissəni təhkiyə edən S.M.Qənizadədir. Burada o, Şeyda bəyin dostu olaraq təhkiyəçi-qəhrəman rolunda çıxış edir. Bundan sonra S.M.Qənizadənin təqdimatında "bəradərim Məcid!" müraciəti ilə başlanan və Şeyda bəyin beş günə yazılmış məktubu ilə tanış oluruq. "Müəllimlər iftixarı"nın son hissəsi dostu Şeyda bəyin vəsiyyətini necə yerinə yetirməsi haqqında S.M.Qənizadənin qeydlərindən ibarətdir. Göründüyü kimi, Şeyda bəyin "məktubları" "Müəllimlər iftixarı"nın ancaq bir hissəsini təşkil edir.

## *Şeyda bəy: rupor, yoxsa canlı insan?*

Maarifçi estetikanın prinsiplərinə uyğun yazılan əsərdə Şeyda bəy müəllif ideyalarının ruporu funksiyasını yerinə yetirir. Lakin S.M.Qənizadə istedadlı bir sənətkar olaraq Şeyda bəyə verdiyi rolu çılpaqlaşdırmır. Əsərdə maarifçi ideyadan süjetə gəlmək prinsipi əsas götürülsə də, yazıçı süjetin ətə-qana doldurulmasına çalışır. Baş verən hadisələrin psixoloji dərinliyinə nüfuz etməyi bacarır. Başqa sözlə, "Müəllimlər iftixarı"nda süjet xəttinin əsasında duran hadisə təbii şəkildə təhkiyə olunur. Yazıçı sənətkarlıq stixiyası ilə

qəhrəmanını ancaq onu lazım olan fikirlərin daşıyıcısına çevirmir. Qəhrəman başına gələn hadisələr fonunda gərgin psixoloji hallar yaşayır.

Üçüncü şəxsin təhkiyəsindən məlum olur ki, "mayıs ayının əvvəlləri"dir. Məktəblərdə dərslər yekunlaşmaq üzrədir. Badkubədə (Bakıda) məktəblərin birində müəllim işləyən Şeyda bəy ağır keçən dərs ilindən sonra bir qədər dincəlmək, ruhi gərginliyini azaltmaq üçün doğma Şamaxıya getmək istəyir. Lakin buna maddi imkanı yoxdur. Gərgin keçən dərs ili, şagirdlərlə aramsız məşğuliyyət Şeyda bəyi yorub əldən salmış, o, özünü xəstəhal hiss edir. Yaranmış vəziyyət Şeyda bəyi kədərləndirib sıxsa da, o, özünü ələ almağa, bir qədər dincəlib vəziyyətdən çıxmağa çalışır. Lakin, necə deyərlər, sən saydığını say, gör fələk nə sayır? Özünü xəstə hiss etdiyi, sıxıntılı hallar yaşadığı bu məqamlarda Şeyda bəy anasından məktub alır. Anadan gələn məktub məntiqlə Şeyda bəyi sevindirməli, sıxıntıdan qurtarmasına yardımçı olmalı idi. Amma əksinə olur. Anası onu Ağabəhram ilə Diləfruzun toyuna dəvət edir. Məktubdan bəlli olur ki, toyun gerçəkləşməsi Şeyda bəyin gəlişinə bağlıdır. "Ağabəhram Şeyda bəyin bacısı oğlu və Diləfruz qardaşı qızıdır". Şeyda bəy bacısı oğlu və qardaşı qızını çox sevir. Yenə də məntiqlə Şeyda bəyin sıxıntılı şəraitdən qurtarmasına imkan açılır. Lakin məktubda yazılanlar Şeyda bəyi daha dərin sıxıntılı hallara salır, kədərləndirir, mənəvi cəhətdən çox dərin üzüntülərinə səbəb olur. Şeyda bəy niyə kədərlənir, məktub onu niyə bu qədər həyəcanlandırır? Məlum olur ki, qardaşı qızı ilə son görüşündə Diləfruz öz əxlaq və mənəviyyatı ilə onu məftun etmiş, o da "özünü ona borclu bilib əhd etmişdi ki, Diləfruzun toyu olanda adətə müvafiq ona bir qızıl həmayil hədiyyə etsin". İndiki halda Şeyda bəyin bu "üç-dörd yüz manatlıq" hədiyyəni almaq və Diləfruzun toyunda iştirak etmək imkanı yoxdur. Az maaş, üstəlik, şagirdlərinin maddi ehtiyaclarına mümkün qədər verdiyi qarşılıq onu ağır maddi duruma salmış, iflas vəziyyətinə gətirmişdir. Təhkiyəçi nəql edir ki, Şeyda bəy "bu səbəbə Diləfruzun nəzərində şərmsar olacağını fikrə gətirərək ah-vay çəkir idi". Elmi ədəbiyyatda göstərilir ki, "qəhrəmanın imkanları ilə iddiası arasındakı ziddiyyət komizm yaradır", yəni qəhrəmanı gülünc vəziyyətə salır. Şeyda bəyin iddiası maddi imkansızlıqla üzləşəndə komizm yox, faciəvi hal yaradır. Şeyda bəyin faciəsi mənəvi-ruhani dünya yaşayan insanın maddiyə köklənmiş dünyadakı faciəsini əks etdirir. Şeyda bəy maddi dünyanın onun üzərinə yüklədiyi bu ağırlığı heç cür üzərindən ata bilmir. Bu hal intellektual düşüncə qəhrəmanını ağır psixoloji duruma salır və o, vəziyyətdən çıxmaq üçün yollar axtarır. Vəziyyətdən çıxmaq üçün axtarılan yollar müəllifə Şeyda bəyin iç dünyasına, onun mənəvi aləminə nüfuz üçün imkan yaradır.

Bu məqamda, daha doğrusu, yaranmış şəraitin diktəsi ilə təhkiyəçi nitqi tez-tez qəhrəmanın daxili düşüncələri ilə əvəz edilir. Hadisələrin cərəyanı psixoloji müstəviyə keçir. Eyni zamanda, qəhrəmanın daxili düşüncələri onun maarifçi görüşlərinin ifadə vasitəsinə çevrilir. Lakin müəllif qəhrəmanın üzərinə yüklədiyi müəllif ideyalarının ruporu funksiyasını reallaşdırmağa tələsmir, qəhrəmanı ancaq bu ideyaların daşıyıcısına çevirmir. Başqa sözlə, Şeyda bəyə verilən bu "rol" onu canlı insan olmaqdan, təbii halının yaşantılarından

uzaq salmır. Müəllif qəribə bir ustalıqla qəhrəmanını mürəkkəb və ziddiyyətli düşüncələr burulğanına salır. Maarifçi qəhrəmanın bir çox hallarda, maarifçi qəhrəmandan çox, təbii varlığını yaşayan insan kimi yaşantıları onu müəllif ideyalarının quru ruporuna çevirməkdən uzaqlaşdırır. Məhz təsvirin bu istiqaməti ilə "Müəllimlər iftixarı" risalə, traktat xarakteri ilə yox, bədii səciyyəsi ilə diqqəti cəlb edir.

## *Qəhrəmanın düşüncələrində haçalanma*

Şeyda bəy bütöv xarakterdir, öz xarakterində kifayət qədər ardıcıldır. Daim Allaha şükür edir ki, "mən aciz bəndəsinə rəhm edib, mərifət xəzinəsinin astanasına yol vermiş və müəllimlik sənəti ilə məni mümtaz edib, müəllimlər zümrəsində mərifət gəncinəsinin kiliddarlarından birisi etmiş"dir. Şeyda bəy Allaha həm də ona görə dönə-dönə şükür edir ki, onun müəllim kimi səyləri ilə "qeyri bəndələr həm mərifət nemətinə nail olurlar". Bu o deməkdir ki, Şeyda bəy bir müəllim kimi millətinə xidmət imkanlarını ən böyük mənəvi dəyər, yaşamağın mənası hesab edir. Qəhrəmanın bu cür düşünməsi tamamilə təbiidir. Çünki bu qəhrəmanı yaradan müəllifin özü də, ilk növbədə və bütün varlığı ilə maarifçidir. S.M.Qənizadənin keçdiyi həyat və fəaliyyət yolunun təfərrüatları ilə qəhrəmanın həyat və fəaliyyət yolunu müqayisə müstəvisinə gətirib, onu "avtobioqrafik surət" hesab edən və "onun simasında maarifçi ziyalıların yeni nəslinə məxsus səciyyəvi keyfiyyətlərin ümumiləşdirilməsinə baxmayaraq, bu surətin yaranması üçün S.M.Qənizadə özü prototip olmuşdur" qənaətinə gələn tədqiqatçı mövqeyi ilə (Məmmədov X. Göstərilən əsəri, s.119) tam razılaşmaq lazım gəlir.

Görünür ki, Şeyda bəy obrazının həyatiliyində bu "prototip"in həyat təcrübəsinin də mühüm rolu olmuşdur. Heç şübhəsiz ki, S.M.Qənizadə qəhrəmanının obrazını yaradarkən müəllim, maarifçi və sənətkar kimi fəaliyyətində keçdiyi yolun təcrübəsini nəzərə almış, eyni zamanda, sənətkar istedadının təlqinləri də qəhrəmanını maarifçi düşüncənin sxematik təmsilçisi kimi yox, maarifçi qəhrəmanın həyati obrazını yaratmağa yardımçı olmuşdur.

Əlbəttə, əsərin roman təbiətinə qəhrəmanın ancaq həyati obrazını yaratmaq hesabına nail olmaq mümkün deyil.

Süjet xəttinin dramatik bir konflikt əsasında inkişafı, hadisələrin zirvəyə doğru hərəkəti və ən nəhayət, açılışı bədiiliyi şərtləndirən əsas xüsusiyyətlərdir. Maraqlıdır, "Müəllimlər iftixarı"nda hadisələrin bu istiqamətdə inkişaf xəttini izləmək mümkündürmü?

Qarşılaşdığı problem Şeyda bəyin daxili dünyasını hərəkətə gətirir, sosial həyatın ziddiyyətləri ilə bağlı dərin düşüncələrə sövq edir. Həyatın amansız üzü qəhrəmanın düşüncələrində haçalanma yaradır. "Mərifət xəzinəsi"nə gedən yolun üzünə açıq olması onu nə qədər sevindirirsə, "nagah həmayil məsələsi bir əcuzə surətində" xəyalında canlananda bir o qədər kədərlənir. Ruhu qəm-qüssə içərisində çabalayır.

## *Mənəvi bütövləşmə yolunda*

Şeyda bəyin içində mübarizə gedir. Maddi, yoxsa mənəvi dünyaya tapınma onun daxilində bütün varlığını saran dramatizm, gərginlik yaradır. Şeyda bəy "əcuzə surəti"ndə tez-tez gözünə görünüb ruhunu zəhərləməyə çalışan tamah hissinə qalib gəlməyi, "kəndinə gəlmək"i bacarır. Əvvəlki sağlam düşüncələrinə qayıdır: "Mərifət varlığı mal yoxluğunda həm qənidir, amma mal qənisi mərifət yoxluğunda yoxsuldur... Şükr xudaya ki, mən Şeydanı mərifət dövlətindən məhrum etməyibdir". Bu cür düşüncələr onun varlığına hakim kəsiləndə Şeyda bəyin ardıcıl olaraq Allaha şükr etməsi təsadüf deyil. Onun sağlam düşüncələrinin ən mükəmməl dayağı Qurani-Kərim hökmləridir: "(Bəzi adamların fəxr etdiyi) mal-dövlət, oğul-uşaq (oğullar) bu dünyanın bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də (Allahın mərhəmətinə) ümid etibarı ilə daha xeyirlidir!" (Əl-Kəhf surəsi, 46-cı ayə) (Qurani-Kərimin Azərbaycan dilinə mənaca tərcüməsi. Bakı. Şərq-Qərb Nəşriyyat evi. 2012, s.216).

Şeyda bəyin aşağıdakı mülahizəsi sanki bu və bu tipli Qurani-Kərim ayələrinin təfsiridir: "Ruhə məxsus dövlət xudadadi gözəllik misalındadır ki, şürutə ehtiyacı yoxdur. Amma qondarma hüquq ilə kəsb olunan əmlak qoyma xal kibidirlər ki, arizi-həvadis ilə zail olur".

Şeyda bəy Avropa təhsili alsa da, həqiqi bir şərqli – müsəlman kimi düşünür. Görünür ki, içində böyüdüyü mühit, uşaqlıqdan aldığı tərbiyə və təhsil onu həqiqi müsəlman kimi formalaşdırmışdır. Onun düşüncə sisteminin alt qatında İslam dininin ehkamları əsaslı yer tutur. O, bu dünyanın faniliyinə də, bu dünyada qazanılan var-dövlətin müvəqqətiliyinə də ürəkdən inanır. Şeyda bəy o şeyləri insanın həqiqi var-dövləti hesab edir ki, onlar "Allah-təalanın nemət və ətaları" olsun. Bu nemətlər isə insanın mənəvi dünyasını zənginləşdirir: "Bəli, dünyada dövlət təkcə mal və qızıl varlığı ilə deyil, bəlkə hər bir övsafı-həsənə dövlət hesab olunur: səxavət, şücaət, dəyanət və hakəza qeyri sifəti-məmduhə və əxlaqi-həsənə hamısı Allah-təalanın nemət və ətaları olduqda insan üçün zatən böyük dövlət və bəlkə dövləti-əslidirlər...". Bu cür düşüncələr Şeyda bəyin bütün varlığını, mənəviyyatını təşkil edir. Onun inanc sisteminə daxildir. Şeyda bəy bu inancdan güc alaraq işləyir, yüzlərlə şagirdinin təhsil-tərbiyəsi ilə məşğul olur, hələ üstəlik, yeri gəldikcə və imkan dairəsində onların maddi qayğılarını da öz üzərinə götürür. Ona görə də S.M.Qənizadənin qəhrəmanını bir maarifçi kimi dərk etməmişdən qabaq, yaxud bir maarifçi kimi dərk etməklə bərabər, həm də müsəlman-milliyyətçi kimi dərk etmək lazımdır. Bunlardan kənarda Şeyda bəyin nə fəaliyyətini, nə düşüncələrini, nə də bunlara rəvac verən qüvvəni düzgün təsəvvür etmək mümkün deyildir. Buna görə də "cəmiyyət məsələsində idealist mövqedə" durmasını onun dünyagörüşünün "ziddiyyətli və məhdud" cəhəti hesab etmək (Məmmədov X. Göstərilən əsəri. s.125) büs-bütün absurd səslənir. Xarakteri öz bütövlüyündə və ardıcıllığında görməyə mane olur.

# *Ax, bu "həmayil məsələsi"!*

S.M.Qənizadə iman və inancında bütöv olan qəhrəmanını həyatın sərt üzü ilə qarşılaşdırır. Bir növ qəhrəmanını sınaq qarşısında qoyur. Müəllif təhkiyəsində oxuyuruq: "Şeyda bəy bunca təskinavər xəyalat yağmurundan bəhrəvər olduğu halda, nagah həmayil məsələsi qəflətən ildırım kibi yenə yadında parladı və filfövr təfəkkürün buludu qaşının üstə çökdükdə pozğun payız havası kibi qiyafəsi məxşuş oldu".

"Qəflətən ildıım kibi" çaxan və Şeyda bəyin bütün varlığını və düşüncəsini zəbt edən "həmayil məsələsi" hadisələrin inkişafındakı dramatizmi gücləndirir.

Roman üçün, onun oxucu tərəfindən qəbul olunması üçün oxucu marağını təmin etmək vacib şərtdir. Bunun üçün hadisələrin necə həll olunacağı ilə bağlı oxucuda maraq yaratmaq və onu intizarda saxlamaq lazımdır. Roman üçün vacib şərtdir ki, bu intizar məqamı oxucunu düşündürsün, qəhrəmanla bərabər, oxucu da yaranmış vəziyyətlə bağlı çarə axtarsın, hadisələrin sonrakı inkişafını öz xəyalında canlandırmağa çalışsın, daxili dünyasında romanın davamını "yaz"sın. S.M.Qənizadə oxucu marağını pik həddinə çatdırmağı bacarır. O, öz qəhrəmanını Şekspir qəhrəmanının "olum, ölüm?" sualı qarşısında qoyur: "Xub, bunlar hamısı çox əcəb, çox gözəl. Bəs, Diləfruzun həmayili necə olsun?". Qəhrəmanın daxili dünyasındakı əksliklər romanın bədii konflikti səviyyəsinə qalxaraq bütövlükdə cəmiyyət həyatındakı ziddiyyətləri metaforalaşdırır. Çünki, bu andan başlayaraq (yəqin ki, elə başlanğıcdan üzü bəri) "Diləfruzun həmayili" maddi dünyaya köklənmiş cəmiyyəti simvollaşdırır. S.M.Qənizadənin "Müəllimlər iftixarı"nda əsas məramını, maarifçi düşüncələrini, vətəndaş-ziyalı mövqeyini Şeyda bəyin timsalında vermək məqsədi ilə qələmə əl atdığı heç kəsdə şübhə doğurmur. Biz "bəs Diləfruzun həmayili necə olsun?" sualı qarşısında naçar qalan qəhrəmanın inandığı həqiqətlərə istehza ilə yanaşma anlarına da, başından keçən düşüncələr seli içərisində başını itirməsinə də, ağır fikirlər altında yatağında "nə yatmış, nə oyaq" kimi çabalamasına da, nəhayət, dünya nizamının nə üçün belə nizamsız qurulmasına dair Allahına sonsuz suallar ünvanlamasına da, Allahının adilliyinə dair qəti inamını beynindəki şübhəli qənaətlərin əvəz etməsinə də intellektual düşüncə qəhrəmanının təbii, həyati xarakterinin ifadəsi kimi baxır, dərk edirik. Qəhrəmanın dövrünün mürəkkəblikləri, müəyyən mənada, amansızlıqları içində cabalamasına təbii yanaşırıq. Bu cür təsvirlər romanda inandırıcılığı artırır, hadisələrin öz təbii halında cərəyanını gücləndirir. Maraqlıdır ki, müəllif milli mühitdəki sosial bərabərsizliklər, cəmiyyətdə baş verən çoxsaylı haqsız olaylar haqqında qənaətlərini qəhrəmanın düşüncəsinə sezilmədən daxil edə bilir: "Xudavənda, bu nə sirdir, bu nə ecazdır? Biz hamımız sənin bəndələrinik, hamımızı bir cövhərdən xəlq edibsən. Bəzilərə baxırsan fəqirlik oduna yanıb mənim kibi ürəyi yüz yerdən dağlı, möhtaclıqla ömür keçirirlər... Bəzilərə baxırsan, zəhmətsiz mal, xunabəsiz dövlət sel kimi axıb başlarından aşır". Lakin bu "daxil olma" prosesi qətiyyən maarifçi qəh-

rəmanı daha da mükəmməl göstərmək naminə baş vermir. “Bəs Diləfruzun həmayili necə olsun?” sualı qarşısında naçar qalan, çarə axtarışına çıxan, saysız-hesabsız fikir seli içində çabalayan qəhrəmanın fikrinə tam təbii yolla daxil olur. Çünki, naçarlıq qəhrəmanı yaşadığı həyata daha dərindən nüfuz etmək məcburiyyəti qarşısında qoyur.

Ancaq bütün hallarda oxucunu daha çox bir məsələ düşündürür: Yaranmış vəziyyətdən Şeyda bəy necə çıxacaq? “Diləfruzun həmayili məsələsi”ni müəllif necə həll edəcək? Müəllif təhkiyəsindən öyrənirik ki, Şeyda bəy xəyal aləmində “sərgərdan dolanarkən” məktəb zəngi kimi qulağında səslənən batini bir səs, insan “yol üstündə qəflətən qala divarına düçar olan kibi” necə ayılarsa, onu ayıldır, özünə qaytarır. Bu artıq tam psixoloji bir durumdur; İnsanın özünün özünə qayıdışıdır, özünü yenidən dərk etməsidir. Müəllif bu psixoloji durumda, qəhrəmanın özünəqayıdışındakı yaşantılarını təbii halında təsvir edir: “Şeyda bəy sillə dəymiş adam kimi sərasimə diksinib ayıldı. Aləmi xəyalatda seyr etdiyi vüquatı dübarə və həm də təkrar edərək, özgələrin sərvəti xüsusda təsəvvürə gətirdiyi biməni fikirləri həsəd zəngi ilə boyanmış görüb, qəlbində sadir olan süflə məhsusatdan nəhayətdə xəcil oldu”.

Şeyda bəyin düşdüyü ağır vəziyyətdə “özgələrin sərvəti xüsusda” düşünməsi, öz vəziyyəti ilə özgələrin vəziyyətini müqayisə etməsi psixoloji müstəvidə və insanın təbii istəkləri nöqteyi-nəzərindən tam inandırıcıdır. Lakin sosial təbiəti artıq formalaşmış olan, bütün həyatını mənəvi dünyaya bağlayan bir insanın öz düşüncələrinə görə, qəfil ayılıb xəcalət çəkməsi də tam təbii haldır. Şeyda bəyin özünəqayıdışı, maddi nemətlərlə bağlı istəklərini “küfr və məsiyyət hesab etməsi”ndə, nəticə etibarilə sosial varlığının formalaşmasında İslam inancına bağlılığı birbaşa rol oynayır. Şeyda bəyin qəti inamına görə, insan öz inam və imanında bütöv omlalıdır. Əlbəttə, Şeyda bəy insan təbiətinin mürəkkəbliyini bilir, insanın nəfsə meyilliyini də bilir. Bu mənada onun düşüncəsindəki hər hansı bir sapıntını, nəfsin quluna çevrilmək ehtimalını da bilir. Özünün varlığını da bu naqisliklərdən kənarda təsəvvür etmir. Lakin Şeyda bəy bütün bu cür hallarda tapındığı dinin qoyduğu yolları da bilir: “...İman lövhəsində təcrübə qələmi ilə səbt olunubdur ki, hər bir ürək nagüvarlığının müalicəsi məhz dua və istiğfar davasına münhəsirdir. Filhəqiqə, dillərdə zikr olunan Allah kəlməsi bir türfətüleyndə ürək məxrubəsin təmir edərkən pozğun dünya işlərimizi də abad ediyor”.

XIX əsrin sonunda yaranan maarifçi qəhrəmanların həyat prinsiplərinin müəyyənləşməsində İslam inancının əhəmiyyətli mövqedə dayandığı elmi ədəbiyyatda təsbit olunmuşdur: “XIX əsrin son rübünün maarifçiləri isə Ağılla yanaşı, həm də Allahı qəbul edir, köməyə çağırır, dini fanatizmə qarşı mübarizədə dinin özünün ən müqəddəs silahı ilə – Quranla da silahlanırlar. Fəxrəddin, Fərhad və Bahadur kimi ən səciyyəvi, realist maarifçi qəhrəmanlar belə, kəlməbaşı xudaya, islama müraciət edirlər” (Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı. Elm. 1980, s.129).

Maarifçi əsərlər üzərində diqqətli müşahidələrin ümumiləşdirilməsindən doğan bu tip qənaətlər təəssüf ki, tənqidi mövqedən söylənir. Qəhrəmanların

“kəlməbaşı xudaya, islama müraciəti” onların dünyagörüşünün məhdud və ziddiyyətli cəhəti kimi qələmə verilir. Ədəbiyyatşünaslıq müəlliflərin və onların ideya ruporu olan qəhrəmanların üzərinə götürdüyü maarifçilik missiyası ilə dinə tapınmanı, dini dəyərləri özünün həyat prinsiplərinə çevirməsini bir araya sığmayan hal hesab edir, dinin tərbiyəedici rolunu qəbul etmir.

## *Dinin tərbiyəedici roluna inanmaq olarmı?*

Şeyda bəyin reallıq haqqında düşüncələri üzləşdiyi ağır vəziyyətlə bağlı onu nəfsin təsiri altına salır. Şeyda bəyin Allaha üz tutaraq “neçin məni belə fəqir və belə bitəvanə yaradıbsan?” sualında dünya malının cazibəsinə düşdüyü aşkar görünür. Bu, artıq nəfsin əsarəti altına düşmək, mənəvi azadlığını itirməkdir. Lakin Şeyda bəy bu “mənəvi əsarət”dən çıxmağa özündə güc tapır. Bu gücün mənbəyi nədir?

Bu, Şeyda bəyin tapındığı, iman və inanc bağladığı İslam dinidir. Şeyda bəy məhz dinin ona təlqin etdiyi mənəvi dəyərlər hesabına nəfsin əsarətinə qalib gəlir. Bu din onda “dövləti-əsli”nin və “dövləti ariyə”nin nə olması haqqında qəti qənaət formalaşdırır. Şeyda bəy “sədayi-batini”nin təsiri altında ayılanda onu nəfsin əsarətindən qurtaran İslamda həqiqi və yalançı var-dövlətin nə olması haqqında beynindən keçən fikirlər olur. O, özünə qayıdıb “dua və istiğfar” yolunu tutur. “İman lövhəsində təcrübə qələmi ilə səbt olunanlar” barəsində Şeyda bəyin mülahizələri və mövqeyi ilə üz-üzə qalanda oxucu düşüncəsində dinin “insanları mənəvi əsarət altında saxlaması” fikri tamamilə qüvvədən düşür. Çünki dinə verilən bu “rol”la Şeyda bəyin düşdüyü ağır vəziyyətdən necə xilas olmasını təsəvvür etmək, eyni zamanda, onun bu məqama qədərki və bundan sonrakı hərəkətlərinin məntiqini başa düşmək mümkün deyildir. Düşünürük ki, Şeyda bəyin əməl və düşüncələrinə nüfuzun əsas açarı onun “iman lövhəsində təcrübə qələmi ilə səbt olunanlar”dır. Şeyda bəyin tərəddüdlərinə son qoyub, tam qətiyyətlə mənəvi dünyaya yenidən dönməsində onun iman və inancının həlledici olduğu şübhəsizdir.

Həmin iman və inanc Şeyda bəyin özünü müəllim kimi dərk etməsinin, başqa sözlə, özünə yenidən qayıdışının psixoloji əsasını müəyyənləşdirir. Şeyda bəy bir olan Allah tərəfindən müəyyənləşdirilmiş dünya nizamının məntiqini başa düşür və onu qəbul edir. “Əlzam-məlzum” əsasında müəyyənləşən dünya nizamında – “dünyanın gərdişi”ndə Şeyda bəy öz yerini görür. Bu nizamın müəyyənləşməsində əslində ona uca bir mərtəbədə yer verildiyini bir daha başa düşür. Əlzam dünya nizamını saxlayan vacib əməllərdir. Məlzum isə bu işlər üçün məsuliyyət daşıyan insanları nəzərdə tutur. Şeyda bəyin dünya nizamında özünə ayrılan yeri dərk etməsi bu nizamın müəyyənləşməsində elmin və təhsilin, təlim və tərbiyənin yerini dərk etməsi anlamına gəlir. Bu dərketmədə dünya nizamına maarifçilik düşüncəsindən baxış əsasdır. Lakin Şeyda bəyin maarifçilik düşüncəsində Allah Təalanın müəyyənləşdirdiyi yola iman və inancı da birmənalı yer tutur. Maarifçi qəhrəmanın aşağıdakı mülahizələri bütün bunların həm təsdiqi, həm də ifadəsi

kimi səslənir: “Dünyanın gərdişi əlzam-məlzum ilədir. Bağbansız aləm dolanmadıqda, müəllimsiz həm dolana bilməz. Xəllaqi-aləm dünyanı xəlq edəndə hikmət üzrə yapmış. Hala mən Şeydanı müəllimliyə qabil bilib, müəllimlik təklifi ilə mükəlləf və müəllimlik fəziləti ilə mümtaz edibdir”. Şeyda bəyin “nəkarə olduğun və nə işə qabil olmaqlığın”da, başqa sözlə, özünü müəllim kimi dərk etməsində Allah iradəsinin rol oynaması müəllif təhkiyəsində də xüsusi vurğulanır. Şeyda bəy, ən nəhayət, bütün tərəddüdlərinə son qoyaraq qəti bir qənaətə gəlir: “Müəllimin evi məktəbxanadır, müəllimin nökəri məktəb mülazimidir, müəllimin təvabe və ətbari çocuq-şagirdləridir, müəllimin muxəllafatı qara-qara məktəb mizləridir, müəllimin sazı, nəğməsi məktəb şagirdlərinin sədasıdır, müəllimin istirahəti dəftərlər təshihidir. Müəllimin mal və mətaı dərs və təlimdir, müəllimin kəsb və icrəti öz millətinin məhəbbət və iradətidir...”.

## *Dünya nizamında məktəb və müəllimin yeri*

Şeyda bəyin cəmiyyətin tərəqqisində məktəb və müəllimə həlledici rol verməsi ədəbiyyatşünaslıqda vurğulanan məsələdir. Ümumən götürəndə bu doğru bir ümumiləşdirmədir. Lakin “məktəbxana”nı ev yerində görmək, “müəllimin istirahəti”ni “dəftərlər təshihi”ndə axtarmaq, yenə də ümumən götürəndə çətin bir işdir, fədakarlıq tələb edir. Təbii ki, savad cəhətdən bu işə yarayan hər adam bu fədakarlığa hazır deyil. İnkar edilməz həqiqətdir ki, hər adam özünün “kəsb və icrəti”, başqa sözlə, gördüyü işin müqabilində ancaq “millətinin məhəbbət və iradəti”ni qazanmaq ilə razılaşmaz. Bunu ancaq vətəndaş amalına köklənmiş insanlar edə bilərlər. XIX əsrin sonu, XX əsrin əvvəllərində bu vətəndaş düşüncəsinin ən bariz əlaməti himmətçilik idi. Yalnız bu əqidəyə köklənmiş insan “millətinin məhəbbət və iradəti”ni öz kəsb və icrəti kimi qəbul edər. Şeyda bəy də himmətçilik düşüncəsinə köklənmiş insandır. Başqa cür, heç bir halda “Ax, xudavənda, tədris nə girənmayə məta, millət iradəti nə pürəyar bəhadır” düşüncəsi onun varlığına hakim kəsilə bilməz. Himmətçilik milli inkişafın rəhnidir. Buna görə də elmi düşüncədə bu hərəkət, bir qayda olaraq, milli düşüncə, milli özünüdərklə əlaqələndirilir. İlkin və zahiri planda onun dinlə əlaqəsi görünmür. Əslində isə himmətçiliyin kökü islami düşüncəyə, hökm və ehkamlara bağlanır. Məşhur bir hədisdə belə deyilir: “Elm öyrənin, hətta Çində olsa belə. Çünki, elm öyrənmək hər bir müsəlmana vacibdir”. İslamda “elm öyrənmək”in hər bir müsəlmana vacibliyi elm öyrədənə müstəsna dəyər verməklə müşayiət olunur. Məhəmməd peyğəmbər (S) cəmiyyətdə elm öyrədənin yeri haqqında buyurur: “Məndən sonra sizlərin ən mərhəmətlisi elm öyrədən və bu yolla elmi yayılan kimsədir”.

Bu hədislərdə cəmiyyəti, başqa sözlə, müsəlman ümmətini və eyni zamanda, mənsub olduğu milləti elm, təlim və tərbiyə yoluna çəkmək “elm öyrədən” – müəllim, yaxud alim üçün ən şərəfli vəzifə kimi müəyyənləşdirilir. İslamda alimin elmi abidin ibadətindən ona görə “70 mərtəbə üstün” tutulur ki, elmdə insanların bəsirət gözünü açmaq, onlara həyatı və hətta ibadətinin mənasını başa salmaq imkanı var. Deməli, islam elmə, təlim və tərbiyəyə

cəmiyyətin tərəqqisinin yolu kimi baxır. Buna görə də elmə və alimə, təlim-tərbiyəyə və müəllimə şərəfli yer ayırır. Məhəmməd Peyğəmbər (S) məhz bu məntiqlə buyururdu ki, "insanların peyğəmbərlik dərəcəsinə ən yaxın olanları alimlər və döyüşçülərdir".

Şeyda bəy ona görə "Xudavənda, təkrarən sənə şükür olsun ki, mən aciz bəndəyə süni-müəllimliyi tərbiyə verib, məktəbdarlıq peşəsini nəsib edibsən" deyir və bu tip dualar onun dilində ona görə təkrar-təkrar səslənir ki, o, Allah Təalanın elmə və alimə, təlim-tərbiyəyə və müəllimə verdiyi dəyəri yaxşı bilir. Eyni zamanda, Şeyda bəy "tila və nüğrə" (qızıl və gümüş) ilə "tədris və təlim" arasındakı fərqi də Allah Təalanın mövqeyi, Qurani-Kərim hökmləri əsasında dərk edir. Ona görə də Şeyda bəyin "cəmiyyətin nicatını üç şeydə – məktəbdə, müəllimdə və qabaqcıl ideyaların təbliğində" axtarmasına dair ədəbiyyatşünaslıq düşüncəsini (Məmmədov X. Göstərilən əsəri.s.121) bütün bunların hamısının ilkin əsasında İslam ehkamlarının dayanması şərti ilə qəbul etmək olar. Bu isə həm də onu göstərir ki, milli düşüncənin, milli özünüdərk prinsiplərinin formalaşmasında İslam dəyərləri əsaslı missiyada çıxış edir. S.M.Qənizadənin maarifçi qəhrəmanının ideallarında Allaha bağlılıq notları da bunun ifadəsidir.

## *Yenə də bu "həmayil məsələsi..."*

Maarifçi qəhrəmanın məhz bu notların işığında qarşılaşdığı problemi həll etmək üçün çıxış yolu tapması tamamilə qanunauyğundur. "Diləfruzun həmayili" məsələsinə "batini nəzər"lə baxdıqda Şeyda bəyin tapdığı həll yolu məntiqə tam uyğundur. Çünki ancaq dünya malı yoxluğunda özünü "çox dövlətli" hesab edən, bu cür "dövlətlilik"ə iman və inanc gətirən bir adam düşünə bilər və düşündüyünə inana bilər ki, "hər kəs öz mal və dövlətindən zəkat verər, əhli-maarif zümrəsinə hesab olunan müəllimin hədiyyəsi kitabdan səvay əlahiddə şey ola bilməz. Müəllimin ağ və qızılı bəyaz üstündə qələm qarasıdır...".

"Bəli, Diləfruzan həmayaili mərifət mirvaridindən düzülmüş yazı sətirləridir" qənaəti ilə Şeyda bəy qardaşı qızına "tərbiyə xüsusunda bir nəsihətnamə" kitabı yazıb hədiyyə verməyi vəziyyətdən çıxış yolu kimi qətiləşdirsə də, bu qəti qənaət ona ruhi rahatlıq versə də, o, Diləfruz üçün nəzərdə tutduğu hədiyyəni verdiyi sözün ideal cavabı hesab etmir. O, hədiyyəsini dərviş töhfəsi, yaxud "Süleyman peyğəmbər hüzurunda axsacıq qarıncanın bir qıçacıq hədiyyəsi" misalında dəyərləndirir.

S.M.Qənizadənin burada da süjeti cəmiyyət insanının psixoloji təbiətinə uyğun davam etdirdiyini görürük. Əslində "ağ və qızılı bəyaz üstündə qələm qarası"ndan hörülmüş mərifət çələngi Şeyda bəyin nəzərində miqyassız dəyərə malikdir. Onun öz hədiyyəsinin dəyərini dərviş töhfəsilə müqayisə etməsi məsələyə cəmiyyətin gözü ilə baxışı ifadə edir. Maddi və mənəvi dünyalara köklənmiş insanların dünyagörüşləri arasındakı fərqi, bu fərqin yaratdığı sosial bəlaları bədii təhlil müstəvisinə gətirmək məqsədi daşıyır. Eyni zamanda, yazıçının süjeti XIX əsrin sonlarının reallıqları əsasında hərəkətə gətirdiyini sübut edir.

Şeyda bəy “ruh və can nicatı” hesab etdiyi “nəsihətnamə”sini yeddi həftə gecə və gündüz işləməklə yazıb başa çatdırır. Yazıçı oxucu marağını bu hissələrdə də mühafizə edib saxlamağı bacarır. Şeyda bəyin böyük bir əziyyət hesabına başa gətirdiyi bu “nəsihətnamə”ni qardaşı qızı necə qarşılayacaq? Hadisələrin cərəyanı oxucunun bu sual ətrafında düşünməsini qaçılmaz edir. Bu düşüncə müstəvisində oxucu baş verəcək gələcək olayların intizarında qalır. Yenə də oxucu düşüncəsində Diləfruzun hədiyyəyə münasibətinin versiyalarının yaranması məsələsi meydana çıxır. Oxucu düşüncəsində formalaşmış “versiyalar”la müəllif versiyasını üz-üzə gətirmək istəyi oxucu fikrində romanın sonuna marağı qat-qat artırmış olur. Etiraf etmək lazımdır ki, oxucu nə qədər çevik fikir sahibi olursa olsun, romanın sonunu müəllif düşündüyünün eyni kimi təsəvvür edə bilməz. Çünki, hadisələrin inkişaf məntiqi Şeyda bəyin “nəsihətnamə”ni Diləfruza təqdim etməsini diktə edir. Lakin müəllif əsəri gözlənilməz sonluqla bitirir.

## *“Nəsihətnamə”nin taleyi gözlənilməz sonluqda*

Romanın son hadisələri birinci şəxsin dilindən təhkiyə edilir. Bu, Şeyda bəyin dostu S.M.Qəniyevdir. Romanın bundan sonrakı hissəsində dostunun Şeyda bəyin ölümü ilə bağlı keçirdiyi hallar təsvir predmeti olur və bütövlükdə müəllif təhkiyəsi ilə davam edir. Şeyda bəy bu hissələrin iştirakçısı deyil. “Nəsihətnamə” bitəndən sonra Şeyda bəyin başına gələnləri müəllif təhkiyəsindən öyrənirik. Şeyda bəyin məslək yoldaşlarından biri və yay tətilinin sonlarında Şamaxıdan Badkubəyə – iş yerinə qayıdarkən onun dəfn mərasimi ilə üzləşən müəllif baş verənləri təhkiyə edir. Dostunun ölümünün təfərrüatlarını təhkiyə edərkən bu nagahan ölüm hadisəsi ilə bağlı dəhşətli yaşantılarını qələmə alır.

Əsər Şeyda bəyin dostuna – S.M.Qəniyevə ünvanlandığı məktub və müəllifin bu məktubu oxucuya təqdimi ilə bitir.

Məktubda Şeyda bəy Diləfruzun adına yazdığı “Nəsihətnamə”ni dostunun çap etdirməsini təmənna edir. Şeyda bəyin xahişində vəziyyətin dəyişməsi ilə – ölüm məqamının yetişməsi ilə bağlı “Nəsihətnamə”nin Diləfruza təqdim edilməsinin həm mənasının qalmaması, həm də praktik olaraq mümkünsüzlüyü ilə əlaqədar olaraq “əbnayi-millətə bəzl” – millət övladlarına ithaf məqsədi önə keçir və bu məqsədlə də onu çap etdirməsi xahiş olunur.

Lakin Şeyda bəyin “məktubu” ancaq bu xahişdən ibarət deyil. “Məktub”unda Şeyda bəy çox dərin ictimai mətləblərə toxunur. Buradakı düşüncələrində Şeyda bəy artıq bir məktəb müəllimindən maarifçi-filosof, mütəfəkkir səviyyəsinə qədər yüksəlir. Şeyda bəyin “məktub”u “Müəllimlər iftixarı”nın sosial tutumunu qat-qat dərinləşdirir. Əsl həqiqətdə “məktub” milli tərəqqiyə nail olmaq üçün görülməli işlər, millət ziyalısının qarşısında duran vəzifələr haqqında Şeyda bəyin dostu ilə “qaibanə həmsöhbət” olması şəklində əyaniləşir.

Məktubun məzmunu həm də “Nəsihətnamə”ni – əsərin ikinci hissəsini – “Gəlinlər həmayili”ni başa düşməyə açar olur.

# *Əcəllə üz-üzə qalan qəhrəman!*

"Məktub" əcəllə üz-üzə qaldığını dərk edən, etmək istədiklərini edə bilməməyin çarəsizliyini yaşayan və buna çarə axtaran bir vətəndaş ziyalının düşüncələri kimi yaranır. Şeyda bəy bu "yaranma" prosesinin psixoloji tərəfini belə izah edir: "Amma təəccüb budur ki, hərçənd deyirlər ki, guya səhhətsiz cəsəddə salim ruh ola bilməz, lakin bu hədisə bərəks imdiki nasaz cisim zəifliyində öz təbiətimdə əlahiddə bir ruh qüvvəsi hiss edirəm ki, onun təsirindən laqqırtıya nəhayətdə mailvaram".

Şeyda bəyin "məktub"u romanın üzvi hissəsinə ona görə çevrilə bilir ki, müəllif insan təbiətinin ən mürəkkəb və ziddiyyətli məqamlarını bədii təhlil müstəvisinə çıxarmağa nail olur. "Diləfruzun hədiyyəsi" ilə bağlı çarəsizliyi, bu çarəsizlikdən doğan gecə-gündüz çalışma məqamları, aramsız çalışmaların qəhrəmanın ölümcül xəstələnməyinə səbəb olması və nəhayət, ölüm yatağında əcəllə çarpışan insanda ikinci ruhun – nəfəsin açılışı və "məktub"un yazılışı... Onun sağlığında üzərində düşündüyü, amma həllini heç cür tapa bilmədiyi problemlərin həlli yollarını ölüm məqamında "arxamızdakı şeyləri ayna içində görən kimi, indi bir-bir aydın-aşkar görməsi", heç şübhəsiz ki, sirli Allah hikmətləri sırasındadır. Buna görə də təbii qarşılanır. Düşünürük ki, onu narahat edən problemlər barədə Şeyda bəyin ölüm yatağında daha dərindən düşünmək imkanlarında insan təbiətinin bioloji və ruhi cəhətdən mürəkkəbliyini və eyni zamanda, potensiyasını işarələyən cəhətlər çoxdur.

S.M.Qənizadənin qəhrəmanı milli inkişafda təkamül yolunu seçir. O, dostu ilə bölüşdüyü düşüncələrində fikrini belə ifadə edir: "...Amma hər bir arzuya nail olmaq üçün tədric nizamın gözləmək lazımdır". Şeyda bəy məktəbin milli tərəqqi işində mühüm rol oynaya bilməsində müəllim amilini vacib şərt sayır. Onun qənaətinə görə, həqiqi müəllimin ən əsas keyfiyyəti üzərinə düşən vəzifəni düzgün dərk etməsidir. Şeyda bəy müəllimlik işində millətə, insanlığa sevgini və xidməti önə çəkir. Bu cür müəllimlərin yetişməsinin çətinliyini aydın dərk edir, onları yüksək qiymətləndirir: "Xoşa o şəxslərə ki, təqazayi-əsrə müvafiq öz təkliflərini qanıb, ümumi insaniyyətə və xüsusi öz millətlərinə xidmət edələr". Əslində, Şeyda bəy, hər şeydən qabaq, milli vətəndaşlıq şüuru məsələsini qoyur və məsələnin çətinliyini də burada axtarır. Şeyda bəyə görə, müəllim fədakarlığı olmadan "əbnayi-milləti cəhalət atəşi"ndən xilas etmək mümkün deyil. Şeyda bəy milli tərəqqi prosesində müəllimin roluna nə qədər böyük dəyər versə də, bu işin müvəffəqiyyətini bütövlükdə ziyalı kütləsinin hərəkətində axtarır.

Fikrimizcə, onun dostu ilə bölüşdüyü fikirlərində ədəbiyyatın roluna ayırdığı yer, artıq milli tərəqqi prosesində ikinci mərhələni ifadə edir. Məktəb və müəllim milli ictimai şüurun formalaşması üçün ilkin baza yaratmaq mənasında misilsiz iş görür. Məhz bu ilkin baza – təlim və tərbiyə millət övladının özünü və millətini, dünyanı və bəşəriyyəti bəsirət gözü ilə dərk

etməyin əsasını qoyur. Ədəbi-mədəni düşüncə isə bu ilkin baza əsasında milli ictimai şüuru formalaşdırır, millətin özünüdərkini ictimai prosesə çevirir. Bu mənada Şeyda bəy ədəbiyyatın həyatı idrak və onu inkişaf etdirmək gücünə inanır. "Yazıçı təmsilən bir təbibdir ki, öz millətinin və ya ümumi insanın din illətlərin təhqiq edib, müalicəsi üçün ədəbiyyat nüsxəsi yazsa gərəkdir".

Şeyda bəy ədəbiyyat işini vətəndaş-sənətkar, vətəndaş-yazıçı işi kimi təsəvvür edir. "...Müsənniflik iddəası edən şəxs üçün quvveyi dindən səvay qüvveyi-təb və surəti fəhm lazımdır". Şeyda bəyin düşüncəsinə görə, sənətkar həqiqi istedad sahibidirsə, həyatı idrak qabiliyyəti onu "hər bir şeyi öz rəng və surətində təsvirə gətirməyə" istiqamətləndirəcəkdir. Məsələnin bu şəkildə qoyuluşu Şeyda bəyin realist sənətə üstünlük verməsini, məhz bu sənətdə "əbnayi-millət"ə həqiqi xidmət, "din borcu"nu yerinə yetirmək imkanları görməsini işarələyir. Bu məqamda və ümumiyyətlə, Şeyda bəyin tərəqqi prosesini "din borcu" kimi təsəvvür etməsi məsələsinə aydınlıq gətirmək zərurəti ortaya çıxır. Bununla bərabər, "ümumi insaniyyətə və xüsusi öz millətlərinə xidmət" konsepsiyasının qaynaqlarını müəyyənləşdirmək lazım gəlir.

Şeyda bəy müəllim fədakarlığından danışarkən onun gecə və gündüz çalışması zərurətini vurğulayanda bunu "müəllim üçün din borcu" sayır. Eləcə də, yazıçı istedadı və həyatı idrak qabiliyyətinin sənətkarlıq üçün əsas şərtlər olduğunu desə də, bütün bunlardan qabaq onun dini inancının qüvvəsini önə çəkir. Bütün bu hallar millilik amilinin kölgədə qalması anlamınamı gəlir?

S.M.Qənizadənin və onun qəhrəmanı Şeyda bəyin ümmətəçilik, "ittihadı-islam" mövqeyindən çıxış etməsi şübhəsizdir. Müəllifin də, qəhrəmanın da bütün varlığında bu istiqamətdəki inkişafa təkan vermək niyyətlərini və əməllərini görürük.

S.M.Qənizadə eyni dinə mənsub olan millətlərin əqidə birliyinin zəruriliyini önə çəkir. Eyni zamanda, "biz müsəlmanlar islam nəhalına əza olunub" ifadəsində İslam xalqlarının milli mənsubiyyət fərqlərinə də işarə var. S.M.Qənizadənin tərəqqi konsepsiyası həm öz millətinin, həm də bütövlükdə insanlığın – bəşəriyyətin inkişafını nəzərdə tutur. Bu tərəqqi prosesinə gedən yol haqqında təsəvvürlərini ifadə edərkən o, bilavasitə İslam ehkamlarından çıxış edir. Müəllim və ümumən ziyalı fədakarlığının "din borcu" kimi meydana çıxması, "qüvveyi-dindən" güc alması haqqındakı mülahizələri onun dünyagörüşündə islam maarifçiliyi ilə Avropa maarifçiliyinin sintez halında meydana çıxmasını göstərir. Romanın ikinci hissəsi onun İslam fəlsəfəsinə söykənən dünyagörüşünün təfsilatlı bədii ifadəsindən ibarətdir. Bu barədə artıq gələn nömrədə!

***I hissənin sonu***

# ♦ Poeziya



***Məmməd TAHİR***

## PAYIZ VƏ ŞAİR

***"Payız və şair" şeirinin müəllifi,***
***qələm dostum şair Tofiq Nurəliyə***

Oturub söykənir ayaqlarına,
Vaxt uçur, boş qalan ovcuna baxır.
Bir Payız saralan yarpaqlarına,
bir şair ağaran saçına baxır.

Bozdu, bulanıqdı havanın rəngi,
Gözünə nə dəysə, payıza dair.
Buludun üstüylə yeriyir sanki,
Payızın içindən keçir bir şair.

Kepkanı endirir gözünün üstə,
Əlləri qısılıb böyrünə qalır.
Bir payız küləyi əsir ahəstə,
Bir şair Payızın seyrinə dalır.

Yağışa həvəsli Payız buludu,
Budaqda islanan quş yuvaları.
Gah təsəlli verir, könül ovudur,
Qurudur gözüylə yaş yuvaları.

Bu yer-göy bir şair dodaqlarıdı,
Öpüb sığallayır gecə-gündüzü.
Qələmi ağacın budaqlarıdı,
Kağızı Payızın saralan üzü.

Yerin xatirində, göyün yadında,
Qurd-quşu, çiçəyi, gülü və sair.
Buludun, yağışın, günün altında
Oturub dərdləşir Payız və şair.

## QARAÇUXURDA BİR HƏYƏT

Qaraçuxurda bir həyət evi,
Evin qabağında üzüm çardağı.
O üzüm kolunun hər kiçik şivi
Günəşlə oyanır hər səhər çağı.

Hörümçək tor qurur, arılar yuva,
Qarışqa sürüsü bir cərgə olur.
Günəşli günlərdə altı kölgəlik,
Yağışlı günlərdə könərgə olur.

Burda isti, soyuq xatirələr var,
Hər duyğulu an könül hədəfi.
Taleyindən küskün nimdaş samovar
Hərdən tüstülənir axşam tərəfi.

Qaraçuxurda kiçik bir ev var,
Kiçik bir bağçası, ənciri, narı.
Göylə güzgülənir yaşıl salxımlar,
Budaqlar əyilir günəşə sarı.

Çardağın altında mürgülü pişik,
Budaqdan-budağa atılan quşlar.
Görən bu ömürdə biz neyləmişik,
İş-güc, ev qayğısı, yollar, yoxuşlar.

Qəmi yola verir, dərdi atladır,
Daşı yarıb qalxır otdakı cürət.
Mənim taleyimdə qeydiyyatdadır
Bakı, Qaraçuxur, kiçik bir həyət.

## SƏNƏ GÖZƏL DEMİRƏM

Bu gün şəklinə baxdım,
Sən ki, gözəl qadınsan.
Hayıf, mənim deyilsən,
Hayıf, hayıf, yadınsan.
Saçlarına tumarı
Çəkib, özgəsi çəkib.
Bilirəm, indi yoxdur,
Bəlkə kölgəsi çəkib.
Sən də onun şəklinin
Tozunu silib hərdən.
Durub söhbət edirsən,
Dipdiri bilib hərdən.
Gəzirsən əl izini
Əli gəzən saçında.
Əlin ilişib qalır
Gecə bəzən saçında.
Göyə uzanan əlin
Göydən asılı qalır.
Yatır sinən üstündə,
Boynu qısılı qalır.
Şəkilçisi çox olur,
Hərdən hallanır adın.
Həm qadındı, həm kişi,
Ərsiz yaşayan qadın.
Daha şəklə baxmıram,
Bilirəm ki, yadınsan.
Sənə gözəl demirəm,
Sən özgə bir qadınsan.

## HEÇ BORCU OLMAYAN ADAM

Heç boclu olmağı sevməyən adam,
Nə qədər borcun var, xəbərin varmı?
Borclu olmadığın heç bircə anın,
Heç bircə axşamın, səhərin varmı?
Təbəssüm borcun var, gülüş borcun var,
Ehtiyac duyan var bir xoş baxışa.
Bir söhbət borcun var, görüş borcun var,

Qohuma, qardaşa, dosta, tanışa.
Bir zərrə Günəşə, bir çimdik Aya,
Bir ovuc borcun var elə torpağa.
Udduğun havaya, içdiyin suya,
Borcun var çiçəyə, gülə, yarpağa.
Canlının canlıya sevgi borcu var,
Sevgi də çiçəyə, gülə qidadı.
Ən böyük sevgidə olan borc hissi,
Cümlənin sonunda gələn nidadı.
Deyirsən kimsəyə borcun yox, madam,
Üzünə açılan səhərin olsun.
Dünyaya heç borcu olmayan adam,
Eh, çoxlu borcun var, xəbərin olsun.

## QAPINA GƏLƏNİ...

Gözlə, ümidlərin qurusun bir az,
Niyə aldığını yaş qaytarırsan?
Allah verdiyindən heçmi qalmayıb,
Qapına gələni boş qaytarırsan.

Pay düşər ya ona, ya buna, gəlməz,
Uzunu bir balta sapına gəlməz,
Gözlüsü heç sənin qapına gəlməz,
Gözsüz qaytarırsan, çaş qaytarırsan.

Ya günçıxana bax, ya günbatana,
Gözün gördüyündən bəlkə utana,
Sənə dağ hellədib, qaya atana
Sapandın ucunda daş qaytarırsan.

Arzular, ümidlər yüklü dəvədi,
Şübhəsi bir qurddu, şəkki güvədi,
Sənə at üstündə verilən vədi
Bir az da gülərüz, xoş qaytarırsan.

Arxı köndələndi, su verməz dəhnə,
Söz də tükənibdi, boş qalıb səhnə,
Çəliyin qırılıb, əsan da köhnə,
Daha yalın əllə quş qaytarırsan,
Qapına gələni boş qaytarırsan.

## BİR YAY GÜNÜ

İsti bir yay günü, sən qum altında,
Üstündən axırdı günün işığı.
Bu yerin üstündə, bu göy qatında
Bir Xaliq görürdü bu yaraşığı.
Göy üzü tərtəmiz, hava dupduru,
Duru su kimiydin sən də gün altda.
Durub bir-birinə baxırdı elə,
Xaliq göy üzündə, bəndə gün altda.
Çiçək baxçasına dönmüşdü sinən,
Əllərin arabir çiçək yığırdı.
Sinəndə əkdiyin o güldən düşən
Əlinin içinə ancaq sığırdı.
Hərdən yığılırdın yay kirişi tək,
Qolların kamana dönürdü onda.
Göy yaxın olurdu yerə bir köynək,
Gün də göy üzündə dönürdü onda.
Yəqin unutmusan, qalmaz yadında,
Bir gün soruşarsan özün-özündən.
İsti bir yay günü, sən gün altında,
Xaliq də baxırdı mənim gözümdən.
Hər yan atəş idi, hər yan od idi,
Ağ tüstü çıxırdı qara gözümdən.
Ayıldım, adicə bir həyat idi,
Sən evə getmişdin, mən də özümdən.



## *Hikmət MƏLİKZADƏ*

***

Xatirələr əzab verir hər düşündükcə,
Qismətimə düşən ömür adımda deyil.
Əllərimi qabar tutub dua etməkdən,
Nə vaxt xoş gün yaşamışam, yadımda deyil...

...Qonşu evdə bir qız vardı – şeytan ürəkli,
«Tərəkəmə» havasına əl qaldırardı.
Mən öz kasıb görkəmimlə yerə girdikcə,
O da mənim sağlığıma ləl qaldırardı.

Köhnə, kərpic daxmamıza gülərdi elə,
O güldükcə atam-anam ağı deyərdi.
Ondan məni soruşana adımı deyil,
Elə bircə kəlmə ilə «yağı» deyərdi.

Yuxumdakı qızcığaz da gözünü ovur,
Nə deyirəm, başı ilə «hə» deyir o qız.
Bir az məndən aralıda bir kölgə durub,
Bu xəcalət qoymur, görüm nə deyir o qız.

Bir dam sökmək bir adamı öldürməkdi, eh...
Mən o daşı sənə atdım, qoşuna deyil.
Bu dünyaya gəlişimin səbəbi var, qız,
Heç sənin də doğulmağın boşuna deyil.

Söz üstündə adam vursan, söz anlayanlar
– Tabut onun cəsədindən ağırdı, – deməz.
...Mən taleyin işi ilə barışdım, ana,
Bundan sonra kimsə mənə «fağırdı» deməz.

***

Yenə küyə düşüb ağaclar bir-bir,
Qapımın ağzında xəzan səsi var.
Köhnə minarədən bir kölgə baxır,
Bir az aralıda əzan səsi var.

...Toruna düşəndən ağzımda dad yox,
Bəlkə gözlərimi qəmindən çəkim?!
Yaman islatmısan bu quru canı,
Bir az yaxın otur, nəmindən çəkim.

Özün də bilirsən, dəlinəm, ay qız,
Barı, bilə-bilə zülüm eləmə.
Necə getmisənsə, elə qayıtma,
O da günah olar, gülüm, eləmə.

Qoy hələ yanından salamsız ötüm,
Sən kimsən, nəçisən, Xuda da bilmir.
Gör, neçə ildi ki, bu qoca adam
Ömür ağacını budaya bilmir.

Adəm daşa tutar, üz vurma, gecdir,
Götür o günahı, ver, şeytanındır.
Sən nə axtarırsan, adam balası,
İndi göy Allahın, yer şeytanındır...

***

Eh, şeytan bundan sonra
Çətin imana gələ...
Neçə Yusif udacaq
dərin quyular hələ.

Səma başımın üstdə
Ya bir buluddu, ya dam...

Neçə dağ-dərə aşar
Adamı varsa, adam.

Çoxdan girov götürüb
duman, daş qayaları...
Dəli bir əsnək tutub
Kövrək, yaş qayaları.

Ürək qəm dəryasıdı,
pərisi, qəvvası var.
Görən Cəhənnəmin də
Adəmi, Həvvası var?

***

İçim günahla dolu, –
Dünya sevmədi, neynim.
Ruhum sağalan kimi,
Açılır başım-eynim.

Kif atmış buluddumu,
Çabalayır son arzum.
...Gecdi, boz təpələrin
ətəyinə qon, arzum.

O necə gediş idi?
Dönmə, gün keçir, şadam.
Hələ uşaq kimidi
Qoca bildiyim adam.

Çox dedin fağıram, çox,
Özün də adam ol da.
De ki, İsadan keçir
Allaha gedən yol da...

Özünü tanıyanın
dilində qınaq olmaz.
Mən adam balasıyam,
Bu qədər sınaq olmaz.

*Vaqif YUSİFLİ*



# "Nizami ruhuna heykəldi GƏNCƏ"

Gəncədə ədəbi mühitin yaranması Nizaminin adı ilə bağlıdır və sonrakı əsrlərdə də Nizami bütün Gəncə şairləri üçün əbədi bir örnək olub.

Gəncədə ədəbi mühitin klassik dövrünün ikinci mərhələsi XIX əsrlə – Mirzə Şəfi Vazeh və onun rəhbərlik etdiyi «Divani-hikmət» ədəbi məclisi ilə bağlıdır. Məclisin iştirakçıları əsasən aşağıdakılardan ibarət idi: Mirzə Şəfi Vazeh, Mirzə Mehdi Naci, Şeyx İbrahim Qüdsi, Ağa İsmayıl Zəbih, Mirzə Yusif Vidadi, Fazil xan Şeyda, Hacı Yusif Qane və Tiflisdə A.A.Bakıxanov, İ.İ.Qriqoryev, L.Budaqov, Q.Rozen, F.Bodenştedt... Mirzə Şəfi 1852-ci ildə vəfat etdi, Gəncədə isə məclis Mirzə Mehdi Nacinin vəfatına kimi (1882) fəaliyyətdə oldu.

Ədəbi məclislərin qayda-qanunları bundan ibarət idi: məclisə həmin bölgənin şairləri toplaşır, orada yeni şeirlərini oxuyur, bu şeirlər haqqında fikir söylənilirdi. Burada deyişmə janrı da mühüm yer tuturdu. Daha sonra Füzuliyə, ya hansı klassik şairəsə yazılan nəzirələr səslənirdi. Sonda isə əgər məclisə cavan bir şair, ya şeir həvəskarı gəlibsə, onun qabiliyyəti yoxlanır, şeirləri dinlənirdi. Bütün ədəbi məclislərdə olduğu kimi, «Divani-hikmət»də də klassik poeziya qanunları (şeir formaları – qəzəl, rübai, müxəmməs və s. – obrazlı ifadə tərzi) hökm sürürdü. Yeri gəldikcə, xalq şeiri formalarına da müraciət olunurdu. Bütün bunlarla yanaşı, bədii dildə də xəlqilik elementləri diqqəti cəlb edirdi. Mirzə Şəfi Vazehin «Süsəni» rədifli müxəmməsi buna bariz nümunə ola bilər:

***Ey nəzakət çəməni uzrə xuraman, Süsəni,***
***Xubluq kişvərinin təxtinə sultan, Süsəni.***
***Sədəqin yayı qaşı sədqəsi qurban, Süsəni,***
***Bir baxışla yaraşır kim, ala yüz can Süsəni,***
***Belə getsə, tez olur dillərə dastan, Süsəni.***
***Gün ki, hər gen ki, çıxar, dərgahinə səcdə edər,***
***Sərv rəftarə gəlir, qılsa qədin bağa guzər,***
***Qönçə gər ağzın ilə qarşı dura, boynun əyər,***

***Küfrü-zülfün yetişib bir yerə kim, ey kafər,***
***Desələr Vazehə, böhtandı, musəlman, Süsəni.***

Mirzə Şəfi Vazehin taleyi sizə yaxşı məlumdur: onun şeirlərinin Almaniyada 142 dəfə nəşr olunması, sonralar Tiflisdə şagirdi olmuş F.Bodenştedtin bu şeirləri öz adına çıxarması...

«Divani-hikmət»də toplanan şairlərin hər biri mükəmməl mədrəsə təhsili almışdı və şeirlərində də onların klassik poeziyaya bələdliyi aydın hiss edilir.

**XX ƏSRİN BİRİNCİ YARISI. GƏNCƏ ƏDƏBİ MÜHİTİ VƏ ONUN YETİRMƏLƏRİ.** Gəldi Şura dövrü. Keçən əsrin otuzuncu illəri. Ədəbiyyatda «Sosialist realizmi» dövrü. Gəncə də «qırmızı» geyindi. Amma bütün bu «yeni həyat», bolşevik ideologiyası Gəncədə yeni istedadların – yeni ədəbi qüvvələrin yaranmasına mane ola bilmədi. Azərbaycan ədəbiyyatının bir sıra görkəmli nümayəndələrinin ilk yaradıcılıq məkanı Gəncə oldu. Səməd Vurğun, Mir Cəlal Paşayev bir müddət Gəncədə yaşadılar, burada ədəbi mühitin formalaşmasında müəyyən rol oynadılar. Əhməd Cəmil, Zeynal Xəlil, Ələkbər Ziyatay, Cahanbaxş Cavadzadə, Həmid Araslı, Nurəddin Babayev, Nəriman Həsənzadə isə Gəncə ədəbi mühitinin yetirmələri olub sonralar respublika ədəbi mühitində parlamışlar.

Burada həzin taleli bir şairi – Nigar Rəfibəylini unutmaqmı olar? Gəncədə məşhur bir cərrah kimi tanınan atası Xudadat bəy Rəfibəyli – Cümhuriyyət dövründə Gəncənin şəhər valisi idi – ermənilər onu Nargin adasında öldürdülər, yeddi yaşında atasını itirmiş qızcığaz taleyin ümidində qaldı, amma həyata, insanlara ümidi sönmədi. İlk şeirlərini də Gəncədə yazdı Nigar xanım, sonra Bakıya köçdu, atasına görə onu da mənəvi təzyiqlərlə rastlaşdırdılar, amma Nigar xanım bütün bu təzyiqlərə öz iradəsiylə qalib gəldi, poeziyamızın Nigarına çevrildi.

Azərbaycan Yazıçılar İttifaqının regionlarda ilk bölməsi – filialı da məhz Gəncədə yaradıldı. Burada o dövrün görkəmli ictimai xadimi, tənqidçi Məmmədkazım Ələkbərlinin fəallığı və təşkilatçılığı mühüm rol oynadı. Gəncədə yaşayıb-yaradan cavan yazarlar bu filialda birləşdilər, «Qızıl Gəncə» ədəbi jurnalı da nəşrə başladı. Filiala ilk məsul katib Əli Razi Şamçızadə seçildi, amma onu 1938-ci ildə repressiya tufanı başlananda həbs edib güllələdilər. Ötən illər ərzində Yazıçılar İttifaqının Gəncə filialına Oruc Qoşqarlı, Ələkbər Ziyatay, Əli Xeybər, Altay Məmmədov, Fəridə Əliyarbəyli, Rüfət Quliyev, Müzəffər Piriyev, Altay Məmmədov, Məmməd Alim rəhbərlik etmişlər.

İndi isə filialın rəhbəri şairə **Xəzangül Huseynovadır.** Əslən Gürcüstanın Mareuli rayonunun Qırıxlı kəndindəndir. Orta məktəbi qızıl medalla bitirib. Gəncədə, Pedaqoji institutun kimya-biologiya fakültəsində təhsil alıb, bir il öz kəndlərində müəllim işləyəndən sonra Gəncəyə köçub, uzun müddət 43 saylı şəhər orta məktəbində müəllimlik edib, sonra bu məktəbdə direktor işləyib. Xəzangül xanımın yaradıcılığında – onun şeirlərinin həzin, kövrək notlarında Nigar Rəfibəylinin təsirini hiss edirəm. Xəzangül Huseynova Gəncə ədəbi mühitinin yetirməsidir, ilk şeiri də «Kirovabad kommunisti» qəzetində dərc edilib. Deyir ki, mən Qərib Mehdinin «İlham» ədəbi dərnəyində

yetişmişəm. Xəzangül öz dəst-xətti, fərdi yazı tərzi ilə bizim müasir ədəbiyyatımızın qadın yazarları içində seçilir. Professor, mərhum ədəbiyyatşünas Bağır Bağırov neçə il öncə onun həyat və yaradıcılığından «Xəzangül» adlı monoqrafiya nəşr etdirib.

**QƏRİB MEHDİ...** Mən Qərib Mehdini yaxşı tanıyıram. O mənada ki, onun bütün əsərlərini oxumuşam, bir neçə məqalə yazmışam yaradıcılığı barədə. Amma Qəribin «Qərib hey» hekayəsini və bir də «Rast» povestini XX əsr Azərbaycan nəsrinin uğurlu nümunələrindən sayıram. «Bəzən bir könül sındırmaq istəyirəm, bəzən birisinə yuxarıdan baxmaq istəyirəm, bəzən birisinin vəzifəsində gözüm olur, ona quyu qazmaq istəyirəm, anamın səsi gəlir: «Qərib hey!». Bəzən paxıllıq hissi qəlbimi didir, dostlarımın, yoldaşlarımın yuksəlişinə, şöhrətinə darılıram, bəzən haqqı nahaqqın pəncəsinə vermək istəyirəm, anamın səsi gəlir: «Qərib hey!». Mir Cəlal müəllim Qəribin bu hekayəsini oxumuş, onu «kövrək hisslərin poetikası» adlandırmışdı və o zaman «Gənclik» nəşriyyatının direktoru Əzizə Əhmədovadan xahiş etmişdi ki, 10 çap vərəqi həcmində olan kitabından 2 çap vərəqini gələcəyinə ümid bəslədiyi Qərib Mehdiyevə versin.

Gəncə Mərkəzi kitabxanasına şəhərin və ətraf rayonların yazarları toplaşmışdı. Kitabda olan hekayələr haqqında şair-ədəbiyyatşünas, filologiya elmləri namizədi Sahib İbrahimli məruzə elədi. Hekayələr Papaq obrazı ətrafında cərəyan edirdi, sahib iradlarını da bildirdi. 86 yaşlı Qərib Mehdi, zarafat olmasın, sanki şahlıq taxtında oturub hekayələri barədə söylənilən fikirləri dinləyirdi. Bu arada mən urəyimi Qərib müəllimin urəyinə köklədim («Könüldən könülə yollar görünur»), ona sual verdim ki, ay Qərib müəllim, yaşlı nasirlərimizdən bir Vidadi Babanlının yaşı 96-nı haqlayıb, elə bu yaşında da yazır, yaradır. Siz də səksəni keçmisiniz və yazmaqdan, çap olunmaqdan yorulmursunuz. Bu yaşda yazıçıya sual verməzlər ki, xoşbəxtsinizmi? Qərib müəllimin urəyi dilə gəldi: «Ay Vaqif, mənim həyatda çox çətinliklərim olub, sən yəqin mənim ömur yolumu açıqlayan «Gördüyünü çağıran aşıqın nağılı» kitabını vərəqləmisən. Həyatım həmişə özüm uğrunda vuruşda keçib, qalib gəldiyim də olub, məyus olduğum da. Amma elə ki oturmuşam yazı stolunun arxasına, özümü bu dünyanın ən xoşbəxti hesab eləmişəm. Bir də ona görə xoşbəxtəm ki, Gəncədə, İnstitut qəzeti nəzdində «İlham» ədəbi dərnəyi yaratmışam və qürur hissilə deyirəm ki, mənim yetirmələrimin hamısı ədəbiyyatda öz yerini tutub, necə deyim, Vətənə qələmli əsgərlər vermişəm». Budur onlar: Aydın Murovdağlı, Qəşəm Nəcəfzadə, Elçin İsgəndərzadə, Hüseyn Əsgəroğlu, Səadət Akifqızı, Lətif Zərgər, Firəngiz İdrisqızı, Sərvaz Hüseynoğlu, Musa Urud, Xəzangül, Mahir Rəfizadə, Fərruxə Pərişan, Xosrov Natil, Firəngiz İdrisqızı və bir də... Nizami Aydın.

**ŞƏHİD ŞAİR NİZAMİ AYDIN** (1961-1992). Gəncə Pedaqoji İnstitutunda təhsilini bitirdikdən sonra Qubanın Ruk, Zıxır dağ kəndlərində müəllim işləmişdi. Ədəbi yaradıcılığa da elə o illərdə başlamış, şeirləri ilə «Azərbaycan», «Ulduz», «Azərbaycan gəncləri», «Gəncənin səsi» qəzet və jurnallarında çıxış etmişdi. Azərbaycan Milli Ordusu yaradılanda könüllu

olaraq əsgərliyə getmiş, Ağdamın bir sıra kəndlərinin müdafiəsi uğrunda döyüşlərdə tank komandiri kimi iştirak etmişdi. 1992-ci ilin iyunun 15-də Sırxavənd vuruşmasında sucaət göstərərək, mühasirəyə düşmüş piyada bölməsini xilas etmək üçün idarə etdiyi tankı birbaşa düşmən səngərinə sürüb mühasirəni yarmış, əsgərləri xilas etmişdir, özu isə yanan tankın içində qalmışdır. O, Birinci Qarabağ müharibəsində şəhid olan ilk şairimizdir. Gəncədə Nizami Aydın muzeyi təşkil olunub.

Nizami Aydının ilk və son kitabı ölümündən sonra Musa Urudun tərtibi və Vaqif Bəhmənlinin redaktorluğu ilə Yeni Nəşriyyat Evi tərəfindən çap olundu. Nizami Aydının şeirlərində bir neçə əsas obrazla qarşılaşırsan: Şair, Azadlıq, Sevgi, Ölum... Hiss olunur ki, ispan şairi Q.Lorkanın N.Aydına sözun yaxşı mənasında təsiri olub (Onun Lorkadan tərcümələri də kitaba daxil edilib). Amma təsir öz yerində, Nizami Aydının şeirləri başdan-ayağa müasir poetik təfəkkürün – bənzərsiz metaforalarla zəngin bir şeiriyyətin məhsulu idi. Təfsilata varmıram, Nizaminin «Səni sevmək» şeirinə uz tuturam:

***Səni sevmək***
***sevinməkdi Ay işığına.***
***İslanmaqdı sümüyəcən***
***yaz yağışına.***
***Səni sevmək***
***dərddən-qəmdən ölmək deyil,***
***qaranquştək sığınmaqdı***
***insanlara.***
***Gözəl uşağı olmaqdı***
***dünyanın.***
***Və...***
***uşaqtək inanmaqdı***
***nağıllara.***

**UŞAQ ƏDƏBİYYATI.** Yetmiş səkkiz il bundan əvvəl böyük şairimiz Səməd Vurğun «Balalarımız üçün gözəl əsərlər yaradaq» adında bir məqalə yazmışdı və nəinki yaşadığı dövrün uşaq ədəbiyyatını, həm də ümumən bu gün üçün də əhəmiyyətini itirməyən fikirlər söyləmişdi. Səməd Vurğun yazırdı ki: «Uşaq üçün yazılmış hər bir əsərin əsasında məna gözəlliyi yaşamalıdır. Mənası dayaz, qayə və məqsədi aydın olmayan, ötərgi hisslər və təsirlər tərənnüm edən əsərlər uşağın hafizəsində ani bir qığılcım kimi parlayıb sönur... Məna gözəlliyinin əsas ruhu insana və təbiətə qarşı məhəbbətdir. Uşaq özü canlı olduğundan insan və təbiət aşiqidir...Uşaq xəyalı səyyardır. O, şıltaq bir ulduz kimi daima süzüb oynar. O, güldən-gülə, çiçəkdən-çiçəyə qonan bir kəpənəyə bənzər. Daim hərəkət uşaq təbiətinin hüsnüdür. Xəyal və romantika bu təbiətin qanadlarıdır... Uşaq ədəbiyyatı balalarımıza vətənpərvərlik hissləri aşıladığı zaman onların təbiətinə uyğun olmayan mücərrəd və ümumi təsvirlərdən uzaq olmalıdır».

Azərbaycan uşaq ədəbiyyatının bugünkü mənzərəsi haqqında söhbət açmaq, bu sahədə müəyyən uğurlar və aşkar nəzərə çarpan qüsurlar

haqqında söz açmaq niyyətim yoxdur. Bu, başqa bir söhbətin mövzusudur. Ancaq onu deyə bilərəm ki, bəzilərinin «bizdə uşaq ədəbiyyatı yoxdur» fikrinə qətiyyən haqq qazandırmıram. Səməd Vurğunun yetmiş səkkiz il öncə söylədiyi fikirləri unutmuram və Gəncədə yaşayan, uşaqlara şeirlər, poemalar həsr edən Aləmzar Əlizadənin yaradıcılığına qısaca da olsa, nəzər yetirirəm. Aləmzar xanım uşaqlara – ən çox da hələ məktəb yaşına çatmamışlara – nə öyrədir, nəyi təbliğ edir? Hiss olunur ki, o, azyaşlılara təbiətin sirlərini, heyvanlarla, quşlarla, ilin fəsilləriylə, qarla, yağışla, buludla, müxtəlif bitki növləriylə bağlı onların bilmədiklərini, yaxud bilmək istədikləri məlumatlar, informasiyalar verir, onları düşündürən sualları izah etməyə çalışır. Onun təsvir etdiyi uşaqlar da hazırcavabdırlar. Məsələn:

***Yağış yağır***
***Hava təmiz,***
***Göy açıq.***
***Nənəm dedi:***
***– Yağışdan tut,***
***Göyə çıx!***
***İnandı bu***
***Sözə Lalə.***
***Nənəmə tez***
***Dedi belə:***
***– Heç yağışdan***
***Tutub göyə***
***Çıxmaq olar?***
***Yağış kəsər,***
***Adam yarı***
***Yolda qalar...***

Aləmzar Əlizadə uşaqların psixologiyasına yaxşı bələddir. Hər uşağı da öz dilində danışdırır. Şeirlərində də hecanın ən kiçik ölçülərindən (dördlük, beşlik, yeddilik) istifadə edir. Bir uşaq şairi kimi o, yaxşı anlayır ki, balacalara hər hansı bir əşya haqqında məlumat verəndə uzun-uzadı təfsilata varmaq olmaz, bir neçə misrada həmin əşyanın, ya təbiət hadisəsinin mahiyyətini şeir dililə izah etmək daha münasibdir.

Şeirlərin çoxu uşaq dililə söylənilir. Uşaq üçün nəyi isə mənalandırmaq heç də təəccüblü görünmür. Çünki müasir dövrdə yaşayan uşaq səviyyəcə ötən əsrdə yaşayan uşaqdan xeyli irəlidir. Məsələn, müasir uşağın qurbağa haqqında belə bir təsəvvürə malik olması niyə inandırıcı olmasın?

***Hey hoppanıb gəzirsən,***
***Elə «qur-qur»dur***
***Sözun.***
***Axı, nədən qorxdun ki,***
***Kəllənə çıxdı gözun?***

Aləmzar Əlizadənin uşaqlar üçün yazdığı xeyli poemaları da var. Bunların demək olar ki, hamısı nağılvari tərzdə qələmə alınıb. Müəllif bu poemalarda

müəyyən bir əhvalatı süjet axarına yönəldir, çalışır ki, uşağa söylənilən bu əhvalat nağıl kimi şirin olsun, yüyrək olsun, uşaq maraqla bu əhvalatı dinləsin. Həm də uşaq bu əhvalatdan tərbiyəvi nəticə əldə eləsin.

Aləmzar Əlizadə məhsuldar işləyir (onun hekayələri, lirik şeirləri də var), çağdaş uşaq poeziyasının öncüllərindən biridir desək, yanılmarıq. Amma onun «Fələk və mən» kitabında «qayə və məqsədi aydın olmayan» şeirlərə də rast gəlirik. Sadəcə, uşaqlarla bağlı müəyyən bir informasiyanı çatdırmaq niyyəti daşıyır o şeirlər. Sadəcə, informasiya.

**NÜŞABƏ ƏSƏD MƏMMƏDLİ** İyulun 1-də Gəncə Dövlət Filarmoniyasında Əməkdar jurnalist Nüşabə Əsəd Məmmədlinin oxucularla görüşu keçirilirdi, mən də tamaşaçılar arasındaydım. Çıxış etmək, söz demək niyyətim də yox idi. Bu görüşdə bütün Gəncə ziyalıları və Bakıdan gələn qonaqlar toplaşmışdı. Təbii ki, hamı – bütün çıxışçılar Nüşabə xanımı tərifləyir, onun ziyalı bir qadın olduğunu nəzərə çarpdırırdılar. Onun əsərlərindən də söz açırdılar.

...Nüşabə xanımı çoxdan tanıyıram. Qardaşı Mürşüd Məmmədli ilə dost idim. Mürşüd müəllimin ictimai-siyasi fəaliyyəti, möhkəm cəbhəçi olduğu, Əbülfəz Elçibəylə sadiq tərəfdaşlığı məlum. Amma Mürşüd Məmmədli istedadlı bir ədəbiyyatşünas idi, Azərbaycan poeziyasının 60-80-ci illər mənzərəsini əks etdirən bir monoqrafiyanın və müasir ədəbiyyatla bağlı onlarla məqalə onun qələmindən çıxmışdı. Doktorluq dissertasiyası da hazır idi, amma vaxtsız vəfatı imkan vermədi buna. Nüşabə xanımı da o mənimlə tanış etmişdi. Onun ilk «Yarpaq tökumu» hekayəsindən tutmuş «Cavad xan» romanına və neçə-neçə poestinə qədər nə yazıbsa, çoxusunu oxumuşam. Açığını deyim: Cəncədə Altay Məmmədov və Qərib Mehdi ilə yanaşı, Nüşabə xanımın nəsri də özünəməxsusluğu ilə seçilir. O, hekayə və povestlərində lirik-psixoloji üslubuyla diqqəti cəlb edir... Təkcə təsvir etdiyi insan obrazlarının zahiri, üzdə görünən hərəkətləri ilə deyil, bu obrazların içəri dünyasına «səyahəti» – qəlbin, duyğuların – hisslərin tufan və burulğanları ilə diqqəti cəlb edir onun nəsri. Onu hekayə və povestlərində daha çox düşündürən mənəvi-əxlaqi problemlərdir. Sanki belə bir suala cavab axtarır: nədir səadət, nədir məhəbbət, insanı maddiyyatmı düşündürür, yoxsa mənəviyyat. Bu suallara o, aydın və sadə dillə yazılmış «Dairə», «Bir an», «İlbım», «Sonuncu mahnı», «Vida nəğməsi» povestlərində cavab tapır. Nüşabə xanımın «Cavad xan» romanı isə Azərbaycan tarixində şərəfli bir yer tutan, köləliyə, işğalçılığa boyun əyməyən Cavad xanın həyat və mübarizəsindən söz açır.Cavad xana həsr olunan ilk nəsr əsəridir bu roman. «Cavad xan» Azərbaycan tarixi romanları sırasında özünəməxsus yer tutur.

...Səksəninci illərin sonlarında Bakıda Respublika jurnalistlərinin qurultayı keçirilirdi. Nüşabə xanım da Rəyasət Heyətində əyləşənlərin sırasındaydı. O, Gəncə adı üzərində dayandı, bu adın yenidən Gəncəyə qaytarılması fikrini irəli Təbii ki, ozamankı çıxışına görə Nüşabə xanıma qarşı təzyiqlər də oldu. Hətta Gəncənin bir sıra ziyalıları adından «Biz Kirovabadlıyıq» rəsmi məktubu da mətbuatda yer tapdı.

Amma bir neçə ildən sonra dövran dəyişdi, bütün Bakını seyr edən Kirovun heykəli uçuruldu, Gəncə adı da Gəncəyə qay  tarıldı.

Heç şübhəsiz, burada Nüşabə Əsəd Məmmədlinin də ilk həyəcan təbilinin böyük rolu oldu.

**ŞAİRLƏR, ŞEİRLƏR...** Gəncədə istedadlı şairlər az deyil və onların bir çoxu təkcə Gəncədə deyil, bütün Azərbaycanda tanınır və sevilirlər. Nizami adı bu diyarın simvoludursa, deməli, Gəncədə yaşayan şairlər də Nizami Günəşinin şəfəqlərindən şeirlərinə qatmalıdırlar. İnqilab İsaq demişkən:

***Gəncə dedim, sözüm güldü,***
***Bu ad Günəşdən irəli.***
***Düzən yeri, gencə yeri,***
***Sehirləyib tanrı əli.***

Aydın Murovdağlı isə deyəcək ki:

***Nizami ruhuna heykəldi Gəncə,***
***Sular da adını yazdı qoynuna.***
***Çəkin bu şəhəri qızıl suyuna.***

Gəncəli şairlərin Gəncəyə, Göygölə, Qoşqara, Murova, bu diyarın təbiət gözəlliklərinə çoxlu şeirlər həsr etdiyi məlum... Amma necə? Məsələn, Göygölə həsr olunan şeirlərdə Əhməd Cavadın məşhur şeiriylə səsləşən nümunələr varmı? Bəlkə də bu müqayisə yerinə düşmür, amma Göygöl müasir bir şairin şeirində onun özünün təzə bədii təsvir vasitələri ilə yaratdığı Göygöl olacaq. Məmməd Alimin «Göygöl»u kimi:

***Qızıl balıqqulağıdır başmağı,***
***Göy Tanrı din-imanıdır Göygölün.***
***Kəlağayı yaşınmağı, yaşmağı,***
***Yaz çəni, yay dumanıdır Göygölün.***

***Dağ döşündə dəstə-dəstə gözəllər,***
***Boyu uca, boyu bəstə gözəllər,***
***Suya enən bu ahəstə gözəllər***
***Cüyürüdür, ceyranıdır Göygölün.***

Gəncədən bir az kənarda – Daşkəsəndə yaşayan Bahadur Fərmanın (ruhu şad olsun!) , Saleh Qurbanovun və Goranboyda yazıb-yaradan Ələsgər Əlioğlunun (o, həm də gözəl uşaq şairidir) kəndlə, təbiətlə bağlı şeirləri haqqında da xoş sözlər deyə bilərəm. Amma kəndə, təbiətə bağlılıq o demək deyil ki, sən gözəl şeirlər yaza bilərsən, təbii ki, burada şairliyin birinci əlaməti – istedad böyük rol oynayır. Torpağı, təbiəti duymaq da azdır, bu duyumları poeziya dililə gərək ifadə edəsən.

***Torpağın sinəsi yuyunur şehlə,***
***Üfüqlər köksünü açar zirvəyə.***
***Qızıl təbəssümlə, qızıl fərəhlə,***
***Günəş muştuluğa uçar zirvəyə.***

*(Ələsgər Əlioğlu).*

***Bu yazın gözündə gəldi bənövşə,***
***Ömür təzələndi, yaş çiçəklədi.***
***Çəkildi göylərə şaxtanın ömrü,***
***Qarlı quzeylərdə qış çiçəklədi.***

***Yel açdı dağların duman yolunu,***
***Şəlalə qayadan asdı qolunu,***
***Sərdi yamaclara bahar şalını,***
***Cığır ətirləndi, daş çiçəklədi.***

*(Saleh Qurbanov)*

Müasir Azərbaycan poeziyasında hansı poetik ənənələr yaşayırsa, hansı yeniliklər, yeni təmayüllər diqqəti cəlb edirsə, Gəncədə yaşayan şairlərin də yaradıcılığında bu öz əksini tapır.Yəni bu mənada «region» anlamına ehtiyac qalmır. Vaxtilə Arazla, o tay-bu tay Azərbaycanla bağlı həsrət şeirləri yazılırdı. O şeirlərin birini də Aydın Murovdağlı yazmışdı:

***Suyunu ovcuma içirəmmirəm,***
***Boyunu gözümə köçürəmmirəm,***
***Üstündən o taya keçirəmmirəm,***
***Göz yaşım suyunda batır Arazın.***

Yazın gəlişi həmişə sevinclə qarşılanmır. Vaxtilə Qarabağda da bənövşələr çiçəkləyirdi, amma bu bənövşələri yadlar iyləyirdi, ona görə də o bənövşələrin köksləri dağlı idi. Bahadur Fərman bu qüssəni bir şeirində belə ifadə etmişdi:

***Bu həsrətlər, qüssələr,***
***Yaran üstə duz ələr.***
***Boynun nə vaxt düzələr,***
***Qarabağlı bənövşə?***

Neçə əsr bundan əvvəl gürcü hökmdarı IV David tərəfindən oğurlanan Gəncə qapısı haqqında həsrətli şeirlər yazıldı (İlk dəfə S.Rüstəmxanlı tərəfindən). Aydın Murovdağlının «Gəncə qapısı» şeiri də o həsrətlə, o qüssəylə yazılıb və tarixdə baş vermiş bir faciənin əks-sədası kimi səslənir:

***Açılmır arzumun qönçə qapısı,***
***Gündüzə örtülür gecə qapısı.***
***Min ildir ağlayır Gəncə qapısı,***
***Göz yaşı göylərə çıxmaq istəyir,***
***Allahın əlini sıxmaq istəyir.***

Digər mövzularda da izləşmələrimi davam etdirə bilərəm. Amma sevgi şeirlərini unutmaq olmaz. Füzulidən gələn «o dadı, o duzu» Gəncədə yaşayan şairlərin sevgi şeirlərində də hiss edirəm. Doğrudur, sevgi şeirləri çox yazılır və gizlətmək lazım deyil ki, əksər sevgi şeirləri yaşanılan, duyulan hisslərdən deyil, kitablardan, o kitablardakı şablonlardan, min dəfə deyilmiş, təkrar-təkrar bir şeirdən o birisinə adlamış ifadələrdən, «təşbehlərdən» gəlir. Axı, nə qədər deyərlər "ayrılıq – dar ağacıdır"? Nə qədər sənsizlikdən-mənsizlikdən şikayətlər, fəryadlar eşidiləcək? Onda bəs nədir məhəbbət? Sahib İbrahimlinin bir şeirinə diqqət yetirək:

***Sınağında sınanları çox olub,***
***Tərəziyə qoyulanda yox olub,***
***Kirpik-kirpik nizə olub, ox olub,***
***Sənə dəyib, mənə dəyib məhəbbət.***

***Tələsirik əzabında itməyə,***
***Çiçək olub qara daşda bitməyə.***
***Yar yolunda yüz yol qurban getməyə***
***İlahidən can diləyib məhəbbət.***

***Ölümlərə gülər edam günündə,***
***İmdad ummaz harayında, ünündə.***
***Bir taleyin, bir qismətin önündə***
***Bənövşətək boyun əyib məhəbbət.***

Sevgi şeirində – sevənlə sevilən arasında ayrılıq, anlaşılmazlıq, bir-birini lazımınca qiymətləndirməmək və s. belə hallar həmişə olub və olacaq da... Amma bütün bu ayrılıqları, anlaşılmazlıqları, bir-birinə yetə bilməməkləri obrazlı şəkildə, orijinal təşbihlər və deyimlərlə ifadə edəndə yeni sevgi şeirləri yaranır. İnqilab İsaqın belə sevgi şeirləri az deyil:

***Ürəyim – baxış yeridi,***
***Dərd yeri, qarğış yeridi.***
***Əkin yeri, xış yeridi,***
***Nə istəsən, ək sinəmdə.***

Burda yalvarış yoxdu, sadəcə, istək var, arzu var, sədaqət hissinin sınanması var. Amma gəlin indi ayrılıqdan doğan bir «ittihamı» İradə Aytelin dilindən eşidək:

***Hardasan?***
***Hənir umub soyuq daşdan***
***Divarlara dostum deyim?***
***Göz yummayıb səhərəcən,***
***Dərdlərimə, həsrətimə***
***Layla deyim,***
***Nağıl deyim,***
***Dastan deyim?***

Bəs sevgi şeirlərində təkcə ayrılıq küləklərimi əsəcək? Bəs vüsalla bitən sevgilərdən niyə danışılmır, ya az danışılır. Onda Xəzangülün bu misralarına diqqət yetirək:

***Bax!***
***Sən mənə baxanda***
***Təmizliyinlə yenicə***
***dünyaya gəlmiş uşaqsan.***
***Səndən başqa***
***Hər şey yalan***
***Məhəbbətim!***
***Elə isə Yaşasın Məhəbbət!***

**UNUDULMAZLAR**

Gəncədə ədəbi mühitlə bağlı bu qeydlərimi başa çatdıranda vaxtilə yaxşı tanıdığım, az-çox münasibətdə olduğum üç insanı xatırladım. Üç sənət adamını – onları Gəncədə hamı tanıyırdı. Təkcə Gəncədə yox, bütün Azərbaycanda. Şair Fəridə Əlyarbəyli, nasir-dramaturq Altay Məmmədov və ədəbiyyatşünas-professor Sabir Əliyev. Onların xatirəsini anmamaq olarmı?

Fəridə xanım Əlyarbəyli şair idi, bir neçə pyesi də Gəncə Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdu («Xan qızı», «Günahkar qız», «Qonşular», «Özgə yeri»). Şeiri və poemalarının əksəriyyəti Gəncə ilə, onun tarixi və müasir həyatıyla bağlı idi. O, kiçik fəsilələrlə düz 36 il (1953-1989) Azərbaycan Yazıçılar İttifaqının yerli şöbəsinə rəhbərlik etmişdi. Gəncə ədəbi mühitinin tarixi yazılsa, heç şübhəsiz, Fəridə xanımın fəaliyyəti –Gəncənin ədəbi-mədəni həyatında rolu öz əksini tapacaq.

Altay Məmmədov. Bu görkəmli sənətkarın adı çəkilmədən Gəncə ədəbi mühitini təsəvvür etmək mümkün deyil. Amma onun yazıçı və dramaturq kimi şöhrəti Gəncəyə sığmırdı. Əgər biz altmış-doxsanıncı illərin nəsrindən söz açırıqsa, Altay Məmmədovun «Məhəbbətin səsi», «Üvertüra», «Narınc» hekayələrindən, «Əlvida, gözəl dünya» romanından necə söz açmaya bilərik? Əgər biz Azərbaycan dramaturgiyasının və teatrımızın son əlli-altmış illərdəki ən uğurlu nümunələrini xatırlasaq, onun "Həmyerlilər", «Kişilər», «Yadındamı», «Dəli Domrul», «Ulduzlar görüşəndə» pyeslərini necə unuda bilərik? Və bir tədqiqatçı kimi də «Azərbaycan hekayəsi» monoqrafiyasını... Altay müəllim sözun əsl mənasında, yaşadığı illərdə Gəncə ədəbi mühitinin lideri idi.

Və professor Sabir Əliyev. Azərbaycan Füzulişunaslığının mötəbər tədqiqatçılarından biri, bütün həyatı Füzuli yolunda, Füzuli uğrunda şam kimi yanan elmin Məcnunu... Etiraf edim ki, mənim Füzuli heyranım kimi «tövqi-zənciri-cünuna» dönməyimdə Sabir müəllim az əziyyət çəkmədi. Mənə Füzulidən izah etdiyi bir beytlə yazıya nöqtə qoyuram:

***Füzuli, dəhrdən kam almaq olmaz olmadan giryan,***
***Sədəf su almayınca əbri-niysandan gühər verməz...***

*Oktay ŞAMİL*



# GƏRƏK AYRI CİB TİKDİRƏSƏN

Bu bazar zəhrimara yaxın düşmək olmur vallah, təndirdi elə bil, istisi adam qarsır! Özü də hamısı belədi ha, ya "Təzə bazar" olsun, ya "Passaj", fərqi yoxdu! Qiymətlər bir, məzənnə eyni, alışıb yanır... Fikirləşirəm, bəs bu bazar zəhrimardan heç kəsin xəbəri yoxdu?! Ya bəlkə onlar bazara-zada getmir? Bazarı görən də odu eyy, düzəllənib gəlir Yazıçılar İttifaqına!.. Yazıçılar İttifaqı guya əlac edəcək. Hara gedirsən, a bədbəxt millət, Yazıçılar İttifaqı bazar nizamlayandı? Sən bilmirsən bazar hökmnəndi, göstərişnəndi, məzənnəynəndi?!.. Bunlardan hansı biri yazıçıda var?! Yazıçının qələmdən savayı nəyə gücü çatır?!.. Heç eləsi var qələmə də gücü çatmır!.. Olsa-olsa, bir barmaq kağızı qaralayıb verəcək nəşriyyata. Şükürlər olsun, kağıza, sözə məhəl qoyan da yoxdu. Məhəl qoyan olsaydı, hamı ciblərini sözlə doldurardı ki!? Dükanların da canı qurtarardı bu maklaturalardan, şair və yazıçıların pul alıb əvəzində siçanlara yem etdiyi şeir kitablarından, poemalarından, pyeslərindən, qalın-qalın romanlarından... Onda da bədbəxt siçanlar inciyəcək də... Bəs bu xaraba dünyada neyləyəsən qarışqa da səndən inciməyə?!

Xoşbəxtlikdən sözü seçə bilən adamların özü də indi söz barədə fikirləşmir. Hamı pul barədə fikirləşir, sözün qədir-qiyməti barədə yox!

Sözü bazara çevirənlər də var, doğrudu. Hətta sözlə alver edənlər də! Amma xahiş edirəm mövzudan kənar söz danışmayaq, söhbətimiz yayınar... Hə, onu deyirəm ey, özü də ya Şəki bazarı olsun, ya Ağdam, Göyçay, Bakı, heç fərqi yoxdu... Deyəsən, zalım uşağının hamısı bir qəlibdən çıxıb, bir bezin qırağıdı. Hamısının da sifətində bazar sırtıqlığı! Di gəl dil yetir, qiyməti onca qəpik yendir görüm, necə yendirirsən?! Amma "barışnıya" görəndə qızıl dişlər o məsələ... dodaqların arasından çıxıb elə dayanır, özün də məəttəl qalırsan. Əvvəlki inad hardadı, haçandı əriyib...

Hə, onu deyirəm eyy, vallah, hökumətin tikdiyi bu cibi evdən gərək çıxarmayasan... Çıxarsan, xəcil olarsan!.. Ya gərək zəhmət çəkib ayrı cib tikdirəsən! Odu eyy, prokuror cibi kimi!.. Məhkəmə cibi kimi!.. Heç olmazsa institut müəllimlərinin cibi kimi!.. İldə iki tələbə, min eşşəyi, sür Hələbə! Bəsindi!

Doğrusu, qəzet-zad oxuyan döyüləm bir elə. Özü də uşaqlıqdan zəhləm gedir ha... Düzünə qalsa, qəzetlərin də zayı çıxıb. Yazdıqları hamısı hapdı-gopdu-gopalogiyadı. Bir dənə "hava məlumatı"nı düz yazırdılar, şükür Allaha, o da indi düz çıxmır!.. Ölkənin havasını adamlar bilməyəndə aparatlar hardan biləcək?!.. Sözüm onda döyül, qəzeti alıb baxıram, görüm bu Lenin, Dövlət mükafatı alan adamlar kimlərdir?! Onların arasında bir nəfər azərbaycanlısı varmı?! Qəzeti alıram və almağıma da peşiman oluram! Heyif səndən 3 qəpik! Azərbaycanlı gəlib çıxır erməni!.. Gəlib çıxır gürcü! Gəlib çıxır rus, ukraynalı,

belarus! Nə bilim moltanı!.. Amma azərbaycanlı çıxmır ki, çıxmır! Sonradan fikirləşirəm, adə, a key molla, tələbənin birini 70 minə instituta götü-rəndə ordan azərbaycanlı çıxar?!..

Bir tanışım var institut müəllimlərindən, axır vaxtlar dostlaşmışıq da! Yetimcə oğlan idi. Sakit, başıaşağı, fağır!.. Danışdırmasan, deməzsən də ağzında dili var. Demə namxuda, yaxşı dili də varmış, ağzı da! Gözdən uzaq, milyon versən, hopp eləyib udar. Heç gördüm də deməz... Axırda gəlib nə olsa yaxşıdı? – Dilənçi!.. (E, bağışlayın, "dilçi!") Uşaqlara cibdən (e, şoğəribə qalasan!) "dildən" dərs keçir... Amma danışanda tər gilələnir alnında. Bir də gördün tər yuyub aparır fağırı xəcalətdən. Nəyin xəcalətidi, bilmirəm...

Bir dəfə utana-utana mənə danışdı ki, partaların arasıyla gəzinəndə ciblərə xəlvəti göz qoyuram. Baxma ey, tələbə cibidi, onlar da fərqlənir!.. Bu necə xasiyyətdi, özüm də bilmirəm, cibdən xoşum gəlir!..

Dostum danışa-danışa gördüm mənim ciblərimi də süzür... "Ciblərin xoşuma gəlmir" – dedi. "Get özünə təzə cib tikdir. Özü də iki cib; biri evin, ailənin, o birisi çölün!.. Arvad xəbər tutmasın!.. Cibin çoxluğuynan döyül eyy, a bədbaxt, köynəkdə də cib olar? Allah ağıl versin!

Düzü, mən özüm də bu fikirdəyəm, çox adama cib heç gərək deyil... Fabrik işçilərinin ağlı hardadı görəsən?!.. Onları başa salmaq lazımdı, hər pencəyə, şalvara cib yapışdırıb israfçılıq etməzlər!.. Doğrudan da, cib fəhlənin nəyinə gərəkdi?!.. 90-100 manatdan yana o qədər parçanı niyə zay etsinlər?.. Lazım gəlsə, yüz manatı ovcun içində də saxlamaq olar, düz demirəm?.. Ya orta məktəb müəllimi, nəyə görə cib saxlamalıdı?!.. O cür adamlar ciblərinin ağzını tikdirə də bilər!.. Hətta bir az da qəşəng görünər!

Mən o vaxt dostumun sözünə məhəl qoymadım doğrusu. Dedim yəqin başı dəftər-kitaba çox qarışıb, çox oxuyub, ağlı bir az o məsələ...

Biz onunla bir də iki ildən sonra görüşdük. Dostumu görəndə, inanın, tanımadım. "Amma, mən səni tanıdım" – dedi. O dəqiqə tanıdım! Pencəyin həmin pencəkdi, ciblərin də həmin ciblər!

Xeyli söhbətdən sonra vəziyyətini soruşdum. Bic-bic qımışıb işarəylə baxışlarımı ciblərinə yönəltdi. Ciblər həqiqətən gözəl tikilmişdi. Üstündə də naxışları-filanı... Heç bir nöqsan tuta bilməzdin. "Erməni dərziyə tikdirmişəm" – dedi. "Bütün böyük adamların cibini erməni dərziləri tikir! Amma bu cür ikinci cibə şəhərdə rast gəlməzsən. İndi kooperativ ev tikdirirəm; özü də dəniz qırağında, düz Hökumət Evinin yanında. Özü özümə dayaq olar inşallah, evi də evimə!"

Söhbətimiz uzun çəkdi eyy, danışmaqla qurtarası deyil. Cib tikdirəndən sonra "zvaniya" – "elmi dərəcə" də almışam, – dedi. – Bircə "əməkdar" adını da alsam, elə billəm heç dərdim yoxdu!"

Dostum sonralar televiziya ekranlarında tez-tez görünməyə başladı. Gah dildən danışırdı, gah obadan-eldən. "Eli və dili göz bəbəyi kimi qorumaq lazımdı! – deyirdi. – Çünki xalqı yaşadan onun eli və dilidi!". Mənə elə gəlirdi dostum danışa-danışa ekrandan mənim ciblərimə baxır, özü də məzəmmətləyir: "Səni görüm o ciblərnən öləsən" – deyir.

... Bu bazar zəhrimara yaxın düşmək olmur vallah, təndirdi elə bil, istisi adam qarsır! Ya "Təzə bazar" olsun, ya "Passaj", fərqi yoxdu. Ya Ağdam, Şəki bazarı, ya Göyçay, Bakı! Deyəsən lap Moskva bazarı da belədi! Baxıb görürəm hökumətin tikdiyi bu cibnən o bazara girmək mümkün deyil. Gərək ayrı cib tikdirəsən!







**ANAR**
**SÖZ DÜNYASI. IV CİLD**
**BAKI, "ŞƏRQ-QƏRB" NƏŞRİYYATI, 2022**

Beşcildliyə müəllifin müxtəlif illərdə yazdığı icmal məqalələr, portret-oçerklər, esselər, xatirələr daxildir.

"Söz dünyası"nın I, II, III, IV cildləri qədimlərdən bu günə qədər ədəbiyyat tariximizə, klassiklərə və çağdaşlara həsr olunmuş yazıları əhatə edir.

Cildlərdə ədəbiyyatımızın və incəsənətimizin zənginliyindən, ayrı-ayrı görkəmli şəxsiyyətlərindən bəhs olunur.

Azərbaycan dilində çıxan bu beşcildlik ədəbiyyatımızın və incəsənətimizin hamisi, qayğıkeşi Ulu öndər Heydər Əliyevə ithaf olunur.




**POEZİYA, POEZİYA – İNQİLAB İSAQ İMZASI**
**BAKI, "ZƏRDABİ NƏŞR" MMC, 2021**

Kitabda müxtəlif tanınmış şairlərin, yazıçı və tənqidçilərin şair İnqilab İsaq haqqında yazdığı ədəbi qeydlər, məqalələr, müsahibələr toplanıb. Şairin bədii yaradıcılığına ayrı-ayrı müəllif yanaşmalarıyla nəzər salınıb, təhlil olunub, oxucular üçün təqdim edilib.




**RAHİL MƏMMƏD**
**MÜQƏDDƏS SAVAŞ**
**BAKI, "İMZA" NƏŞRİYYATI, 2022**

Kitabda şair Rahil Məmmədin şəhidlərimiz, qazi və Vətən müharibəsi veteranlarımız haqqında bədii–publisistik üslubda qələmə aldığı yazıları və vətənpərvərlik mövzusunda şeirləri yer alıb.

Kitabın redaktoru Firuz Mustafadır.




**ESMİRA FUAD**
**44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ**
**GÜNEY AZƏRBAYCAN ƏDƏBİYYATINDA**
**BAKI, "ELM VƏ TƏHSİL" NƏŞRİYYATI, 2022**

Esmira Fuadın "44 günlük Vətən Müharibəsi Güney Azərbaycan ədəbiyyatında" kitabında iyirmi yeddi Güney Azərbaycan şairi haqqında qısa bioqrafik məlumatlar və Vətən Müharibəsinə ithaf olunmuş şeirləri toplanıb.

Antologiyada Kərim Güləndam, Həmid Əhmədzadə Telmixan, Cabir Lütfi, Nadir Paşa, Kövrək Hüseyn, Səhər Xiyavi, Hayde Bulukı Özləm, Fəridə Süleymani Aytəkin, Çiçək Ağbulud və digərlərinin poeziya örnəkləri ilə yanaşı, Rəsul Qədirinin "Xarı bülbül" və Əli Daşqının "Əsir torpaq – Qarabağ" poemaları da yer alıb.




**ZİYA DİLSUZ**
**AYRILIQ VƏ NÖQTƏ**
**BAKI, "APOSTROF-A", 2022**

"Ayrılıq və nöqtə" kitabı gənc şair Ziya Dilsuzun "Sənasızlıq" və "Sevməyin düsturu" kitablarından sonra oxucularla üçüncü görüşüdür.

Kitabda şairin saf sevgi duyğuları, könül dünyası, həyata baxışı özünəməxsus obrazlı ifadələrlə poetikləşib.

***REDAKSİYA HEYƏTİ:***
**Ağasəfa, Elçin, Vilayət Quliyev, Afaq Məsud, Vahid Əziz, Firuzə Məmmədli, Məmməd Oruc, Əli Əmirli, Paşa Əlioğlu, Vaqif Yusifli, Vaqif Bəhmənli, Seyran Səxavət, Rüstəm Kamal, Fəxri Uğurlu, Yaşar, Asim Yadigar, Saday Budaqlı, Kamil Əfsəroğlu, Emin Piri, Elşad Barat**